**Elxan Elatlı**

# XƏYANƏT

## roman

Bu kitab Azərbaycan milli detektivinin əsas yaradıcılarından hesab olunan Elxan Elatlının geniş oxucu kütləsi qazanmasında əhəmiyyətli rol oynamışdır. Romanda yüksək vəzifə sahibi olan birinin başına gələn ağlasığmaz faciədən bəhs olunur. İnsan xislətinin ayrılmaz ünsürü olan xəyanətkarlıq ön plana çəkilir və bu təəssüfedici hal Qaplan adlı sədaqətli itlə müqayisədə daha qabarıq çatdırılır..

Bakı, Qanun Nəşriyyatı, 2015,

Korrektor: Ceyran Abbasova Qanun Nəşriyyatı

Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76 Tejı.: (+994 12) 431-16-62; 431-38-18 Mobil: (+994 55)212 42 37 e-mail: info@qanun.az www.qanun.az

www.fb.com/Qanunpublishing www.instagram.com/Qanunpublishing ISBN 978-9952-36-062-2 Qanun Nəşriyyatı, 2015 ©

© E.Elatlı, 2015

***ekitabı hazırladı: hasanoff***



downloaded from KitabYurdu.az

# I Fəsil

## İntihar

Doktor Əlisəttar Muradzadə xəstəni yola salıb saatına baxdı. Altıya 10 dəqiqə işləyirdi.

- Gözləyən çoxdur? - deyə tibb bacısından soruşdu.
- Xeyr, iki nəfər qalıb, - arıq, qarayanız qız cavab verdi.
- Buraxın gəlsinlər, vaxtım azdır.

Saat yeddidə Dram Teatrında Hüseyn Cavidin "İblis" tamaşası oynanılacaqdı. Doktor qərara gəlmişdi ki, bu gün arvadı ilə qızını özü ilə götürüb teatra getsin.

Muradzadənin iki övladı var idi. Oğlu Arif Rusiyada həkimlik oxuyurdu. Dördüncü kursda. Qızı Venera isə Bakıda, universitetlərin birində ikinci kursu bitirirdi.

Doktor səhərdən axşama kimi xəstəxanada olurdu. Onu bəzən başqa tibb müəssisələrinə də xəstələrə baxmağa dəvət edirdilər. Günün necə başlayıb, necə qurtardığından xəbəri olmurdu.

Həyat yoldaşı Nelya xanım da tanınmış həkim idi. Ancaq o, poliklinikada göz həkimi işləyirdi. O da əri kimi öz işinin vurğunu idi və bütün həyatını bu peşəyə sərf etmişdi.

Doktor son günlər düşünürdü ki, həkimlik işi günün hamısını əlindən alır, doğma qızı ilə məşğul olmağa isə vaxtı qalmır. O öz qızını bütün atalar kimi, bəlkə də bir az artıq sevirdi. Ancaq onun oxu¬mağından,



downloaded from KitabYurdu.az

universitetdə özünü necə aparmağından, ümumiyyətlə, arzularından, istəklərindən, problemlərindən xəbəri olmurdu. Düzdür, vaxtlı-vaxtında pul verirdi, amma bununla işi bitmiş hesab etmək olmazdı axı?! Əslində, dörd nəfərdən ibarət bu ailənin hər bir üzvü müstəqil olaraq, öz həyatını yaşayırdı ki, doktorun fikrincə, bu o qədər də yaxşı hal deyildi. Öz işinə nə qədər bağlı olsa da, bu, övladı arxa plana keçirməyə haqq vermirdi.

Elə buna görə də, Muradzadə bu gün hökmən üçlükdə teatra getməyi qərarlaşdırmışdı. Düzdür, hələ bilet götürməmişdi, ancaq bilirdi ki, buna indi o qədər də ehtiyac yoxdur. Teatra gələnlər az olurdu və bir qədər tez getsən, bilet alıb yaxşı sıraların birində yer tutmaq mümkün idi.

Kabinetə daxil olan xəstələri yanına çağırdı. On-on iki yaşlı oğlan uşağı ilə gəlmiş qadını diqqətlə dinləyib, uşağa ötəri nəzər saldı və heç bir söz deməyib resept yazdı.

- Uşaqda elə bir şey yoxdur, bu dərmanları içsin, keçib gedəcək!

İkinci xəstə ordları batmış, arıq bir kişi idi. Ona qulaq asandan sonra səhər tezdən, acqarına gəlməyi tapşırdı. Qanı analiz edilməli idi.

Xəstə kabinetdən çıxan kimi stolun üstündəki telefon zəng çaldı. Muradzadə bir də saatına baxıb dəstəyi götürdü. Zəng vuran doktor Ələsgər Atayev idi. Tibb universitetini eyni vaxtda bitirmişdilər. Atayev bacarıqlı seksopotoloq kimi tanınırdı. Tibb sahəsində doktor Muradzadə qədər şöhrət qazanmasa da, öz işinin ustası idi. Çoxdandı ki, ailəvi dostluq edirdilər. Bəzi xasiyyətləri uyğun gəlməsə də, əlaqələri möhkəm idi. Məsələ burasında idi ki, Atayev bir qədər kobud, özündən razı adam idi. Həyat nemətlərindən Muradzadə ilə müqayisədə, daha çox istifadə etməyə və zövq almağa çalışırdı. Özünə yaxşı ev-eşik düzəltmiş, bahalı, xarici maşın almışdı.

- Necəsən, ay Əlisəttar? Nelya xanım, Venera qızımız necədilər? Arif gəlmir ki, hələ? - Ələsgər həkim ucadan hal-əhval tutdu.



downloaded from KitabYurdu.az

- Sağ ol, Ələsgər, hamısı yaxşıdır. Arif bir həftəyə gəlməlidir. Bir imtahanı qalıb. Aydan balam necədir? Dediklərimə əməl edir?

- Hə, dərmanları içir... mən indi işdəyəm, ancaq tez-tez əlaqə saxlayıram. - Atayev bir an ara verib, yenə danışdı. - Elə bil irəliləyiş var, ay Əlisəttar. Ya mənə elə gəlir? Axşam fikir verdim, rəngi bir az özünə gəlib...

- Əlbəttə, özünə gələcək! - Muradzadə məmnun olduğunu gizlətmədi. - Mən demişəm, onu sağaldacam. Qoy dediklərimə düzgün əməl eləsin. Sabah işə gələndə yenə baş çəkəcəm ona!

- Gözləyim səni?

- Yox, sən işində ol, özüm gəlib baxaram. Sənlik işim yoxdur.

- Yaxşı, anası evdədir də, işə getmir onsuz da. Öz evindi, öz balan. Gör neyləyirsən?!

-Arxayın ol, Ələsgər, özün demişkən, Aydan öz balamdı mənim. Nəyin bahasına olursa olsun, sağaldacam onu!

- Sağ ol, doktor!

- Sağ ol...

Ələsgər Atayevin yeganə övladı olan Aydan Tibb Universitetində birinci kurs tələbəsi idi. Qəşəng, həm də ağıllı, tərbiyəli bir qız olan Aydanı bir ay olardı ki, çox nadir təsadüf edilən, qəribə bir xəstəlik üzürdü. Bu mərəz onu içəridən yeyir, heç bir ağrı-filan da vermirdi. Hərdənbir - üç gündə, dörd gündə bir dəfə halı pisləşir, huşunu itirirdi. Yazıq qız beləcə, göz görə-görə əriyib gedirdi.

Xoşbəxtlikdən bu xəstəlik və onun müalicəsi barədə doktor Muradzadənin məlumatı vardı. O, müalicəni öz boynuna götürdü və söz verdi ki, qızı sağaldacaq. Onsuz da Bakıda heç bir həkim Aydanın



downloaded from KitabYurdu.az

dərdinə əlac edə bilməyəcəkdi. Düzgün müalicə olmasa, iki-üç aydan sonra xəstəlik ölümlə nəticələnməli idi.

Müalicə uğurla gedirdi və axıra qədər belə davam etdirilsə, qız sağalıb ayağa durmalı idi. Muradzadə onu xəstəxanaya qoymağı məsləhət görməmişdi. Müalicə evdə, anasının nəzarəti altında gedirdi. Muradzadə isə gündə bir dəfə Aydana baş çəkir və bu zaman lazım olan dərmanları da özü ilə gətirirdi...

Doktor fikirdən ayrılaraq, dəstəyi götürdü və həyat yoldaşına zəng vurdu.

- Çıxırsan?

- Hə, gəl, işimi qurtarmışam. - Nelya xanım bildirdi. - Düşüb aşağıda gözləyirəm.

- Gəlirəm!

Muradzadə xalatını soyunub asılqandan asdı. Tibb bacısını da evə buraxıb həyətə çıxdı. Xəstəxananın qarşısında saxladığı gümüşü rəngli "Qaz-31"-ə oturub onu Nelya xanımın işlədiyi, o qədər də uzaqda olmayan poliklinikaya sürdü. Çatan kimi arvadını götürüb evə yola düşdü.

- Venera yaman sevinəcək! - arxa oturacaqda əyləşmiş Nelya xanım dilləndi. - Yazıq uşaq bir ildən çoxdu bizimlə bir yana çıxmır.

- Bizimlə demə! - Əri düzəliş verdi. - Ümumiyyətlə, heç yana çıxmır. Evdən məktəbə, məktəbdən evə! Belə olmaz! Bizim üzümüzü də ki, nə görürsə, axşamlar görür. Gərək bundan sonra onunla daha çox məşğul olaq. Bir də görəcəyik, məktəbi qurtardı, sonra da çıxıb gedəcək ərə.

- Getsin də. - Nelya xanım güldü. - Məgər onda görə bilmə¬yəcəyik onu?

- Evimizdə olanda nə görürük ki, yad evdə olanda nə görək?!

Nelya xanım fikirli halda başını buladı. Əslində o, əri ilə razı idi.



downloaded from KitabYurdu.az

Qızı ilə birgə keçirdikləri günlər nə vaxtsa bitəcəkdi və Venera hansısa bir evin gəlini olacaqdı. Ariflə onun körpəlik illərini gözünün qabağına gətirdi.

- Vaxt, doğrudan da, necə sürətlə keçir, ay Əlisəttar?! Veneranı doğum evindən çıxardığımız gün yadındadı?

- Hə... Elə bil dünən olub... - Muradzadə ah çəkdi.

Daha heç biri danışmadı. Deyəsən, hər ikisi keçmiş xoşbəxt günləri xatırlayırdı. Beləcə gəlib evə çatdılar.

Pillələri birinci qalxan Nelya xanım zəngin düyməsini basdı. Səsə gələn olmadı. O, təəccüblə ərinə baxıb, çantasından öz açarını çıxartdı. Ancaq buna ehtiyac yox idi. Qapı bağlanmamışdı və

Muradzadə onu itələyən kimi açıldı. Hər ikisi narahat halda mənzilə daxil oldular.

Qızın otağına girəndə onları acınacaqlı bir mənzərə qarşıladı. Venera stolun yanında, arxası üstə döşəməyə sərilmişdi. Bərəlmiş gözləri tavana zillənmiş, üzü qar kimi ağarmışdı. Atası yüyürüb əlini onun sifətinə toxundurdu. Dönüb, təsvir edilməsi qeyri-mümkün olan və normal insanın düşmənə də arzulamadığı bir ümidsizliklə arvadına baxdı: Qız çoxdan keçinmişdi...

Ərinin çarəsiz baxışından hər şeyi başa düşən Nelya xanım əllərini var qüvvəsi ilə dizlərinə çırpıb, tükürpərdici bir nalə çəkdi. Elə bir nalə ki, ona öz ürəyi tab gətirə bilmədi və əvvəlcə dizləri, sonra isə bütün bədəni döşəməyə dəydi.

Muradzadə onu birtəhər sürüyüb divana uzatdı və özünə gətirməyə çalışdı. Nəhayət, bədbəxt ana qalxıb divanda oturdu və dəli kimi ətrafa boylanmağa başladı.

- Nə olub balama?..



downloaded from KitabYurdu.az

- Sakit ol... Özünü ələ al... - Bircə anda beli bükülmüş doktor titrəyən əlini arvadının çiyninə qoydu. - Sakit ol!..

- Nə olub balama?!

Sual daha inadla təkrar olundu və əri cavab verməyə məcbur

oldu.

-Zəhərlənib...

- Nədən zəhərlənib?.. - Nelya xanım nə soruşduğunu özü də bilmirdi.

Stolun üstündə, içində azacıq çay qalmış stəkan, nəlbəki, qələm və bir vərəq var idi. Lakin başını itirmiş doktor bunları görən halda deyildi.

- Bilmirəm...

Muradzadə bunu dedi və həmin andaca gözü stolun üstündəki vərəqə sataşdı. Cəld yaxınlaşıb onu götürdü. Bu, şagird dəftərindən cırılmış bir vərəq idi. Doktor qızının dəsti-xəttini tanıdı və onun öz əli ilə yazmış olduğu son yazını səssiz oxumağa başladı. Vərəqdə yazılmışdı:

“Əziz ata və ana! Bilirəm ki, siz məni bu hərəkətimə görə qınayacaqsınız. Ancaq mən özümü öldürməkdən başqa bir çarə görmürəm. Əgər bundan sonra əvvəlki kimi alnıaçıq yaşaya bilməyəcəmsə, əgər sizin və rəfiqələrimin üzünə baxa bilməyəcə¬yəmsə, yaşamağın heç bir mənası yoxdur. Qoy mənim ölümümə görə, məni yoldan çıxarıb tora salan, zorla namusumu ləkələyib məni bədbəxt edən Niyazi Məlikxanlı həm Allah, həm də qanun qarşısında

cavab versin. O, alçaq, vicdansız və yırtıcı bir adamdır. Mən istəmirəm ki, mənim kimi başqa qızlar da bu maskalanmış, qorxunc insanın qurbanı olsunlar. O öz böyük vəzifəsindən və pulundan istifadə edib hələ çoxlarını bədbəxt edə bilər.



downloaded from KitabYurdu.az

Ata! Ana! Mən sizi çox sevirəm! İnanın ki, istəməzdim sizə dərd verəm. Ancaq belə də yaşaya bilmərəm. Bağışlayın məni. Mənim üçün dərd çəkməyin. Özünüzü üzməyin! Əlvida! Sizin bədbəxt qızınız Venera”.

Dəhşətdən bədəni qıc olmuş ata yavaş-yavaş divana çökdü.

“Allah, bu nə işdi mənim başıma gəldi?! Bu nə faciədir?., nazir Məlikxanlı hara, mənim qızım hara?...”

Arvadı dartıb məktubu onun əlindən aldı və sətirlərə sürətlə göz gəzdirməyə başladı. Məktubda yazılan hər bir söz güllə olub sinəsinə dəyir, hər sətir nizə kimi bədənini dəlib-deşirdi. Oxuyub qurtaran kimi ayağa qalxıb çığırmağa başladı:

- Balamın ölümünə bais olanı parça-parça edəcəm! Lap kim olur olsun! Dişlərimlə didib-parçalayacam o biqeyrəti!

Nelya xanım özünü meyitin üstünə atmaq istəyirdi ki, əri qalxıb ona mane oldu. Vərəqi alıb stolun üstünə qoydu və arvadını divanda oturmağa məcbur etdi.

- Özünü ələ al! Sakit ol!.. Polisə zəng vurmaq lazımdır!

- Həsənağaya zəng vur!.. - Divanda oturub çətinliklə nəfəs alan Nelya xanım ağır-ağır dilləndi.

Polkovnik-leytenant Həsənağa Nurəhmədov Nelya xanımın qardaşı idi. Şəhər polisində işləyirdi.

-Yaxşı, yaxşı, ona zəng vuraram...

Muradzadə telefon aparatına yaxınlaşıb, əlləri əsə-əsə qaynına zəng vurdu və baş vermiş faciəni bildirdi. Sonra dəstəyi yerinə qoyub qızının soyumuş cəsədinə tərəf addımladı. Dizi üstə çöküb onun solmuş çöhrəsinə tamaşa etdi. Venera nazik yay paltarında idi. Çox sevdiyi bənövşəyi rəngli donunu geyinmişdi. Bu paltarın ona yaraşdığını doktor özü də dəfələrlə



downloaded from KitabYurdu.az

demişdi. Əlini uzadıb donun bir qədər yuxarı sürüşmüş ətəyini aşağı çəkdi. Sonra titrəyən barmaqlarını qızın sifətində gəzdirdi. O, heç vaxt, heç kəsin meyitinə belə dəhşətlə baxmamışdı. Dəhşətlə, həm də məhəbbətlə... Belə də olmalı idi. Axı bu onun öz doğma balasının, canının bir hissəsinin, ciyərparasının meyiti idi...

Gözlərini qapamaq istədisə də alınmadı. Ətrafına boylanıb qızın üzünü örtmək üçün nə isə axtardı. Ancaq tez də fikrindən daşındı. Heç ayağa qalxmağa heyi də qalmamışdı. Veneranın soyumuş

əlindən tutub titrək səslə danışmağa başladı:

- Bu niyə belə oldu, ay qızım? Sən niyə belə etdin? İndi gəlib səni aparacaqlar... Səni bir də görə bilməyəcəm.

Nelya xanım divana sərilib qalmışdı. Ağır-ağır nəfəs alırdı. Muradzadə ona ötəri nəzər salıb, yenə qızına baxdı.

Həmişə özünü qürurlu aparan, işlədiyi xəstəxanada və həm də bütün tanışlar dairəsində həmişə özünə hörmət görmüş və hamıdan hörmət gözləyən doktor heç vaxt inana bilməzdi ki, nə vaxtsa, onu bax beləcə qaldırıb yerə çırpacaqlar. Yerə çırpmaq azmış kimi, hələ üstəlik, tapdalayacaqlar. Palçığa basıb, üstünə də zir-zibil tökəcəklər...

- Bu niyə belə oldu, ay qızım? - deyə bir də təkrar etdi və nə qədər çalışsa da özünü saxlaya bilməyib ağlamağa başladı.

Nelya xanım içində nəyinsə qırıldığını hiss edirdi və ayağa qalxmaq üçün özündə güc tapa bilmirdi. Dağ boyda qüruru olan ərinin uşaq kimi ağlaması onsuz da alışıb-yanan ürəyinə bir az da od qoydu. Göz yaşları bulaq kimi qaynayıb gözlərindən tökülməyə başladı.

-Anan ölsün, ay bala, anan ölsün!

Gücsüz əllərini dizlərinə vurub, bu saat Moskvada hər şeydən xəbərsiz olan oğlunu harayladı:



downloaded from KitabYurdu.az

- Haradasan, ay Arif?! Bacın ölüb, xəbərin yoxdur. Biqeyrətlər, namussuzlar öldürüb bacını. Bədbəxt eləyiblər bacını əclaflar! Anan ölsün, ay Arif! Gəl, ay Arif!

Mənzilin qapısı açıldı və polis formasında olan Həsənağa Nurəhmədov içəri girdi. Onun ardınca bir polis leytenantı da otağa daxil oldu. Nelya xanım qardaşını görüb bir də nalə çəkdi:

- Evim yıxılıb, ay qardaş, evim yıxılıb!

Nurəhmədov bacısını sakitləşdirib meyitə yaxınlaşdı. Əyilib diqqətlə onun üzünə baxdı. Sonra dərdli-dərdli başını bulayıb ayağa qalxdı. Stolun üstündəki çay stəkanına əl vurmadan iylədi. Deyəsən bir şey anlamayıb otağa boylandı və nəhayət, üzünü doktora tutdu:

- Niyə belə etmiş olar ki?

Muradzadə heç nə demədən qızının yazıb qoyduğu məktubu qaynına uzatdı. Məktubu alıb oxuyan Nurəhmədov hiddət və təlaş dolu nəzərlərlə əvvəlcə kənarda sakit dayanmış leytenanta, sonra isə bacısının ərinə baxıb pıçıltı ilə soruşdu:

- Bunun onunla nə əlaqəsi varmış ki?!

- Bilmirəm... - karıxmış doktor yumruqlarını düyünlədi. - Heç nə bilmirəm. Ancaq bu işi cəzasız buraxmayacam, Həsənağa, hər şeyimi qoyacam bu işin yolunda! O alçaq cəzasına çatmalıdır!

- Sənə qurban olum, Həsənağa, - Nelya xanım səsini ucaltdı, - onu tutub mənə verin, mən onu öz əllərimlə boğmaq istəyirəm. Əgər qanun varsa, qoymayın o cəzasız qalsın! Əgər gücünüz çatmayacaqsa, mənə de, özüm gedim birbaş prezidentin qəbuluna!

- Sakit ol, Nelya, o, cəzasını alacaq... - Nurəhmədov əlindəki vərəqi qatlayıb cibinə qoydu.



downloaded from KitabYurdu.az

O, bacısına təskinlik versə də, öz dediyinə bir o qədər də əmin deyildi. Məlikxanlının nazir kimi necə bir nüfuz sahibi olduğunu yaxşı bilirdi. Bilirdi ki, onun adını belə işdə hallandırmaq heç kəsə xeyir gətirməz. İş gərək lap yuxarılara düzgün və vaxtında çatdırıla ki, Məlikxanlı cəzalandırıla. Ancaq çatdırmaq mümkün olacaqdımı?..

Polis leytenantı söhbətin kimdən getdiyini bilmədiyi üçün təəccüblə baxırdı.

Nurəhmədov harasa zəng vurub hadisə haqqında üstüörtülü məlumat verdi. Bu zaman Məlikxanlının adını çəkmədi. Sonra dəstəyi yerinə qoyub leytenanta tərəf döndü:

- Prokurorluqdan gəlməlidirlər. Gözləyək!

- Həsənağa, - Muradzadə qaynına yanaşdı. - Qoymazsan meyiti aparsınlar. Aparıb yaracaqlar... - yaylıqla gözlərinin yaşını sildi. - onsuz da aydın görünür ki, zəhər içib.

- Sən nə danışırsan? - qaynı təəccübləndi. - Mütləq aparılmalıdır! Bu məsələ çox böyüyəcək. Söhbət prezidentə qədər gedib çıxacaq! İstəyirsən, sonra meyiti qəbirdən çıxarsınlar?

- Onda bəlkə... - doktor səsini bir az da alçaltdı. - Heç məktubu göstərməyək. Sonra özümüz intiqamımızı alarıq. Rüsvay olmayaq deyirəm...

Nurəhmədov başını buladı:

- Daha gecdir, heç nə gizli qalmayacaq. Sonra başın daha çox ağrıya bilər. Bir də ki, məsələ açıqlanmasa, sən ona heç nə edə bilməzsən. - bir qədər ara verib, nə düşündüsə, əlavə etdi: - Ancaq məsləhət görürəm ki, hələlik onun adını heç yanda çəkməyin!



downloaded from KitabYurdu.az

Doktor daha deməyə heç bir söz tapmayıb susdu və kənara çəkildi. O, elə bir vəziyyətdə idi ki, işin nə dərəcədə ciddi olduğunu hələ tam anlaya bilmirdi.

Nurəhmədov bacısının ərinə baxıb gizlicə ah çəkdi. Bacısından da çox ona yazığı gəlirdi. O boyda kişi elə bil kiçilib gərəksiz bir adam olmuşdu.

- Darıxma! - ona təskinlik verməyi özünə borc bildi. - Səbirli ol! Öləni geri qaytarmaq mümkün deyil. Ancaq bu məsələ ilə özüm də məşğul olacam. Bacardığım qədər çalışacam ki, o adam ifşa olunsun.

O, təkcə sənə sataşmayıb, elə mənim də qeyrətimə toxunub.

- Nelya xanım yad adamın yanında özünü ləyaqətli aparmağa çalışırdı. Qızının meyitini ürəyi istədiyi kimi qucaqlamağa, doyunca ağı deyib, oxşamağa imkanı yox idi. Balasının görünməz ruhu indi, yəqin ki, göylərdə idi. Cansız bədəni isə onların ixtiyarında deyildi.

Onu aparacaqdılar, kəsib-tökəcəkdilər. Etiraz etməyə isə ixtiyarı yox idi ananın!

- Anan ölsün, ay bala! - Nelya xanım yenə göz yaşlarını axıtmağa başladı.

Polis leytenantına elə gəlirdi ki, ana artıq bir qədər sakitləşib və zaman keçdikcə daha da sakitləşəcək. Hər şey tədriclə unudulmağa başlayacaq. Ancaq qətiyyən belə deyildi. Ana sakitləşəcəkdi, başını qatmaq üçün işə də gedəcəkdi. Nə vaxtsa yasdan çıxıb şənliklərdə də iştirak edəcəkdi. Lakin... Beş gün sonra, bir ay sonra, hətta beş-on il sonra elə bir an, elə bir xatirə yada düşəcəkdi ki, Nelya xanım indikindən də yanıqlı, indikindən də acı göz yaşları tökəcəkdi...

Mənzilin zəngi çalındı. Polis leytenantı qapını açanda rayon prokuroru özü başda olmaqla, bir qrup adam içəri daxil oldu. Prokuror otaqdakılara



downloaded from KitabYurdu.az

başı ilə salam verib, vəziyyətlə tanış oldu. Fotoqrafa meyitin və stolun şəklini çəkdirdi. Stəkanda qalan çayı ağzı kip

bağlanan kiçik qaba töküb götürdülər. Stəkanın özünü və qələmi isə dəsmalla götürüb bükdülər. Bu əşyaları blomlayıb portfelə qoydular.

Bu zaman qonşulardan çağırdıqları iki hal şahidi də otaqda idi.

Bütün bu işləri görüb qurtarandan sonra prokuror Nurəhmədova üz tutdu:

- İntihar olmağına elə bir şübhəm yoxdur. Ancaq stolun üstündən götürdüyümüz qələm, yəqin ki, yazı yazmaq üçündür, çay qarışdırmaq üçün yox! Bəlkə siz buradan nəsə bir məktub da tapmısınız?

Nurəhmədov bir qədər tərəddüd edib, intihar etmiş bacısı qızının yazdığı məktubu cibindən çıxartdı və prokurora uzatdı:

- Bu məktub stolun üstündən tapılıb...

Prokuror məktubu alıb şübhəli nəzərlə Nurəhmədova baxdı:

- Bəs niyə bunu əvvəldən göstərmədiniz?

- Oxuyun, özünüz başa düşərsiniz! - Nurəhmədov əsəbi cavab verdi.

Prokuror bir söz deməyib məktubu səssiz oxumağa başladı. Məlikxanlının adına rast gələndə narahat halda başını qaldırıb ətrafdakılara nəzər saldı. Sonra məktubu oxuyub sona çatdırdı. Bundan sonra heç kəsə bir söz demədən onu zərfə qoyub möhürlədi. Bir qədər fikirləşib astadan dilləndi:

- Bu işlə respublika prokurorluğu özü məşğul olacaq. Meyiti ekspertizaya götürün! Mən də təcili olaraq yuxarı məlumat verməliyəm.

Onlar valideynləri heç bir sorğu-suala tutmadan meyiti də götürüb mənzildən çıxdılar. Blokun qarşısına yığılmış adamların qəmgin baxışları altında meyiti təcili yardım maşınına qoyub yola düşdülər.



downloaded from KitabYurdu.az

Nurəhmədov bacısını və onun ərini mənzildən çıxmağa qoymadı. Nelya xanımın halı yaman pisləşmişdi. Qardaşı onun özünə gəlməyini gözləyib, mənzildən çıxanda bir də təskinlik verdi:

- Dözümlü olun! İmkan tapsam, gecə gələcəm!

Doktor Muradzadə gəlib arvadının yanında - divanda oturdu. Dərdin ağırlığı onları divana elə sıxırdı ki, bir də qalxmalarına ümidləri qalmamışdı. Ümidsizlik zülməti onları bürüyüb öz qoynuna almağa, həyatdan uzaqlaşdırmağa çalışırdı.

Lakin belə vaxtlarda adamı ölməyə qoymurlar. Qalxmağa, yaşamağa, danışmağa məcbur edirlər: Qonşular, eşidib-bilən qohumlar mənzilə doluşurdular...

## II Fəsil

## Məlikxanlının gözlədiyi adam

Gecə idi. Doktor Muradzadənin ailəsinə rüsvayçı faciə gətirmiş həmin yay günü özünün axırıncı dəqiqələrini yaşayırdı. Saat əqrəblərinin 12-nin üstündə qovuşmağına lap az qalmışdı.

Bakı kəndlərinin birində, dəniz kənarında yerləşən, uca hasarlı mülkdə sakitlik hökm sürürdü. Üçmərtəbəli, yaraşıqlı imarətin divarlarına vurulmuş lampalar evə əsrarəngiz görkəm verməklə bərabər, bütün həyətə işıq saçırdı.

Niyazi Məlikxanlı həyətdəki mərmər hovuzun yanında qoyulmuş stolun arxasında oturub dərin düşüncələrə dalmışdı. Həyətdə ondan və Asəfdən başqa heç kəs görünmürdü. Malikanənin gözətçisi olan yaşlı kişi həyətin bir küncündəki daxmasına çəkilmişdi. Gülafət xanım evin birinci



downloaded from KitabYurdu.az

mərtəbəsindəki mətbəxdə, deyəsən, çay süfrəsi üçün hazırlıq görürdü. Asəf isə darvazaya yaxın saxladığı «BMW» markalı minik maşınının yanında dayanmışdı. O, Məlikxanlının şəxsi sürücüsü olmaqla yanaşı, həm də cangüdən vəzifəsini yerinə yetirirdi.

İri və yaraşıqlı bir ov iti stoldan bir qədər kənarda uzanmışdı. Bu - Məlikxanlının sevimli iti Qaplan idi. O, çənəsini quma söykəyib

qəmgin baxışlarla sahibinə göz qoyurdu. Başqa vaxt olsaydı, durub yanına gələr, ayaqlarına şırmanardı. Ancaq indi, sanki sahibinin çox vacib məsələ barədə düşündüyünü başa düşür və onu narahat etmək istəmirdi.

Məlikxanlı, doğrudan da özünü çox çıxılmaz bir vəziyyətdə hiss edirdi. O, baş vermiş intihar hadisəsi barədə hələ saat 9-da xəbər tutmuşdu. Respublika prokurorluğundan yaxın bir adamı zəng vurub onu hadisənin bütün təfərrüatı ilə tanış etmişdi. Həmin telefon zəngindən sonra narahatlıqdan özünə yer tapa bilməmiş, xeyli həyəcan keçirmişdi. Düşünüb bir qərara gələ bilmədiyi üçün, çoxdan tərgitməyinə baxmayaraq, yenidən siqareti siqaretə calamışdı.

Nəhayət, qəti qərara gələrək, arvadını da götürüb dənizkənarı malikanəsinə gəlmişdi. Təcili kömək gözlədiyi iki vacib şəxsə gizlin xəbər göndərib onlarla elə buradaca, saat 12-yə görüş təyin etmişdi. Həyat yoldaşına isə, hələlik, bu barədə heç nə deməmişdi.

Gülafət xanım onun ikinci arvadı idi. Birinci arvadı dörd il bundan əvvəl xərçəng xəstəliyindən dünyasını dəyişmişdi. Ondan Zakir adlı bir oğlu da var idi. Zakiri icra hakimiyyəti sistemində işə düzəltmiş, evləndirib, təzə ev almış və oraya köçürtmüşdü. Arvadının ölümündən iki il sonra uşaq həkimi işləyən otuz yaşlı Gülafətlə evlənmişdi.

Gülafət xanım tibb institutuna gec qəbul olunmuş, bütün fikrini oxumağa verdiyi üçün ailə qurmaq haqqında düşünməmişdi. Çox elçiləri geri qaytarmış, çox təklifləri rədd etmişdi. Özündən yaşca böyük, yeganə



downloaded from KitabYurdu.az

bacısı ərə gedəndən və universitetdə müəllim işləyən atası vaxtsız vəfat etdikdən sonra anası ilə tək qalmışdı. Məktəbi qurtarıb poliklinikada işləməyə başlayandan sonra ona, demək olar ki, evlənmək təklifi edilməmişdi. Bu heç də o demək deyildi ki, onda cəlbedici bir şey görmürdülər. Əksinə, Gülafət xanım çox gözəl, hətta eyibsiz bir qadın idi. Qara saçları, uzun, nazik qaşları, üzündə olan bir neçə qara xalları, utancaq ala gözləri simasına təsvirəgəlməz yaraşıq verirdi. Çox vaxt bir topa saç alnından sürüşüb gözünün üstünə düşürdü ki, bu da onun gözəlliyini bir az da ürəkaçan edirdi. Ancaq onu daha çox cazibədar edən dodaqları idi. Üstündən utancaq təbəssümü əskik olmayan dodaqları bu qadını, baxanların nəzərində çox şirin, təmiz və nədənsə əlçatmaz göstərirdi. Bəlkə elə buna görə də bir çoxları, istəsələr də ona yaxınlaşmağa cəsarət etməmiş, özlərini ona layiq bilməmişdilər.

Onu, nəhayət, bir il əvvəl, hansısa toyda, Məlikxanlının indi köçüb əri ilə Türkiyəyə getmiş bacısı görüb bəyənmiş və onların arasında vasitəçilik etmişdi.

Gülafət xanım mavi rəngli xalatda, əlində çaydan həyətə düşüb ərinə yaxınlaşdı:

- Çay içirsən?

Məlikxanlı üzücü fikirdən ayrıldı:

- Hə... içirəm!

- Nə olub? - Gülafət xanım qayğıkeşliklə soruşdu.

- Heç nə...

- Yox, elə bil narahatsan?! - qadının səsində bütün dərdləri unutdura bilən bir şirinlik var idi.

Məlikxanlı başını qaldırıb gənc arvadının gözlərinə baxdı. Bu utancaq gözlərin lap dərinliyində şıltaq qığılcımlar oynaşırdı ki, həmin qığılcımlar



downloaded from KitabYurdu.az

az qalırdı onu dəli eləsin. O, bir daha başa düşdü ki, xoşbəxtdir! Düşdüyü bu çıxılmaz vəziyyətə baxmayaraq, yenə xoşbəxtdir. Xoşbəxtdir, ona görə ki, belə bir arvadı var!

«Verdiyin bu xoşbəxtliyi mənə çox görmə, ay Allah! Məni düşdüyüm bu rüsvayçılıqdan xilas elə! İmkan vermə ki, Gülafət bundan xəbər tutsun!» - deyə ürəyində Allaha yalvaran Məlikxanlı:

- Nə danışırsan, Gülya? Sən yanımda olandan sonra heç bir narahatlığım ola bilməz! - dedi.

- Doğrudan, nə olub? - arvadı inadla soruşdu. - Qonaqların kim

olacaq?

- Heç! - Məlikxanlı onu azdırmağa çalışdı. - İşlə əlaqədar söhbətim var. Ruslandı, bir də bir nəfər başqa adam...

Gülafət xanım daha bir söz deməyib stəkana çay süzdü və dönüb evə getdi. Əri onun arxasınca elə baxırdı ki, sanki onu birinci dəfə görürdü. Bu qadının, doğrudan da gözəl bədən quruluşu var idi. Geydiyi xalat onun gözəlliyini bir az da artırırdı. O, ətli-əndamlı, yeriyəndə dingildəyən qadınlardan da deyildi. Sadə, azacıq naz qatılmış yerişi, normal boy-buxunu var idi. Naməhrəmlər üçün yasaq olan hər yeri gizlətmiş xalat, beldən bir az aşağı iki yerdən enli sahələrlə qabarmışdı. Sahibi hərəkət etdikcə, bu qabaran sahələr bir- birinə naz edirmiş kimi oynaşır, yavaş-yavaş yuxarı-aşağı gedib- gəlirdilər.

Məlikxanlı dərindən ah çəkib, çayı içməyə başladı və içib qurtaran kimi bir siqaret yandırdı. Bu saat onun gözünə heç nə görünmürdü. Bircə bu dolaşıq işdən çıxa bilsəydi!.. Hörməti, nüfuzu, vəzifəsi, azadlığı, hətta həyatı təhlükə altında idi. Azərbaycanlılar namus intiqamını çox vaxt qanuna etibar etmirlər. Hər şey ola bilərdi.



downloaded from KitabYurdu.az

Gözucu Asəfə baxdı. Hündürboy, qolsuz köynəyindən qüvvətli əzələləri aydın görünən gənc sürücü yenə maşının yanında

dayanmışdı. Ona etibar etmək olardı. Sadiq, həm də zirək oğlan idi. Altı il yapon güləşi ilə məşğul olmuşdu. Həm də, şübhəsiz ki, silahlı idi.

O, Asəfin xətrini çox istəyirdi. Demək olar ki, Zakirdən ayırmırdı onu. Bilirdi ki, Asəfdə onun yolunda, lazım gələrsə, ölümə gedə bilər. Oturuşunu-duruşunu, tərbiyəsini də çox bəyənirdi onun. Ümumiyyətlə, hər şeyin yerini bilən oğlan idi Asəf. Gülafət xanımla danışanda elə danışırdı ki, elə bil üçüncü sinif şagirdi müəllimısi ilə danışır. Elə Asəfin həyat yoldaşı Aybəniz də qanacaqlı gəlin idi.

Məlikxanlı Asəf üçün şəhərdə üçotaqlı mənzil almış, öz malikanəsindən bir qədər uzaqda ikimərtəbəli bağ evi tikdirmişdi. Özünü də instituta düzəltdirmişdi. Bu il üçüncü kursu bitirirdi. Məlik- xanlını gəzdirdiyi «BMW» də Asəfin öz adına idi. Əlbəttə, bu işlərin hamısını o, Ruslanın vasitəsilə gördürmüşdü. Özü belə işlərə baş qoşan deyildi.

Küçədən gələn xəfif maşın səsi Məlikxanlını fikirdən ayırıb darvazaya baxmağa məcbur etdi. Sanki hər şey, hətta bütün həyatı gözlədiyi adamlardan asılı idi. Yalnız həmin iki adam ona doğru yol göstərə bilər, onu batdığı dərin quyudan dartıb çıxara bilərdi.

Kəsik siqnal səsini eşidən Asəf cəld irəli atılıb darvazanı açdı.

Boz rəngli bir «Nissan» həyətə daxil oldu. Asəf yenidən darvazanı bağladı. Maşından orta boylu, qıvraq, çopur sifəti təmiz qırxılmış bir kişi düşdü. Başını da az qala təmiz qırxdırmış, olduqca qısa saç saxlamışdı. Qırxa yaxın yaşı olardı. İri burnu, bir qədər irəli çıxmış çənəsi sifətini zəhmli və qətiyyətli göstərirdi. Geydiyi açıq mixəyi rəngli köynəyin üstündən tünd mixəyi qalstuk taxmışdı. Qalstuka keçirilmiş qızıl sancaq və barmağına taxdığı iri qızıl üzük həyətə düşən gur işıqda parıldayırdı.



downloaded from KitabYurdu.az

Bu adam Məlikxanlının ən etibarlı sirdaşı, hüquqşünas Ruslan Dadaşov idi.

Məlikxanlı zavodda direktor işləyəndə Ruslan onun işçisi olmuşdu. Elə o vaxtdan möhkəm sədaqətinə və qeyri-adi rəhbərlik bacarığına görə Məlikxanlının diqqətini cəlb etmiş, on il yaş fərqləri olmasına baxmayaraq, aralarında dostluq münasibəti yaranmışdı.

Sonralar Məlikxanlını daha yüksək pillələrə irəli çəkməyə başladılar. Ruslanı öz yanına hər hansı vəzifəyə aparmaq istəsə də, Ruslan razılaşmadı və zavoddan çıxıb, bizneslə məşğul olmağa başladı. İndi özünün neçə kafesi, restoranı, supermarketi, şadlıq sarayı var idi. Bu ilki deputat seçkilərində öz namizədliyini verməyə hazırlaşırdı.

Qazandığı müvəffəqiyyətlərdə Məlikxanlının əvəzsiz köməyi

olmuşdu. O da öz növbəsində, hüquqi məsələlərdə dostuna kömək edir, onun şəxsi müəssisələrində işlərin gedişinə birbaşa rəhbərlik edirdi. Bu irili-xırdalı müəssisələrin isə çox uzun bir siyahısı vardı ki, bir ucu gedib ucqar kənd rayonlarına çıxırdı. Əlbəttə, hamısı ayrı-ayrı adamların adına sənədləşdirilmişdi.

Ruslan Dadaşov bütün bu obyektlərə çox ustalıqla nəzarət edirdi. Onu aldatmaq qətiyyən mümkün deyildi və bu heç kəsin ağlına da gələ bilməzdi. Əgər Ruslan olmasaydı, onun kimi bacarıqlı və sadiq adamı olmadığı üçün, Məlikxanlı öz obyektlərinə özü nəzarət etməli olacaqdı. Onda isə onun sahibkarlıq fəaliyyəti ilə məşğul olması sin¬kimi qalmayacaq, haqqında söz-söhbət yaranacaqdı. Ya da ki, obyektləri hansısa bacarıqsız adama tapşıracaqdı ki, bu da onların gec-tez dağılmağına səbəb olacaqdı. Ruslan isə obyektləri çox gözəl idarə edirdi və ildən-ilə artan gəlir, bir manatına da xəyanət edilmədən Məlikxanlıya çatdırılırdı. Bir sözlə, Ruslan Dadaşov Məlikxanlının Gülafət xanımdan və Zakirdən sonra ən yaxın, ən etibarlı adamı idi.



downloaded from KitabYurdu.az

Həmişə iri dodaqlarını gəmirirdi. Baxana elə gəlirdi ki, saqqız çeynəyir. İti gözlərindən heç nə yayınmırdı. Xüsusilə də gözəl qadınlar. Bu işdə onun böyük təcrübəsi var idi. Ancaq özü indiyə qədər subay gəzirdi. Bütün işləri yoluna qoyana qədər evlənməyə

ehtiyac duymurdu.

Ruslan Dadaşov əlini qaldırıb salmaqla, kənardan Asəfə salam verib stola yaxınlaşdı. Məlikxanlı ilə əl tutub iki boş stuldan birində oturdu.

- Xeyir ola, Niyazi müəllim? - deyə soruşdu.

- Xeyir deyil, Ruslan! - ev sahibi kədərlə dilləndi.

- Nə olub axı? - Ruslan təəccübləndi.

Məlikxanlı məsələni bildiyi kimi dostuna anlatdı. Nə qədər sakit danışsa da, özündən asılı olmayaraq, sözünü çox əsəbi halda yekunlaşdırdı:

- Hansısa fahişə, cəhənnəmə gedən özünə yoldaş axtardığı kimi, məni də öz arxasınca aparmaq istəyir!

Ruslan ona diqqətlə qulaq asıb başını buladı:

- Bu nə pis oldu?! Siz o qızı tanıyırsınız?

- Yox, tanımıram! - Məlikxanlı başını yelləyib cavab verdi. - Atasını da elə-belə!.. Adını eşitmişəm... Sən ki, mənə inanırsan?!

- Əlbəttə inanıram! Lap özüm qədər inanıram. Ancaq... bu necə ola bilər axı? Sizə qarşı belə şantaj hazırlamaq kimə lazımdır?

- Mən də baş aça bilmirəm... - Məlikxanlı çənəsini sığallayıb dalğın halda cavab verdi. - Əgər bu plan mənim vəzifədən getməyim

üçün qurulubsa... deməli, kimsə özünü mənim yerimə real namizəd hesab edir. Ancaq mən belə bir adam görmürəm axı?!

- Bəs birinci müavininiz? - Ruslan mənalı tərzdə qeyd etdi.



downloaded from KitabYurdu.az

- Cahangirov? Yox, o belə çirkin işə baş qoşa bilməz. Həm də, onu mənim yerimə təyin etməzlər... Kimdirsə, başqa adamdır bu işi təşkil edən... Elə adam ki, dediyim kimi, özünü real namizəd hesab edir, - bir qədər susub birdən səsini qaldırdı. - Ancaq bunu araşdırmaq sonranın işidir. İndi ortalıqda bir qızın meyiti var, bir də bir məktub! İndi bu məktubda yazılanların böhtan olduğunu sübut etmək və mənim adımı təmizə çıxarmaq lazımdır. Mənə ən müəmmalı və ən dəhşətli görünən odur ki, bu it balası məni tanımadığı halda adıma böhtan yazıb və üstəlik də özünə qəsd edib!

- Bəs indi nə etmək istəyirsiniz? - Ruslan soruşdu və bir an düşünüb fikrini bildirdi: - Bəlkə qızın valideynlərini ələ alaq, ya prokurorluğa yol tapıb işi bağladaq? Axı bir əxlaqsızın məktubu sizin boyda adamı ləkələmək üçün əsas ola bilməz?!

- Nə danışırsan?! - Məlikxanlı əlini yellədi. - Mənim üzərimdə azacıq da olsa şübhəli bir şey qalsa, ən azı vəzifəmi itirməliyəm. Sübuta yetirmək lazımdır ki, bu məktubda yazılanlar böhtandır, vəssalam! Başqa yolumuz yoxdur!

- Əgər o qızın bakirəliyi pozulubsa, - Ruslan əli ilə alnını ovuşdurub dalğın halda dilləndi, - məktubda yazılanların böhtan olduğunu sübut etmək mümkün olmayacaq. Onsuz da indi əksəriyyət adamlar cinsi əlaqəyə girəndə qoruyucudan istifadə edirlər. Qız ölüb! Bir də dirilməyəcək ki, sözlərini geri götürsün. Məktub isə göz qabağındadır!

Məlikxanlı hüquqşünas dostuna qulaq asıb fikrə getdisə də heç nə demədi. Araya bir qədər gərgin sükut çökdü. Sonra ev sahibi gözlədiyi ikinci qonağın adını çəkib, onun haqqında qısa məlumat verdi:

-Asəfi yanına göndərib, bura dəvət etmişəm. Ancaq nədənsə, gəlib çıxmayır...

Ruslan Dadaşov başını yırğaladı:



downloaded from KitabYurdu.az

- Onun haqqında eşitmişəm. Deyilənə görə çox hiyləgər və tərs adamdır. Özünüz bilərsiniz, amma mən onun bu işə qoşulmasını məsləhət görməzdim. O bu işə baş qoşdumu, hər şeyi qurdalayacaq. Hətta sizin özünüzü tələyə sala bilər. Bir də ki, o, xəfiyyədir. Sizə isə bu saat xəfiyyə yox, vəkil lazımdır.

- Düz demirsən, - Məlikxanlı etiraz etdi. - Mən bu saat elə bir dolaşıq işə düşmüşəm ki, mənə vəkildən də əvvəl onun kimi, necə ki

deyirsən, hiyləgər və tərs xəfiyyə lazımdır!

- Axı o bu məsələdə neyləyə bilər? Prokurorluqda işi hansı müstəntiqə tapşıracaqlarsa, bizə o lazımdır. İşi düzgün araşdırıb, sizi təmizə çıxarsın. Ya da, hörmət edək, işi lazımi səmtə yönəltsin. Bir də ki, mən vəkillə danışaram!

Məlikxanlı istehzalı nəzərlə ona baxdı:

- Elə danışırsan, elə bil adi bir adam adi bir oğurluq üstündə ilişib. İşin kimə tapşırılacağını soruşursansa, qəribə də olsa, bu artıq məlumdur. Ramin Əlibəyli götürüb işi! Yəqin onun barəsində eşi¬dərsən. Görürsən də, necə operativ işləyirlər?! Get indi «hörmətini» elə görüm necə eləyirsən?! Onu da deyim ki, o, özbaşına olmayacaq. Bu işdən prezident özü xəbərdar deyilsə də, sabah hökmən xəbərdar olacaq. Yaxşı ki, indi rəsmi səfərdədir. Qayıdan kimi iş nəzarətə götürüləcək. Biz təxirəsalınmaz və düzgün addımlar atmasaq, mən batdım. - Məlikxanlı sözünə ara verib darvazaya tərəf baxdı. Onun nə qədər daxili həyəcan keçirdiyini Ruslan açıq-aydın duyurdu. - Ona görə də onu bu işə cəlb etmək istəyirəm. Nə qədər istəsə verəcəm. Təki bu işi boynuna götürsün və məni bu biabırçılıqdan xilas etsin. Mən tək özümü fikirləşmirəm, bu ləkə üstümdə qalsa, Zakir də ömrü boyu başıaşağı olacaq!..

Məlikxanlının səsi titrədi. Həyəcanını gizlətmək üçün bir siqaret yandırıb çəkməyə başladı.



downloaded from KitabYurdu.az

- Heç inanmıram ki, o bu işə baş qoşsun. - Ruslan da cibindən siqaret çıxarıb yandırdı. - Ancaq sizinlə o barədə tam şərikəm ki, biz vaxt itirmədən fəaliyyətə başlamalıyıq. Şəxsən mən, lazım olsa, canımı bu yolda qoyacam! Təki təmiz adınıza xələl gəlməsin. Sizin nüfuzdan düşməyiniz, mənim də heçə dönməyim deməkdir!

- Çox sağ ol! - Məlikxanlı əlini onun çiyninə qoydu. - Elə mən də güvəndiyim üçün bu dar gündə buraya səni çağırmışam.

- Qulluğunuzda həmişə hazıram!..

Ruslan Dadaşov bunu deyib başını aşağı dikdi. Məlikxanlı yenə də narahat halda darvazaya tərəf boylandı:

- Mən onu saat 12-yə dəvət etmişdim.

- İndi isə birin yarısıdır. - Ruslan qolundakı qızıl saatı göstərdi. - O, yəqin ki, gələsi olmadı...

Bu zaman yenə darvazanın önündə maşın səsi eşidildi. Hazır dayanmış Asəf irəli yeriyib darvazanı açdı. Qara rəngli bir «Mersedes» ağır-ağır həyətə daxil oldu. Arxa oturacaqda əyləşmiş sadə görkəmli, qara saçları səliqə ilə yana daranmış, qırx yaşlarında bir kişi qapını açıb maşından düşdü. Əyninə boz rəngli yüngül

kostyum geymiş bu adam istefada olan polis polkovniki, cinayət- axtarış eksperti Qanbay Qasımlı idi.

III Fəsil

Gizli söhbət

Qaplan ayağa qalxıb bir neçə addım qabağa gəldi. Əwəlcə yad qonağa, sonra isə öz sahibinə nəzər saldı. Daha sonra bir daha polkovniki sınayıcı nəzərlərlə süzüb yerinə qayıtdı.



downloaded from KitabYurdu.az

Sükan arxasında oturmuş gənc, nədənsə, maşından düşmədi. Qara, qısaqol köynək, cins şalvar geyinmiş bu adam Qasımlının pərəstişkarı və dostu, əməliyyat-axtarış polisi, kapitan Mahir Talıbov idi. O bu gün öz şəxsi maşınında, sadəcə olaraq, çox sevdiyi polkovnikin sürücüsü rolunu ifa edirdi.

Qasımlı stola yaxınlaşanda, ev sahibi qalxıb onunla mehriban görüşdü və onun üçün qoyulmuş stulda əyləşməyini xahiş etdi. Qonaq əyləşən kimi, Məlikxanlı sadə görkəmli, ancaq son dərəcə ağıllı və kəskin baxışları olan bu adamı diqqətlə gözdən keçirtdi: «Deməli, həmin məşhur xəfiyyə bu imiş...». O, xəfiyyəni bu cür təsəvvür etmirdi. Odur ki, gözlərinə inana bilmirdi. Dəqiqləşdirmək üçün:

- Polkovnik Qasımlısınız. Elə deyilmi? - deyə soruşdu.

- Bəli... - Xəfiyyə ani bir baxışla onu və tanımadığı ikinci qonağı gözdən keçirtdi. - Mənə dedilər ki, sizə lazımam.

- Sizi bir qədər yaşlı təsəvvür edirdim. - ev sahibi təəccübünü gizlətmədi.

- Nədənsə, hamı belə düşünür...

- Çox sağ olun ki, gəldiniz! Doğrusu, ümidimi üzmüşdüm. - Məlikxanlı bunu deyib əli ilə Ruslanı göstərdi: - Əvvəlcə, icazə verin, sizi Ruslan müəllim ilə tanış edim. Ən yaxın dostumdur. Özü də hüquqşünasdır. Düzdür, indi öz peşəsi ilə yox, sahibkarlıqla məşğuldur, ancaq, hər halda çox bacarıqlı hüquqşünasdır.

- Tanış olmağıma şadam! - Qasımlı qısa və quru cavab verdi.

- Nə içəcəksiniz? - Ev sahibi söhbəti dəyişdi.

- Mümkünsə, qəhvə!



downloaded from KitabYurdu.az

Məlikxanlı, sanki söhbətə başlamağa tərəddüd edirdi. Asəfi işarə ilə çağırıb qonağa qəhvə gətirilməsini tapşırdı. Stol arxasında soyuq bir sükut yaranmışdı. Deyəsən, polkovnik özü də buraya nə üçün dəvət olunduğunu bilməyə tələsmirdi. Özünəməxsus ani və diqqətli baxışlarla qarşısındakı imarəti, həyəti və stolun arxasında oturmuş yeni tanışlarını gözdən keçirirdi.

Qəhvəni süfrəyə Gülafət xanım özü gətirdi. Qasımlının qarşı tərəfindən stola yaxınlaşıb qonaqlara «Xoş gəldiniz!» - dedi və qəhvə fincanını polkovnikin qabağına uzatdı. O birilər çay içəcəkdilər.

Gülafət xanımdan gələn gözəl ətir qoxusu, nədənsə, Qasımlını başını qaldırıb ona baxmağa məcbur etdi. Stol enli olduğu üçün, ev sahibəsi ona doğru əyilmiş, ağappaq, hamar sinəsi və şux döşlərinin arası tamamilə açıqda qalmışdı. Baxışları toqquşdu və nə qadının gözlərindəki qəribə məhrəmlik, nə də onun özünü itirməsi Qasımlının gözlərindən yayınmadı. Bu yalnız bircə anlıq baş verdi və Gülafət xanım utancaq bir təbəssümlə:

- Buyurun! - deyib fincanı qonağın qabağına qoydu və dönüb evə getdi.

Qadınlara belə xüsusi nəzərlə baxmağa adət etməmiş polkovnik bu qadına nə üçün lazım olandan artıq diqqət yetirdiyini anlaya bilmədi və yersiz hesab etdiyi hərəkəti üçün özünü danladı. İsti qəhvədən bir qurtum içib, siqaret yandırdı və üzünü qətiyyətlə ev sahibinə tutdu:

- Sizi eşidirəm, cənab Məlikxanlı!

Onun hörmətlə müraciət etdiyi nazir, Qasımlıya hələlik bəlli olmayan səbəblərə görə öz ötkəmliyini itirmiş, demək olar ki, acizləşmişdi. Sanki danışmağa söz tapmırdı. Ancaq ağıllı baxışlarından özünə qarşı açıq-aydın hörmət oyadan xəfiyyənin gözlərinin ona zilləndiyini görüb danışmağa başladı:



downloaded from KitabYurdu.az

- Məsələ belədir, polkovnik! Beş-altı saat bundan əvvəl, universitetin tələbəsi olan bir qız - doktor Muradzadənin qızı intihar edib. Yaşadığı mənzildə özünü zəhərləyib. Özünü öldürməmişdən əvvəl bir məktub da yazıb qoyub. Məktubda yazılıbmış ki, guya mən onu aldadıb bədbəxt etmişəm. Necə deyim... - Məlikxanlı duruxub ara verdi. - Guya onun namusunu ləkələmişəm. Mənə prokurorluqdan zəng vurub bu barədə xəbərdar etdilər. İşi Ramin Əlibəyli öz icraatına götürüb... Siz bir dəfə bir mötəbər dostuma böyük xidmət göstərmisiniz. Haqqınızda o vaxtdan eşitmişəm. Odur ki, sizinlə görüşməyi qərara aldım...

- Mən nə etməliyəm? - Qasımlı sakitcə soruşdu.

- Qəribədir! - Məlikxanlı çiynini çəkdi. O, son bir neçə saatda yaman əsəbi olmuşdu. - Nə edəcəyimi mən sizdən soruşmaq istəyirəm! Sizə gəldikdə isə, mənə elə gəlir, nə etməli olduğunuzu hamıdan yaxşı bilən bir adamsınız. Siz mənim adımı bu çirkin ləkədən təmizləməlisiniz! Bunun üçün nə qədər haqq alacaqsınızsa, xahiş edirəm, çəkinmədən deyin!

- Siz o qızı tanıyırsınız? Yəqin ki, mənimlə açıq danışmağın nə qədər vacib olduğunu başa düşürsünüz... - Qasımlı bunu deyib qəhvədən yenə bir qurtum içdi və fincanı yerinə qoydu.

- Yox! Qətiyyən, tanımıram! Belə bir şey də olmayıb!

- Bəs valideynlərini necə, tanıyırsınız?

- Şəxsi tanışlığım yoxdur. Ancaq atasını qiyabi tanıyıram. Onu, ümumiyyətlə, hamı tanıyır. Məşhur terapevtdir.

- Bəs özünüz bu barədə nə düşünürsünüz?

- Bilmirəm... - Məlikxanlı əlini əsəbi halda yellədi. - Elə məsələ orasındadır ki, heç nə bilmirəm. Yəqin ki, qızı öyrədib yoldan çıxarıblar.



downloaded from KitabYurdu.az

- Qəribə işdir! - polkovnik başını yırğaladı. - Hansısa bir qızı öyrədib yoldan çıxarmaq olar ki, sadəcə, sizə şər atsın. Bunun üçün onu qorxutmaq da olar, nəsə bir şey boyun olmaq da. Ancaq onu öyrətmək ki, sizə şər ataraq intihar etsin, bax bu qəribədir!

- Hər halda, siz şəxsən mənə inanırsınız? - Məlikxanlı narahatlıqla soruşdu.

- Əgər sizə inanmalı olmasam... daha çətin bir məsələnin üstündə baş sındırmalı olacam... -Qasımlı müəmmalı cavab verdi.

- Hansı məsələnin?

- O məsələnin ki, - xəfiyyə bir anlıq ara verib Məlikxanlının düz gözlərinin içinə baxdı. - Siz məni bu işə hansı məqsədlə qoşmaq istəyirsiniz?

Ruslan Dadaşov dostu ilə gizlicə baxışdı. Sanki demək istəyirdi ki, görürsünüz, o artıq tələsini hazırlayır... Ancaq tez də üzünü hiyləgər xəfiyyəyə tutdu:

- Sizin fikrinizcə, o qız nə üçün belə bir iş tutub?

- Bəs sizin fikrinizcə? - Qasımlı cavabdan yayındı.

- Şəxsən mənə belə gəlir ki, onu ölüm qorxusu ilə təhdid edib həmin məktubu yazdırıblar. Sonra isə zəhərləyib öldürüblər!

- Mən heç vaxt qabaqcadan öz rəyimi bildirmirəm. - Polkovnik qaşqabaqlı cavab verdi. Sonra isə üzünü ev sahibinə tutdu:

- Sizə birinci məsləhətim bu ola bilər ki, siz, təcili olaraq yaxşı bir vəkil tutmalısınız!

- Bu asan işdir! - Ruslan yenə söhbətə qarışdı. - Mənim vəkil dostlarım çoxdur.



downloaded from KitabYurdu.az

- Yox! - Qasımlı etiraz etdi. - Əgər mən bu işə qarışmalı olacağamsa, vəkil mənim deyəcəyim adam olmalıdır.

- Siz kimi təklif edirsiniz? - Məlikxanlı cəld soruşdu.

- Fazil Məmmədlini! Cavan, həm də bir az çoxdanışan olsa da bacarıqlı və bilikli vəkildir. Cəsarətlidir. Ən əsası isə odur ki, o mənə tabe olmağa razılıq verəcək. Siz mütləq onu tələb edin!

- Mən razıyam! - Məlikxanlı dilləndi. - Ancaq siz nə qədər haqq

alacağınızı demədiniz...

- Məbləği özünüz təklif edin! - Xəfiyyə adətinə uyğun olaraq alacağı haqqın qədərini söyləməkdən boyun qaçırdı.

Məlikxanlı yüksək bir məbləğin adını çəkdi. Bu Qasımlının gözlədiyindən yuxarı idi. Ona görə də düşünmədən razılaşdı:

- Belə danışaq ki, göstərdiyiniz məbləğin müqabilində mənim borcum sizin adınızı bu biabırçı ləkədən qurtarmaqdır. Əgər sizə qarşı işləyən qara qüvvələr varsa, onları ifşa etmək, yaxud əks zərbə vur¬maq lazım gələcəksə, bunun haqqı ayrı olacaq. Dediyiniz məbləğin isə yarısını qabaqcadan verməlisiniz!

Məlikxanlı bu qaraqabaq adamı dəvət etməkdə yanılmadığını başa düşürdü. Onun cəsarət və qətiyyət ifadə edən danışığı qəlbində ümid qığılcımları yandırmağa başlamışdı.

- Razıyam, nə vaxt?

- Sabah! - Qasımlı başı ilə maşınlara tərəf işarə etdi. - Sürücülər həll edərlər.

Asəf maşınların yanında Gülafət xanımla söhbət edirdi. Daha doğrusu, Gülafət xanım onu söhbətə tutmuşdu. Asəf isə ona diqqətlə qulaq asır,



downloaded from KitabYurdu.az

hərdən başını aşağı dikib ayağı ilə qumu eşirdi. Qasımlıya elə gəldi ki, ev sahibəsi darvazanın yaxınlığında, hasarın dibində gül

kolları əkdirmək istəyir. Ozü də, çox güman ki, qızılgül kolları. O bunu qadının hərəkətlərindən başa düşmüşdü. «Gözəl qadındır» deyə fikrindən keçirtdi.

Ruslan Dadaşov bir siqaret yandırıb ayağa qalxdı.

- Bir az gəzişim... - deyib Asəfgilin yanına getdi.

Qanbay Qasımlı gözünü Gülafət xanımdan çəkib ev sahibinə baxdı:

- Üzr istəyirəm, sizin övladınız var?

- Bəli! - Məlikxanlı cavab verdi. O, artıq bir qədər gümrahlaşmışdı. - Əvvəlki arvadımdan bir oğlum var. Evlidir. Anası dörd il əvvəl xərçəngdən öldü. Bu gördüyün ikinci arvadımdır. Bundan hələ uşağımız yoxdur. Ancaq çox istəyirəm ki, bir övladım olsun. Əvvəl elə bilirdim günah bundadır. Ancaq onun analizləri təmiz çıxdı. İki-üç gün əvvəl mən də analiz verdim. Məndən imiş... Həkim söz verib ki, sağaldacaq. Görək nə olur...

- Allah qoysa! - Qasımlı söhbəti dəyişdi. - Özünüz nə fikirləşirsiniz, sizin vəzifədən uzaqlaşdırılmağınız kimlərə lazım ola bilər?

- Bu barədə iki saatdır düşünürəm... - Məlikxanlı dilxor halda cavab verdi. - Mənim stoluma göz dikən real namizəd ağlıma

gəlmir...

- Məsələ təkcə sizin yerinizə göz dikməkdə deyil. Burada mənafe məsələləri var. Bax, tutaq ki, siz ləkələnib vəzifədən azad edildiniz. - Qasımlı istədi ki, həbs barəsində də nəsə desin, ancaq fikrindən vaz keçdi. - Bax, bundan ən çox kimlər ziyan çəkəcək?

- Ziyan çəkəcək? - Məlikxanlı təəccübləndi.



downloaded from KitabYurdu.az

-	Bəli! Mən sualı hələlik belə qoyuram.

-	Həyat yoldaşım, oğlum, onun ailəsi, Ruslan, sürücüm... və bir çox işçilər. Mən işdən çıxarılsam, onlar üçün yaxşı olmayacaq.

-	Bəs kimlər daha çox xeyir tapacaq?

-	İnanın ki, bu, çox çətin sualdır... - Nazir çənəsini sığalladı. - Mən bu barədə bir daha fikirləşərəm...

Qasımlı bir də uzaqdan Gülafət xanıma nəzər salıb soruşdu:

-	Deyəsən, yoldaşınızın bu işdən xəbəri yoxdur?

-	Yox! - Məlikxanlı cəld dilləndi. - Deməmişəm. Çox qısqancdır zalımın qızı. Ona görə heç qulluqçu da saxlamıram. Bu işi bilsə, ona çox pis təsir edəcək!

-	Deməli belə... Mən sabahdan işə başlayıram... - Gecənin keçdiyini yadına salıb, səhvini düzəltdi. - Daha doğrusu, bu gündən! Siz Fazil Məmmədlini vəkil kimi tələb etməyi unutmayın. Və eyni

zamanda, hər bir addımı onun məsləhəti və razılığı ilə atın. İndi isə icazənizlə, mən gedim...

-	Hə! - Ev sahibi saatına baxdı. İkiyə işləyirdi. - Buyurun!

Qasımlı ayağa qalxıb onunla görüşdü. Məlikxanlı da qonağını

yola salmaq üçün ayağa qalxdı. Xəfiyyə Ruslangilin yanından keçəndə onlarla başının hərəkəti ilə sağollaşdı və arxa qapını açıb maşına mindi.

Ev sahibi ona yaxınlaşan dostuna nəzər salıb fikirli halda dedi:

-	Çox cəsarətli adama oxşayır!

-	Həm də özündən razı adama! - Saqqız çeynəyirmiş kimi dodaqlarını gəmirən Ruslan Dadaşov cavab verdi. - Hələ hansı qara qüvvələrlə rastlaşacağını bilmədən, əks zərbədən danışır...



downloaded from KitabYurdu.az

Qaplan qalxıb sahibinin yanına gəldi və başını onun ayaqlarına sürtməyə başladı. Məlikxanlının bütün diqqəti sonsuz ümid bəslədiyi qonağının əyləşdiyi maşında olduğu üçün itə əhəmiyyət vermədi.

IV fəsil

Qara xəfiyyə

«Mersedes» ağır-ağır dönüb, Asəfin açdığı darvazadan çıxdı və bağ evlərinin arası ilə şəhərə doğru yol aldı.

- Səni çox gözlətdim, deyəsən? - Qasımlı soruşdu.

- Xoşdur! - Mahir arxaya baxmadan cavab verdi. - Bilmək olar nə işdir?

- Olar!

Polkovnik baş vermiş hadisəni qısa olaraq danışdı.

- Siz Məlikxanlıya inanırsınız? - kapitan geriyə çevrilib sual verdi.

- Bilmirəm... - Qasımlı könülsüz dilləndi.

Mahir daha sual vermədi. «Çox güman ki, qeyri-adi bir əməliyyat başlanır. Əgər əməliyyat başlanırsa, deməli, Qanbay müəllimdən söz qoparmaq mümkün olmayacaq!» Bunu düşünən gənc kapitan sürəti artırıb, diqqətini yola verdi. Gecə yarısı olduğu üçün asfaltda çox təsadüfi maşınlar görünürdü.

Mahir Talıbov polkovnik Qasımlı ilə tanış olduğu az bir vaxt ərzində onun xasiyyətinə öyrəşmişdi. Bilirdi ki, o mərd və öz mənliyini uca tutan adamdır. Həyat yoldaşı faciəli surətdə öləndən sonra heç bir

qadına ayrı nəzərlə baxmamışdı. Ayrı nəzər deyəndə ki, Qasımlı heç vaxt xırda və keçici hisslərlə yaşayan adam olmamışdı. Qadın düşkünlüyü, ağlı ehtirasa təslim etmək onun nifrət etdiyi xüsusiyyətlərdən idi. O öz peşəsini sevirdi və bütün həyatını da buna bağlamışdı. Çətin, qaranlıq,



downloaded from KitabYurdu.az

müəmmalı məsələləri həll etməkdən zövq alırdı. Onun üçün bu zövqü başqa heç nə əvəz edə bilməzdi. Bir də dara düşən insanlara kömək etmək, günahsız insanları şərdən, böhtandan qurtarmaq... Mənəvi ləzzət alırdı belə işlərdən. Qanbay müəllim əsl kişi idi! Bədəncə də, ruhca da qibtə ediləcək dərəcədə möhkəm idi. Ara-sıra tutan başağrıları nəzərə alınmasa, sağlamlığına da söhbət ola bilməzdi. Həyatda insan üçün olan zövqlərin heç birini inkar etmirdi. Ancaq dediyimiz kimi, daha çox dolaşıq işlərin açılmasından və yaxşı insanlara yardım göstərməkdən zövq alırdı. Buna kim inanmasa da, Mahir ürəkdən inanırdı və bilirdi ki, pulun və təmənnanın hər şeydən yüksəkdə durduğu bir zamanda və cəmiyyətdə yaşayan Qanbay müəllim üçün pul da, vəzifə də, qadın da əhəmiyyətsiz dərəcəli şeylər idi.

Mahir fikirdən ayrılıb maqnitofonu qoşdu. Hansısa gənc müğənni qızın yanıqlı səsi maşının salonuna yayıldı. Qasımlı susur, nə barədəsə düşünürdü. Həmin vaxt Mahirin heç ağlına da gəlməzdi ki,

Qanbay müəllim indicə gördükləri gözəl ev sahibəsi barədə fikirləşir...

Qanbay Qasımlı özünü anlaya bilmirdi. Axı niyə boynuna götürdüyü bu qəribə, müəmmalı və faciəli hadisənin sirrini açmaq barədə yox, bircə dəfə gördüyü o qadın haqqında fikirləşir?.. Axı necə oldu ki, Məlikxanlının arvadı Qasımlıya birdən-birə belə doğma göründü? Gözəldir? Hə, doğrudan da o, çox cazibədar və gözəl qadındır. Axı bu amil polkovnik Qasımlı kimi adama, özü də belə bir məqamda, kişinin həyətində və gözü qabağında təsir edə bilməzdi! Hələ onlar kiçik bir intim an da yaşadılar. Baxışları tuş gəldi və qadının açıq sinəsi yol veriləndən bir az artıq göründü. Həmin vaxt baxışlarında utancaq bir mehribanlıq var idi onun. Bəlkə buna görə Qasımlıya doğma göründü o? Qasımlının qadınlarda qiymətləndirdiyi birinci cəhət abır-həya və utancaqlıq idi. Ancaq ev sahibəsi fincanı onun qarşısına qoyanda Qasımlı ona belə diqqətlə baxmamalı idi axı?! Heç baxmayacaqdı da! Baxmayacaqdısa,



downloaded from KitabYurdu.az

deməli, nə onun qəlbini təlatümə gətirən baxışlarını, nə də açıq sinəsini görməyəcəkdi. Bəs necə oldu ki, Qasımlı başını qaldırıb, ona tərəf əyilən gənc qadına belə maraq və diqqətlə baxmalı oldu? Hə! Yadına düşdü! Qadından hansısa gözəl bir ətir qoxusu gəlirdi. Gözü qadının əlindəki fincanda olan Qasımlı bu ətri duyan andaca başını qaldırdı. Ancaq nə

olsun axı?! Özünə hörmət edən bütün qadınlardan ətir iyi gəlir...

Təcrübəli kriminalist olan Qanbay Qasımlı qadın və kişi ətirlərindən yaxşı baş çıxarırdı. Bütün məşhur ətirləri qoxusundan ayıra bilirdi. O, buna uzun məşqlərin sayəsində nail olmuşdu və

Moskvada milis sistemində işləyəndə bu qabiliyyəti bəzi cinayətlərin açılmasında ona kömək olmuşdu. Ancaq Məlikxanlının arvadı hansı ətirdən istifadə etmişdi ki, onu başını qaldırmağa məcbur etmişdi? Polkovnik öz qeyri-adi istedadından istifadə edib ətri xatırlamağa çalışdı. Həmin saat nazik, sərt qaşları düyünləndi. Və birdən-birə hər şey ona aydın oldu!.. İstəməsə də xatirələr onu neçə

illər əvvələ apardı...

1* * *

Qanbay Qasımlı Bakıda doğulmuşdu. Ata-anasının tək övladı idi. Mayor rütbəsində olan atası Bakıdakı hərbi hissələrin birində xidmət edirdi. Qasımlı onu sərt və qaraqabaq bir adam kimi xatırlayırdı. Heç vaxt üzü gülməzdi. Anası isə uşaq həkimi idi. Çox mülayim təbiətli, xeyirxah və gözəl bir qadın idi. Balaca Qanbay hələ körpəlikdən öz qeyri-adi istedadı, güclü yaddaşı ilə valideynlərini təəccübləndirirdi. Sonradan onun qabiliyyəti başqa sahələrdə də üzə çıxdı və Qasımlı oxuduğu məktəbdə böyük hörmət qazandı. Müəllimlər onun üstündə

bir-birləri ilə mübahisə edirdilər. Kimya müəllimi onun böyük kimyaçı, riyaziyyat müəllimi dahi riyaziyyatçı, fizika müəllimi görkəmli fizik



downloaded from KitabYurdu.az

olacağını deyib dururdular. Ancaq elə uşaqlıqdan adamayovuşmaz, qaraqabaq idi. Yoldaşlarına qətiyyən qoşulub eləmirdi.

Qanbay beşinci sinifdə oxuyanda yaşadıqları binada qaz partladı və valideynlərinin hər ikisi həlak oldu. Həmin vaxt həyətdə olan uşaq təsadüf nəticəsində sağ qaldı. Bakıda elə bir yaxın qohumları yox idi və heç kəs yaxın durub saxlamadığı üçün onu yetimlər evinə verdilər. Yetimliyin bütün əzab-əziyyətini görə-görə böyüyən Qanbay əsgəri xidmətə göndəriləndə Moskvaya düşdü. Daxili qoşunlarda keçdiyi ikiillik xidmət zamanı onun fitri istedadını, intizamlılığını, sərrast atıcılıq qabiliyyətini görüb xidmətini başa vurandan sonra Ali Milis məktəbinə göndərdilər. Məktəbi qurtaran kimi cinayət-axtarış şöbəsində işə qəbul etdilər. O vaxtdan onun qızğın, çətin və maraqlı günləri başlandı. Axtarışlar, döyüşlər, vuruşmalar... Ancaq o bu ağır peşəni sevdi və ona bağlandı. Biliyini və bacarığını artırmaqdan da qalmırdı. Oxuyurdu, təcrübələr, eksperimentlər aparırdı, məşqlər edirdi, bilmədiklərini təcrübəli əməkdaşlardan soruşub öyrənirdi. Ad- sanı ilə bərabər, rütbəsi də sürətlə artırdı. Artıq gənc Qanbay Qasımlı podpolkovnik rütbəsində idi. Cinayətkar aləmdə ondan qorxurdular.

«Qara xəfiyyə» adı vermişdilər ona. Neçə dəfə şərləmək, neçə dəfə öldürmək istəmişdilər, ancaq heç nə alınmamışdı. Heç bir gizli və aşkar hədə-qorxu ona təsir etməmişdi. Axırda son dərəcə tərsliyini görüb, ondan əl çəkmişdilər. Ancaq cinayətkar aləmdə «Qara xəfiyyə»yə rəğbət göstərənlər, hörmətini saxlayanlar da az deyildi. Çünki heç vaxt namərd hərəkət etmir, rüşvət almırdı.

Həmin vaxtlarda təsadüfi tanış olduğu Olqa adlı bir tatar qızı ilə evləndi. Ondan bir qızı da oldu. Qızına Tahirə adını qoydu - öz anasının adını. Qasımlı ailəsini çox sevirdi. Axşamlar evə gec gələndə körpə qızını yatmış görür, onun üzündən öpməmiş yemək süfrəsinə oturmurdu. Orta məktəbdə müəllimə işləyən Olqa da ərini çox sevirdi. Gecələr evə nə



downloaded from KitabYurdu.az

qədər gec gəlsə də oturub onun yolunu gözləyirdi. Həmişə ərinin işi ilə maraqlanır və yalvarırdı ki, özünü qorusun. Qasımlı Olqanın ürəyinin dərinliyində əri üçün keçirdiyi qorxunun necə kök saldığını açıq-aydın duyurdu.

Bir gün Baş Cinayət-axtarış idarəsinin rəisi Qasımlını yanına çağırıb, xeyli müddətdən bəri əhalini təşvişə salmış, neçə-neçə qətllər və digər ağır cinayətlər törətmiş bir dəstəni ələ keçirməyi ona tapşırdı. Qasımlı bu işin öhdəsindən tezliklə gəldi. Bütün dəstə üzvləri ələ keçib həbs olundu. Təkcə, dəstənin rəhbəri Sergey Babayan,

kimlərinsə duyuq salması nəticəsində, aradan çıxa bildi. Bandanı ələ keçirdiyinə görə Qasımlını şəxsi silahla mükafatlandırıb, eyni zamanda polkovnik rütbəsi verdilər.

Ancaq sevinci uzun sürmədi. Dəstənin ələ keçməsindən dörd gün sonra, axşam işdən evə qayıdanda mənzilini qana boyanmış gördü. Arvadını da, bir yaşlı qızını da, bıçaqla qətlə yetirmişdilər. Bu «ələkeçməz» ləqəbi ilə tanınan qatı cinayətkar Sergey Babayanın işi idi. Hələ körpə uşağın cəsədi üstünə kağız da yazıb qoymuşdu. «Məşhurtürk xəfiyyəsinə hədiyyə».

O gün Qanbay Qasımlının həyatında əbədi unudulmaz bir gün oldu. O gün onun başına həmişəlik ağrı sıçradı. O gündən nifrət onun ürəyində həmişəlik yuva saldı. Cinayətkarlara, qansızlara, insafsızlara qarşı! Həmin gün o, bir çox qanunlara da tüpürdü. Bu qanunlar cinayətkarlara əl-qol açmağa imkan verir, axtarış milisinin isə əl- qolunu bağlayırdı.

Həmin gündən Qasımlı bütün işlərini atıb Sergeyi axtarmağa başladı. Onu milisin özündən duyuq salıb aradan çıxardıqları üçün, daha heç kəsə inanmır, təkbaşına iş görürdü. Sergeyin izinə düşmək heç cür mümkün olmurdu. Qasımlının isə hamının qibtəsinə səbəb olmuş hövsələsi getdikcə daralırdı...



downloaded from KitabYurdu.az

O bilirdi ki, Moskva yaxınlığındakı İvanovka kəndində yaşayan Mariya adlı erməni qadın əvvəllər Sergeyin məşuqəsi və dəstənin əhəmiyyətsiz bir üzvü olmuşdu. Sonradan Sergey onu bir məşuqə kimi atdığı üçün, o da dəstədən aralanıb unudulmuşdu.

Hər şeydən əli üzülən Qasımlı həyatında ilk dəfə özünün namərdlik hesab etdiyi addımı atmaq qərarına gəldi. Bir neçə tanış müxbirə zəng vurub bildirdi ki, Sergeyin dəstəsinin ələ keçirilməsi ilə əlaqədar müsahibə verməyə razıdır. Qəzet müxbirləri nə qədər istəmişdilərsə də, bu barədə Qasımlıdan müsahibə ala bilməmişdilər. Ümumiyyətlə, Qasımlı həmişə reklamdan, səs-küydən qaçmışdı. İndi isə bir-birindən xəbər tutan xeyli müxbir tökülüb gəldi. Qasımlı əməliyyat haqqında bir neçə qısa məlumat verəndən sonra bir jurnalistin sualına cavab olaraq bildirdi:

- Bilirsiniz, mən sizə səmimi demək istəyirəm. Dəstəni ələ keçirməkdə mənə dəstə başçısının məşuqəsi olmuş Mariya adlı qadının çox köməyi oldu. O olmasaydı, mən bu işin öhdəsindən gələ bilməzdim.

O bunu yalan deyirdi və bandanın ələ keçməsində Mariyanın heç bir rolu olmamışdı.

- O qadın indi haradadır? - deyə jurnalist sual verdi.

- Gərək məndən inciməyəsiniz, bunu deyə bilməyəcəm...

- Bu doğrudurmu ki, sizin ailə üzvlərini qətlə yetirən Sergey Babayandır?

- Bəli. Şəxsən mən belə düşünürəm.

- Bəs onun axtarışı barədə nə deyə bilərsiniz?

- Təəssüf ki, biz onu axtarmaq imkanından hələlik məhrumuq. Bizə çatan bəzi məlumatlardan aydın olur ki, Babayan həmin hadisəni törətdiyi günün səhəri xaricə qaçıb.



downloaded from KitabYurdu.az

- Siz buna əminsinizmi?

- Bəli, əminəm!.. - Qasımlı müsahibəsini beləcə yekunlaşdırdı. Səhəri gün bütün qəzetlər bu müsahibəni dərc etdilər. Qasımlı

bilirdi ki, xəyanəti heç vaxt bağışlamayan Sergey Mariyadan intiqam almaq qərarına gələcək. Odur ki, qrimlənib, İvanovkaya getdi və Mariyanın evi ilə üzbəüz, küçənin o biri tərəfində yaşayan türkəçarəçinin evində, guya özünü müalicə etdirməyə başladı. Onun məqsədindən özündən başqa heç kəsin xəbəri yox idi...

Sergey qurulmuş tələyə düşdü. Qrimlənmiş vəziyyətdə kəndə gəlib iki dəfə həmin küçədən keçərək Mariyanın evinə göz qoydu. Şübhəli heç bir şey görmədiyi üçün, nəhayət, evə girdi. Onu üzbəüz həyətdən izləyən Qasımlı həmin vaxt Mariyanı öz intiqamına qurban

verdi. Onun həyətinə keçib Sergeyin evdən çıxmasını gözlədi. Sergey Mariyanı öldürüb həyətə çıxdı və bu zaman Qasımlı ilə üz-üzə gəldi. Qasımlı onu öldürməyi qəti qərara gəldiyi üçün silahını çıxarmağını gözlədi. İstəmədi ki, sonradan silahsız adama atəş açdığını desinlər. Sergey silahını çıxartdı. Ancaq atəş açmağa macal tapmamış Qasımlı tapançasındakı bütün güllələri onun sinəsinə boşaltdı.

Sonra bu işə görə onu dolaşdırmaq istəyənlər də oldu. Ancaq müdafiə edənlər daha güclü çıxdı və Qasımlı günahsız hesab edildi. Lakin o, daha Moskvada işləmək istəmədi və istefaya çıxıb öz Vətəninə - Bakıya qayıtdı.

Hərdən Qasımlı öz-özünə sual verirdi: «Sən necə adamsan?»

Ancaq bu suala qaneedici cavab tapa bilmirdi. «Mən xəfiyyəyəm!

Mənim işim həmişə kimisə güdməkdir. Ancaq kimi? Əlbəttə,

cinayətkarları, oğruları, qatilləri, bir sözlə, pis adamları! Onların



downloaded from KitabYurdu.az

nəzərində isə, sözsüz ki, pis adam mənəm!».

* * *

Hə... Axı o, ətir haqqında düşünürdü. Olqa o vaxt hansısa iki ətri qarışdırıb özü üçün məxsusi ətir düzəltmişdi. Son vaxtlar ondan istifadə edirdi. Son vaxtlar... Odur ki, az istifadə etdi o ətirdən. Təsadüfə bir bax! Məlikxanlının arvadı da həmin ətirləri qarışdırmışdı.

Qasımlı buna yüz faiz əmin idi. Deməli, elə buna görə bu qadın Qasımlıya belə doğma gəlmişdi...

Qadının mehriban baxışlarını xatırladı. Hər cür qaniçən canilərlə göz-gözə gəlmiş, Rusiyanın qarlı meşələrində neçə dəfə qanlı atışmalarda olmuş, ölüm kabusunun qoynunda günlər keçirmiş bu möhkəm adama elə gəldi ki, həyata baxışında dəyişikliklər baş verir. Elə bil ona çoxdan yad olan bir dünyanın qapıları üzünə açılırdı. Bu dünyada beyni dumanlandıran məhəbbət var idi. Bu dünyada hər şey yaxşı idi. Nə cinayətkar var idi, nə cinayət!..

Lakin, yox! Bu mümkünsüz və lazımsız bir şeydir! Qanbay müəllim xəyanət edə bilməzdi! O müqəddəs xatirələrə, ona etimad bəsləyən Məlikxanlıya, ən əsası isə polkovnik Qanbay Qasımlıya!

Polkovnik Qasımlı isə yeni əməliyyata başlayırdı. Qarşıda olduqca çətin bir məsələ dururdu: Məlikxanlını şərin caynaqlarından qurtarmaq! Onu, üzərinə yaxılmış bu qara ləkədən təmizləmək!

Əgər bu ləkə daxildə isə? Məlikxanlı günahkarsa? Amma əgər Məlikxanlı, həqiqətən o qızın namusunu ləkələyibsə, bəs niyə Qasımlıya müraciət edir? Özü də başqasına yox, məhz Qasımlıya! Yoxsa o elə hesab edir ki, Qasımlı ilə zarafat etmək olar?!

- Sizə nə olub, Qanbay müəllim? - Mahir Talıbovun səsi onu

düşüncələrdən ayırdı. Artıq Qasımlının yaşadığı binanın qarşısında idilər.



downloaded from KitabYurdu.az

- Mənə heç nə olmayıb. - Polkovnik sakitcə dilləndi. - Biz sabahdan ciddi təhqiqata başlayırıq. Bu işdə sənin də köməyin lazım olacaq.

- Mən həmişə sizin qulluğunuzda hazıram! - Mahir həvəslə cavab verdi.

- Onda sabaha qədər!

Qasımlı maşından düşüb ağır addımlarla bloka girdi. Bina sakinləri çoxdan şirin yuxuda idilər. Mənzilin qapısını açıb içəri daxil oldu. İşığı yandırıb, qəhvə hazırlamaq üçün mətbəxə keçdi.

## V fəsil

## Sirli məktub

Səhər açılan kimi Qanbay Qasımlı, birinci növbədə vəkil Fazil Məmmədli ilə əlaqə saxlayıb, onu evinə dəvət etdi. Məlikxanlının müdafiəsi işini üzərinə götürməyi xahiş edib, tapşırdı ki, müstəntiqdən Veneranın ölümqabağı yazmış olduğu məktubun kserosurətini alıb ona gətirsin. O, eyni zamanda, xahiş etdi ki, Fazil aparılmış bütün ekspertiza işlərinin nəticəsini öyrənib ona bildirsin. O, Fazil Məmmədliyə arxayın idi və bilirdi ki, bu vəkil istədiyini hansı yolla olursa olsun, qoparmağı bacarır.

İndi isə öz mənzilində oturub qəzetləri gözdən keçirir, Fazili gözləyirdi. Qapı açıldı. Gələn Nuranə idi. Otağa girib «Salam!» dedi və nədənsə bir anlıq duruxub qaldı. Qasımlı ani olaraq başını qaldırıb salamı aldı və yenə də əlindəki qəzeti gözdən keçirməyə başladı. Qadın çevrilib mətbəxə - nahar hazırlamağa getdi.

Nuranə artıq altı aya yaxın idi ki, gündə iki dəfə polkovnikin mənzilinə gəlirdi. Xörək hazırlayır, yuyulmalı paltarları yuyur, evi səliqəyə salıb gedirdi. Bunun üçün də ev sahibindən aylıq haqq alırdı.

O, Qasımlının mənzili ilə üzbəüz, 24-cü mənzildə yaşayan



downloaded from KitabYurdu.az

jurnalist Nemət Sabirlinin arvadı Fədayə müəllimənin qohumu idi. Daha doğrusu, doğmaca əmiqızı idilər. İyirmi səkkiz yaşlı, bir az arıq, normal boylu bu qadın ərindən bir il olardı ki, boşanmışdı. Əri içki düşkünü imiş. Onun kobudluğuna və nalayiq hərəkətlərinə dözməyən Nuranə Fədayənin məsləhəti ilə boşanma iddiası qaldırmış, ayrılandan sonra üçotaqlı mənzillərini iki birotaqlı mənzilə dəyişmişdilər. İndi Nuranə doqquz yaşlı oğlu və yeddi yaşlı qızı ilə həmin mənzillərin birində yaşayırdı. İxtisasca tibb bacısı idi. Ancaq az əməkhaqqı verdikləri üçün bu sahədə işləmirdi. Qasımlıya qulluq etməyi də Fədayə məsləhət görmüşdü. O, qonşusunu Nuranəyə o qədər tərifləmişdi ki, Nuranə belə mərd adamın evində qulluqçuluq etməklə mənliyinə xələl gəlməyəcəyinə inanmışdı. Elə Qasımlının özünü də razı salmaq üçün Nemət işə qarışmışdı. O, Nuranənin səliqəli, işgüzar və tərbiyəli bir qadın olduğunu dostuna söyləmişdi. Nemət istəyirdi ki, böyük hörmət bəslədiyi Qanbay müəllim ev işlərinin əziyyətindən qurtarsın. Onsuz da onun heç vaxt evlənməyəcəyini bilirdi. Qasımlının fikri qəti idi. İkinci dəfə evlənib ailəsini qorxu və narahatlıq içində yaşatmaq istəmirdi.

Qasımlı Nuranədən narazı deyildi. Ona inamı yarandığı üçün mənzilin bir açarını da ona vermişdi. Qadın öz işini intizamla görürdü.

Ən əsası da o idi ki, Qasımlıya mane olmurdu. Bu altı ayda Nuranə onunla üst-üstə on dəqiqə danışmamışdı. Ancaq «salam!», «Sağ olun!» və bu kimi sözlər, vəssalam!

Diqqəti qəzetdə olan Qasımlı birdən üzünə dikilən baxışları hiss edib başını qaldırdı. Nuranə qapının ağzında durmuşdu. Özünü itirən qadın elə bil nə deyəcəyini unutdu və kosmetikasız da pis görün¬məyən təmiz sifətinə qızartı çökdü. Titrək dodaqları səyridi.

- Qəhvə içirsiniz? - deyə nəhayət dilləndi.



downloaded from KitabYurdu.az

-	Yox! - ev sahibi başını buladı. - Bir nəfəri gözləyirəm. O gələndə gətirərsiniz.

Nuranə dönüb çıxdı və yenə mətbəxdə öz işi ilə məşğul olmağa başladı.

Bu qadın demək olar ki, Qasımlının nəzərində yox idi. Altı ay ərzində ona bir dəfə də olsun, xüsusi diqqət yetirməmişdi. Onun müsbət xüsusiyyətlərini sanki yalnız daxilən duymuşdu. Beləliklə də onun bu mənzilə gəlib-getməyini ürəyində qəbul eləmişdi. Ona qulluqçu kimi də baxmırdı. İnsanların qüruruna toxunmaq, Qasımlının nəzərində ən böyük günahlardan biri idi. Gənc qadına, imkan daxilində, göstəriş verməməyə, danışdırmamağa çalışırdı. Heç aylıq haqqını da ona özü vermirdi. Pul Nuranəyə Fədayənin vasitəsilə

çatdırılırdı. Qeyd etmək lazımdır ki, verdiyi pul da az deyildi. Nuranənin öz kiçik ailəsini dolandırmağa bəs edirdi.

Qapının zəngi çalındı. Nuranə qapıya getdi. Gələn vəkil Fazil Məmmədli idi. Həddindən artıq arıq, həm də çox cəld olan bu adam içəri, öz adətincə, səs-küylə daxil oldu və gəlib ev sahibi ilə üzbəüz kresloda oturdu. Əlbəttə, bunun üçün heç təklifdə gözləmədi və danışmağa başladı:

-	Deyəsən, gecikmişəm hə, Qanbay müəllim? Əvvəlcə gedib nazirlikdə Məlikxanlı ilə görüşdüm. Orada sakitlikdir. İşçilərin, çox güman ki, baş verən hadisədən xəbərləri yoxdur. Elə kabinetdəcə müdafiə haqqında müqavilə bağladıq. Yaxşı da haqq verəcək.

Sonra gedib poliklinikada Gülafət xanımla söhbət etdim.

-	Dayanın görüm, - Qasımlı onun sözünü kəsdi. - Gülafət xanım kimdir?

-	Məlikxanlının arvadı?! - Fazil elə cavab verdi ki, sanki Qasımlı onu tanımamaqla böyük günah işlətmişdi.



downloaded from KitabYurdu.az

- Axı onun bu işdən xəbəri yox idi!.. - polkovnik məzəmmətlə başını buladı.

- Bəli, düz deyirsiniz. İlk dəfə məndən eşitdi və bu ona çox pis təsir etdi. Ancaq nə etmək olar?.. Onsuz da eşidəcəkdi.

- Xahiş edirəm, - Qasımlı təmkinlə dilləndi. - Bir şeyi unutmayın ki, cənab Məlikxanlı düşdüyü bu dolaşıq işi açmaq üçün mənə müraciət edib. Çünki bu işdə elə qəribə və qaranlıq məqamlar var ki, Məlikxanlının hüquqlarını müdafiə etməkdən daha çox, bu məqamları işıqlandırmaq vacibdir. Mən sizi ona görə təklif etdim ki, vəkillik hüququm olmadığı üçün, mənimlə istintaq orqanı arasında əlaqə yaradıb mənə kömək edəsiniz. Sonra isə, məhkəmə olarsa, orada öz vəzifənizi yerinə yetirəcəksiniz. Odur ki, bir daha xahiş edirəm ki, siz çalışın, mənim göstərişlərimdən kənara çıxmayın!

- Sizinlə tamamilə razıyam, Qanbay müəllim! - Fazil Məmmədli heç də pərt olmadan dilləndi və söhbətinə davam etdi. - Doğrudan da mən Gülafət xanımla söhbətdən heç nə qazana bilmədim. Bircə onu bildim ki, o çox gözəl qadındır və onu kiməsə dəyişmək ağlabatan iş deyil. Nə isə... Sonra baş müstəntiq Ramin Əlibəyli ilə görüşdüm. İşi şəxsən özü aparır. Onu da deyim ki, o məni çox da ürəkaçan qarşılamadı və heç bir məlumat da vermək istəmirdi. Ancaq mən qırsaqqız olub yapışdım və ekspertizanın rəyini öyrənə bildim.

Vəkil burada susub Qanbay Qasımlıdan nə isə gözlədi. Ancaq onun heç nə danışmadan səbirlə qulaq asdığını görüb yenidən danışmağa başladı.

- Ekspertizanın rəyinə görə, məktub Veneranın, yəni intihar etmiş qızın öz əli ilə yazılıb. Üstəlik stolun üstündən götürülmüş stəkanda da, qələmdə də onun əl izləri aşkar edilib. Tibbi ekspertiza isə göstərib ki, mərhum stəkandakı çaya qatılmış güclü zəhərlə zəhərlənib. Ancaq, nədənsə, Əlibəyli zəhərin adını deməkdən yayındı. Ölüm saat üç



downloaded from KitabYurdu.az

radələrində baş verib. Hə... Ekspert onu da müəyyənləşdirib ki, qızın bakirəliyi bir qədər əvvəl pozulub...

- Bir qədər əvvəl, yəni nə vaxt? - təcrübəli xəfiyyə onun sözünü kəsdi.

- Doğrusu... bunu dəqiqləşdirmədim. - Fazil dilləndi.

- Yaxşı, davam edin! - Qasımlı yenə də onu dinləmək üçün diqqətini topladı.

- Hə... Qızın bakirəliyi pozulub! Əlbəttə, qoruyucudan istifadə etdikdə bunun kim tərəfindən edildiyini bilmək çətindir. Ancaq qızın uşaqlıq yolunda kişi spermasının cüzi qalıqları aşkar edilib ki, bunun da kimə məxsus olduğu hələlik bilinmir. Bunun üçün Məlikxanlının spermaları ekspertizaya verilməlidir. Bunu mən özüm də tələb etdim. Mənə belə gəlir ki, bu olarsa, Məlikxanlı elə bu başdan təmizə çıxacaq və məktubun böhtandan başqa bir şey olmadığı aşkarlanacaq. Beləliklə, bu işdə sizin xəfiyyə fəaliyyətinizə də ehtiyac qalmayacaq.

Əlbəttə, bu böhtanın kimlər tərəfindən və nə üçün təşkil edildiyini öyrənmək istəsəniz, bu başqa məsələ. Ancaq şəxsən məni o maraqlandırır ki, müdafiə etdiyim adamın günahsızlığı sübut olunsun. Sonrası ilə işim yoxdur!

Fazil Məmmədli öz məruzəsini qurtarıb susandan sonra da, polkovnik bir qədər onun arıq sifətinə, yerində bir an da dayanmadan oynayan gözlərinə tamaşa etdi və nəhayət, ağır-ağır danışmağa başladı:

-Mən sizinlə, heç də, razı deyiləm. Spermanın Məlikxanlıya aid olmadığının sübut olunması, hələ məsələnin həll olunub qurtarması deyil. Necə olub ki, Venera adlı qız bu məktubu yazıb, bax bunu mütləq aşkar etmək lazımdır! Bu, məhkəmədə qələbə qazanmaq üçün sizə hökmən lazım olacaq!

Vəkil bir az düşünüb dedi:



downloaded from KitabYurdu.az

- Mənə elə gəlir ki, Qanbay müəllim, qızın o məktubu nə üçün yazdığı heç vaxt bilinməyəcək! Mən Məlikxanlı ilə də, arvadı ilə də söhbətimdə bir şeyi dəqiqləşdirdim ki, doktor Muradzadənin ailəsi ilə onlar arasında heç bir düşmənçilik olmayıb. Onlar heç tanış da deyillər. Qız özü isə artıq o dünyadadır. Məktub qızın özü tərəfindən yazılıb. Mənzildə heç bir şübhəli şey tapılmayıb. Sözsüz ki, bu çox

maraqlı sirdir. Ancaq, məncə, bu sirr açılmamış qalacaq. O ki qaldı mənim məhkəmədə qələbə çalmağıma, bundan narahat olmayın. Nə yaxşı ki, uşaqlıq yolunda kişi toxumu tapılıb. Qoy mənim əlimdə ekspertizanın rəyi olsun ki, bu toxumlar müdafiə etdiyim şəxsin deyil. Onda görəcəksiniz, mən qarşı tərəfi necə qoz qabığına soxuram. Lap tutaq ki, bu qızın bakirəliyini Məlikxanlı pozub, tutaq ki, qoruyucudan istifadə etməklə. Onda belə çıxacaq ki, qız sonra da kiminləsə, başqa bir adamla könüllü əlaqədə olub. Qoruyucusuz və ya keyfiyyətsiz qoruyucuyla. Yenə belə çıxacaq ki, qız, görəsən, hansı namusdan danışır və Məlikxanlını ittiham edərək özünə qəsd edir?! Bu ağlabatan olmur axı?!

Polkovnik Qasımlı təəccüblə başını buladı:

- Sizin haqqınızda yüksək fikir söyləməyimə peşman olmağa başlamışam, Fazil müəllim! Bir anlıq təsəvvür edin ki, mən əks tərəfin vəkiliyəm. Onda belə bir ittiham irəli sürərdim: Məlikxanlı qızın bakirəliyini zorla pozandan sonra, hətta onu kiməsə, yad bir adama da ötürüb. Tutaq ki, sürücüsünə! Görürsünüzmü, bu daha da ağır səslənir. Belə olanda qızın o biri adamın adını məktubda qeyd etməyi elə də vacib deyildi. Əsas Məlikxanlıdır! Yenə deyirəm, Veneranın həmin məktubu hansı səbəbə görə yazmağını aydınlaşdırmalıyıq!

Qasımlı sözünü bitirib üzünü qapıya tərəf tutdu:

- Nuranə xanım, zəhmət olmasa, bizə qəhvə gətirin! - Sonra isə yenə qonağına baxdı:



downloaded from KitabYurdu.az

- Əsas məsələyə keçin! Məktubun surətini ala bildinizmi?

- Bəs necə?! - Fazil əlini cibinə atıb kserosurəti çıxartdı. - Bu¬yurun!

Polkovnik kağızı ondan alıb oxumağa başladı. Bu vaxt Nuranə podnosda iki fincan qəhvə gətirdi və onları stolun üstünə qoydu.

Fazil o saat öz fincanını əlinə götürüb, qadına baxdı:

- Sizin əriniz dahidir, Nuranə xanım! Siz Qanbay müəllimlə fəxr etməlisiniz!

Nuranənin yanaqları qıpqırmızı qızardı. Özünü itirib cəld otaqdan çıxdı. Qasımlı üz-gözünü turşutdu. Ancaq Fazilə heç nə deməyib, başını buladı və yenə diqqətini məktubun surətinə verdi. Qəhvədən bir qurtum içib bir də diqqətlə vərəqə baxdı və dilləndi:

- Məktub şagird dəftərindən çıxarılmış vərəqdə yazılıb. Eləmi? Həm də kağızın yuxarı hissəsindən iki sətir kəsilib atılıb.

- Bəli, deyəsən, elədir! - Fazil fincanı stolun üstünə qoyub cavab verdi. - Yaxşı fikir vermədim. Ancaq məktub tam və bitkindir. Ya ilk sətrə yazdığı ürəyincə olmadığı üçün onu kəsib ataraq, məktubu

yenidən başlayıb, ya da vərəqin yuxarı hissəsi əvvəlcədən kəsik olub.

Təcrübəli ekspert başını yelləsə də dinmədi. Bir siqaret yandırıb dərin fikrə getdi. Hövsələsiz vəkil danışmaq istədisə də, onu fikrindən ayırmağa cəsarət etmədi. Handan-hana Qasımlı özü dilləndi:

- Mən müstəntiqlə görüşmək və məktubun əslinə baxmaq istə¬yirəm. Xahiş edirəm, məni onunla görüşdürüb tanış edin. Maşınlasınız?

- Bəli!

- Onda vaxt itirməyək! Bir azdan nahar fasiləsi olacaq. O vaxta qədər özümüzü prokurorluğa çatdıraq! - ev sahibi ayağa qalxdı.



downloaded from KitabYurdu.az

Vəkil də ayağa qalxıb qapıya doğru getdi. Qasımlı şkafı açıb, müxtəlif kimyəvi maddələr saxlanılan xeyli dərman şüşələrinin arasından bir kiçik şüşə qab seçdi və cibinə qoydu. Pencəyini geyinib mənzildən çıxmaq istəyəndə arxadan Nuranənin səsini eşitdi:

- Nahar etməyəcəksiniz?

Qasımlı geri döndü. Qadının üzündəki qızartı hələ də çəkilməmişdi. Ev sahibinin üzünə yox, kənara baxırdı.

- Yox! - Qasımlı qısa və soyuq cavab verdi. - Siz də gedin!

* * *

Müstəntiq Ramin Əlibəyli onları könülsüz qarşıladı. Deyəsən,

çoxdanışan vəkil onun zəhləsini tökmüşdü. Lakin vəkillə gələn ciddi şimalı adamın kim olduğunu öyrənəndə onunla mehriban görüşdü. Qasımlı gəlişinin məqsədini izah etdi:

- Mən cənab Məlikxanlının tərəfindən qeyri-rəsmi çıxış edirəm. Belə də hesab edə bilərsiniz ki, onun vəkili Fazil müəllim məni ekspert kimi dəvət edib. Ümumiyyətlə, necə istəsəniz qəbul edə bilərsiniz.

Mən sizin işinizə yalnız kömək etməyə çalışacağam. Adımın hallanmağını da istəmirəm.

Əlibəyli onu dinləyib təəssüflə sözə başladı:

- Mənim də şəxsən, cənab Məlikxanlıya böyük hörmətim var. Ancaq inanın, məsələ çox ciddidir. İntihar etmiş qızın atası da tanınmış, hörmətli adamdır. Yazılı şəkildə müraciət edib, Məlikxanlıya ciddi cəza verilməsini tələb edir. Biz onu sakitləşdirməyə çalışırıq.

Belə hörmətli şəxsi birdən-birə ləkələmək də olmaz. Bu heç respublikamızın imicinə də xeyir gətirməz. Ancaq doktor Muradzadə əgər istintaqı tezləşdirib, qəti tədbirlər görməsək, bütün səfirliklərə müraciət



downloaded from KitabYurdu.az

edəcəyi ilə hədələyir. Hələ onu demirəm ki, qızın dayısı bizim məslək, poqon yoldaşımızdır. Nurəhmədovu deyirəm. O da işə ciddi yanaşmağı xahiş edir. Ekspertizanın nəticələri barədə, yəqin ki, vəkil sizi məlumatlandırıb. Qaldı ki, əsas ekspertiza, necə olsa sabah

Məlikxanlını dəvət edib sperma məsələsini yoxlayacağıq. Bunun üçün artıq tibbi ekspert komissiyası yaradılır.

- Əgər icazə versəniz, mən həmin məktubun əslinə baxmaq istəyirəm. - Qasımlı fikrini bildirdi.

- Buyurun, burada baxa bilərsiniz! - müstəntiq məktubu qovluğun arasından götürüb xəfiyyəyə uzatdı.

Sonra isə başqa qovluqdan bir qalın dəftər götürüb onu da Qasımlının qabağına qoydu:

- Bu da Muradzadə Veneranın ən sonuncu mühazirə dəftərlərindən biridir. Tutuşdura bilərsiniz. Bizim ekspertlərimiz diqqətlə yoxlayıblar. Məktub yüz faiz qızın öz xətti ilə yazılıb.

Qanbay Qasımlı məktuba son dərəcə diqqətlə baxmağa başladı. Sonra kənarda qoyulmuş kiçik stolun arxasında oturmaq üçün müstəntiqdən icazə istədi. Əlibəyli etiraz etmədikdə keçib həmin stolun arxasında əyləşdi. Məktubu və dəftəri qarşısına qoydu və elə bil o saat da harada olduğunu unutdu. O, məktubu zərrəbinlə müşahidə edir, elə bil orada nəsə tapmağa çalışırdı. Sonra müstəntiqdən ağ vərəq istədi. Vərəqi alıb stolun üstünə qoydu. Cibindən çıxardığı şüşə qabdakı rəngli toz dərmandan məktubun üstünə tökdü.

- Xahiş edirəm, sənədi korlamayın! Biz əl izlərini yoxlamışıq. - Ona gözaltı diqqət yetirən müstəntiq dözməyib dilləndi.

- Yad izə rast gəlmisiniz? - Qasımlı başını qaldırıb soruşdu.



downloaded from KitabYurdu.az

- Xeyr! Qızın öz əl izləri, bir də valideynlərinin və əməliyyat işçilərinin.

- Narahat olmayın, mən heç nəyi korlamayacağam.

Qasımlı tozu əli ilə məktuba yayıb sonra onu çevirdi və toz yerə töküldü. O, yenə zərrəbinlə müşahidəsini davam etdirməyə başladı. Fazil Məmmədli, nə barədə isə, bir söhbət başlamışdı. Müstəntiq ona qulaq assa da, bir gözü Qasımlıda qalmışdı. Polkovnik indi ağ vərəqə hansısa qeydlər edirdi. Qaşqabaqlı görünməyindən başa düşülürdü ki, müşahidəsindən o qədər də razı deyildi. Nəhayət, məktubu bir neçə dəfə gah işığa tutub, gah stolun üstünə qoyandan sonra, deyəsən, yoruldu və ayağa qalxıb onu müstəntiqə qaytardı. Qeydlər etdiyi vərəqi isə qatlayıb pencəyinin cibinə qoydu.

Müstəntiq məktuba baxdı. O, korlanmamışdı. Heç rəngdən də əsər-əlamət yox idi.

- Bilmək olar, nə öyrəndiniz? - deyə polkovnikə müraciət etdi.

- Təəssüf ki, Məlikxanlının xeyrinə heç nə! - Qasımlı müstəntiqi diqqətlə süzüb cavab verdi. - Məktubu doğrudan da qız özü yazıb.

Ancaq mənim üçün maraqlıdır, vərəqin yuxarıdan iki sətrinin kəsil¬məsinə və yazının belə aydın, həm də səliqəli yazılmağına siz necə baxırsınız?

Əlibəyli məktuba bir də gözucu nəzər salıb cavab verdi:

- Vərəqin kəsilməyi elə bir şübhə doğurmur. Məktub tamdır. Müraciət və böyük hərflə başlanır: «Əziz ata və ana!»... Qaldı yazının sərbəst və səliqəli yazılmağı, mənim fikrimcə, bu ancaq onu göstərir ki... Venera bu məktubu heç bir zorakılıq olmadan, şəxsən özü, müstəqil yazıb. Belə çıxır ki, o özünü öldürməyi bir neçə gün əvvəldən düşünüb, nəhayət, qəti qərara gələrək, bu məktubu belə soyuqqanlılıqla yazıb. Yəqin ki, o bu sözləri



downloaded from KitabYurdu.az

düşünüb yazana kimi bir neçə dəfə vərəqləri korlayıb, və yenidən yazmağa başlayıb. Sonuncu dəfə, başlığı necə yazıbsa, yenə xoşuna gəlməyib, və həmin sətri kəsib ataraq, bizim oxuduğumuz başlıqla məktubu yazmağa başlayıb.

- Siz, şəxsən, necə fikirləşirsiniz, Məlikxanlı günahkardır? - Qasımlı soruşdu.

- Şəxsən mənim fikrimi soruşursunuzsa... - Ramin Əlibəyli bir qədər tərəddüdlə dilləndi. - Nə qədər ağır olsa da, bəli!

- Bəs sabahkı ekspertizadan nə gözləyirsiniz?

- Sperma qalıqları Məlikxanlıya aid olmaya da bilər... Bu hələ

onun günahsızlığına sübut kimi qəbul edilməyəcək. Ortada yazılışına heç bir şübhə doğurmayan məktub və ölüm hadisəsi var...

Fazil Məmmədli polkovnikə baxdı. Yəni müstəntiq də xəfiyyənin mənzildə dediklərini deyirdi...

- Bəs sizin fikrinizcə, biz nə etməliyik? Mən və onun vəkili? - Qasımlı qarşısındakılara qəribə görünən sualı verib Fazili göstərdi.

Müstəntiq Əlibəyli gülümsünüb nazik bığlarını tumarladı:

- Əgər doğrudan da, siz mənim məsləhətimi eşitmək istəyirsinizsə, şəxsən siz özünüzü boş yerə yormasanız yaxşıdır. Vəkil isə cinayət məcəlləsini vərəqləyib deməyə söz tapacaq...

Qanbay Qasımlı hələ ayaq üstündə dayanmışdı. Deyəsən, getmək istəyirdi. Ancaq birdən, nə düşündüsə, qəfil soruşdu:

- Qız özünü nə ilə zəhərləyib?

- Ekspertizaya görə... - Əlibəyli bir qədər duruxdu. - Adi zəhərlə... Sianidlə...



downloaded from KitabYurdu.az

- Nəyə qatılıbmış?

- Bir stəkan çaya.

- Çaydan nə qədər içilibmiş?

- Hamısı. Stəkanın dibində lap az qalıbmış.

- Stəkan haradan tapılıb?

- Stolun üstündən.

- Nəlbəkinin içində?

Deyəsən, müstəntiqin səbri daralırdı:

- Bəli, nəlbəkinin içində, ayaq üstə!

- Bu sianid deyil!.. - Polkovnik bunu deyib qapıya doğru getdi. Fazil Məmmədli də ayağa qalxdı. Qapıya çatanda Qasımlı

yenidən geri çevrildi:

- Sağ olun, Ramin müəllim, lazım olsa, yenə sizinlə əlaqə saxlayacağıq. Ruhdan düşməyin. Sabahı gözləyək!

Onlar kabinetdən çıxıb pilləkənlərlə aşağı düşdülər. Fazil Məmmədli bu saat haradasa nahar etmək barədə düşünürdü. Polkovnik Qasımlının isə nə düşündüyünü demək çətin idi. Maşının yanına çatanda, o, Fazildən birlikdə doktor Muradzadənin evinə baş çəkməyi xahiş etdi. Naəlac qalan vəkil bir söz deməyib sükanın arxasına keçdi.

## VI fəsil

## İlan öpüşü

Doktor Muradzadə yorğun və pərişan halda evə qayıdırdı. Piyada idi. Baş vermiş faciənin sarsıntısından ayrıla bilmədiyi üçün bu gün öz maşınına minməmişdi.



downloaded from KitabYurdu.az

Səhər müstəntiq Əlibəylinin qəbuluna getmişdi. Veneranın cəsədini hələ vermək istəmirdilər. Tibbi ekspertiza işini qurtarmadığı üçün... Sonra ağır sarsıntıdan xəstəxanada yatan Nelya xanımın yanında olmuşdu. Onun vəziyyəti hələ normallaşmırdı. Doktor Moskvada oxuyan oğluna zəng vurmaq istəmişdisə də buna ürəyi gəlməmişdi.

İndi yenə prokurorluqdan gəlirdi. Müstəntiq Səyavuş Nəzərlinin yanından. O, Nəzərlinin arvadını müalicə edib sağaltmışdı. Xasiyyətləri tutduğu üçün o vaxtdan aralarında dostluq münasibətləri yaranmışdı. Səyavuş müəllim də Muradzadə kimi təmiz əqidəli və prinsipial adam idi. Böyük hörmət bəslədiyi doktorun başına gələn müsibətdən hiddətlənən Nəzərli, vəziyyətlə maraqlanıb bildirmişdi ki, istintaqı aparan Ramin Əlibəyli işə çox ciddi girişib və Məlikxanlı, tutduğu posta baxmayaraq, öz layiqli cəzasını alacaq.

Doktorun yuxusuzluqdan gözləri qızarmış, fikirdən və yor¬ğunluqdan başında ağrı əmələ gəlmişdi. Paltarı əzilib qırışmışdı. Dünən axşamdan dilinə heç nə dəyməsə də, yemək yadına düşmürdü. Özünü mənzilə çatdırıb divanda oturmaq istəyirdi.

Blokun qapısı yanında maşına söykənib durmuş Ələsgər Atayevlə rastlaşdı. Ələsgər həkim qabağa gəlib kədərlə salam verdi:

- Bu nə müsibətdi, doktor?

Muradzadə çiynini çəkib yerə baxdı. Kövrəldiyi üçün dostuna heç bir cavab verə bilmədi.

- Səhər, eşidən kimi gəldim. - Atayev ah çəkib dilləndi. - Qapınız bağlı idi. Telefonunuz da cavab vermədi...

- Qapımız elə bağlanmayıb ki, bir də açılsın.. - doktor kövrəldiyini göstərməmək üçün dodağını bərk-bərk dişlədi.



downloaded from KitabYurdu.az

- Elə demə! - Atayev təskinlik verməyə başladı. - Səbirli ol! Dost var, düşmən var! İnsanın başına iş gələr. Ancaq bu uşaq niyə özünə qəsd eləyib axı?

- Bilmirəm...

Doktor, qaynının məsləhətinə görə hələlik Məlikxanlının adını çəkmək istəmirdi. Bir də ki, öz dili ilə deyə də bilməzdi bu biabırçılığı...

- Dəfn nə vaxtdır? - Atayev soruşdu.

- Bilmirəm... - doktor əzgin halda blokun qapısına baxdı. - Hələ verməyirlər meyiti...

Dostu onun son dərəcə yorğun olduğunu başa düşüb ayrılmağa tələsdi:

- Yaxşı, sən çıx evə, yorğunsan. Sonra söhbət edərik.

Muradzadə başı ilə razılığını bildirib bloka girdi və pilləkənləri

ağır-ağır çıxmağa başladı. Onu ağır dərdə salan, ürəyini partlamaq dərəcəsinə gətirən, təkcə qızının ölümü deyildi. Əgər Veneranı küçədə maşın vursaydı, ya təsadüfi bir caninin əlində ölsəydi, vəziyyət bir az başqa cür olardı. Ancaq bədbəxt ata indi, sözlə ifadə edə bilmədiyi bir vəziyyətə düşmüşdü. Venera indi onun nəzərində əvvəlki məsum, körpə Venera deyildi. O, ləkələnmişdi... Murdar adamlar onu çirkaba bulamışdılar! Bu cinayət cəzasız qalmamalıydı. Doktor intiqam hissi ilə alışıb yanır, heç cür səbrini basıb ibtidai istintaqın nəticəsini gözləyə bilmirdi. Hadisənin dünən, günortadan sonra baş verməsinə baxmayaraq, ona elə gəlirdi ki, qızın ölümündən uzun bir müddət keçib və nəyə görəsə, günahkarın cəzalandırılmasını yubadırlar...

Mənzilə girib, qəbir sükutu hökm sürən otaqları gəzməyə başladı.



downloaded from KitabYurdu.az

Bayaqdan şəhərin dərd, kədər, ümidsizlik qatılmış isti havasından boğularaq mənzilinə yetişməyə tələsirdisə, indi də boş, kimsəsiz otaqların divarları onu sıxır, yaralı qəlbini əzirdi.

Gözü divardakı ailəvi fotoya sataşdı. Orada altı yaşında olan qara, qıvrım saçlı Venera atasının qucağında idi. Əsəbləri onsuz da korlanmış doktor gözlərindən səssiz dolub-daşan, yanaqları boyu sü¬zülən göz yaşlarını çox çətinliklə saxlaya bildi. Qapının zəngini eşidəndə cəld vanna otağına girib əl-üzünü yudu. Dəsmalla qurulanıb, narahat halda qapını açmağa getdi.

Gələnlər Qanbay Qasımlı ilə Fazil Məmmədli idilər. Ev sahibi onları tanımırdı. Qasımlı səmimiyyətlə görüşüb başsağlığı verdi və prokurorluqdan gəldiklərini söylədi. Fazilə də tapşırmışdı ki, Məlikxanlının vəkili olduğunu bildirməsin.

- Mən onun həbs olunduğunu nə vaxt eşidəcəyəm? - Muradzadə hiddətlə soruşdu.

- Tezliklə! - Qasımlı ciddi şəkildə cavab verdi. - Ancaq onun cinayətini sübut etmək lazımdır.

- Məgər o boyda məktub sübut deyil? - doktor istehzaqarışıq kinlə sual verdi.

- Sübutdur! Ancaq kifayət deyil. - Fazil söhbətə qoşuldu.

Doktor ona ani sərt nəzər salıb yenə polkovnikə baxdı:

- İndi məndən nə istəyirsiniz?

- Otağa keçmək olar? - Qasımlının səsində mehribanlıq var idi.

- Buyurun...

İntiharın baş verdiyi otağa keçdilər. Təcrübəli xəfiyyə otağa sürətli bir baxış keçirib, ağır sarsıntının təsirindən büzüşmüş Muradzadəyə baxdı:



downloaded from KitabYurdu.az

- Qızınızın əsas rəfiqəsi kimlər idi, əks cinsdən dostu var idimi, əsas məşğuliyyəti nə idi? Bu kimi suallara cavab versəniz, sizə çox minnətdar olarıq. Yəqin sizin üçün də maraqlı və vacibdir ki, bu ha¬disənin necə və hansı səbəblərdən törəndiyini aşkara çıxaraq.

Qanbay Qasımlının nüfuzedici və ağıllı baxışları öz işini görmüşdü. Doktor bir qədər sakitləşmiş, istintaqa kömək etməyin vacib olduğunu başa düşmüşdü. Odur ki, o da təmkinlə danışmağa başladı:

- Doğrusu, boynuma almalıyam ki, bu hadisədə mən də, anası da günahkarıq. Biz, başımız öz işimizə qarışdığı üçün qızımızın həyatı ilə maraqlana bilmirdik. Necə oxuyur, kimlərlə oturub-durur, dərsdən sonra haralarda olur, bax, bunlardan bizim kifayət qədər məlumatımız olmayıb. Pul istəyəndə vermişik, pal-paltar almışıq və elə bilmişik ki,

bununla da öz borcumuzu yerinə yetiririk. Bəli... Biz də günahkarıq... Rəfiqə deyirsiniz... Elə bilirsiniz, tanıyıram rəfiqələrini? Xeyr, tanımıram. Bir onu bilirəm ki, qrup yoldaşlarından Gülşən adlı qızla, hərdən, axşamlar telefonla danışırdı. Qızın adı bundan yadımda qalıb... - alnını qırışdırıb Qasımlıya baxdı. - Sonra nə soruşdunuz?

- Oğlan dostu olubmu? - Qasımlı sualı təkrar etdi.

- Xeyr, məncə, yox! Ancaq əslində bayaq dediyim kimi, indi başa düşürəm ki, onun həyatından xəbərsiz olmuşam. Təsəwür də edə bilmirəm, Məlikxanlı kimi adamlar hara, mənim qızım hara?!

- Məşğuliyyəti nə idi qızın?

- Dərslərini oxuyurdu... Musiqiyə qulaq asmağı sevirdi. Bir audiokaset gətirmişdi haradansa. Son günlər, gündə neçə dəfə ona qulaq asırdı. Əsas da bir türk mahnısına... Sözlərinin bir misrası mənim də yadımda qalıb: Qara xəbər tez duyulur...

- Barış Mançonun mahnısıdır. - Fazil cəld dilləndi.



downloaded from KitabYurdu.az

Doktor qonaqların üzünə baxıb kədərlə başını yellədi və susdu.

- Qızınız, ümumiyyətlə, son günlər özünü necə aparırdı? - polkovnik sorğu-sualı davam etdirdi.

- Necə deyim... - Muradzadə bir qədər fikirləşməyə məcbur oldu. - Heç nə duymamışam. İndi isə xatırlayıram ki, son vaxtlar bir

az qaraqabaq olmuşdu. Narahat idi elə bil... Elə o dediyim mahnı... Yaman çox oxudurdu onu axşamlar...

- Bu dəyişiklik nə vaxtdan baş vermişdi?

- Deyə bilmərəm... Bir ay olardı... Bəlkə də iki ay?..

- Qızınız bu zəhəri haradan əldə etmiş olar?

Doktor Muradzadə heç bu barədə düşünməmişdi. Özünü itirib çiyinlərini çəkdi:

- Bilmirəm... Deyə bilmərəm... Nə zəhərdi ki?..

Xəfiyyə əvvəlcə dinmədi. Sonra doktorun cavab gözlədiyini görüb zəhərin adını hər hərfi uzun tələffüz etməklə söylədi:

- Kaa... Ess...

Doktor dəhşət ifadə edən baxışlarını bir müddət Qasımlının ağzına dikib dayandı. Bilmək olmurdu, o təcrübəli kriminalistin adının baş hərflərini dediyi zəhəri tanıdı, yoxsa yox... Elə Fazil Məmmədli də təəccüblə polkovnikə baxırdı. Qasımlı söhbəti dəyişməyi lazım bildi:

- Qızın şəxsi əşyalarına, dəftər-kitabına baxan olub?

- Bəli... - doktor key kimi cavab verdi. - Gəlib hər şeyə baxdılar. Səhər tezdən. Heç nə tapılmadı. Bir mühazirə dəftərini apardılar.

- İcazə versəydiniz, biz də kiçik bir müşahidə aparardıq.

- Buyurun! - doktor əli ilə otağı göstərdi.



downloaded from KitabYurdu.az

Xəfiyyə bir müddət Veneranın dəftərləri, kitabları və digər xırda əşyaları ilə qurdalanıb, naharının vaxtını ötürdüyü üçün bərk narahat olan Fazil Məmmədlinin hövsələsi ilə oynadı. Sonra mətbəxə keçib qab-qacaq yığılmış mətbəx mebelinə baxmağa başladı. Ağzı üstə çevrilmiş təmiz stəkanlara əl vurmadan, əyilib bir xeyli onlara diqqət yetirdi. Nəhayət cibindən çıxardığı ağ dəsmalla onların birini götürüb bükdü və onun hərəkətlərini izləyən vəkilə uzatdı:

- Bunu müstəntiq Əlibəyliyə çatdırarsınız. Qoy əl izlərini götürüb saxlasın. Çox güman, bizə lazım olacaq. - sonra üzünü doktora tutdu: - Hadisədən sonra burada çay içən olmayıb ki?

Doktor yarı istehzalı cavab verdi:

- Yox! Elə çay yadımıza düşürdü...

Qasımlı yenə əvvəlki otağa qayıtdı. O birilər də onun arxasınca gəldilər.

- Qayçınız bir dənədir? - xəfiyyə başı ilə kitab şkafının yuxarı rəfində güclə görünən qayçıya işarə etdi.

- Nə? - ev sahibi, deyəsən, sualı anlamadı.

- Qayçı!

- Hə! Həmişə burada olur. - doktor əlini qayçıya uzatdı.

- Dayanın!

Doktor xəfiyyənin qətiyyətli səsini eşidib dayandı və təəccüblə ona baxdı. Qasımlı əli ilə çənəsini qaşıyıb, bir an nəsə fikirləşdi. Sonra kitablardan birini götürüb qayçının üstünə qoydu. Dönüb ev sahibinə tapşırdı:

- Xahiş edirəm, bu qayçıya heç kəs toxunmasın. Və çalışın ki, mənsiz heç kəsə verməyəsiniz! Əgər mənsiz, gəlib deyən olsa ki, qayçını polkovnik istəyir, yalnız onda qayçını həmin sözləri deyən adama verərsiniz. Məni başa düşdünüzmü?



downloaded from KitabYurdu.az

Doktor Muradzadə kənardan təəccüblə baxan vəkil kimi heç nə başa düşməmişdi. Ancaq əllərini yana açıb müticəsinə dilləndi:

- Necə deyirsiniz, elə də edərəm.

Qanbay Qasımlı bir daha otağa göz gəzdirib qapıya doğru getdi. Ev sahibini narahat etdikləri üçün üzr istəyib mənzildən çıxdı. Onun arxasınca gələn Fazil qapı örtülən kimi tələsik soruşdu:

- Əgər qayçı lazım idisə, niyə götürmədik?

- O barədə heç kəsə bir kəlmə də deməyin! - polkovnik cavab əvəzinə tapşırıq verdi.

- Qız özünü nə ilə zəhərləyib ki? KS nədir?

- Bu yeni düzəldilmiş çox güclü bir zəhərdir. Əsasən tabletka şəklində olur. İysiz, şirin dadlı bir zəhərdir. Qəbul etdikdən beş dəqiqə

sonra qəfil təsir edir və bütün orqanları sıradan çıxarır. İngilis dilindən tərcümə etsək, romantik bir adı var.

- Nə? - vəkil maraqla soruşdu.

- İlan öpüşü!

Saat artıq dördə işləyirdi. Qasımlı üzbəüz mənzilin zəngini çaldı. Qapını açan olmadı. İkinci mərtəbəyə düşdülər. Qasımlı qapılara ani nəzər salıb, birinin üstündəki düyməni basdı. Qapını handan-hana yaşlı, xəstə görkəmli bir qadın açdı. Yad adamları başdan-ayağa süzüb:

- Sizə nə lazımdır? - deyə soruşdu.

- Mən sizin üstünüzdəki mənzildə baş verən ölüm hadisəsini araşdırıram. - Qasımlı dilləndi. - Xahiş edirik, deyin, siz dünən günorta və ya günortadan sonra blokunuzda şübhəli bir adama rast gəlməmisiniz ki?



downloaded from KitabYurdu.az

Qadın bu mədəni adama diqqətlə baxıb bir anlıq fikrə getdi və danışmağı qərara aldı:

_ Mən xəstə adamam, ay bala. Oğlumla tək yaşayırıq. O da səhər tezdən gedib, gecə qayıdır. Bir tikə çörəyinin avarasıdır. Mən heç dünən mənzildən çıxmamışam. Oğlumun canı üçün düz deyirəm. Tək bir dəfə müəllimin oğlu gələndə qapını açmışam. Pul yığırdı.

Pulunu verdim, getdi. Saat üç olardı. Sonra heç qapını açmamışam.

- Müəllim kimdir? Onun oğlu pulu nə üçün yığırdı?

- Müəllim də... Adını da bilmirəm. Birinci mərtəbədə olur. 37-də. Hər ay bizdən iki min manatdan pul yığdırıb zibildaşıyanlara verir ki, zibili vaxtında yığıb aparsınlar. Yoxsa aparmırlar axı?! Aylaman yığılıb qalır. Şikayət eləmirəm ha!.. Elə bilərsiniz şikayət edirəm. Onlar da ailəsini saxlayır...

Qasımlı qadına qısaca “Sağ olun!” deyib tələsik birinci mərtəbəyə endi. Heç nə başa düşməyən Fazil də təhqiqatın tezliklə bitəcəyi və haradasa nahar edəcəkləri ümidi ilə dönüb onun dalınca düşdü. O, bütün bunları mənasız və artıq bir iş hesab edirdi. Eyni zamanda onu da düşünürdü ki, məşhur xəfiyyə öz qəti qərarını verməzdən əvvəl hər şeyi özü yoxlamaq istəyirsə, buyurub yoxlasın. Ancaq bunu yemək yeyəndən sonra da etmək olardı.

Polkovnik 37-ci mənzilin düyməsini basdı. Kimsə gözlükdən baxıb çəkildi və qapının arxasından gənc bir qadın səsi eşidildi:

- Kimdir?

- Biz doktorun qohumlarıyıq. - Qasımlı ani nəzərlə Fazilə baxıb davam etdi: - 41-ci mənzildə yaşayanın. Xahiş edirik, bir dəqiqəlik qapını açın!



downloaded from KitabYurdu.az

Qapı açıldı. Onlarla danışan qarayanız bir gəlin idi. On üç-on dörd yaşlı bir oğlan da gəlib onun yanında durdu.

-Allah rəhmət eləsin, ay qardaş! - qadın canıyananlıqla dilləndi. Biz də axşam eşitdik. Yazıq qız niyə öldürüb özünü, heç kəs bilmir...

- Xahiş edirəm, bizə kömək edin. - Qasımlı sakitcə dilləndi. - Dünən siz bu bloka girən yad adam görmüsünüz?

- Yox, ay qardaş, yadıma gəlmir. Görməmişəm.

- Sizin oğlunuz dünən mənzillərdən pul yığırmış, düzdür?

- Bəli, hər ay Səmid yığır zibil pulunu. Zibilyığan gələndə yoldaşım verir onlara...

- Budur Səmid? - Qasımlı oğlanı göstərdi.

- Bəli, budur.

Polkovnik mehribanlıqla oğlana baxdı:

- Sən dünən doktorun ailəsindən də pul aldın?

- Bəli, aldım! - oğlan cavab verdi.

- Kimdən aldın pulu?

- Doktorun qızından.

- Qapını o açdı?

- Bəli! Dedim, iki min manat verin. O da dönüb kimdənsə bərkdən soruşdu ki, üstündə iki min manat var? Sonra otağa girib

qayıtdı. Gətirib mənə bir "Şirvan" verdi. Mən də səkkiz min qaytardım.

- Pulları neylədin?

- Özümdədir. Hamıdan yığıb qurtarandan sonra atama verəcəm. Dünən üç-dörd mənzilin qapısını açan olmadı.



downloaded from KitabYurdu.az

- Neçə dənə on min manatlıq pul var səndə?

-“Şirvan” bir dənədir. Qalanı hamısı minlikdir.

- Gətir o pulu buraya, baxmaq istəyirəm.

Oğlanın anası susub təəccüblə söhbətə qulaq asır, ancaq müdaxilə etmirdi. Səmid içəri qaçıb, tez də əlində bir on min manatlıq kağız pulla qayıtdı.

Qasımlı cibindən həmin puldan çıxarıb uşağa verdi. Ondakı pulu alıb boş vərəq istədi. Səmid vərəqi gətirən kimi pulu səliqə ilə həmin vərəqə qoyub bükdü və onu da Fazilə uzatdı.

- Əlibəyliyə verərsən! - deyib qadına təşəkkürünü bildirdi və blokdan çıxdı. Bu zaman arxadan qadının səsi eşidildi:

- Qardaş, bir dəqiqə dayanın!

Qasımlı geri qayıdıb yenidən bloka girdi. Qadın ətrafa baxıb, söhbətini kənar şəxsin eşitməyəcəyinə əmin olandan sonra astadan danışmağa başladı:

- Dünən, günorta mən çörək almaq üçün blokdan çıxanda

gördüm ki, bir oğlan qabaqdan gəlir. Bizim bloka tərəf. Biz bir-birimizin lap yanından keçdik. Daha, sonra mən onu görmədim.

- Saat neçə olardı, onda?

- İki, ya üçün yarısı olardı...

- O, necə adam idi? - polkovnik sakitcə soruşdu.

- Belə... Necə başa salım?... Otuz-otuz beş yaşı olardı. Bığlı oğlan idi. Mədəni adama oxşayırdı. Bir əli tənziflə sarınmışdı. O biri əlində nə isə var idi...

- Nə idi? Xahiş edirəm, yadınıza salın! - Qasımlı təkidlə soruşdu.

- Nəsə nazik bir qovluq idi, ya jurnal idi, fikir vermədim.



downloaded from KitabYurdu.az

- Deyirsiniz əli sarıqlı idi. Hansı əli?

-Yadımda deyil...

- O sizin sağınızdan keçdi, ya solunuzdan?

- Sağ tərəfimdən keçdi. Mənə tərəfki əli sarıqlı idi.

- Deməli, sağ əli?

- Bəli.

-Aha... - Qasımlı mənalı tərzdə başını yırğaladı. - Siz o adamı başqa vaxt görmüşdünüz?

- Xeyr! Heç vaxt görməmişdim.

- Çox sağ olun. Sizə təşəkkür edirəm!

- Dəyməz...

Binadan çıxıb maşına mindilər. Fazil maşını işə salıb dedi:

- Mən acından ölürəm, Qanbay müəllim!

- Onda məni avtobus dayanacağında düşür, get yemək ye! Ancaq stəkanla pulu müstəntiqə bu gün çatdır. Mən evə gedəcəm.

- Gedək, birlikdə nahar edək! - Fazil təklif etdi.

- Yox, mən fikirləşmək istəyirəm! - Qasımlı qaşqabaqlı cavab verdi.

Daha danışmadılar. Dayanacağa çatanda qapını açıb:

- Xahiş edirəm, mənsiz hər hansı prosessual hərəkət etməyin.

Məsələ sizin düşündüyünüzdən də dolaşıq və ciddidir! - dedi və maşından düşüb dayanacağa keçdi.

* * *



downloaded from KitabYurdu.az

O, mənzilinə girəndə, Nuranə də axşam yeməyini hazırlamaq üçün, təzəcə gəlmişdi. Mətbəxdən qab-qacaq səsi gəlirdi. Ev sahibinin gəldiyini bilib mətbəxdən çıxdı.

- Nahar eləmisiniz?

- Yox! - Qasımlı başını buladı. - Amma iştaham da yoxdur. Axşam yeməyini yeyərəm. İndi qəhvə içəcəm.

Bunu deyib, iş otağına keçdi və stolun arxasında əyləşib

müstəntiqin kabinetində qeydlər etdiyi vərəqi çıxardı. Onu qarşısına qoyub bir siqaret yandırdı. Qeydlərini bir də oxuyub dərin fikrə getdi.

Bir azdan Nuranə qəhvə fincanını gətirib onun qarşısına qoydu. Başını əlinə söykəyib düşüncələrə dalmış polkovnik, sanki bunu heç hiss etmədi. Hər halda, Nuranəyə belə gəldi. Axı hər dəfə o, Qasımlı üçün qəhvə gətirəndə başını qaldırıb təşəkkür edirdi!? «Yəqin, görmədi. Yenə soyudacaq!» Qasımlının isə artıq, fikirləri qarışmağa başlamışdı. «Bu qadın niyə çıxıb getmir?!»

- Gətirdim, soyutmayın! - Nuranə xəbərdarlıq etmək istədi.

- Gördüm, çox sağ olun! - Qasımlının səsində az da olsa kobudluq var idi.

- Bağışlayın... - Nuranə bunu deyərək, dönüb getdi.

Qasımlı başını qaldırıb onun arxasınca baxdı. Onsuz da

düşüncələrdən ayrılmışdı. Bu qadında son vaxtlar müsbət dəyişikliklər baş verirdi. Elə indi də, paltarını dəyişmişdi. Əynində enli, qara şalvar, mavi köynək var idi. Ancaq dəyişən təkcə paltar idimi?..

Yadına Gülafət xanım düşdü. Qəribədir, ona elə gəlirdi ki, artıq doğma bir adamı var. Bu qadın indi, yəqin ki, ərinin düşdüyü çıxılmaz vəziyyətə



downloaded from KitabYurdu.az

görə əzab çəkirdi. Qasımlı boynuna götürdüyü bu işi müvəffəqiyyətlə başa çatdırıb, Məlikxanlının təmiz adını özünə

qaytararsa, Gülafət xanımın da əzablarına son qoyulacaqdı...

Çalışmaq lazım İdi və Qanbay Qasımlı bütün fikirləri başından qovub işə girişdi. Qeydlərini bir daha diqqətlə gözdən keçirib bu dəfə başqa ağ vərəqdə yeni qeydlər etməyə başladı. O, indi xəfiyyədən çox, öz əsəri üzərində işləyən yazıçıya bənzəyirdi. Tez-tez dayanıb düşünür, soyuq qəhvədən bir qurtum içib, siqaret yandırır, yenə nə isə yazırdı. Nəhayət, işini qurtarıb ayağa qalxanda saat yeddi olmuşdu. Möhkəm acdığını hiss edib, mətbəxə keçdi. Nuranə axşam yeməyini hazırlayıb süfrəyə düzmüş, özü isə sakitcə çıxıb getmişdi...

## VII fəsil

## Ehtirasın qələbəsi

Həmin gün Fazil Məmmədli xoşagəlməz xəbəri Gülafət xanıma çatdırıb, onun kabinetindən çıxandan sonra, sarsılmış qadın ərinin iş yerinə zəng vurdu. Yerində olmadığını dedilər Evə zəng vurdu. Dəstəyi götürən olmadı. Cib telefonu da bağlı idi. Gülafət xanım bilmirdi ki, Məlikxanlı bu gün səhər cib telefonuna yeni nömrə aldırmış və onu da hələlik, yalnız üç nəfərə - Ruslan Dadaşova, Qanbay Qasımlıya və sürücüsü Asəfə bildirmişdi.

İşdə heç cür qərar tuta bilməyib evə gəldi. Kostyumunu çıxarıb, mavi rəngli ev xalatını geyindi. Başını qarışdırmaq üçün yemək hazırladı. Nahar edib, süfrəni yığışdırdı və boş-boşuna otaqları gəzməyə başladı. Ürəyi qəfəsdəki quş kimi çırpınır, sakit ola bilmirdi.



downloaded from KitabYurdu.az

Deməli, Niyazinin belə işləri də var imiş?! Qız uşağını yoldan çıxarıb, namusunu ləkələyib!.. Özü də gör, kimin qızının?! Doktor Muradzadənin! Ziyalı, tərbiyəli bir ailənin qızının. Gör necə harınlayıbmış bu?! Gör necə gözü qızıbmış bunun! Əclaflığa bax!

Ən əsası o idi ki, o, Gülafət xanıma xəyanət etmişdi. Gənc və gözəl qadın bu xəyanəti heç cür bağışlaya bilmirdi. O, qısqanc bir

qadın idi və sevdiyi ərinin ondan başqa, kiməsə mənsub olmağını heç vəchlə qəbul edə bilmirdi. Məlikxanlı onu həmişə sevib əzizləsə də, ər-arvad münasibətlərinə çox az vaxt tapa bilirdilər. Buna baxmayaraq, o, bir dəfə də ərinə xəyanət etməmişdi.

Məgər o, insan deyildi? Qadın deyildi? Əlbəttə, qadın idi. Həm də, lap yaxşısından! O öz gözəlliyini lap yaxşı başa düşürdü. Kişilərin ona necə oğrun-oğrun baxdıqlarını da duyurdu. Elə sürücüləri Asəf! Tərbiyəli, saf uşaqdır. Ancaq onunla üzbəüz gələndə özünü itirir, üzünə düz-əməlli baxa bilmir.

Lap Ruslan özü! Niyazinin dostu olsa da, Gülafətə qarşı münasibətini gizlədə bilmir. Əlinin altında o qədər gözəl qızlar, qadınlar var. Həmişə də seçib, ən gözəllərini işə götürür. Ancaq yenə gözü Gülafətdədir. Danışanda üzünə baxmaq əvəzinə, ora-burasına baxır.

Gülafət xanımın Ruslan Dadaşovdan xoşu gəlmirdi. Kürən, gözləri pişik gözü kimi parıldayan, həmişə yekə dodaqlarını gəmirən bu adam ona vəhşi pələng təsiri bağışlayırdı. Yaşı qırxa çatmasına baxmayaraq hələ evlənməmişdi. Gülafət xanım, nədənsə, Ruslanı yataqda başqalarından son dərəcə fərqli hesab edirdi və düşünürdü ki, o, nə yaxşı evlənmir. Ona ərə gedən qadın həftənin sonuna

salamat çıxa bilməzdi. Çünki Ruslanın sifətində nəvazişdən, insafdan əsər-əlamət yox idi.



downloaded from KitabYurdu.az

Axşam bağda, ərinin qonağı olan o ciddi şimalı kişi yadına düşdü. Qəhvə fincanını onun qarşısına qoyanda, o, qadının gözlərinə elə bir iti baxışla baxdı ki, baxışları iti bıçaq kimi kəsib, Gülafət xanımın içini doğradı. O, görəsən, nəyə görə qəflətən belə baxdı? Qətiyyən qadın düşkününə oxşamırdı o! Ancaq yəqin, o da Gülafət xanımın gözəlliyi qarşısında dözə bilməmişdi. Elə Gülafət xanımın da, iik baxışdan, ondan xoşu gəlmişdi və özündən asılı olmayaraq bunu baxışları ilə bildirmişdi.

Ətrafında o qədər, ərindən də yaxşı kişilər tapa bilərdi ki! Ərinin heç uşağı da olmurdu... Məgər Gülafət ona xəyanət edə bilməzdi? Əlbəttə, edə bilərdi! Buna imkan da var idi. Asəf özü istənilən vaxt onun sərəncamında idi. Lakin Gülafət xanım ərinə xəyanət etmək, öz təmiz adına, öz xanımlığına ləkə yaxmaq istəmirdi.

Ah Niyazi! Məgər mən kimdən pisəm ki, məni başqalarına dəyişmisən? İndiki qızların hansı sənə verdiyim xoş duyğuları verə bilər axı? Heç biri! Niyə özünü də, məni də rüsvay elədin? İş yoldaşlarımın, rəfiqələrimin üzünə necə baxacağam mən?

O, elə bilirdi ki, çox yuxarılardan aşağı yuvarlanıb. Hiss edirdi ki,

daxili mənliyi də əwəlki deyil. Bu mənlik tapdalanmışdı. Poliklinikada həmişə ona qibtə edənlər, şirin dillə dindirib, nəvaziş göstərənlər, ona ideal və əlçatmaz bir xanım kimi baxanlar arxasınca pıçıldaşacaq, rişxənd edəcəkdilər.

Ona elə gəldi ki, bax indicə, ən adi bir kişi ilə - fəhlə olsun, sürücü olsun, fərqi yoxdur - əlaqədə ola bilər... Lakin, yox! O başa düşdü ki, bərk əsəbiləşdiyi və sarsıldığı üçün belə düşünür. Əslində Gülafət xanım sınmışdısa da, parçalanıb tökülmək istəmirdi. Bəlkə də bu sınığı, nə vaxtsa, yamamaq mümkün olacaq. Ancaq qüruru, mənliyi parçalanıb tökülsə, yığıb-yığışdırmaq olmayacaq!



downloaded from KitabYurdu.az

Gülafət xanım incə duyğulu, eyni zamanda, güclü hissiyyatlı bir qadın idi. Lakin bu hissiyyatını həmişə daxilində gizlədirdi. Baxışları vasitəsilə başqalarına məlum olmasına imkan vermirdi. O, kişilərin nəvazişli sözlərini, ehtiraslı baxışlarını çox xoşlayırdı. Bundan, həmişə, daxili bir zövq alırdı. Kobudluğu, sırtıqlığı isə sevmirdi. Ona yönəldilən istənilən münasibət mədəni olmalı idi. Səmimiyyətlə, məhəbbətlə müşayiət olunmalı idi. Etika qanunları çərçivəsindən çıxmamalı idi. O, ürəyinə yatan əks cins nümayəndəsinin qəlbinə beləcə sahib olmağını istəyirdi. Tam hüquqlu sahib kimi bütün varlığına, vücuduna, mənliyinə, namusuna sahib olmağını isə

istəməzdi.

Birdən-birə yadına bağda yaşadığı intim bir epizod düşdü...

Bazar günü yığışıb bağa getmişdilər. Asəf də onlarla idi. Kabab süfrəsinə hazırlıq görülürdü. Mərmər hovuzun yanındakı kölgəlikdə hərə bir iş görürdü. Gülafət xanım da dizlərini tam qatlayıb yerə qoyulmuş çuqun tasdakı doğranmış əti qarışdırırdı. Əyninə yüngül, nazik parçadan şalvar və şalvarın üstünə sallanan köynək geymişdi. Arxası stola tərəf idi və qarşısında dayanan Asəfdən xahiş etdi ki, stolun üstündəki istiot qabını götürüb ona versin. Əri onda, deyəsən, evin böyründə öz sevimli iti ilə məşğul idi. Asəf arxaya keçib, istiot qabını götürdü və onu Gülafət xanıma verənədək, lazım olandan çox vaxt keçdi. Gülafət xanım birdən başa düşdü ki, köynəyi yuxarı dartıldığı üçün arxadan alt paltarı və çılpaq belinin bir hissəsi görünür. Asəf özündən asılı olmayaraq, dayanıb bir neçə anlığa ona tamaşa etmişdi. İstiot qabını ona verəndə özündə olmadığı açıq-aşkar hiss olunurdu.

Onda Gülafət xanımın bütün bədəninə ləzzətli bir duyğu yayıldı. Sadiq və səmimi bir oğlan hesab etdiyi Asəfə qarşı içində bir məhrəmlik də baş qaldırdı. Asəfi xoş dillə dindirməyə bir ehtiyac hiss etdi özündə.



downloaded from KitabYurdu.az

- Yorulmamısan ki, Asəf? - deyə soruşdu.

- Yox, yox, o nə sözdü, Gülafət xanım?

Onda Asəfin də səsində əvvəlkindən daha artıq mehribanlıq, daha artıq sadiqlik hiss olundu. Gülafət xanım qabı ona qaytarıb, yerinə qoymağı xahiş etdi və Asəf arxasına keçəndə bu dəfə bədəninə yayılan istilik ona daha artıq ləzzət verdi. O xoş anları Gülafət xanım indiyə qədər unuda bilməmişdi.

Asəf cavan, yaraşıqlı oğlan idi. Bir az da utancaqlığı var idi. Bəzi sürtük cavanların tayı deyildi. O, birdən-birə Gülafət xanımın gözündə daha da gözəlləşdi, şirinləşdi və doğmalaşdı. Onun bütün xahiş və göstərişlərini sevinclə yerinə yetirən, onun qulluğunda durmaqdan zövq alan bu oğlanı görmək istədi. Təkcə görmək yox, onun istək dolu baxışlarını üzərində duymaq, məhəbbət hiss-həyəcanlarını onunla bölüşmək arzusu keçdi ürəyindən.

Daxilində baş qaldıran isti bir ehtiras onu incidirdi. Ona görə incidirdi ki, bu saat arzuladığı yanında yox idi. Ancaq bu ehtiras, həm də, onu xumarlandırır, qəribə, şirin bir burulğana salırdı. Gəlib ağzı üstə divanda uzandı. Rahatlıq tapa bilməyib çevrildi və əlini öz yaraşıqlı əndamına çəkdi. Birdən-birə həyatı, yaşayışı, taleyi ona çox mənasız və acınacaqlı göründü. Yenə ağzı üstə çevrilib hönkürtü ilə

ağlamağa başladı.

Ağlayıb ürəyini boşaldandan sonra, ayağa qalxaraq əl-üzünü sərin su ilə yudu. Yaxınlaşıb güzgüdə özünə baxdı. Onsuz da həmişə zərif və bir qədər də solğun olan sifəti bəzək-düzəksiz də gözəl və cazibədar görünürdü. Sağ yanağındakı kiçik qara xal simasını bir az da şirinləşdirirdi.

Yenə otağında gəzişməyə başladı. Bir fikir qəlbinə getdikcə hakim kəsilməyə başlayırdı. İstəyirdi ki, Asəf yenə də onun bədəninin naməhrəm



downloaded from KitabYurdu.az

hissələrini görsün. İstəyirdi ki, bağda aldığı həmin xoş zövqü bir daha yaşasın.

Burada çətin və ya pis nə vardı ki?.. Asəfi telefonla çağıracaq. Sonra da, o gələnə yaxın divanda uzanıb üstünü açacaq. Guya yatıb yuxuya qalıb və üstü də təsadüfən açılıb. Onun səsini eşidib ayağa qalxacaq. Bu vəziyyətdən hər ikisi utanacaq, hər ikisi sonsuz ləzzət alacaq. Sonra da deyəcək ki, səni çağırmışam, məni mağazaya aparasan. Ya da, nə isə başqa bir bəhanə. Asəfin ağlına heç nə gəlməyəcək...

Cib telefonunu əlinə götürdü. Birdən həyəcanlanmağa və ürəyi döyünməyə başladı. Qəribədir! Hətta lap çox qəribədir ki, o, Asəfə zəng vurmağa cəsarət etmirdi. Məgər ona nə deyəcəkdi ki?

Deyəcəkdi, gəl, mənə lazımsan! Belə zəngi indiyə qədər yüz dəfə edib və yüz dəfə həmin sözü demişdi. Anasıgilə getmək üçün, mağazaları gəzmək üçün və sair. Bəs indi ona nə olmuşdu?..

Telefonu stolun üstünə atıb yenə məqsədsiz halda otaqlarda gəzişməyə başladı. Onun daxilində, sanki ağlı və ehtirası kəskin mübarizəyə girişmişdi. Onların gah biri, gah da digəri üstünlük qazanır, ancaq hansının üstünlük qazanmasından asılı olmayaraq, bu çarpışma Gülafət xanımın içini incidirdi.

Nəhayət, qərara gəlib, bir də telefonu götürdü. Axı ondan nə gedirdi ki?.. Zəng vurub çağırar. Əgər o gələnə kimi fikrini dəyişsə, Asəfi ayaq üstə qarşılayar və xahiş edər ki, onu anasıgilə aparsın.

Axır ki, cəsarətini toplayıb zəng vurdu.

-Asəf, salam! Haradasan?

Asəf Məlikxanlının bağında idi. Səhər prokurorluqda olmuş, izahat vermişdi. Məlikxanlının izahatını isə müstəntiq özü gəlib malikanəsində almışdı. İndi günorta idi. Təzəcə nahar etmişdilər. Məlikxanlı kölgədə,



downloaded from KitabYurdu.az

stolun arxasında oturub, başını əlləri arasına almışdı. Asəf ondan bir qədər kənarda idi.

- Bağdayam... - deyə cavab verdi.

- Niyazi oradadır? - qadın asta və titrək səslə soruşdu.

- Bəli... Ancaq getməlidir. Harasa çağırıblar.

Asəf burasını yalandan deyirdi. O, əslində, Məlikxanlının bağda olmadığını deməli idi. Lakin xətrini dünyalar qədər istədiyi Gülafət xanıma əwəldən yalan deyə bilmədi.

-Asəf, mən hər şeyi bilirəm...

- Bəli... - Asəf başqa söz tapmadı.

Yenə ürəyi döyünməyə başladı. Boğazının quruduğunu hiss etdi. Desinmi?.. Cəsarətini toplamağa çalışdı. Axı niyə də deməsin? Hələ ki, burada heç nə yoxdur?! Tək qalıb... Darıxır... Ürəyi partlayır!

- Evə gələ bilərsən? Mənə lazım olacaqsan... - sözlər ağzından qəfil çıxdı. Ancaq dilinin dolaşdığını da hiss etdi.

- Nə olub ki? - Asəfin səsində canıyananlıq var idi.

-Vacib lazımsan. Anamgilə gedəcəm...

- Gələrəm! Nə vaxt?

- Elə indi çıx! Mən hamamda olacam. Sən gələnə qədər çıxmasam, mənzilin qapısı açıq olacaq, açıb girərsən...

- Baş üstə! Gəlirəm!

Vəssalam! Ancaq bu hələ heç nə demək deyildi. Hələ fikrini dəyişə bilərdi. Hələ onu bürüyən bu qeyri-adi, maraqlı hisslərdən qurtarmaq olardı. Ancaq nədənsə, qurtara da bilmirdi. Düşdüyü cığırla

kor-koranə gedirdi...



downloaded from KitabYurdu.az

Soyunub vanna otağına girdi. Duş qəbul etdi. Sərin su damcıları bədəninə yayıldıqca, əli ilə sinəsini, ağappaq, sağlam budlarını sığallayır, elə bil atəşini söndürmək istəyirdi. Deyəsən bədənini sərinlədən suyun xeyri də oldu. Daxilini yandıran ehtiras öləziməyə başladı...

«Mən nə etmək istəyirəm? - deyə düşünməyə başladı. -Vallah, bu uşaqlıqdır, mən edirəm. Guya bununla nə olacaq ki? Sənə nə deyim, ay Niyazi, bunlar hamısı sənin ucbatındandır!» Qəlbində ərinə qarşı nifrətə oxşar bir şey də əmələ gəldi. Cəld qurulanıb, ağ rəngli alt paltarını əyninə keçirtdi. Üstündən mavi xalatını da geyinib vanna otağından çıxdı.

«Heç nə lazım deyil! Nahaq yerə zəng vurdum. Gəlsin, deyəcəm ki, fikrimi dəyişmişəm, başım ağrıyır...»

Lakin bu hislər çox az çəkdi. Cəmi beş dəqiqə... Qəbul etdiyi duşun sərinliyi bədənindən gedən kimi, o dəli istək yenidən öz yerinə qayıtdı. Qərarlaşdırdığı kimi, qapıya gedib, vurulmuş cəftəni çəkdi və geriyə qayıdıb divanda uzandı. Xoş və şirin xəyallar yenə onu öz qoynuna aldı.

... Qapının zəngi çalınanda, diksinib həyəcanlanmağa başladı.

Tez üzünü divanın söykənəcəyinə tərəf çevirib, böyrü üstə uzandı. Yaxası açıq olan xalatını yana çəkib, dizlərini qatladı. Gözəl, çılpaq ayaqları və alt paltarın qoruduğu arxa sahələr xalatdan tamam azad oldu. Xoş, ancaq həm də çox güclü həyəcandan ürəyi az qalırdı yerindən çıxsın. Qapı açıldı və kimsə mənzilə girdi. Birbaşa otağa keçib onun başı üstündə dayandı. Səs salmadan dayanıb bu qeyri-adi gözəlliyə tamaşa etməyə başladı.

Gülafət xanım qəribə hisslərin əlinə düşmüşdü. Bu hisslərdən tezliklə ayrılmaq istəmir, bütün bədəninə ılıq bir səadət gətirən anların uzanmasını istəyirdi. Özünü yatmış kimi göstərib, ağır-ağır nəfəs alırdı. Bu saat Asəfin nə düşündüyünü bilmək istəyirdi.



downloaded from KitabYurdu.az

«Asəf məni çağırmayacaq, - deyə düşündü. - Utanacaq. Bəlkə özüm çevrilim? Özümü yatıb-ayılan kimi göstərərək, qalxım və deyim ki, bağışla, yuxuya getmişəm».

Bununla da hər şey bitəcək və bu anların şirinliyi hər ikisinin yaddaşından uzun müddət silinməyəcək. Asəf həmişə onu görəndə utanacaq. O da Asəfi... Həmin bu anlarda, dünyada Gülafət xanım üçün Asəfdən əziz, Asəfdən doğma heç kəs yox idi. Asəfin onun çılpaq bədəninə tamaşa edərək, daxilən alışmasına görə, hətta ona yazığı da gəldi. Ürəyindən keçirdi ki, kaş oğlan cəsarətlənib ona

yaxınlaşaydı. Heç olmasa qucaqlayaydı onu... «Cəhənnəm olsun hər şey! Niyazi, onsuz da, qədrini bilmədi sadiqliyimin...»

Ancaq... Gülafət xanım bilmirdi ki, onun başının üstündə dayanıb ehtirasdan boğulan Asəf yox, Ruslandır! Bəli, Ruslan Dadaşov! O, yolüstü Gülafət xanıma baş çəkib, onun baş vermiş hadisəni bilib-bilməməsini öyrənmək istəmiş, zəngi çalandan sonra qapının açıq olduğunu görüb mənzilə girmişdi.

Ruslan Dadaşov heç nə anlaya bilmirdi. Gülafət xanım nəyə görə qapını açıq qoyaraq beləcə yatıb?.. Tez də ağlına gəldi ki, yəqin həmin hadisədən və məktubdan xəbər tutaraq sarsılıb. Hətta bəlkə də içib?

Ancaq Gülafət xanım spirtli içkiləri indiyədək dilinə də vurmamışdı.

Ruslan özünə gəlib, vəziyyəti qiymətləndirməyə başladı. Hər nə səbəbə görə yatıbsa da, dəxli yoxdur. Onun qarşısında təsvir edilməsi mümkün olmayan gözəllik durmuşdu! Bu gözəlliyi heç bir rəssam ya¬rada bilməzdi. Çünki bu görünüşün gözəlliyi təkcə görünüşündə deyildi. Həm də canlılığında, hərarətində idi. Bu görünüş Ruslan üçün həm də ona görə əvəzolunmaz idi ki, qarşısında uzanan başqa qadın yox, Gülafət xanım idi! O Gülafət xanım ki, Ruslan onun üçün həmişə



downloaded from KitabYurdu.az

alışıb-yanmışdı. Ancaq hər hansı bir addım atmağa cəsarət etməmişdi. Gülafət xanım belə bir cəsarət üçün şərait yaratmamışdı. Bu o Gülafət xanım idi ki, Ruslan onun açıq dizlərini də görməkdən ötrü çox şeydən keçərdi.

İndi Gülafət xanımın bütün alt paltarı da açıqda idi. Ruslanın bədəni dəmir kimi gərilmişdi. O, qarşısında uzanmış qadına artıq insan kimi yox, qarşısından qaçanda yorulub dizi üstə yıxılmış dişi ceyran kimi baxırdı. Özü də qızmış erkək pələng kimi ovunun üstünə atılmağa, onu parça-parça etməyə hazır vəziyyətdə idi.

Cəhənnəm olsun hər şey! Qanunlar da, qaydalar da, lap kişilik də, mərdlik də! O bu imkanı əldən buraxa bilməzdi! Əldən buraxsaydı, sonra ömrü boyu peşmançılığını çəkərdi...

Tələsik gedib mənzilin qapısını içəridən bağladı və geri döndü. Divanda oturub sağ əlini qadının çiyninə qoydu:

- Gülafət xanım, ayılın!

Səsi tanıyan qadın dəhşətlə, arxası üstə çevrildi. Bu dəfə Ruslanın qarşısında daha da çılpaqlaşdı. Ruslanın gözlərindən şimşək çaxırdı. O, sol əlini uzadıb xalatın ətəyi ilə Gülafət xanımın qabağını örtdü.

- Belə niyə yatmısınız? Sizə soyuq dəyə bilər...

Qadın, gözucu, ayaqlarında gəzən ələ baxdı. Qalxmaq istədisə də, hansısa bir qüvvə onu qalxmağa qoymadı. Hiss etdi ki, müqavimət göstərməyə gücü yoxdur. Ruslanın baxışları onu içindən didib- tökürdü. «Heç olmasa baxmayaydı, mənliyimi tapdalayıb əzməyəydi...» - deyə düşündü. Ancaq danışa bilmirdi. Heç fikirləşə də bilmirdi...

Ruslan bunu başa düşürdü. Hiss edirdi ki, həsrətində olduğu qadın, artıq, onun əlindədir.



downloaded from KitabYurdu.az

- İstədim, sizə baş çəkim, görüm necəsiniz.. - dedi. - Niyazi müəllimin başına gələni, deyəsən, bilirsiniz...

- Bilirəm... - Gülafət xanım dodaqlarını yalayıb, güclə cavab verdi.

- Düz iş görməyib. Biz kişilər beləyik. Qadından ötrü hər şeydən keçirik. Ancaq sizi kiməsə dəyişmək, doğrudan, düzgün iş deyil...

Gülafət xanım dinmədi. Alt dodağını bərk-bərk dişləmişdi. Bütün bədəni gərgin vəziyyətdə idi. Gözləri Ruslanın sinəsinə zillənsə də, fikrən onun sol əlinin hərəkətlərini izləyirdi. Əl son nöqtəyə çatanda bədənindən keçən giziltiyə dözə bilmədi:

- Lazım deyil... Asəf indi bura gələcək...

Ruslan bir daha hər şeyi anladı. Anladı ki, bu qadına sahib olsa,

bu pis nəticə verməyəcək. Qorxulu bir şey yoxdur. Demir ki, dur rədd ol, cəhənnəm ol, deyir, Asəf gəlib görə bilər...

- Qapını bağlamışam, narahat olma! - dedi və əyilib onun dodaqlarından öpdü.

Gülafət xanım özünü tamam unutdu. Bayaqdan ağlı ilə müharibə aparan dəhşətli ehtiras tam qələbə çalaraq, öz bayrağını ağlın ən yüksək zirvəsinə taxdı. Və beləliklə, qürurunun ən yüksək, varlığının isə ən dərin nöqtəsi zəbt olundu.

... Yarım saatdan sonra qapının zəngi çalındı. Gülafət xanım boğula-boğula «Asəfdir!..» dedi. Lakin Ruslan ona danışmağa imkan vermədi və ağzını öz kobud dodaqları ilə qapadı...

... Yenə qapının zəngi çalındı. Ancaq onu açan yox idi. Bir azdan Gülafət xanımın cib telefonu səslənməyə başladı. Asəf idi. Bilmək istəyirdi ki, Gülafət xanım onu özü çağırdığı halda, haraya çıxıb gedib?.. Telefon zənginə də cavab verən yox idi...



downloaded from KitabYurdu.az

Asəf dayanıb gözləməyə başladı. Sonra həyətə düşüb, bir az da orada gözlədi. Arada Gülafət xanımın cib telefonuna zəng vururdu. Ancaq telefonu götürən yox idi. Nəhayət, maşına minib bağa sürdü. «Bir azdan zəng vurub, lazım olsa qayıdaram» - dedi. Lakin üç saat sonra, yenə telefona cavab verən olmadı. Buna Gülafət xanımın

imkanı da yox idi...

Axır ki, saat 6-da ev sahibəsi telefonu götürdü. Ruslan indicə çıxıb getmişdi.

- Hə, Asəf?.. - səsindən çox yorğun olduğu bilinirdi.

- Gülafət xanım, mən gəlmişdim... Nə vaxtdır sizə zəng vururam, götürmürsüz.

- Məni yuxu aparmışdı, Asəf, bərk yatmışammış...

- Nə olub, xəstəsiniz?

- Hə, xəstəyəm, Asəf, özümü yaxşı hiss etmirəm.

- Onda gəlirəm! - Asəf onun cavabını gözləmədən telefonu qapadı.

## VIII fəsil

## Ruslan dadaşov və zakir

Qapıda dayanan polis işçisi hörmətlə salam verib kənara çəkildi. Zakir onun salamını başı ilə alıb binaya daxil oldu və pilləkənləri səbirlə çıxmağa başladı. Rayonun təmir aparılan bir neçə orta məktəbinə baş çəkib gəlmişdi. İş gününün sonu idi. Gördüyü işlər barədə başçıya hesabat verib evə gedəcəkdi. Həmişəki kimi yenə də qapısının yanındakı lövhəyə diqqət yetirdi: «İcra hakimiyyəti başçısının müavini Z.N.Məlikxanlı». Qapını açıb içəri girdi və keçib kreslosunda əyləşdi.

Cavan olmasına baxmayaraq, bir ilə yaxın idi ki, bu vəzifədə işləyirdi. Onu bu vəzifəyə sözsüz ki, atasına görə təyin etmişdilər. Daha doğrusu,



downloaded from KitabYurdu.az

işi onun üçün Ruslan Dadaşov təşkil etmişdi. Atasının xahişi ilə. İcra başçısı, nədənsə, həmişə Ruslanın hörmətini saxlayırdı. Elə deputatlığa namizədliyini də Ruslan bu rayondan vermək istəyirdi. Həm başçıya görə, həm də necə olmasa, Zakir özü də burada idi.

Zakirin fikrincə, bəzi xasiyyətləri olmasaydı, Ruslandan yaxşı deputat olardı. Birincisi, bilikli hüquqşünas idi, ikincisi çox güclü

təşkilatçılıq qabiliyyəti var idi, üçüncüsü də, lazım gələndə, sadəliyi bacarırdı. Bir də gördün, qolunu çırmayıb sənin üçün kabab çəkdi, yaxud salat düzəltdi. O qədər pulu ola-ola maşını həmişə özü sürür, sürücü-filan götürmürdü. Di gəl ki, kobudluğu, bir də arvadbazlığı olmayaydı.

Zakirin tərbiyəsi uşaqlıqdan elə qurulmuşdu ki, qadınlardan bacardıqca uzaq gəzirdi. Doğrusu, həm də qorxurdu. Qorxurdu ki, sonra bir hoqqası çıxar, evdə də biabır olar, işdə də. Bəxtindən, özünə də pis qadın qismət olmamışdı. Həyat yoldaşı Zəminə qəşəng, mehriban bir qadın idi.

Son vaxtlar çalışırdı ki, Ruslanla az əlaqə saxlasın. Evinə də dəvət etmirdi. Ən çox da arvadına görə! Düzdür, arvadına arxayın idi öz aləmində. Ancaq bilirdi ki, Ruslan da Ruslandır. Xüsusilə keçən yay birlikdə rayonlara gəzintiyə çıxandan sonra çalışırdı ki, onunla çox oturub-durmasın.

Sentyabrın əvvəlləri idi, deyəsən. Ruslan dedi ki, gəl mənimlə Gəncə tərəflərə gəzintiyə çıxaq. Zakir də həmin bu vəzifəyə təzəcə təyin olunmuşdu. Şöbə müdiri idi bundan əvvəl. Hə... Zakir də dedi ki, yaxşı alınmaz axı, işə təzə başlamışam. Ruslan o saat cib telefonu ilə başçıya zəng vurub Zakir üçün icazə aldı və dedi ki, iki-üç günlüyə

mənə lazımdı o... Axır ki, Zakir razılaşdı və Ruslanın ağ «Mersedes»ində yola düşdülər (Onda Ruslan «Mersedes» sürürdü. Sonra deyəsən onu bir həkim dostuna bağışlayıb, indiki bu «Nissan»ı aldı).



downloaded from KitabYurdu.az

Gəncədə Ruslanın bir neçə obyektinə baş çəkəndən sonra ətrafdakı rayonların birinə getdilər. Ruslan maşını rayon mərkəzindən bir qədər kənarda, meşəliklər içində yerləşən geniş həyətli bir restorana sürdü.

Hələ ora çatmamış, rayonun nüfuz sahiblərindən kiməsə cib telefonu ilə zəng vurub, restorana iki qız göndərməsini tapşırdı.

Zakirin o saat dalağı sancdı. Onun qəfil tanışlıqlardan xoşu gəlmirdi. Belə vaxtlarda özünü sərbəst aparması üçün təcrübəsi yox idi. Ancaq özünə bir az da təskinlik verdi ki, günortadan keçməsinə baxmayaraq, axşama çox var idi və bir neçə saat vaxtını şən keçirib, bəxtinə düşən qıza öyrəşə bilərdi.

Maşını birbaş restoranın həyətinə salan Ruslan:

- Burada yaxşı yemək verirlər, - dedi.

Maşından düşən kimi, ağacların kölgəsinə qoyulmuş stollara yemək daşıyan bir oğlan Ruslanı tanıyıb içəri qaçdı. Bir dəqiqə keçməmiş, hələ gənc olmasına baxmayaraq, xeyli kökəlmiş,

yekəqarın bir kişi özünü tələsik qonaqlara yetirdi. Hər ikisi ilə ikiəlli görüşüb:

- Xoş gəlmisiniz! - dedi.

Ruslan yekə dodaqlarını gəmirə-gəmirə ətrafına boylanıb:

- İşlər qaydasındadır? - deyə soruşdu.

- Bəli, Ruslan müəllim. Allaha şüküıi

- Dərədəki stol boşdu?

-Xeyr. Bir-iki rayon uşağıdı. Bu saat boşaldarıq!

- Boşaldın! Sonra yaxındakı iki otağı da hazırlayın! Qızlar gələcək. Onları yanımıza gətirərsiniz!



downloaded from KitabYurdu.az

- Baş üstə!

- Bizə nə verəcəksiz?

- Ürəyiniz nə istəyir, ondan!

Ruslan dönüb Zakirə baxdı. Zakir çiyinlərini çəkdi. Yəni mənim üçün fərqi yoxdur. Ruslan bir az fikirləşib özü dilləndi:

- Hələlik yaxşı bir qazan xörəyi hazırlayın. Bildirçin kababı da olsun. Yoxdursa, tapın! Quzu-filan da öz yerində.

- Baş üstə!

Meşənin içindəki dərəyə tərəf düşdülər. Ruslan soyunub özü ilə gətirdiyi yüngül idman formasını geyindi. Qovaq ağacının kölgəsinə

qoyulmuş stolun arxasında oturdular. Beş dəqiqə keçməmiş, süfrəyə qəlyanaltı və bir şüşə soyuq zoğal arağı qoyuldu. Ruslan onlara qulluq etmək istəyən oğlanı kənarlaşdırıb, şüşəni özü götürdü və hər ikisi üçün araq süzdü.

- Götür görək! - dedi. - Birinci sağlıq, sözsüz ki, Niyazi müəllimin şərəfinədir. Allah onu başımızdan əskik eləməsin!

Qədəhi başına çəkdi. Zakir stəkanı əlinə götürsə də, ağzına vurub stolun üstünə qoydu. İçkiyə çox da meyilli deyildi. Xüsusilə də ac qarına! Ancaq Ruslan üçün, araq ilə suyun, deyəsən, bir o qədər də fərqi yox idi.

Bir qədərdən sonra qazanda bişirilmiş, çox dadlı ət xörəyi gətirdilər. Zakir bəlkə də ömründə belə dadlı xörək yeməmişdi. Ya bəlkə də ac olduğu üçün ona belə gəldi, deyə bilməzdi. Hər halda, yeməyə çox iştahayla girişmişdi.

Restoranın sahibi olan yekəqarın kişi iki cavan qızı gətirib onlara təhvil verdi və irişə-irişə soruşdu:

- Bir şey lazım deyil, Ruslan müəllim?



downloaded from KitabYurdu.az

Ruslan ona, əli ilə getmək işarəsi verib, qızları diqqətlə süzməyə başladı. Qızların hər ikisi iyirmi yaşında olardı. Onlardan biri boy- buxunlu, sarışın qız idi. Əyninə qara cins parçadan şalvar, ağ rəngli,

sinəsi açıq mayka geymişdi. Özünü Nara kimi təqdim etdi. Ruslan onun əsl adı ilə heç maraqlanmadı da! Və üzünü o biri qıza tutdu.

Bu qız, nədənsə, ilk baxışdan Zakirə çox suyuşirin göründü. Qara saçları, iri, ala gözləri var idi. Əyninə qısa yubka geymişdi. Görünüşündən, təcrübəsizliyi hiss olunurdu. Deyəsən, belə işlərə təzə başlamışdı. Onu da kişilərə Nara təqdim etdi. Adı Gülya imiş...

Ruslan Dadaşov Gülyaya Zakirin yanındakı boş stulu göstərdi:

- Sən orada əyləş və Zakir müəllimlə tanış ol! Canlara dəyən oğlandır.

Sonra mənalı şəkildə Zakirə baxdı. Sanki soruşmaq istəyirdi ki, düz elədim? Zakir də baxışları ilə razılığını bildirdi. Ruslan Naram öz yanında otuzdurdu.

Məclis getdikcə qızışırdı. Ruslan təkcə özü bir şüşə arağı boşaltmışdı. Zakirlə Nara arağı az-az içirdilər. Gülya isə heç içmirdi. Xüsusi olaraq, onun üçün gətirilmiş Şampan şərabının dadına baxırdı. Ruslan dalbadal lətifə danışır, Nara gülməkdən uğunub gedirdi.

Zakirlə Gülya isə hörmət xatirinə gülümsəsələr də, lətifələrin biədəb məzmunu onları utandırırdı.

Artıq hava tamamilə qaralmış, məclis nisbətən soyumuşdu. Heç kəs əlini yeməyə uzatmırdı. Qablar süfrəyə dolu gəlib, dolu da

qaytarılırdı. Zakir yanında oturan qızla, tezliklə, tək qalmaq istəyirdi. Ancaq bu istəyini Ruslana bildirmək istəmirdi. Qorxurdu ki, Ruslan onu «Görməmiş» hesab edər. Elə Gülya özü də darıxmağa başlamışdı. Hərdən oğrun-oğrun yanındakı evciklərə baxırdı.



downloaded from KitabYurdu.az

Ruslan Dadaşov lətifəyə ara verərək stəkanını yenə də zoğal arağı ilə doldurdu. Üzünü Zakirə tutub ucadan dilləndi:

- Nə olub, ay Zakir müəllim?! Dəryada gəmin batıb? Ye, iç, kef elə bu beşgünlük dünyada! O vəzifən var ha, sənin, boş şeydir, mən ölüm! Düzdür, özün istədin, biz də etiraz eləmədik. Ancaq adama dünyada birinci pul lazımdır, bir də boş vaxt ki, belə cananlarla kef eləsin. Pulu isə, qazanmağı bacarmaq lazımdır! Bu restoranı görürsən? - Ruslan tam sərxoş olmasa da, sərxoş kimi idi və sözləri mənalı tərzdə uzadırdı. - Bu restoranın, heç bilirsən, gündəlik gəliri nə qədərdir? Sənin aylıq gəlirindən əlli dəfə çox!

Ruslan dayanıb diqqətlə Zakirin üzünə baxdı:

- Heç bilirsən, bu restoran kimindir?

Zakir başını yellədi:

- Bilmirəm...

Ruslan çevrilib sərxoş baxışlarla bir müddət qızları süzdü:

- Sizin yeməyə, içməyə ehtiyacınız var?

- Yoox... - hər ikisi birdən savab verdi.

- Onda durun, hərəniz bir otağa! Haydı!

O, əli ilə də kəskin hərəkət etdi və qızlar cəld qalxdılar.

- Bilirsən, bu restoran kimindir? - Ruslan sualı bu dəfə bir az astadan təkrar etdi.

- Kimindir? - Zakirin səbri daraldı.

- Sənin atanın! Daha doğrusu, bizim atamızın. Niyazi müəllimin! O mənim dostum olsa da, atalıq edib mənə. Ona görə də canım qurban olsun ona!



downloaded from KitabYurdu.az

- Heç bilmirdim... - Zakir təəccüblə dilləndi.

- Maraqlanırsan ki, biləsən? Başın qarışıb öz kabinetinə, bir də məktəbləri, bağçaları gəzməyə. Əslində bunu heç kəs bilmir. Kişinin özü ilə məndən başqa! O, işini bilən adamdır. Onun vəzifəsi ilə tutmur axı, belə şeylər?! Heç kəsin xəbəri yoxdur ki, onun hələ rayonlarda nə qədər belə yerləri var... Ancaq işə mən nəzarət edirəm. Niyə? Çünki Niyazi müəllim vəzifəsinə görə məşğul ola bilməz, sən isə əfəlsən. Əfəl! Başa düşürsən? Əgər baş qoşub, bu işin sirlərini məndən öyrənə bilsən, atanın obyektlərinə özün nəzarət edərsən. Olmaz? Əlbəttə, olar! Ancaq gərək, baş qoşasan. Mənim şəxsən özümün nə qədər gəlir gətirən yerlərim var. Əlbəttə, atanınkı qədər yox, ancaq

özümə bax belə bəsdir! - əlini boğazına çəkdi. - Bu yerlər isə, gec-tez sənindir. Atan nə vaxtsa təqaüdə çıxanda obyektlərinin hamısını öz əlinə alacaq. O, bacarıqlı adamdır. Ancaq gərək sən də kömək edəsən! Burax getsin bu vəzifəni! Cavan oğlansan, ancaq boş-boşuna vaxtını keçirirsən!

- Bu saat bu restoran kimin adınadır? - Zakir maraqlandı.

- Yarəlinin! Bayaqkı yekəqarın ayını gördün? Bax, onun! Başını salıb aşağı, restoranı işlədir. Kim də soruşsa, deyir özümündür. Əlbəttə, rayondan, ya kənardan ona ilişə bilən adamlar bilirlər ki, buraya mən sahiblik edirəm və ona görə də heç kim Yarəliyə dəyib- dolaşmır. Yarəli özü burada maaşa işləyir. Təmiz gəlirin hamısı isə Niyazi müəllimə çatır. Mənim vasitəmlə. Başa düşdün? Ancaq atan bilməsin ha, bunu sənə deməyimi. Səni kiçik qardaşım hesab edib deyirəm. Heç kəs bilməməlidir bunları. Sonra onun üçün artıq söz- söhbət yaranar. Nə qədər ki o vəzifədədir, onun biznes işlərini mən aparacam. Sonra özü bilər. Mənə qalsa, ölənəcən onun kiçiyiyəm. Onun yolunda ölməyə belə hazıram. Ona sataşanın... Nə isə... götür bunu da içək onun sağlığına!

Bunu deyib stəkanı başına çəkdi. Zakir də bir qurtum içib soruşdu:



downloaded from KitabYurdu.az

-Yaxşı... Tutaq ki, bu Yarəlidi, nədi, Allahı başının üstündən atdı, dedi ki, restoran özümündür, gəlirini də heç kəsə vermirəm, Niyazi Məlikxanlını da tanımıram. Onda necə olacaq?

Ruslan əvvəl susub matdım-matdım onun üzünə baxdı. Sonra birdən şaqqıltı ilə qəhqəhə çəkib gülməyə başladı:

- Ay sənin oyunun olsun, Zakir!..

- Nədi, ola bilməz? - onun gülüşü Zakirə toxundu. - İnsanların indi çoxu çiy süd əmib.

- Nə bilim, bəlkə ola bilər?.. - Ruslan gülməyini saxlayıb uzaq¬dan onlara göz qoyan və buyruq gözləyən oğlanı barmağı ilə çağırdı. - A bala, get o yaralı ayını çağır bura!

- Yarəli qədeşi deyirsiz?

- Neçə ayı var burada? - Ruslan acıqlandı.

Oğlan qaçıb getdi və az keçmiş Yarəli təngnəfəs özünü yetirib, Ruslanın qarşısında durdu. Ruslan Dadaşov onu, başdan-ayağa, şübhəli baxışlarla süzüb soruşdu:

- Bu restoran kimin adınadır?

- Mənim... - Yarəli Zakirə nəzər salıb dilləndi.

-Ancaq buranın əsl sahibi var, düzdür?

- Düzdür... - yenə Zakirə baxdı.

- Sən nə vaxtsa, deyə bilərsən ki, restoranın əsl sahibi də sən özünsən?

- Kimə? - Yarəli gözlərini bərəltdi.

-Tutaq ki, mənə!

- Nə danışırsınız, Ruslan müəllim, mən qələt edərəm ataba- atamla.



downloaded from KitabYurdu.az

Ruslan Zakirə gizlin göz vurub, yenə Yarəliyə baxdı:

- Əgər birdən, qudurub belə bir fikrə düşsən, sənin fikrincə, neylərəm?

Yarəli dinmədi. Qorxudan udqunurdu.

- Cavab ver, görüm!

- Başımı kəsərsiniz, özü də haqlı...

Ruslan güldü:

- Ə, ayıb olsun sənin üçün! Zakir müəllim də elə bilər, mən cəlladam, qəssabam, nəyəm?!

- Mən heç vaxt o fikrə düşmərəm... - Yarəli mızıldandı.

- Əgər düşsən, bilirsən neylərəm?

Yarəli gözlərini döydü.

- Tapşıraram, səni gecəykən yatağından götürərlər. Yatan vəziyyətdə yox ha, o namərdlik olar! Arvadınla qol-boyun olduğun

vaxt! Ayıq vaxtında! Bir nəfər yekəqarın tez səni əvəz etməyə başlayar ki, arvadın duyuq düşüb hay-küy salmasın. Başqası isə səni çıxarıb aparar mənim Bakıdakı kolbasa seximə. Orada sənin ətindən kolbasa hazırlayıb gətirərlər və verərlər ailənə. Deyərlər ki, ayı ətindəndir. - Susub, sonra ciddi şəkildə soruşdu. - Neçə kilosan?

- Səksən kilo... - boğazı tamam qurumuş Yarəlinin səsi çox çətin çıxdı. Zakir də son dərəcə narahat halda bu xoşagəlməz söhbətin bitməsini gözləyirdi.

- Hə... səksən kilo... - Ruslan fikrə getdi. - Bunun yarısı zir- zibildir. Qalan yarısının da yarısı sürsümük. Deməli, düz iyirmi kiloqram təmiz kolbasa çıxar səndən. Düzdür?



downloaded from KitabYurdu.az

- Düzdür...

- Yeyərlər evdəkilər?

- Nəyi?

- Necə nəyi, həmin kolbasaları!

- Siz deyəndən sonra, ağızları nədir yeməsinlər...

- Mən məcbur demirəm! - Ruslan başını buladı. - Özləri iştahayla yeyə bilərlər? Əlbəttə, onlar onu ayı əti hesab edəcəklər.

- Dava-dərmanın, sarımsağın bol eləsələr, niyə yemirlər?!

- Ay sağ ol! İndi çıx get! Sabaha bir fərli şey hazırlayın!

Kababınız yenə xoşuma gəlmədi. Öyrədə bilmədim də, sizə kabab bişirməyi...

- Baş üstə! - Başdan-ayağa tər içində olan Yarəli canını qurtardığına sevinib qaranlıqda yox oldu.

- Gördün?.. - Ruslan Dadaşov Zakirə baxdı. - İndi necə bilirsən, bu nə vaxtsa deyə bilərmi ki, restoran onundur?

- Yox, deyə bilməz... - Zakir quru cavab verdi.

- Deyəsən, yatmaq istəyirsən. Duraq! - Ruslan söhbətdən bezmiş halda əlini yellədi: - Bizi gözləyirlər...

Həmin gecənin sonrası Zakirin yaddaşına daha möhkəm həkk olunmuşdu. Qalxıb, xüsusi olaraq qurulmuş ikinəfərlik otaqlardan birinə - Gülya girən otağa getdi. Gülya yataqda uzanmışdı. Zakir də, heç nə demədən, soyunub onun yanında, arxası üstə uzandı. Ürəyindən, nədənsə bu qızla söhbət etmək keçirdi. Gözləmədiyi halda, qız ondan əvvəl dilləndi:

- Sən Zəminənin əri deyilsən?

Zakir az qaldı yerindən dik atılsın:



downloaded from KitabYurdu.az

- Sən haradan tanıyırsan onu?

- Məni tanımadın? Zəminənin xalası qızıyam...

Zakir yadına salmağa çalışdı. Zəminənin rayonda xalası var idi.

Ancaq bu rayonda yox! Bu qız əvvəldən ona tanış gəldi. Gülçöhrə olmasın?!

- Yadındadı?.. - qız davam etdi. - Sizin toyunuzda mən də anamla gəlmişdim. Beş il əvvəl. Onda mən 9-cu sinifdə oxuyurdum. Hələ sizinlə oynadım da!.. Ondan sonra görməmişəm sizi. Gülçöhrəyəm də!..

Hər şey Zakirin yadına düşdü. Ancaq o, düşdüyü vəziyyətin yaratdığı sarsıntıdan danışa bilmirdi. İçdiyi arağın təsiri də uçub gedirdi. Alnını bərk-bərk ovuşdurdu.

- Deyirəm axı... Mənə o saat tanış gəldin. Ancaq siz bu rayonda yaşamırdınız axı?..

- Hə! Burada oxuyuram. Texnikumda.

- Bəs... niyə axı belə... utanmırsan?!

- Buraya gəlməyimi deyirsən? Sən Allah, soruşma! Naraya qoşuldum. Mənimlə bir otaqda kirayədə qalır. Ancaq nəyə deyirsən and içim ki, bu ikinci dəfəmdir.

Zakir deməyə söz tapmırdı. Hirslənib onu qovsunmu? Yox, bu onun bacardığı iş deyildi. Onda belə qətiyyət yox idi. Bir də ki, qız getməyəcəkdi. Üstəlik Ruslanın yanında biabır olacaqdı. Bəlkə elə... kim biləcək? Yox, nə vaxtsa Zəminə bilər...

Onlar kiçik pəncərədən azacıq işıq süzülən qaranlıq otaqda, eyni çarpayıda yanaşı uzanmışdılar. Danışmırdılar. İkisi də nə barədəsə düşünürdü. Yenə birinci olaraq qızın səsi gəldi:

- Zəminə necədir?



downloaded from KitabYurdu.az

-Yaxşıdır, sağ ol!

- Uşağınız var?

- Hə, bir oğlum var.

-Allah saxlasın!

- Çox sağ ol...

- Bir dəfə gəlmişdim Bakıya. Sizin evi tapa bilmədim. Harada olursunuz?

Zakir qeyri-iradi olaraq evin yerini dedi. Dediyi şadlıq evinin qarşısında bircə doqquzmərtəbə bina var idi. Onun qarşısında Zakir Məlikxanlının mənzilini soruşmaq kifayət idi. Deməyinə peşman oldu evin yerini. «Birdən durub gələr... Bir söz deməsə də davranışından duyuq düşər Zəminə...»

- Gələcəm sizə! - qız birdən dedi. - Zəminəni görməyə.

- Səni o qız gətirdi bura? - Zakir söhbəti dəyişmək üçün soruşdu.

- Hə! Yaxşı ki, o kişi özünə Naram seçdi. Yoxsa mən elə onu görən kimi qorxdum. Vəhşidi elə bil... O kimdi?

- Elə vəhşi kimi bir şeydi... - Zakir Ruslanın Yarəli ilə olan söhbətini xatırladı.

- Məndən incimisən, hə? - qız mehribanlıqla dilləndi. - Ancaq Vallah, Zakir, pul çatdırmaq olmur. Həm də... Necə deyim?.. Adamın ürəyi istəyir...

- Sən düz iş görmürsən! - Zakir bunu deməyi, sadəcə, özünə borc bildi.

- Mənim yerimə başqası gəlsəydi buraya, o, düz iş görəcəkdi?



downloaded from KitabYurdu.az

- Bilmirəm... - Zakir əsəbiləşirdi. Keçirəcəyi xoş gecə əlindən çıxmışdı. - Yat! Və bir də belə yerlərə gəlmə!

- Daha onsuz da gəlmişəm... - qız bunu deyib yorğanın altında Zakirin əlini bərk-bərk sıxdı.

Zakir başa düşdü ki, qız onun inadını sındıracaq. Sonrası isə... O, sonrasından qorxurdu... Cəld ayağa qalxıb, çölə çıxdı. Ruslan öz otağının qabağında, açıq havada yarıçılpaq dayanıb siqaret çəkirdi.

- Niyə çıxdın? - deyə Zakirdən soruşdu.

- Bu qız tanıdı məni... Yaxşı deyil...

- Onda, sən keç burada yat! - Ruslan öz otağını göstərdi. İlk anda bu onun ürəyindən oldu. Ancaq tez də fikirləşdi: «Axı necə olmasa...» Gec idi! Artıq onun otağına gedən Ruslanı arxadan

səslədi:

- Məndən söhbət salmayın!

Ruslan:

- Uşaq deyiləm! - deyib, Gülçöhrə yatan otağa daxil oldu.

Zakir Nara yatan otağa girib qızın yanında uzandı. Əlini ona

uzadan kimi yarıyuxulu qız:

- Bəsdir daha, mən yorulmuşam, yatmaq istəyirəm! - dedi və üzünü divara çevirib, dərhal yuxuya getdi.

Zakirin Naram oyatmağa heç həvəsi də yox idi. Çox yeməkdən ağır-ağır nəfəs alan qız gözündən düşmüşdü. Ancaq özü səhərəcən fikirlərin əlindən yata bilmədi.

Gülçöhrə barədə düşünürdü... Onu Ruslana verməyinə peşman olmuşdu. Qızın hələ üzlər görməmiş məsum üzünü və incə dodaqlarını gözünün



downloaded from KitabYurdu.az

önünə gətirdi və dediyi sözləri xatırladı. «Yaxşı ki, o kişi özünə Naram seçdi. Yoxsa mən elə onu görən kimi qorxdum. Vəhşidi elə bil...»

Ancaq daha gec idi. İndi yəqin ki, həmin məsum qız vəhşi hesab etdiyi kişinin ağırlığından əzilirdi... Yox, nahaq əlindən verdi onu! İndi ki, qızın ürəyi istəyirdi, gərək Zakir özü onu...

O gecə özündən əməlli-başlı zəhləsi getdi Zakirin... Səhər isə bir

gecədə rəngi solmuş, gözlərinin altı qaralmış Gülçöhrəni görəndə, xəcalətdən üzünü yana çevirdi. Elə Gülçöhrənin özü də, utandığından onun gözünə görünmək istəmirdi...

Hə... bax bu gəzintidən sonra Zakir Ruslandan uzaq gəzirdi. Əslində heç Ruslan da onu, bir o qədər, itirib axtarmırdı. Ancaq...

Telefonun səsi onu fikrindən ayırdı. Əlini uzadıb dəstəyi götürdü. Zəng vuran, rayonun prokuroru idi:

- Salam Zakir müəllim, necəsiniz?

- Sağ olun, yaxşıyam...

-Zəng vurdum, maraqlanım görək, kişinin məsələsi nə yerdədir?

-Atamın?

- Bəli!

- Ona nə olub ki? - Zakir təəccübləndi.

- Bəs bilmirsiniz? Mən elə bildim, xəbəriniz var... Dünən axşam doktor Muradzadənin qızı intihar edib. Yazıb qoyub ki, guya atanız onu yoldan çıxardığı üçün özünü öldürür. Mən özüm də getmişdim oraya. Ancaq işi, aydın məsələdir ki, biz aparmırıq.

Az qaldı ki, dəstək Zakirin əlindən yerə düşsün.



downloaded from KitabYurdu.az

-Yaxşı... Zakir müəllim, narahat olmayın. Niyazi müəllim balaca adam deyil. Hər halda işi yoluna qoyarlar...

- Sağ olun...

Dəstəyi yerinə qoydu. Hirsindən nə edəcəyini bilmirdi. Həm də bir az qorxu dolmuşdu canına.

«Sən bir bu kişinin işinə bax! Qızı yaşda birini alıb evə gətirib, bəs eləmir, hələ qızların namusu ilə də oynayır. Bərəkallah kişi! Çox sağ ol! Yaxşı hörmət yaradırsan mənim üçün!»

Ancaq qorxu hirsinə güc gəldi:

«İndi necə olacaq, görəsən? Onu işdən çıxarsalar, mən də gözdən düşəcəm. Otuz faiz özümə görə hörmət edirlərsə, yetmiş faiz ona görə edirlər. Amma yox, Ruslan da var. Hər halda, biabır olacam».

Telefonu götürüb, nazirliyə zəng vurdu. Dedilər ki, Niyazi müəllim nahara çıxandan sonra qayıtmayıb. Evə zəng vurdu. Telefonu götürən olmadı. Cib telefonu da bağlı... «Evinə gedərəm axşam. - deyə fikirləşdi. - Görək bu nə oyundur başımıza açır?!»

Qalxıb Başçının kabinetinə getdi. Katibə qız bildirdi ki, Başçı bu gün daha olmayacaq. Bu lap Zakirin ürəyindən oldu. Oradan çıxıb, birbaş öz evinə yollandı. Düşünmək üçün sakitlik axtarırdı...

## IX fəsil

## Ehtirasın hökmranlığı

Gülafət divanda oturmuşdu. Saçları bir-birinə qarışmış, xalatı əzik-üzük olmuşdu. Dodaqları, elə bil, şişmiş, boynu-boğazı göyərmişdi. Az qala dizlərinə dəyən başını əlləri arasına alıb bərk- bərk sıxsa da, vücudunda



downloaded from KitabYurdu.az

baş qaldırmış titrəməni saxlaya bilmirdi. Bədənində qəribə bir əzginlik hökm sürürdü. Üstəlik, içində, qeyri- normal hərəkətlərin nəticəsi olan, kəskin ağrı hiss edirdi.

Heç nə düşünə bilmirdi. Düşünsəydi, dəhşətə gələrdi... Düşünə bilmirdi. Beyni tutulmuşdu elə bil. Özünü havasız bir boşluqda hiss edirdi. Hiss edirdi ki, nəyinisə əbədilik itirib, ancaq nəyini, onu da başa düşə bilmirdi. Bir onu dəqiq anlayırdı ki, əvvəlki Gülafət xanım deyil, dəyişilib. Yeni bir dünyaya, yeni bir həyata qədəm qoyub.

Ruslan Gülafətlə olduğu dörd saat müddətində ona məhəbbət nəvazişləri, demək olar ki, göstərməmiş, heç olmasa qadınlığına, xanımlığına hörmətlə yanaşmamışdı. Özünün vəhşi qəlbindəki bütün arzularını həyata keçirmiş, qadının istəkləri ilə heç maraqlanmamışdı. Axıra yaxın isə onunla lap kobud rəftar etmişdi. Həmin anlarda ehtiraslar burulğanında üzən Gülafət, indiyə qədər görmədiyi maraqlı

hisslər, oyunlar dünyasına düşdüyü üçün, özündə olmamış, Ruslanın bütün hərəkətlərini qəbul etmişdi. Əslində qəbul etməyə də bilməzdi. Həmin vaxtlar onun tam ixtiyarı, gözü heç nəyi görməyən Ruslanın əlində idi. Ancaq hər halda, dözmüşdü, kəskin etiraz etməmişdi.

İndi isə hər şey bitib qurtarandan, həm mənəvi, həm də cismani ağrılar baş qaldırandan sonra... ölmək istəyirdi. Hiss edirdi ki, insan kimi yaşamağın əsl ləzzəti getdi daha... Həyat mənasızlaşmışdı onun üçün.

Venera adlı o qızın intihar qabağı keçirdiyi hissləri təsəvvür etdi.

O qız da yəqin ki, Gülafətin indiki anlarını yaşamışdı.

“Bəlkə elə, mən də...”

Öz ölümü barədə düşünən kimi gözləri yaşardı. Hıçqırığını saxlamaq üçün dodaqlarını dişlədi.



downloaded from KitabYurdu.az

“Axı mən yaşamaq istəyirəm?! Axı mən xoşbəxt idim?! Günahım nə idi ki, bu hala düşdüm?..”

Gülafət artıq özünü bədbəxt bir qadın hesab edirdi və bunun günahını, özündən daha çox, ərində görürdü. Əgər Niyazi o çirkin işi tutub, arvadına xəyanət etməsəydi, Gülafətin qüruru, mənliyi sınmazdı və o bu ağılsız hərəkəti edib Ruslan kimi əclafın caynağına düşməzdi. Ruslan özü onu yoldan çıxarmağa çalışsaydı da, Gülafət xanım öz

qadın qürurunun hesabına onu rədd edə bilərdi. Ancaq o şorgöz alçaq ona elə vaxt yaxınlaşdı ki, qüruru artıq zəifləmiş, mənliyi yumşalıb, əriməyə başlamışdı. Ruslan Dadaşov ona belə bir vaxtda qalib gəldi. Qalib gəldi və təkcə bədənini yox, zəifləmiş mənliyini də əzib-tökdü!

Ancaq hər necə olsa, indi o da ərinə xəyanət etmiş sayılırdı. Artıq ərinin də kişilik qüruru tapdalanmışdı. Nə olsun ki, Məlikxanlı özü bunu bilmirdi, həmin tapdaq izlərini görmürdü?! Gülafət özü ki bunu bilirdi. Özü ki həmin izləri görürdü?!

Ona həmişə elə gəlmişdi ki, Niyazini sevir. Məhəbbətin də, intim məhəbbət oyunlarının da ləzzətini ancaq onunla yaşamış, onunla duymuşdu. Onun adıyla fəxr edib, qürurlanmışdı həmişə. Niyazi də hər gün bacardığı qədər, onu sevib-əzizləyirdi. İstər-istəməz onunla keçirdiyi ən sonuncu anları xatırladı.

Dünən gecə həmin yad qonağı yola salandan sonra, Ruslan da bir az oturub getdi. Evə gecədən xeyli keçmiş gəlib çıxdılar. Yatağa girəndən, gözünə yuxu gələnə kimi, əri, heç nə demədən, yalnız onun saçlarını sığallamış və tez-tez köksünü ötürmüşdü. Onda hələ heç nədən xəbəri olmayan Gülafət xanım tezliklə yuxuya getmişdi.

Səhər işə ondan tez gedən əri qapının yanında Gülafət xanımı kədərli baxışlarla bir xeyli süzüb yüngülcə qucaqlamış:

- Mən səni çox sevirəm! Özünü qoru! Darıxma!.. - demişdi.



downloaded from KitabYurdu.az

Onda bu sözlərin əsl mənası Gülafət xanıma çatmamış, hətta bir az qəribə gəlmişdi.

“Mən səni çox sevirəm!..”

Bundan əvvəl də işə gedəndə Gülafət xanımı öpüb, “Səni çox sevirəm!” deyirdi. İndi sadəcə “Mən” sözünü də artırdı. Demək istəyirmiş ki, sənə xəyanət etmərəm? Etdi axı! Bu boyda böhtan olmaz ki!

“Özünü qoru!”

“Özündən muğayat ol!” deyirdi hərdən. Yəni özünü istidən, soyuqdan, əsəbdən, xəstəlikdən, nə bilim, maşından-filandan gözlə. İndi də sözü həmin mənada başa düşmüşdü və fikirləşirdi ki, əri təsadüfən belə dedi. Ancaq sən demə, özünü sarsıntıdan, ruh düşkünlüyündən qoru deyirmiş. Hətta bəlkə də, əri daha dərinə gedib “namusunu qoru” deyirmiş...

“Darıxma!”

“Mənsiz darıxma, axşam gələcəm!” demək deyilmiş bu. “Darıxma, hər şey yoluna düşər!” demək istəyirmiş.

Bəlkə doğrudan da hər şey yoluna düşəcəkdi, unudulacaqdı? Necə olmasa, o kişidir... Gülafət isə, artıq namusunu itirmişdi.

“Mən başqasıyla oldum!.. İndi o ad mənə də yaraşırmı görəsən? O ad... Belə qadınlara qoyulan ad... Yox! Yox! Yox! Mən istəmirdim bunu! İstəmirdim! Niyazi sındırdı məni... Əwəl o tapdaladı, o çırpdı göydən yerə məni. Ruslan isə sonra ayaqlayıb xurd-xəşil elədi. O hadisə, o məktub barədə eşitməsəydim, yüz Ruslan gəlsəydi, mənə bir şey edə bilməzdi...”

“Mən səni çox sevirəm! Özünü qoru! Darıxma!...”

“Yox, sən məni sevmirsən! Sevsəydin, belə etməzdin, Niyazi! Özümü qoruya bilmədim o vəhşidən... Daxilimdəki qadınlıq ehtirası ona köməkçi oldu. Çünki sındırmışdın məni. İradəm qalmamışdı. Darıxmaya bilmirəm.



downloaded from KitabYurdu.az

Darıxıram! Az qalır ürəyim partlasın. Nə sabah, nə də ondan sonrakı sabahlara heç bir ümidim yoxdur!"

Çox istəyirdi ki, bu saat dərdini bölüşməyə bir adam olsun yanında. Ancaq bu elə dərd idi ki, onu heç kəslə bölüşə bilməzdi Gülafət. Arzulayırdı ki, heç olmasa, ona canı yanan, onu ürəkdən istəyən bir adam olaydı. Nə Niyazinin, nə anasının, nə də bacısının gözünə görünmək istəyirdi indi. Başa düşərdilər hər şeyi o saat... Ancaq Asəf... Hə, Asəf daha yaxşıdır. O, başa düşməz. Ağlına da gətirməz. O, Gülafət xanımı ideal hesab edir, həm də yaman çox istəyir onun xətrini. Asəf gəlməliydi bir azdan. Dedi axı ki, gəlirəm...

Üst-başına nəzər yetirəndə, özündən asılı olmayaraq Ruslanı xatırlayıb çimçişdi: "Alçağın biri alçaq! Daha heyvanla sənin nə fərqin varmış ki?! Heyvan oğlu, heyvan!" Ayağa qalxanda yenə ağrı hiss etdi: "Səni görüm şikəst olasan! Tərbiyəsiz! Manyak!"

Ağır-ağır yeriyərək vanna otağına keçdi. Soyunub, tələsik yuyundu. Qurulanıb əyninə təzə alt paltarı və təzə xalat geyindi. İndi hər üçü çəhrayı rəngdə idi. Sanki bununla dəyişmək, mənəvi cəhətdən də təmizlənmək, olanları unutmaq istəyirdi. Ancaq tez də başa düşdü ki, bu mümkün deyil. "Mən nə etdim?.. Yüz faiz uşağa qalacam!..." - deyə düşündü.

Üzünə, boynuna, boğazına pudra çəkib göy ləkələri görünməz etməyə çalışdı. Dodaqlarına nazik boya çəkdi. Saçlarını darayıb ətirləndi.

Asəf gələndə bu işləri yenicə qurtarmışdı. Onu içəri buraxaraq, qapını bağladı və qayıdıb divanda əyləşdi.

- Sizə nə olub, Gülafət xanım? - otağa daxil olan Asəf ürəkdən gələn canıyananlıqla soruşdu.

- Bilmirəm, Asəf, bilmirəm... - başını aşağı dikdi.



downloaded from KitabYurdu.az

- Siz deyilənlərə fikir verməyin! Mən bilirəm ki, Niyazi müəllim günahsızdır. Siz də mənə inanın! Onun məndən xəbərsiz işi olmaz.

- Daha bunun mənimçün heç bir fərqi yoxdur! - Gülafət əlləri ilə üzünü tutub ağlamağa başladı.

Asəf ayaq üstə dayanıb həddindən artıq hörmət bəslədiyi, həmişə əlçatmaz hesab etmiş olduğu bu qadına tamaşa edirdi. İlk dəfə idi ki, onu ağlayan görürdü. İlk dəfə idi ki, aralarında məhrəmanə söhbət gedirdi. O bu qadına təskinlik vermək istəyirdi. Ancaq bilmirdi bunu necə etsin? “Yaxınlaşmaq olarmı, görəsən? Bu pis alınmaz ki?.. Niyə pis alınır, o bu saat çox dərdli və həyəcanlıdır. Ovundurmaq, ürək¬dirək vermək lazımdır!..”

Yaxınlaşıb onun yanında oturdu. Sonra bir az da yaxınlaşdı.

-Ağlamayın, özünüzü ələ alın!

Gülafət başını qaldırıb əli ilə göz yaşını sildi:

- Niyazi bağdadı?

- Bəli... - Asəf sakitcə cavab verdi.

- Sən də qayıdacaqsan oraya?

- Bəli, qayıtmalıyam. Təkdi.

Gülafət istəyirdi ki, Asəf bu gecə onun yanında qalsın. Onda birdən-birə Asəf kimi birisinin nəvazişinə ehtiyac yaranmışdı. Ruslanın onun başına açdığı oyunlardan sonra bütün gecəni Asəfin yanında olmaq, əzizlənmək istəyirdi. Düşündüyünü çətinliklə də olsa dilinə

gətirdi:

- Getmə, Asəf, bu gecə burada qal, qorxuram!



downloaded from KitabYurdu.az

Asəf bu qəfil təklifdən həyəcanlandı. Gülafət xanımla təklikdə gecəni keçirmək ağlına batmadı. Əlbəttə, onlar ikilikdə az olmamışdılar. Ancaq gündüzlər... Özü də belə yox...

- İstəyirsinizsə, sizi bacınızgilə aparım. - dedi. - Ya da ananızı bura gətirim.

- Yox, Asəf, istəmirəm! Sən qal! Sən yanımda olsan, qorxmaram. İstəyirəm yanımda məni başa düşən bir adam olsun. Bezmişəm canımdan!

Bunu deyib yenə də ağlamağa başladı. Asəf bu dəfə cəsarətlənib onun əlindən tutdu. O biri əliylə isə, saçlarına sığal çəkdi.

-Axı sizə nə olub, Gülafət xanım? Nədən, kimdən qorxursunuz?

Gülafət əlini çəkmədi. Əksinə, başını Asəfin enli sinəsinə qoyub, ona sığındı:

- Ölmək istəyirəm, Asəf, ölmək!

-Xahiş edirəm, belə danışmayın...

Asəf əlini onun belinə doladı. Gülafətin buna heç bir reaksiya vermədiyini görəndə qanı cuşa gəldi. O, hələ də nə etdiyini, hansı vəziyyətə düşdüyünü dərk etmirdi. Təkcə onu anlayırdı ki, başını onun

sinəsinə söykəyən bu qadın bu saat yer üzündə onun ən doğma adamıdır!

Elə yaxın oturmuşdular ki, Gülafət başını qaldıranda sifətləri bir- birinə toxundu və Asəf özünə nəzarəti itirib onu öpməyə başladı. Yalnız bir neçə dəqiqədən sonra o, xoşbəxt bir sevinclə dərk etdi ki, əlçatmaz hesab etdiyi Gülafət xanım bir qadın kimi onun olmağa etiraz etmir. Beynində sürətli fikirlər uçuşmağa başladı: “Yəni bu mümkündür? Yəni bu doğrudan da mümkündür? O, mənim ola bilər? Bəs Niyazi müəllim? Axı o mənə atalıq edib. Axı o mənim əziz adamımdır. Axı o mənə etibar edir?!



downloaded from KitabYurdu.az

Bu qadın elə bu gecə məni xoşbəxt edə bilər. Artıq həmin xoşbəxtliyin astanasındayam. Çəkilimmi? Ya?.. Yox, mən bundan artıq heç nə edə bilmərəm. Cəsarətim çatmaz buna...”

Ancaq onun cəsarətlənməyinə çox da ehtiyac qalmadı. Gülafət bir anlıq onun dodaqlarından qopub:

- Sənin olmaq istəyirəm, Asəf! - dedi.

Həmişə Gülafət xanımın arzularına əməl edən Asəf onun bu dəli arzusunu da gözündə qoymaq istəmədi. Bircə anda çılğınlaşıb, dünyada hər şeyi unutdu...

O, Allahın insana bəxş etdiyi ən böyük möcüzəyə, ən xoşbəxt

duyğulara aparan sirli və qaranlıq yolun son nöqtəsinə çatmışdı və nə qədər istəsə də, nə qədər dəli çılğınlıqla irəliyə can atsa da, bundan o yana gedə bilmirdi...

Gülafət xanım Asəfin belini bərk-bərk qucaqlamışdı və daxilində duyduğu yanğı yavaş-yavaş beynini dumanlandıraraq, ətrafdakı hər şey kimi öz varlığını da unutdururdu...

...Yarım saat sonra Asəf sıçrayıb ayağa qalxdı və tələsik özünü düzəltdi. Gülafət əlləri əsə-əsə xalatını düymələdi və qurumuş dodaqlarını dili ilə isladıb dəhşətlə Asəfə baxdı. Qapının zəngi çalınırdı...

Bir qədər dayanıb zəngin səsinə qulaq asdılar. Sonra Gülafət xanım dəhlizin işığını söndürüb asta hərəkətlə qapıya doğru getdi və tez də geri qayıdıb:

-Zakirdir... dedi.

- Getdi? - Asəf həyəcanla soruşdu. O, Məlikxanlının gələ bilməsindən qorxuya düşmüşdü.

- Hə, getdi...



downloaded from KitabYurdu.az

- Mən gedim, - Asəf onun üzünə baxmağa utanırdı. - Niyazi müəllim təkdir.

- Bəs mən tək deyiləm? - Gülafət mehribanlıqla soruşdu. - Belə

vaxtda məni tək qoyub gedirsən?

- O bildi ki, mən buraya gəlirəm. Məni axtaracaq. Həm də maşını blokun qapısına yaxın saxlamışam. Sonra şübhələnərlər...

Asəf Gülafət xanımdan bayaq aldığı sonsuz ləzzətin təkrar olunmasını nə qədər istəsə də, qətiyyətini toplayıb qapıya getdi:

- Sağ olun! Bir şey lazım olsa, zəng vurun, gəlim!

- Sağ ol, Asəf... - çarəsiz qalmış ev sahibəsi onun arxasınca baxdı.

Artıq saat doqquz olmuşdu. Gülafət qapını bağlayıb geri qayıtdı. Təklik onu yenə öz narahat ağuşuna almışdı. Otaqdan-otağa gəzməyə başladı. Asəfin Niyazinin günahsız olması barədə dediklərini xatırlayırdı. Öz-özüylə danışırmış kimi:

- Yəni doğrudan o, günahsızdır? - deyə sual verdi. - Bəs bu necə ola bilər axı?..

Bu gün etdiyi hərəkətlər bütün çılpaqlığı ilə qarşısında durub mənasını açanda dəhşətə gəldi. Yataq otağına keçib ağzı üstə çarpayıya uzandı və için-için ağlamağa başladı.

## X fəsil

## Niyazi məlikxanlı



downloaded from KitabYurdu.az

Həmin axşam Niyazi Məlikxanlı öz dənizkənarı malikanəsinin həyətində tək oturmuşdu. Malikanənin gözətçisi və sevimli iti Qaplan nəzərə alınmazsa, həyətdə ondan başqa heç kəs yox idi.

Günorta iş yerindən çıxıb buraya gələndən sonra, telefon nömrəsini dəyişdiyi üçün heç kəs onunla əlaqə saxlaya bilməmişdi. Baş vermiş hadisənin onunla bağlı tərəfi hələ şəhərə yayılmamışdı ki, bu da Məlikxanlıya bir qədər qəribə gəlirdi. Günortadan sonra onu ancaq vəkili Fazil Məmmədli axtarmışdı. O da xoşagəlməz xəbərlə... Məlikxanlının nömrəsi dəyişildiyi üçün sürücüsü ilə əlaqə saxlamışdı.

Xəbər bundan ibarət imiş ki, doktor Muradzadə prokurorluğa yeni ərizə ilə müraciət etmişdi. Ərizədə göstərilmişdi ki, kimsə ona zəng vuraraq intihar etmiş qızı barədə nalayiq sözlər demiş, bir daha Məlikxanlının adını çəkəcəyi təqdirdə onu ölümlə hədələmişdi.

Bu xəbər Məlikxanlıya heç də yaxşı təsir etməmişdi. İşin belə bir məqamında buna ehtiyac yox idi. Onun fikrincə, bunu ancaq Ruslan Dadaşov edə bilərdi. Bu onun xasiyyətinə tamamilə uyğun idi. Lakin bilikli hüquqşünas olan Ruslan gərək bunu etməyəydi. Məlikxanlı

hələlik bu barədə dostuna heç nə deməmişdi. Gözləyirdi ki, o özü bu barədə danışsın.

Qaplan yaxınlaşıb üzünü sahibinə uzatdı. Məlikxanlı onun başına sığal çəkib əli ilə özündən uzaqlaşdırdı...

Belə gündə Zakiri, Zəminəni, nəvəsini yanında görmək istəyirdi. Heyif ki, Gülafət xanımla evlənəndən sonra oğlu ondan soyumuşdu. Məlikxanlının fikrincə, Gülafət xanım çox mehriban, şirindil qadın idi və oğlu gəlib-gedib onu yaxından tanısaydı, atası ilə əlaqəni kəsməzdi. Bir də ki, oğlu üçün hər cür şərait yaratmışdı və yəqin ki, indi buna görə oğlunun yadına düşmürdü.



downloaded from KitabYurdu.az

Ancaq bu saat daha çox istəyirdi ki, Gülafət xanım yanında olsun. Dərdini onunla bölüşmək daha ağlabatan olardı. Bir şərtlə ki, başqa bir pis vəziyyətə düşmüş olaydı. İndi bu işin kökündə xəyanət məsə¬ləsi də dururdu ki, buna görə arvadının gözünə görünmək istəmirdi. İstəmirdi onun tənəli, qınaqlı baxışları ilə rastlaşsın. Həmişə tənədən, danlaqdan, təhqirdən qorxmuşdu Məlikxanlı...

Əslində o, indiki vəzifəsinə necə gəlib çıxmışdı? Tabe olduğu şəxslərin inamını və hörmətini qazanmaqla. Bu hörmət və inamı isə ən çox sadiqliyi, mütiliyi və bir də xüsusi bacarığı ilə qazanırdı. Bu “xüsusi bacarıq” deyilən şey tabe olduğun şəxsin ürəyindəkiləri

oxuyub, ona uyğun hərəkət etmək idi ki, bu da hər adama nəsib olmurdu.

Yaxşı xatırlayırdı... onu bu vəzifəyə qaldıran nərdivanın hələ ilk pilləsində idi. Zavodda komsomol katibi işləyirdi. Zavodun rəhbər işçilərinin, xüsusilə də partiya təşkilat katibinin direktorla necə münasibət qurmasına fikir verib çox şey öyrənmişdi.

Bir dəfə belə bir əhvalat oldu. Zavodda keçirilən böyük yığıncaqda çoxları çıxış etdi. Zalda - adamların arasında oturan gənc Niyazi diqqətlə çıxışlara qulaq asır, rəyasət heyətinə, daha çox isə direktora göz qoyurdu. Sex rəislərindən biri öz çıxışında nəyə toxundusa, hansı ifadəni işlətdisə, yadında deyil, ancaq direktor bircə anlığa üzünü turşutdu. Bu reaksiya nə qədər ani baş versə də, Niyazinin gözündən qaçmadı.

Yığıncaqdan sonra, həmin yığıncağı əks etdirən geniş foto- montaj hazırlanmalı və direktorun kabineti yaxınlığında, foyedə divara vurulmalı idi. Bu iş komsomol katibinə tapşırılmışdı və Niyazi yığıncaqda çəkilmiş fotolar əsasında stenti tezliklə hazırlayıb partiya təşkilatı katibinə göstərdi. Katib çıxış edənlərin sıra ilə yapışdırılmış fotolarına nəzər yetirib, həmin sex rəisini görmədi və təəccüblə Niyaziyə baxdı:

- Canpoladı unutmusan! Hamıdan çox çıxış edən o oldu ki!



downloaded from KitabYurdu.az

Niyazi bir qədər duruxub dedi:

- Onun çıxışı direktorun xoşuna gəlmədi. Mən fikir verirdim...

Katib bir söz deməyib yenə foto-montaja nəzər saldı. Sonra

başını bulayıb, mənalı gülüşlə Niyaziyə baxdı:

- Yadında saxla, sən çox irəliyə gedəcəksən!

Onun dediyi düz çıxdı. Niyazi pillə-pillə, addım-addım irəlilədi, gəlib bu vəzifəyə çıxdı. Tabe olduğu adamların rəğbətini qazanmaqda xarici görkəmi də az rol oynamırdı. O, yaraşıqlı bir kişi idi. İri, mənalı gözləri var idi. İndi də, başının qabağının azacıq dazlaşmasına, saçının qismən ağarmasına baxmayaraq, yaraşığını itirməmişdi. Həmişə səliqəli və zövqlə geyinirdi.

Var-dövlətinə isə, söz ola bilməzdi. Özü ehtiyatlı, suyu üfürüb içən olsa da, vəzifəsi yüksəldikcə pula tamahı artmış, pul da axıb onun qarşısına tökülmüşdü. Həmin pulları, son vaxtlar, yalnız şəxsi obyektlərin çoxaldılmasına sərf etmişdi. Şəhərdə və rayonlarda mağazaları, restoranları, sexləri, torpaqları, qoyun sürüləri var idi. Hamısı da gizlin! Yəni heç kəs bilmirdi ki, bu obyektlər və ya müəssisələr, təsərrüfatlar ona xidmət edir. Niyazi Məlikxanlı öz işini ehtiyatlı tutan adam idi. Qudurub, gözü ayağının altını

görməyənlərdən deyildi. İşlər hamısı onsuz həll olunurdu ki, bunların da başında Ruslan Dadaşov dururdu. Ümumiyyətlə, Məlikxanlının idarədən kənar bütün işlərinə Ruslan cavabdehlik daşıyırdı. Bu xidmətinə görə Məlikxanlı da onun heç bir xahişini rədd etmirdi. Belə ki, bəzi məsələlərdə, Ruslan Dadaşov idarə işlərinə də qarışa bilirdi. Çox vacib iş üçün Məlikxanlının razılığını almaq istəyən şəxslər birinci Ruslana yaxınlaşmağa məcbur olurdular ki, bu da havayı başa gəlmirdi.



downloaded from KitabYurdu.az

Heç idarədə də dolaşıq işə baş qoşmurdu Məlikxanlı. Belə işlər olanda o saat Cahangirovun üstünə göndərirdi. Qoy o məşğul olub, razılığını versin! - deyirdi.

Öz təmiz adını nə qədər qorusa da, işlərini nə qədər ehtiyatla tutsa da, indi gəlib belə bir işə düşmüşdü. Və bu işin sonu nə ilə qurtaracaqdı, demək çətin idi. Məsələ yuxarı dairələrə, yəqin ki, məlum olmuşdu. Bəlkə prezidentə də! Ondan isə bu məsələdə güzəşt gözləməyinə dəyməzdi. Hələ yaxşı ki, ölkədə deyildi. Onun xarici səfərdən qayıtmasına qədər istintaqda Məlikxanlının xeyrinə irəliləyiş olmasaydı, vəziyyət çox pis olacaqdı...

Bir sutka ərzində Məlikxanlı sanki arıqlamış, gözləri çuxura düşmüşdü. Sarsıntıdan xəstəliyə tutulacağından qorxurdu. Odur ki,

içməyə başlamışdı. İndi də stolun üstündə yarımçıq “Napoleon” konyakı var idi.

Yenə də müstəntiqdən surətini alıb oxuduğu həmin məktub gəlib gözləri qarşısında dayandı. Ekspertiza tam şəkildə təsdiq etmişdi ki, məktub qızın özü tərəfindən yazılıb. Sabaha isə onu spermadan analiz verməyə çağırırdılar. “İşə bir bax! Gör bu qancıq məni nə oyuna saldı!” deyə düşünən Məlikxanlı birdən yumruğunu stola çırparaq bərkdən, rus dilində söyüş söydü:

- Şilyuxa! Tryapka!

Hirsindən nə edəcəyini bilmirdi. Stəkana konyak süzüb içdi və əlləri əsə-əsə siqaret yandırıb çəkməyə başladı.

Qaplan gəlib bir müddət sakitcə onun üzünə baxdı. Sonra yaxınlaşıb qabaq ayaqlarını qaldırdı və sahibinin dizləri üstünə qoydu.

- Get, Qaplan!



downloaded from KitabYurdu.az

İti əlinin hərəkəti ilə özündən uzaqlaşdırdı. Bu saat onunla məşğul olmağa heç həvəsi yox idi.

Bu vaxt maşın səsi eşidən gözətçi küçəyə çıxdı və qayıdıb darvazanı taybatay açdı. Boz rəngli “Nissan-Maxima” həyətə daxil oldu. Ruslan Dadaşov maşından düşüb qapını çırpdı və stola yaxınlaşdı:

-Axşamınızxeyir, Niyazi müəllim!

Əhval-ruhiyyəsinin çox yüksək olması səsindən hiss olunurdu.

-Axşamın xeyir, Ruslan, gəl əyləş!

- Vəziyyət necədir? - Ruslan stulda oturub soruşdu.

- Gördüyün kimi... Səndə nə xəbər var?

- İşlər pis getmir! - Ruslan konyakdan süzüb başına çəkdi. - Qaldı ki, bu məsələyə, sabah analiz verəcəksiniz, sonra isə hər şey yaxşı olacaq.

- Sonra nə olacaq ki? - Məlikxanlı dostunun zirəkliyinə inanırdı.

- Sonra biz tələb edəcəyik ki, sizə atılan bu böhtanı təşkil edənlər tapılıb cəzalandırılsınlar. Başda qızın öz atası olmaqla!

- Niyə o? - Məlikxanlı maraqla soruşdu.

- Çünki sizin kimi mötəbər bir adamı ləkələməyə yönəlmiş böhtan onun qızının əli ilə yazılıb!

- Sən doktor Muradzadəyə zəng vurub, onu hədələmisən? - Məlikxanlı məzəmmətlə soruşdu.

- Özüm yox... Ancaq tapşırmışam, zəng vurublar!

- Axı niyə?

- Qoy bilsin ki, qızı, yaxud bəlkə də özü kimə sataşıb!

Məlikxanlı daha bir söz demədi. Bir qədər düşünüb, astadan,



downloaded from KitabYurdu.az

qayğılı halda dilləndi:

- Sabah əlimə ekspertizanın rəyini ala bilsəydim, yaxşı olardı. Gülafət xanım da evdə tək qalıb. Gözünə görünə bilmirəm...

- Mən gedib baş çəkdim ona... - Ruslan qəfil dilləndi.

- Bilir? - Məlikxanlı narahatlıqla onun üzünə baxdı.

- Hə! Sizin o boşboğaz vəkilinizdən eşidib. Çalışdım onu inandıram ki, bunlar böhtan və təxribatdan başqa bir şey deyil.

- Nə deyirdi?

- Gülafət xanım çox ürəyinazik qadındır. Hər halda ona pis təsir edib bu hadisə... Mən ayaqüstü hal-əhval tutub çıxdım. Başqa yerə tələsirdim.

- Hə... Yəqin ki, pis təsir edib ona... - Məlikxanlı ah çəkdi. - Asəfi çağırıb. Bilmirəm niyə?.. O da gəlib çıxmır ki, öyrənim. Zəng də vura bilmirəm. Deyirəm, birdən yanında olar... İnanırsanmı, Ruslan, düşünəndə ki, o məni xəyanətkar hesab edə bilər, dəhşətə gəlirəm.

Ruslan dinmədi. Canına hopan ləzzət hələ çəkilib getməmişdi. Özünü qalib və rahat hiss edirdi. Bilirdi ki, bu işi heç kəs bilməyəcək və heç bir problem də yaranmayacaq. Gülafətə qarşı nə qədər kobud və normadan kənar hərəkətlər etmişdisə də, ayrılanda düşünmüşdü ki, qadın ondan ümumiyyətlə, razı qalıb. Ancaq bir gün əvvəl heç cür

inana bilməzdi ki, Gülafət xanımla aralarında olan ciddi və pərdəli münasibət birdən-birə bu dərəcədə dəyişəcək. Heç indi də tam inana bilmirdi... Necə oldu ki, Gülafət xanımla birdən-birə, ən adi qadınlarla rəftar etdiyi kimi, rəftar edə bildi?.. Bu cəsarət ona haradan gəldi? Bu suallara cavab tapa bilməsə də, hər halda, özündən razı idi və böyük qələbə çaldığını hiss edirdi. İndi hörmətli Gülafət xanım onun üçün sadəcə Gülya idi... Ya da Güliçka...



downloaded from KitabYurdu.az

Asəf gəldi. Maşını həyətə salıb, darvazanı bağladı və bir qədər narahat addımlarla stola yaxınlaşdı:

-Axşamınız xeyir!

Məlikxanlı onun salamını alan kimi cəld soruşdu:

- Niyə çağırmışdı?

- Heç, elə bu məsələ barədə maraqlanırdı. Sonra ayaqüstü öz evimizə də baş çəkdim. Ona görə gecikdim...

O, Məlikxanlının üzünə baxa bilmirdi. Ruslan gözaltı onu diqqət süzgəcindən keçirib düşündü:

"Nəyə görəsə özündə deyil. Kişinin də üzünə yaxşı baxa bilmir. Görəsən, bir şey eləməyib ki, Güliçkaya? Mənim Güliçkama... Ancaq heç inanmıram. Gülafət hələ üç-dörd gün özünə gəlməyəcək".

- Nə danışdınız? - Məlikxanlı sual verdi.

- Dedim ki, Niyazi müəllimin heç vaxt məndən gizlin işi olmayıb. Mən isə and içirəm ki, həmin məktubda yazılanlar böhtandır.

- İnandı?

- Məncə, bir az inandı.

-Yaxşı... - Məlikxanlı başını tərpətdi.

Asəf aralanıb maşının yanına gedən kimi, Ruslan da qalxdı:

- İcazə verin, mən gedim. Sizə baş çəkməyə gəlmişdim. Səbirli olun. Sabah hər şey yoluna düşəcək. Sonra hücum növbəsi bizimdir!

- Çox sağ ol, Ruslan! - Məlikxanlı da qalxıb əlini onun çiyninə vurdu. Bir daha inandım ki, sən həqiqi dostsan. Ancaq bugünkü o işin...

- Hansı iş? - Ruslan cəld soruşdu. Deyəsən bir az özünü itirmişdi.



downloaded from KitabYurdu.az

- Doktora hədə-qorxu gəlməyini deyirəm. Biz quldur deyilik. Hər şeyi ağılla həll etməliyik. Qoy hər şey yoluna düşsün, sonra lazım olsa hər kəsi öz əməlinə uyğun cəzasına çatdırarıq!..

- Mən sizin üçün çalışıram...

- Bunu bilirəm və qiymətləndirirəm.

-Yaxşı... Salamat qalın!

- Sənə yaxşı yol!

Ruslan Dadaşov onunla əl tutub “NİSSAN” a oturdu və maşını döndərib Asəfin açdığı darvazadan küçəyə çıxdı. Qaplan maşının dalınca yüyürüb yenə geri qayıtdı və sahibinin ayaqlarına sürtündü. Məlikxanlı əyilib onun başına sığal çəkdi. Sonra stola yaxınlaşıb stəkana konyak süzdü. Onu başına çəkib zərblə stolun üstünə qoydu və ucadan dilləndi:

- Sabahı gözləyək!

## XI fəsil

## Qızıl alışqan

Veneranın qrup yoldaşları kursun sonuncu semestr imtahanını verirdilər. Bu imtahandan sonra üçüncü kursa keçəcəkdilər. Venerasız... Tələbələr ikibir, üçbir toplaşıb dəhlizdə söhbət edirdilər.

Qrupun ən fəal, əlaçı tələbəsi olan Venera Muradzadə imtahana gəlməmişdi. Ən yaxın rəfiqəsi olan Gülşən imtahanın başlanmasına beş dəqiqə qalmış onun cib telefonuna zəng vurmuşdu. Telefonu isə söndürülmüşdü. Yəqin ki, öz həyatı kimi, həmişəlik...



downloaded from KitabYurdu.az

İmtahana hamıdan əvvəl girib çıxmış Gülşən narahat olub dekanın katibəsindən xahiş etmişdi ki, Veneragilin evinə zəng vursun. Katibəyə bildirmişdilər ki, Venera heç vaxt universitetə gələ bilmə¬yəcək. Çünki o, artıq həyatda yoxdur, ölüb...

Bu xəbər Gülşənə qəfil güllə kimi dəymişdi. İnanmaq istəməyib bir neçə dəfə, dalbadal cib telefonuna zəng vurmuş, kompüterin yaddaşına yazılmış sözləri dinləmişdi. «Bu nömrəyə zəng çatmır. Telefon ya söndürülüb, ya da əhatə dairəsi xaricindədir. Xahiş edirik, bir az sonra zəng edəsiniz...»

Göz yaşlarını saxlaya bilməmiş, doyunca ağlamışdı. Elə o biri

qızlar da... İndi istəməsinlər, Veneranın xətrini hamısı çox istəyirdi.

İndi bir qədər toxtamışdılarsa da, söhbət yenə ondan gedirdi. Bu qıza birdən-birə nə oldu axı?.. Sapsağlam qız idi. Hər kəs öz ehtimalını söyləyirdi. Əsl həqiqəti isə heç kəs bilmirdi.

Bir qız topalaşmış dəstələrin birinə yaxınlaşıb üzünü, göz yaşları təzəcə qurumuş Gülşənə tutdu:

- Gülşən, səni aşağıda bir oğlan gözləyir.

- Məni? - Gülşən təəccübləndi.

- Hə, səni. Qapıda dayanıb.

Gülşən:

- Yəqin, qardaşımdır. - deyib, qızlardan ayrılaraq, tələsik aşağı düşdü.

Giriş qapısının yaxınlığında gözətçi qadından və otuz yaşlarında gənc oğlandan başqa heç kəs yox idi. Bu, şıq geyinmiş yaraşıqlı bir oğlan idi. Əyninə açıq boz rəngli, bahalı köynək və həmin rəngdə şalvar geyinmişdi. Səliqə ilə yana daranmış saçları, cavan olmasına baxmayaraq, ona



downloaded from KitabYurdu.az

mötəbər görkəm verirdi. Gülşən qapıdan küçəyə nəzər salaraq, heç kəsi görmədi və geri dönüb tanımadığı oğlana yaxınlaşdı:

-Sizə kim lazımdır?

- Gülşən sizsiniz? - oğlan suala sualla cavab verdi.

-Tutaq ki, hə...

- Gəlin, tanış olaq! - oğlan ciddi şəkildə dilləndi. - Adım Akifdir. Veneranın qohumuyam...

- Bibisi oğlu? - Gülşən cəld soruşdu.

-Tanıyırsınız?

- Adınızı eşitmişəm. Həm də toy şəkillərinizə baxmışam.

-Yəqin, siz qardaşımın şəklini görmüsünüz. Mən evli deyiləm.

- Veneraya nə olub? - Gülşən əvvəldən verməli olduğu sualı verdi.

- Mən sizinlə söhbət etmək istəyirəm. - oğlan cavabdan yayınaraq qapıya baxdı. - İmtahanınız nə vaxt qurtaracaq?

- Mən, artıq, çıxmışam.

- Onda, xahiş edirəm, gedək, haradasa, sakit bir yerdə oturaq.

- Onda... gedək parka! - qız təklif etdi. Oğlan sanki onun üçün doğmalaşmışdı. Onlar yaxınlıqdakı parka girib, boş bir skamyada oturdular. Oğlan çox kədərli görünür, sanki danışmağa çətinlik çəkirdi. Söhbətə də kənardan başladı:

- Sizin adınızı çox eşitmişdim. Mən Veneragildə olanda, o sizinlə telefonda danışırdı. Bilirdim ki, onun ən yaxın rəfiqəsi sizsiniz. Ancaq onu da deyim ki, bu dərəcədə qəşəng olduğunuzu bilmirdim.



downloaded from KitabYurdu.az

Gülşən deyilən tərifə tam layiq olmasa da, suyuşirin bir qız idi. Oynaq və şux bədən quruluşu var idi. Üzündə kiçik sızanaqların olmasına baxmayaraq, sifət cizgiləri cəlbedici idi. Ancaq dodağına boya çəkməsəydi, belə zövqsüz çəkməyindən daha yaxşı görünərdi.

- Sağ olun! - oğlanın tərifi ona çox xoş gəlmişdi. - Ancaq heç demədiniz, Veneraya nə olub?

-Venera srağagün, evdə özünü zəhərləyib... - oğlan kədərlə cavab verdi.

- Nə danışırsınız?! - Gülşən dəhşətlə oğlana baxdı.

-Bəli...

-Axı nə üçün?

- Bilinmir... Elə ona görə də Əlisəttar dayının, yəni Veneranın atasının tapşırığı ilə gəlib sizi tapdım ki, onun bizə məlum olmayan həyatı barədə sizdən öyrənim. Siz onunla bacı kimi olmusunuz. Deməli, bizim üçün də özgə deyilsiniz. Odur ki, xahiş edirəm, kömək edin, onun özünə qəsd etməsinin səbəbini bilək!

- Siz nə işləyirsiniz? - qız gözlənilmədən soruşdu.

- Bizneslə məşğulam.

- Mən sizə kömək etməyə hazıram. Ancaq mənim nə köməyim

ola bilər?

- Deyin görüm, onun gəzdiyi oğlan var idimi?

- Hə, var idi... - Gülşən cavab verdi. - Elnur adında oğlanı sevirdi. Elə sizin yaşda olar... Elnur Qatarlı eşitmisiz?

- Yox! - müsahibi başını buladı.

- Jurnalistdir. Qəzetdə hekayələri də çıxır.

- Rast gəlməmişəm. - Oğlan çiynini çəkdi. - O da sevirdi Veneranı?



downloaded from KitabYurdu.az

Gülşən bir az fikirləşdi:

- Bilirsən, Akif, düzünü desəm, oğlanların məhəbbətinə heç inanmıram mən. Nə bilim?.. Guya Veneranı sevirdi, amma təkliyə düşəndə mənə kompliment deyirdi.

Qızın «sən»ə keçdiyini görən oğlan da ona «sən»lə müraciət etməyə başladı:

- Sən doğrudan da gözəlsən, onu qınamıram.

- Bəlkə o da sevirdi, deyə bilmərəm... - Gülşən utanıb sözü də- yişdi.

- Onlar harada görüşürdülər? - oğlan soruşdu.

- Elə burada - universitetin qabağında görüşürdülər. Oğlanın maşını var. Veneranı bəzən maşınla aparırdı.

- Haraya?

- Bilmirəm... Yəqin ki, evlərinə!

- Kimin evinə?

- Veneragilin.

- Nədən bilirsən? - oğlan maraqla soruşdu.

- Deyirdi, gəl maşınla aparım səni... Minib gedirdilər.

- Sən də minmisən onun maşınına?

- Bir dəfə...

- Haraya getmisiniz?

Onlar artıq köhnə tanışlar kimi söhbət edirdilər. Gülşənin oğlana qanı qaynamışdı. Həm də Veneranın qəfil ölümü onları doğmalaşdırmışdı, elə bil.



downloaded from KitabYurdu.az

- Bulvarda nahar etdik. Sonra məni metronun qabağında düşürtdü. Özüm elə istədim.

- Necə bilirsən, Gülşən, - oğlan mehribanlıqla qıza baxdı. - Onlar evlənmək istəyirdilər?

- Əlbəttə! - qız təəccüblə dilləndi. - Venera tezliklə nişanlanmaqlarını istəyirdi.

- Bəs Elnur?

- O deyirdi ki, universiteti qurtar, sonra!

- Elnur siqaret çəkirdi?

- Hə, çəkirdi. - Sual qıza mənasız görünsə də, sakitcə cavab verdi.

Oğlan bir qədər susdu. Deyəsən, fikri qarşısından keçən qızlarda qalmışdı. Birdən, Gülşənə baxıb, qəfil soruşdu:

- Sən Niyazi Məlikxanlını tanıyırsan?

- Yoox... - Gülşən təəccüblə çiynini çəkdi. - Kimdi ki o?

- Deməli tanımırsan...

Gülşən bir qədər fikrə getdi.

- Deyəsən, adını eşitmişəm... Televizorda. Deputatdır?

- Yox! - Oğlan başını buladı.

Susdular. Hiss olunurdu ki, Gülşən ondan ayrılmağa tələsmir. İlk tanışlıqlarına baxmayaraq, oğlandan xoşu gəlmişdi. Elə oğlan da, deyəsən, ona biganə deyildi. Başını qaldırıb Gülşəni məhəbbət dolu baxışlarla süzdü:

- Sən haralısan, Gülşən?

- Qaçqınıq... Ağdamdan. İndi mikrorayonda oluruq.



downloaded from KitabYurdu.az

- Bacıdan, qardaşdan nəyin var?

- Bir qardaşım var.

- Mənə kömək etmək istəyirsən? - Oğlan əsas məsələyə keçdi.

-Veneranın ruhu xatirinə. Həm də mənim xatirimə. Mən sənin yaxşılığını unutmaram.

- Nə kömək lazımdır? - Gülşən razılıqla soruşdu.

- Sən Elnurla görüşə bilərsən? Elə bu gün.

- Necə? - qız sadəlövhcəsinə soruşdu.

- Telefon nömrəsi yoxdur, səndə?

-Yox... - sonra nə fikirləşdisə, çantasını açdı. - Bir dəqiqə...

Çantasından əzilib köhnəlmiş bir qəzet çıxartdı. Bu çox az tirajla buraxılan qəzetlərdən biri idi. Gülşən qəzetin axırıncı səhifəsində, lap aşağıda yazılmış iki mobil nömrəni göstərdi:

- Bax, bilirəm ki, bu ikinci nömrə onun olmalıdır!

Oğlan sevindi:

- Lap yaxşı! Zəng vur, de ki, görüşmək istəyirsən. De ki, vacib sözün var. Görüşəndə isə, Veneranın ölümünü çatdır. Soruş ki, o nəyə görə özünü öldürüb?

- O nə bilsin ki? - Gülşən tez dilləndi. - Bilsə də, deməz axı...

- Bunun dəxli yoxdur! Sənin əsas köməyin başqa şeydə olacaq.

- Oğlan cibindən üzərində qızıl işləmələr olan çox gözəl bir alışqan çıxartdı. - Sən bu alışqanı ona verməlisən.

- Niyə? - qız təəccübləndi.



downloaded from KitabYurdu.az

- Səbəbini sənə başqa vaxt deyərəm. Bilirsənmi, Gülşən, Venera öləndə, məktub yazıb qoyub və həmin məktubda bir nəfərin adını çəkib. O adam indi vəkil tutub. Bizim də vəkilimiz var. Biz onun məsləhəti ilə hərəkət edirik. Sən isə, yaxın adamımız kimi, bizə kömək etməlisən. Söhbət əsnasında bu alışqanı əlində oynat. Ancaq yandırma! Yəqin, soruşacaq ki, bu kimindir? De ki, qardaşıma bağışlayıblar. O isə çəkən deyil. Xahiş etdim, mənə verdi. Sonra de ki, xoşun gəlirsə, mən də sənə bağışlayıram. Çalış alsın!

- Birdən almadı? - qız inamsız halda soruşdu.

Oğlan gülümsədi:

- Səncə, belə alışqandan keçərlər?

-Yaxşı... - Gülşən razılaşdı.

- Dayan, hələ qurtarmayıb! - Oğlan cibindən şüşə qutuya qo¬yulmuş gözəl bir diyircəkli qələm çıxartdı. - Alışqanı götürsə, de ki, məndən sənə yadigar olsun. Yadigardan, hədiyyədən söz düşəndə bu qələmi çantandan çıxarıb ona göstər. De ki, bunu mənə keçən il ad günümdə Venera verib. Ən əziz xatirə kimi saxlayacam. Özün qələmə əl vurma. Sadəcə qapağını aç, göstər. Çalış ki, alıb baxsın. Bu zaman onun əl izləri qələmdə qalacaq. Ancaq qələmi çox da qurdalamağa qoyma, xarab olar. Görüşünüz bitən kimi mənə zəng vur. Razısan?

Gülşən razılıqla başını tərpətdi. Ancaq özü də bilmirdi ki, bunu bacaracaq, yoxsa yox!

-Ay sağ ol! İndi gəl, nömrələrimizi bir-birimizə deyək!

Gülşən cib telefonunun nömrəsini dedi. Oğlan da, öz növbəsində, nömrəsini ona verib dilləndi:

- Sənə nə qulluq edim? Bəlkə gedib bir yerdə nahar edək?



downloaded from KitabYurdu.az

- Yox, sağ olun!

- Onda, elə bu saat zəng vur!

Gülşən ani olaraq həyəcanlandı. Ancaq oğlanın səmimiyyət dolu baxışları qarşısında özünü ələ alıb qəzetdəki nömrəni yığdı.

-Alo, Elnur? Tanıdın? Gülşəndir... Sağ ol... Səninlə təcili gö¬rüşmək istəyirəm... Görüşərik, danışaram, konturum azdır... Yox, zəng vurma, telefon söhbəti deyil... O dəfəki kafedə... Hə, «Sahil»də...

Telefonu qapadı.

- Dedi ki, «Sahil» kafesinin qabağında gözlə, gəlirəm.

- Çox sağ ol, zirək qızsan! Deyəsən səni sevəcəm! - Oğlan bunu deyib ayağa qalxdı. - İndi gəl səni bulvara aparım.

Gülşən qızardı. Həvəslə ayağa qalxıb, onunla yanaşı addımlamağa başladı. Onlar yenə universitetin qabağına gəldilər.

Oğlan qara rəngli bir «Mersedes»in arxa qapısını açıb qızı maşına dəvət etdi. Gülşən ani tərəddüddən sonra keçib maşında əyləşdi. «Mersedes» yola düşüb birdə bulvarın kənarında, «Sahil» kafesinə ən yaxın bir yerdə dayandı.

Gülşən maşından düşdü. Oğlan:

- Sənə müvəffəqiyyətlər! Zəngini gözləyəcəm, - deyib maşını sürdü.

Beş-on addım getmiş, maşını saxlayıb, mühərriki söndürdü. Boylanıb kafeyə tərəf addımlayan qızın arxasınca baxdı və cibindən bir saqqız çıxarıb çeynəməyə başladı. Özünü Veneranın bibisi oğlu kimi qələmə verən bu oğlan, əslində əməliyyat-axtarış polisi, kapitan Mahir Talıbov idi.

O, Gülşənlə görüşə polkovnik Qasımlının xahişi ilə gəlmişdi. İçində yüksək keyfiyyətli səsyazan mikroqurğu quraşdırılmış alışqanı da, yenə



downloaded from KitabYurdu.az

içində elə bir qurğu yerləşdirilmiş qələmi də, ona Qasımlı vermişdi. Əgər, Elnur Qafarlı siqaret çəkən olmasaydı, alışqanla qələm öz vəzifələrini dəyişməli olacaqdı. Alışqan bir dəfə yandırılan kimi səsyazan qurğu batareyaya qoşulacaq və ondan sonra neçə dəfə yandırılıb-söndürülməsindən asılı olmayaraq, ona qoşulu qalacaqdı. Səsyazan qurğu isə yalnız yaxınlıqda danışıq olanda işləyəcək,

sakitlik olanda isə dayanıb «gözləyəcəkdi».

...Az keçmiş bulvarın kənarında, səkiyə lap yaxın «Daewoo» markalı bir maşın dayandı. Gözündə rəngli eynək olan gənc, maşından düşüb tələsik addımlarla, kafeyə tərəf getdi. Mahir zəng vurub, vəziyyət barədə Qasımlıya ətraflı məlumat verdi.

## XII Fəsil

## Kafedə görüş

Gülşənlə Elnur Qatarlı açıq havada düzülmüş stolların birinin arxasında, üzbəüz oturmuşdular. Süfrədəki yeməklərə əllərini də vurmamışdılar. Heç birinin yeməyə iştahası yox idi. Elnur Veneranın başına gələn qəziyyədən xəbərsiz imiş. Gülşən bunu xəbər verəndən sonra sarsılmış, qız özü ona təskinlik verməli olmuşdu. Dodaqları bir- birinə kiplənmiş Elnur əlində tutduğu alışqana baxır, hərdən onu yandırıb-söndürür, heç nə danışmırdı.

Gülşən alışqanı ona göstərəndə xeyli həyəcan keçirmişdi. Narahat fikirlərin əlində əsir olan qız nə edəcəyini bilmirdi.

«Görəsən, Akif niyə dedi ki, alışqanı yandırma? Bəlkə bu alışqanda partlayıcı maddə var?! Ümumiyyətlə, bu oğlan kim idi? Doğrudanmı, Veneranın bibisi oğlu idi?»

Elnur alışqanı ilk dəfə yandıranda, qız hətta diksinmişdi də. Ancaq sonra heç nə baş vermədiyini görüb, bir qədər sakitləşmişdi.



downloaded from KitabYurdu.az

Alışqanın üzərində, böyük zövqlə, ikibaşlı qartal şəkli həkk olunmuşdu. Bu alışqanı Qasımlıya Rusiyada Daxili İşlər Nazirliyinin yüksək rütbəli bir işçisi bağışlamışdı. Polkovnik bu alışqanı əldən

verməklə riskə getdiyini başa düşsə də, bəzi məsələlərin təxirəsalınmadan aşkarlanması üçün başqa çarə görməmişdi.

Elnur alışqanı Gülşənin qarşısına qoyub kədərlə dilləndi:

- Deməli belə... Yazıq Venera!

Gülşən alışqanı geriyə itələdi:

- Götür, qoy məndən yadigar olsun!

- Yox! Yox! - Elnur etiraz etmək istədi.

- Xahiş edirəm, götür! - Gülşən alışqanı israrla onun əlinə verdi. - Mən siqaret çəkməyəcəm ki?!

Elnur daha inad göstərmədi.

- Çox sağ ol, Gülşən! Sən çox yaxşı qızsan. Mən bunu səndən yadigar saxlayacam.

Gülşən, vaxt itirmədən, Mahirin verdiyi qələmi çantasından çıxartdı:

- Bu qələmi mənə, ad günüm münasibətilə, Venera vermişdi. Birinci kursda. İndi mənim üçün dünyada bundan əziz şey yoxdur.

Elnur əlini uzadıb qutunu aldı. Açıb içindən qələmi çıxartdı və o üz-bu üzünə çevirib baxdı. Sonra yenə qutusuna qoyub Gülşənə qaytardı. Elnur qələmə baxarkən, Gülşən ona diqqət yetirsəydi, onun əllərinin necə əsdiyini, görməmiş olmazdı.

Elnur, ümumiyyətlə, çox həyəcanlı görünürdü. Gələndən, elə siqareti siqaretə calayırdı. Gülşənin yeməyə əl uzatmadığını gec də olsa, başa düşüb:



downloaded from KitabYurdu.az

- Niyə yemirsən? - dedi. - İmtahandan çıxmısan, yəqin ki, acsan.

- Heç iştaham yoxdur! - Gülşən başını fikirli halda yırğalayıb cavab verdi və qəfil soruşdu: - Bizi də danışdıracaqlar?

- Nə üçün? - Elnur təəccüblə dilləndi.

- Biz onun ən yaxın adamları olmuşuq, axı?! - deyə Gülşən izah

etdi.

- Bunun nə dəxli var ki? - Elnur bir az fikrə gedib, yenə dilləndi: - Çox qəribədir, o özünü niyə öldürsün axı? Son vaxtlar özünü bir az qəribə aparırdı. Elə bil məndən gizlətdiyi bir sirri var idi...

- Nə sirr?

- Bilmirəm... Nəsə fikir çəkirdi, elə bil...

Gülşən nazik bığları qaraşın sifətinə yaraşan, eynəyinsə bir qədər zəhmli göstərdiyi Elnura baxıb düşündü ki, o, heç cür Veneranın intiharına səbəb ola bilməzdi. Ondan nahaq yerə şübhələnirlər. Venera, son gününə qədər, Elnurdan, bir dəfə də olsun, şikayət¬lənməmişdi. O bu qarayanız oğlanı həqiqi bir məhəbbətlə sevirdi və

ondan danışmaqdan heç vaxt doymurdu.

Elnur özü də pis oğlan deyildi axı? Jurnalist, yazıçı... Böyük gələcəyi var idi onun! Yadına düşdü ki, bəzən Veneraya həsəd də aparırdı Elnura görə...

- Elnur, yadındadı, üçümüzün burada oturmağımız?

- Hə... - Elnur başını tərpətdi. - Keçən ay.

-Ancaq bu stolda oturmamışdıq. - Gülşən boylanıb kənardakı stolların birini göstərdi. - Bax orda!



downloaded from KitabYurdu.az

Beş nəfər kişi kafeyə daxil olub Elnurun arxasındakı boş stolun ətrafında oturdular. Birinə stul çatmadı. O, ətrafa boylanıb Gülşəngilin stoluna yaxınlaşdı və əlini boş stulların birinə uzadıb soruşdu:

-Olar?

Fikri başqa yerdə olan Elnur kəskin hərəkətlə ona tərəf döndü:

- Məni?

Kişi gülümsədi:

- Stulu götürmək olar?

Elnur sakitləşdi:

- Hə! Hə! Buyurun!

Kişi stulu götürüb getdi. Arada uzun bir sükut yarandı. Bir qədərdən sonra Elnur tərəddüdlə dilləndi:

- Yemirsənsə, gedək, səni evinizə aparım. Sonra vacib işlərim var.

Ayağa qalxdılar. Maşına qədər heç biri danışmadı. Elnur arxa qapını açanda Gülşən dilləndi.

- Sən get, mən avtobusla gedəcəm.

- Yox, niyə ki? - Elnur təkid etdi. - Gəl otur aparım!

- Yox, sağ ol, buradan 65 nömrəli marşrutla birbaş evə gedəcəm.

- Yaxşı, nə deyirəm?.. Alışqana görə də çox sağ ol!

- Dəyməz!

Elnur Qatarlı maşına oturdu. Gülşən dayanıb onun getməsini gözlədi. O, Mahir Talıbovun hələ də burada olmasından xəbərsiz idi. «Mersedes»in güzgüsündə ona göz qoyan Mahir Qanbay Qasımlıya zəng vurdu:



downloaded from KitabYurdu.az

- Qız onunla getmir. Bulvarda qaldı. Maşını izləmək lazımdır, yoxsa?..

- Maşınla işin olmasın! Sən qızdan qələmi al! - Qasımlı göstəriş verdi.

- Oldu, Qanbay müəllim!

«Daewoo» hərəkətə gələrək, «Mersedes»in yanından keçib uzaqlaşdı. Həmin an daha bir maşın sürətlə Mahirin maşınının

yanından keçib onun dalınca düşdü. Bu ağ rəngli «Volqa» idi. Mahirin fikri qızda olduğu üçün, nə «Volqa»nın sükanı arxasındakı dostu Neməti, nə də arxada oturmuş polkovnik Qasımlını gördü.

O, maşını arxaya sürüb düz Gülşənin qarşısında saxladı və qapını açaraq onu içəri dəvət etdi. Gülşən keçib arxada əyləşdi və təəccüblə soruşdu:

- Sən hələ buradasanmış, Akif?

- Gördüyün kimi! - Mahir maşını işə saldı. - Əməliyyat necə keçdi?

- Yaxşı. - Gülşən qələmi çantasından çıxarıb ona uzatdı. - Ancaq mənə elə gəlir ki, bu işdə Elnurun heç bir günahı yoxdur.

- Ola bilər! - Mahir qələmi ondan alıb cibinə qoydu. - Hansı mikrorayonda yaşayırsınız?

- Doqquzuncuda, - qız cavab verdi.

Mahir maşını birbaş mikrorayona sürüb Gülşənin yaşadığı evdən bir qədər kənarda saxladı. Arxaya çevrilib mehribanlıqla Gülşənə baxdı:

- Mən sənə zəng vuran kimi yenə onunla görüşərsən. Deyərsən ki, qardaşım alışqanı tələb edir. Üzr istəyib onu geri alarsan. Düzdür, bəlkə də, bu sənin üçün çətin olacaq, ancaq sən bunu mərhum

rəfiqənə görə etməlisən.

- Yaxşı... - Gülşən maşından düşdü. - Hələlik!



downloaded from KitabYurdu.az

- Sağ ol, Gülşən, sənə çox minnətdaram!

Qızdan ayrılıb, geri qayıdanda, telefonu zəng çaldı. Qasımlı idi. Tapşırdı ki, qələmi təcili Fazil Məmmədliyə çatdırsın. Vəkil isə onu müstəntiq Ramin Əlibəyliyə verməli, ekspertlər ondakı əl izləri ilə əvvəlcədən müstəntiqə verilmiş stəkanla puldakı əl izlərini tutuşdurmalı idilər.

## XIII Fəsil

### Nuranə

Nahar qurtaran kimi Nuranə qalxıb süfrəni yığışdırdı. Bu işdə balaca Nuray da ona kömək edirdi. Ana süfrəni dəsmalla silib uşaqlara tapşırıq verdi:

- İndisə, əllərinizi yuyun, gəlin oturun, bir az oxumaqla, yazmaqla məşğul olun!

Bu il dördüncü sinfə keçmiş Tural kitab-dəftərini gətirib stolun arxasında oturdu. Nuray isə çantasını ələk-vələk edirdi. Tural, yadına indi düşübmüş kimi, birdən dilləndi:

-Ata gəlmişdi... Qapını Nuray açdı!

- Hə, Nuray? - anası ona tərəf məzəmmətlə baxdı.

Nuray günahını başa düşürmüş kimi, könülsüz dilləndi:

- Elə-belə gəlmişdi. Məni görməyə... Konfet verdi.

- Mən heç görüşmədim! - Tural bərkdən dedi.

Nuranə başını buladı:



downloaded from KitabYurdu.az

-Axı mən sizə demişəm ki, mən olmayanda, qapını heç kəsə açmayın. Həyətdə görəndə görüşə bilərsiniz. Ancaq onunla başqa yerə getməmək şərtilə!

- Mən onunla heç vaxt görüşməyəcəm! - Tural qaşqabaqla dilləndi.

Nuray əlindəki işi saxlayıb acıqlı-acıqlı qardaşına baxırdı. Nuranə yaxınlaşıb Turalın başını sığalladı:

- Niyə?

- Ona görə ki, o səni incidirdi!

- Kişilər hamısı arvadını incidir də! - Nuray dözməyib qışqırdı.

Nuranəni gülmək tutdu. Ancaq tez də özünü saxlayıb onlara

təpindi:

-Yaxşı, bəsdir, işinizlə məşğul olun!

Özü isə, küncdəki kiçik stolun üstündə, təzə yuyub qurutduğu paltarları ütüləməyə başladı. Ancaq fikri yenə də qarışmışdı.

Üç bacı idilər. Qardaşı olmadığı üçün onu oğlan kimi böyüt¬müşdülər. Bədəncə sağlam və qıvraq idi. Ev işində də, həyət-baca işində də ata-anasına yaxından kömək edirdi. Bununla bərabər, nadincliyi də var idi. Kənddə başına çıxa bilmədiyi bir dənə də ağac yox idi. Yoldaşları ilə tez-tez dalaşırdı. Məktəbdə də uşaqlar hamısı ondan qorxurdu.

Ancaq qəşəngliyinə də söz ola bilməzdi canı ölmüşün. Qız yoldaşları nə qədər özlərinə fikir versələr də, ona çata bilməyib

paxıllıq çəkirdilər. Oğlanlar isə ona arxadan, oğrun-oğrun göz qoyurdular. Üzünə söz deməyə cəsarət edən yox idi.

Yaxşı xasiyyətləri də az deyildi. Yalanın nə olduğunu bilmirdi. Dalca danışmaz, heç kəsə paxıllıq etməzdi. Dalaşanda da həmişə düzlüyün,



downloaded from KitabYurdu.az

ədalətin tərəfində dururdu. Nemətin arvadı Fədayə ondan üç sinif yuxarı oxuyurdu. Ancaq lazım gələndə ona da havadarlığı Nuranə edirdi.

Orta məktəbi qurtaran kimi Bakıda tibb texnikumuna qəbul olundu. Əlikramla da elə birinci kursda oxuyanda tanış oldu. Özü də qəribə bir tanışlıq idi bu...

Arzu adlı qrup yoldaşı ilə bulvara, gəzintiyə çıxmışdı. Bulvarla dənizi ayıran beton arakəsməyə yaxınlaşıb, bir xeyli, dənizə tamaşa etdilər. Sonra yollarına davam edib, söhbət edə-edə, dənizin kənarı ilə addımlamağa başladılar.

Bu zaman arxaları ilə gələn iki oğlandan biri bərkdən yanındakına dedi:

- Sən birfiquraya bax, Müzəffər, yandım töküldüm!

Müzəffər adlandırılan oğlandan səs çıxmadı. Arzu isə ürəkdən güldü. Deyəsən, sözü özünə götürmüşdü. Nuranə dinmədi. İndiyədək ona sataşan olmamışdı. Az keçmiş, həmin oğlan bir də dilləndi:

- Bu yubkaya lap paxıllığım gəldi!

Daha hədəf aydın idi. Arzu əyninə şalvar geyinmişdi. Nuranə geri çevrilib düz oğlanın üstünə getdi. Bu arıq, çəlimsiz bir oğlan idi. Qızın üstünə gəldiyini görüb, bir addım geri çəkildi. Nuranənin sərrast şilləsi sifətinə dəyəndə, ayağı asfaltdan azacıq hündür olan beton döşəməyə ilişdi və beli üstə dənizə tərəf yıxıldı. Onun ayağa qalxa bilmədiyini görəndə, hər üçü, daha çox Nuranə əl-ayağa düşdü. Oğlanın peysəri beton arakəsməyə dəydiyi üçün yarılmışdı.

- Əlikram, sənə nə oldu? - Müzəffər onu qaldırmağa çalışdı. Yaxşı ki, Əlikram tez özünə gəldi. Yoxsa Nuranənin qorxudan

ürəyi partlayacaqdı. Cəld çantasından yaylığını çıxarıb axan qanın üstünə basdı və həyəcanlı halda:



downloaded from KitabYurdu.az

- Dilini dinc saxlaya bilmirdin? - deyə soruşdu.

- Ay qız, o sənə nə dedi ki? - Arzu məzəmmətlə Nuranəyə baxdı. Oğlan da artıq, danışa bilirdi:

-Atamın canı üçün, mən pis məqsədlə demədim...

- Cındırsan da, cındır! Elə səndən yaxşı yubka olar! - Nuranə yenə dilini saxlamadı.

- Sən də canavarsanmış demə, bilməmişəm... - Əlikram zarıdı. Gülüşdülər. Əlikram beton döşəmənin üstündə oturmuş, o birilər

də onun başına yığışmışdı. Qanın kəsilməyini gözləyirdilər.

Beləliklə, aralarında əməlli-başlı tanışlıq yarandı. Oğlanlar neft texnikumunda oxuyurlarmış. Axırıncı kursda. Özləri də rayon uşaqları imiş.

Sonra tanışlıqları davam etdi və Nuranə indi anlaya bilmirdi ki, necə oldu, tezliklə Əlikrama ərə getməyə razılıq verdi. Bəlkə Əlikram, cəsarət göstərərək, ona qızlığını xatırladan ilk oğlan olduğu üçün qəlbini belə tez ələ ala bildi? Ola bilər... Axı o vaxta qədər Nuranəyə bir yetkin qız kimi baxanlar ancaq gizlicə köks ötürməklə kifayətlənmişdilər.

Hər necə olsa da, Nuranə tezliklə “hə” dedi və heç məktəbi də tam bitirməmiş evləndilər. Onda Əlikram artıq öz məktəbini bitirmiş, ancaq hələ iş tapa bilməmişdi. Kirayə ev tutdular və Əlikram alverə başladı. Öz rayonlarından olan bir nəfərə qoşulub Rusiyaya getdi.

Deyəsən, əli yaxşı gətirirdi və az vaxtda, Bakıda üçotaqlı ev aldılar. Puldan korluq çəkmirdilər. Nuranə indi, hərdən, fikirləşirdi ki, heç o vaxtlar da yaxşı demək olmazmış onun həyatına. Əlikram evə üç aydan, beş aydan bir gəlib, ikicə gün qalaraq yenə Rusiyaya qayıdırdı. Təzə gəlin olan Nuranə gecələr qovrula-qovrula qalırdı. Sağ olsun, Fədayənin çox mənəvi köməyi olurdu ona. Deyirdi, darıxma, bir



downloaded from KitabYurdu.az

azdan birdəfəlik qayıdıb burada iş tapar, xoşbəxt yaşayarsınız.

Nuranə də başını uşaqları ilə qatıb dözürdü.

Əlikram Rusiyadan birdəfəlik qayıtdı. Ancaq çox pis qayıtdı. Cibi boş, üst-başı tör-töküntü... Üstəlik, içkiyə də qurşanmışdı.

Bax, onda Nuranə əvvəlki günlərinə şükür etməyə başladı. Əlikram gah fəhlə işlədi, gah bazarlarda hamballıq elədi, ancaq heç birindən bir şey çıxmadı. Qazandığı pul araqla siqaretə güclə çatırdı.

O vaxtdan evi dolandırmaq Nuranənin öz üzərinə düşdü. Arzu edən xəstələrin evinə gedib iynə vurmaqla, pul qazanmağa başladı. Lazım olanda, Nemətgil də ondan öz yardımını əsirgəmirdi.

Bəlkə də, uzun müddət beləcə yaşaya bilərdilər. Ancaq Əlikramın xasiyyəti getdikcə dözülməz olurdu. Evə pul gətirməməyi bir yana dursun, Nuranəni getdiyi evlərə qısqanır, onu acılayır, söyürdü. Nuranəni isə tanış-biliş, qonum-qonşu mərd xasiyyətli, qeyrətli bir gəlin kimi tanıyırdı. Çox qadınlar öz sirlərini onunla bölüşür, dərdini ona açırdı. Bilirdilər ki, başını kəssələr də, heç kəsə xəyanət edən deyil.

Əlikram sutkalarla evdən çıxmır, Nuranənin də, uşaqların da gününü göy əskiyə bükürdü. Hər işə qarışır, hər xırda şeydən ötrü dava salırdı.

İçki düşkünlüyü onu elə hala salmışdı ki, artıq, yataqda da əlindən bir şey gəlmirdi. Həmişə də Nuranəni günahkar görür, onu acılayırdı. Nuranədə isə əslində, heç bir günah yox idi. “Ərimdir!” deyərək, onun əxlaqsız istəklərinə belə tabe olmağa çalışırdı. Ancaq onsuz da xeyri yox idi... Üzünü həftədə bir dəfə yalvara-yalvara qırxdırırdı, paltarlarının həmişə təmiz və ütülü olmasına çalışırdı. Yeməyin yaxşısını və çoxunu onun qabağına qoyurdu. Kənarda isə onu müdafiə edir, nöqsanlarını gizlətməyə çalışırdı. Ancaq nə mənası?..



downloaded from KitabYurdu.az

Dözmək, səbir etmək Nuranə üçün getdikcə daha çətin olurdu. Axır ki, qəti qərara gəldi və Əlikramdan ayrıldılar.

Yeni vəziyyətə tez öyrəşdi. Yaxşı ki, uşaqlıqdan bərkə-boşa düşmüş, dözümlü və iradəli böyümüşdü. Tural da anasını çox sevir, yaşının az olmasına baxmayaraq, indidən ona dayaq olmağa çalışırdı. Hətta hərdən öz uşaq düşüncəsi ilə ürək-dirək də verirdi anasına. Nuray isə anasını nə qədər çox istəsə də, hələ atasını unuda bilmirdi. Bəlkə də bu ona görə belə idi ki, Əlikram onu o birilərlə müqayisədə, az incitmişdi.

Nuranə evlilik müddətində arıqlayıb, əvvəlki görünüşünü itirmişdi. İndi isə, özü də hiss edirdi ki, xeyli dəyişilib. Bədəninə normal ət

gəlmiş, üzü işıqlanmışdı. Son illərdə geydiyi alt paltarları daha əyninə keçmirdi. Yeni alt paltarlarını, bir neçə ölçü yuxarı almağa məcbur olmuşdu.

Qanbay müəllimin evinə gedib-gələndən sonra, özünə bir az da çox diqqət yetirməyə başlamışdı. İlk vaxtlar bu işindən sıxılırdısa da, ev sahibinin ona yuxarıdan aşağı baxmadığını və daha doğrusu, ümumiyyətlə, baxmadığını görüb, işə uyğunlaşmışdı. Qasımlının ciddi xarakteri əslində, onun xoşuna gəlirdi. Ancaq hərdən onun qaraqabaqlığı, ciddiliyi və Nuranəyə laqeydliyi qadına toxunurdu da! Nuranənin ürəyində özündən 14 yaş böyük bu insana qarşı bir istək var idi ki, bu da təmənnasız və səmimi bir istək idi. Hər halda Nuranə özü belə düşünürdü.

Tək yaşayan, deyilənə görə hansısa bir mağazada fəhlə kimi işə düzələn Əlikram artıq Nuranədən ayrıldığına peşman olmuşdu. Hətta iki dəfə küçədə qarşısını kəsib, yenidən birləşməyi təklif etmişdi. Ancaq Nuranə, qətiyyən, razılaşmamışdı. Üçüncü dəfə Əlikram daha kəskin danışmışdı.

- Deyəsən, gedib tək kişinin evində qulluqçuluq edirsən, hə?

Bu söz Nuranəyə bərk toxunmuşdu:



downloaded from KitabYurdu.az

- Mən namusla çörək qazanıb, balalarımı saxlayıram. O adam

hörmətli insandır. Sən görənlərdən deyil. Özünü elə aparmır ki, mənim mənliyimə toxunsun. Sonrası da, axı sən kimsən ki, mənim işimə qarışırsan?

Əlikram xoruzlanmışdı:

- Mən sənin uşaqlarının atasıyam!

- Uşaqları görməyə heç vaxt etiraz etmirəm. Ancaq onları özüm saxlayıb böyüdəcəm.

Əlikram əl çəkməmişdi:

- Nuranə, gəl yenə əvvəlki günlərimizi qaytaraq. Səni əvvəlkindən də çox sevəcəm.

-Yox, Əlikram, artıq gecdir, mən daha bu həyatıma öyrəşmişəm.

- Görürəm!... - keçmiş əri istehza etmişdi. - Axır vaxtlar xeyli gözəlləşmisən də!

- Mən sənə gələndə də belə idim. - Nuranə ah çəkmişdi. - Yaman günə qoydun məni.

- Heç olmasa, Nurayı mənə ver, mən saxlayım. - Əlikram xahiş etmişdi.

- Yox, sən onu saxlayıb tərbiyələndirə bilməzsən. Görürəm, yenə içirsən, qurtar bu zəhrimarla! Biz heç, bizimlə qurtardın, özünə yazığın gəlsin! - Nuranənin ona doğrudan da yazığı gəldiyi üçün belə

demişdi.

- Mən əl çəkməyəcəm! - Əlikram axırda hədəyə keçmişdi. - Yenə görüşəcəm səninlə! Ağlını başına yığ, fikirləş. Uşaqları atasız böyütmə, yazıqdırlar!



downloaded from KitabYurdu.az

Nuranə başını bulayıb ondan ayrılmışdı. Ürəyi xeyli yumşalmış, hətta kövrəlmişdi də. Ancaq evə gələndən sonra, yenə də, dizi üstə çöküb ərinə yalvardığı günlər yadına düşmüşdü. Yenə qəlbi daşa dönmüşdü. Hər dəfə yalvaranda, o sözü Nuranə özü deyirdi. Deyirdi ki, uşaqlar yazıqdırlar, onlara yazığın gəlsin. Ancaq onda bu sözlərin heç bir əhəmiyyəti olmurdu...

- Ana, işə getməyəcəksən? - Turalın səsi Nuranəni fikirdən ayırdı.

- Gedəcəm! - dedi və əlindəki axırıncı paltarı ütüləyib çarpayının üstünə qoyaraq, hazırlaşmağa başladı.

Əl-üzünü yuyub, uzun, şabalıdı saçlarını daradı. Güzgüdə üz- gözünə baxıb, özünü qaydaya saldı. Mavi köynəyi ilə dizlərini güclə örtən qara yubkasını geyinib, ətirləndi. Bir daha güzgüdə özünə baxıb, çantasını götürdü və uşaqlara tapşırıq verdi:

- Evdən çıxmayın! Qapını heç kəsə açmayın! Bax, Tural, Nurayı incitmə. Nuray, sən də qardaşının sözünə bax. Sağ olun.

Yaxşı yol! - Bunu Tural dedi. Tez gəl! - Bunu da Nuray dedi.

## XIV Fəsil

## Polkovnikin şübhələri

Elnur Qatarlı maşını geniş həyətli bir restoranın qarşısında saxlayıb düşdü. Onunla demək olar ki, eyni vaxtda maşınının arxasında dayanmış ağ rəngli «Qaz-24»-ə fikir vermədən tələsik addımlarla restoranın həyətinə girdi. Həyətə düzülmüş çoxlu sayda stolların əksəriyyəti dolu idi. Buna baxmayaraq, Elnurun arxasınca içəri daxil olan Qanbay Qasımlı ilə Nemət boş stol tapıb əyləşə bildilər.

Elnur stolların arası ilə düz gedirdi. Bu vaxt qarşısına çıxan qara, çopur sifətli, əyri burun kişi ilə görüşdü. Bu sərrast atıcılığına görə dost-tanış tərəfindən «snayper» ləqəbi almış Mürsəl idi. Bu restoranı da, ondan bir



downloaded from KitabYurdu.az

qədər kənarda olan böyük supermarketi də o işlədirdi. O, gözünə rəngli eynək taxmış, bir qədər həyəcanlı görünən Elnuru şübhəli nəzərlərlə süzüb soruşdu:

- Səndən nə əcəb?

- Şefə zəng vurmuşdum. Dedi ki, bura gəlim...

Mürsəl arxaya baxmadan, əli ilə restoranın binasına işarə etdi:

- Dal həyətdədir!

Elnur ondan ayrılıb birmərtəbəli binaya girdi.

Qasımlı yüngülvarı yemək sifariş verdi. Oturub gözləməyə başladılar. Qasımlının üzü, Nemətin isə arxası darvazadan birmərtəbəli binaya gedən orta yola baxırdı. Yolun ətrafında gözəl güllər əkilmişdi. Ofisiant yeməyi gətirdi. Qasımlı iri bakala süzülmüş pivədən qurtum-qurtum içməyə başladı. Onun diqqəti Elnurun girdiyi binanın qapısında idi.

On beş dəqiqə sonra Elnur həmin qapıdan çıxıb, darvazaya doğru getdi. Onun çıxdığını Nemət də gördü.

- Arxasınca düşməliyik? - deyə soruşdu.

- Yox, lazım deyil! - Qasımlı səbirlə pivəsini içirdi.

Nemət də arxayın yeməyə girişdi. Qanbay Qasımlı iki il əvvəl Moskvadan gəlib, Nemətin mənzili ilə üzbəüz, iyirmi üçüncü mənzili alandan sonra, onlar tanış olmuşdular. Bu tanışlıq indi artıq dostluğa çevrilmişdi. Nemət Qanbay müəllimin apardığı bir neçə əməliyyatda iştirak etmiş, ona sadiq köməkçi olmuşdu. İndi də, Qasımlıya maşın lazım olduğu üçün tələsik özünü çatdırmışdı. Ancaq dostunun əsl məqsədindən xəbərdar deyildi.

Snayper Mürsəl gözündə qızıl sağanaqlı, günəş eynəyi olan bir adamla restoranın binasından çıxdı. O saat diqqətini toplayıb, sərt nəzərlərlə həmin adama göz qoyan polkovnik astadan dilləndi:



downloaded from KitabYurdu.az

- Bir az sol tərəfə əyil ki, bu adam məni görməsin!

Nemət arxaya baxmadan, onun göstərişinə əməl edib, sol tərəfə əyildi. Mürsəl yaltaqlıqla qızıl eynəkli adamın dalınca düşmüşdü. Nəsə danışırdılar. Ancaq Qasımlıgil onları eşidə bilmirdilər. Polkovnik yalnız oğrun baxışlarla onları izləyirdi. O, birdən diqqətini daha da kəskinləşdirib qabağa doğru əyildi:

- Bu ki, mənim...

Nemət özündən asılı olmayaraq geriyə çevrildi. Barmağında qızıl üzük, gözündə qızıl sağanaqlı eynək olan gənc kişi dayanıb alışqanla siqaretini yandırır, qarşısındakı çopur, qalın bığlı adam isə əl-qolunu ölçərək danışırdı.

- Arxaya baxma! Bir qədər sağa əyil! - deyə Qasımlı dilləndi.

Nemət onun dediyi kimi etdi və maraqla dostunun üzünə baxdı.

Qasımlı sanki özü ilə danışırdı:

- Əgər belədirsə, bu heç yaxşı olmadı...

- Nə olub? - Nemət sakit səslə soruşdu.

Polkovnik ona cavab verməyib diqqəti həmin adamda olduğu halda danışmağa davam etdi:

- Yəni bunun o işdə əli ola bilər? Axı nə üçün?..

Onlar həyətin içində, darvazaya yaxın saxlanmış xarici markalı maşına yaxınlaşdılar.

- O kimdir ki? - Nemət yenə sual verdi.

- İndi çevrilə bilərsən! - Qasımlı dilləndi. - O adama yaxşı bax!

Nemət ciddi görkəmlə Mürsələ son sözlərini deyib sükan



downloaded from KitabYurdu.az

arxasına əyləşən adama diqqətlə baxıb polkovnikə tərəf döndü və sualını təkrar etdi.

- Kimdir o?

Qasımlı yenə də dəqiq cavabdan yayındı:

- Mənə elə gəlir ki, Nemət, biz bu adamla qarşılaşmalı olacağıq... Özü də bu qarşılaşma o qədər də ürəkaçan olmayacaq!..

Bunu deyib əli ilə ofisiantı çağırdı. Nemət onun xasiyyətini yaxşı bildiyi üçün daha heç bir sual vermədi. Yeməyin pulunu verib, ayağa qalxdılar. Qızıl eynəkli adam artıq çıxıb getmişdi. Mürsəl onu yola salıb geri döndü və acıqlı səslə qışqırdı:

- Əlikram!

Bir arıq kişi haradansa çıxıb onun qabağına yüyürdü. Qasımlı onu ancaq arxadan görürdü.

- Haradasan ay biqeyrət?! - Mürsəl əlini yellədi. - Yenə o qəhbə arvadının dalınca getmişdin?

- Yox, Mürsəl qədeş, - həmin kişi yaltaqlandı, - vallah, mağazada idim.

- Cəhənnəm ol gözümdən! - Mürsəl qışqırdı.

Qasımlıya elə gəldi ki, Nemət həmin söyülən kişini tanıdı. Tanıdı və möhkəm pərt oldu. Ancaq o da Nemətə heç bir sual vermək istəmədi. Maşına əyləşdilər. Nemət:

- Hara gedəcəyik? - deyə soruşdu.

Qasımlı Gülafət xanım işləyən poliklinikaya sürməyi xahiş etdi.

* * *



downloaded from KitabYurdu.az

Təcrübəli xəfiyyə öz işində püxtələşəndən sonra bəlkə də ilk dəfə idi ki, özünə şübhə ilə yanaşırdı. İndi mənim bu qadının yanına gəlib, onunla sorğu-sual etməyim vacibdirmi?” Ancaq daha gec idi və o, kabinetə girmişdi.

Gülafət xanım onu tanıyıb, yəni ki, srağagün gecə bağa qonaq gəlmiş adam olduğunu bilib təəccüblə qarşıladı.

Qasımlı cinayət-axtarış eksperti olduğunu və Məlikxanlının vəkilinə kömək etdiyini bildirib, onun bəzi suallarına cavab verməsini xahiş etdi.

- Mənə isə elə gəldi ki, - Gülafət xanım nazla dilləndi. - Siz xəstəsiniz və mənim yanıma müalicə üçün gəlmisiniz.

Polkovnik istehza ilə gülümsədi:

- Əgər sizin yadınızdan çıxıbsa, icazə verin, yadınıza salım ki, siz uşaq həkimisiniz. Mən isə, göründüyü kimi, heç də uşağa oxşamıram.

Həkim ciddiləşdi:

- Bəli... Vəkil mənimlə danışıb. Ancaq, ümumiyyətlə, Niyazi vəkili niyə tutub, başa düşmürəm.

- Demək istəyirsiniz ki, - Qasımlı onun gözlərinə baxıb sual verdi. - Onun vəkilə ehtiyacı yoxdur? Bilmək olarmı, hansı mənada?

- O mənada ki, hər şey aydındır.

- Xeyr! - Qasımlı etiraz etdi. - Hələ ki, heç nə aydın deyil. Siz nahaq ərinizə inanmaq istəmirsiniz.

Gülafət xanım başını aşağı saldı. Nədənsə, polkovnikin gözlərinə baxa bilmirdi. Özünü axtarış eksperti kimi təqdim edən bu adamın baxışları elə bil onun qəlbinin dərinliklərinə girir, orada axtarış aparırdı. Bunu isə, Gülafət xanım istəməzdi. Çünki qəlbi dünənki erotik görüşlərin üzücü, dumanlandırıcı təsiri ilə dolmuşdu. Hələ, yaxşı ki, boynuna ipək yaylıq



downloaded from KitabYurdu.az

bağlamışdı. Yoxsa boynunda, boğazında olan ləkələr belə bir adamın nəzərindən yayınmazdı.

Ancaq Gülafət xanımın xəbəri yox idi ki, artıq Qasımlıda ona qarşı, azacıq da olsa, şübhə yaranmışdı. Həm gözlərinin lap

dərinliyində gizlətmək istədiyi sirli fikirlərə görə, həm də yayın istisində boynuna bağladığı yaylığa görə.

- Mənə nə sualınız var? - Gülafət xanım mehribanlıqla soruşdu. Onun gözlərində müsahibinə qarşı açıq-aydın rəğbət var idi.

- Sizin fikrinizcə, ərinizin ləkələnməsi, vəzifədən azad olunması və ya həbs edilməsi kimlərə lazım ola bilər?

- Əgər siz fikirləşirsinizsə ki, bu ərimə qarşı olan təxribatdır, mən deyə bilmərəm, bu kimə lazımdır. Ola bilsin, müavinlərinə, ola bilsin yerinə keçməyə şansı olan hansısa vəzifəli şəxsə. Bunu gərək siz aydınlaşdırasınız.

- Yaxşı! - Qasımlı mövzunu dəyişdi. - Siz Elnur Qafarlı adında jurnalist tanıyırsınız?

-Xeyr... Tanımıram...

- Doktor Muradzadəni necə?

- Əlbəttə, tanıyıram! Özünü də, arvadını da. Ancaq şəxsi münasibətimiz olmayıb.

- Ərinizin şəxsi müəssisələrindən xəbərdarsınız?

Bu, Qasımlının ağlına bir az əvvəl gəlmişdi. O, inana bilmirdi ki, səlahiyyətli adamların böyük əksəriyyəti başqalarının adına şəxsi müəssisələr saxladığı halda, Məlikxanlının belə obyektləri olmasın.

- Bir az... - Gülafat xanım tərəddüdlə dilləndi. O, dəqiq bilmirdi ki, bunu qarşısında əyləşmiş yad adama demək lazımdır, yoxsa yox.



downloaded from KitabYurdu.az

- Çoxdurmu belə obyektlər? - Qasımlı soruşdu.

- Bəlkə də... Ancaq o özü məşğul olmur bu işlərlə. Elə işlərini başqa adamlar aparır.

- Kimlər?

Gülafət xanımın daxilindən bir ağrı, bir gizilti keçdi. Bu dünən günortadan qalan ağrıların oyanması idi. Çətinliklə dilləndi:

- Ən etibarlı adamı Ruslandır. O gün bağda gördüyünüz adam.

- Sizin fikrinizcə o necə adamdır?

Gülafət xanım yerində qurcuxdu. Nəfəsi daralmağa başladı. Dili ilə dodaqlarını yaladı:

- Hər halda, Niyazini işdən çıxarsalar, Ruslanı onun yerinə qoyan deyillər. Əksinə, onda ərim obyektləri ilə özü məşğul olmağa başlayar. Ona görə də, Niyazinin vəzifədə qalması, məndən də çox Ruslana lazımdır.

- Hüquqşünas kimi danışırsınız. - Qasımlı gülümsədi. Ancaq tez də ciddiləşdi. - Ərinizin oğlu ilə münasibətiniz necədir?

- Demək olar ki, görüşmürük. O öz işi ilə məşğuldur. - Gülafət xanım soyuq cavab verdi.

Qasımlının verməyə başqa sualı yox İdi. Ümumiyyətlə, onun istintaq aparmaqdan xoşu gəlmirdi. O, hadisələri beyninin süzgəcindən keçirib məntiqi qərara gəlməyə alışmışdı. Uzun-uzadı sorğu-sual edib kimdənsə söz almağa alışmamışdı.

Bir şeyi anlaya bilmirdi ki, qarşısında əyləşən bu xanım nəyə görə ona belə doğma görünür? O ətrə görəmi? Yox, bunu fikirləşmək gülünc olardı. Həm də ki, ondan indi başqa ətrin iyi gəlirdi. İş ətirdə deyildi. Gülafət xanım özü onun qəlbinin qapısı ağzında idi. O, süzgün və son dərəcə



downloaded from KitabYurdu.az

mehriban baxışları ilə bu qapını döyürdü. Qasımlı bu baxışların hördüyü tora düşməmək üçün cəld ayağa qalxdı:

- İcazənizlə, mən gedim, başqa sualım yoxdur!

- Heç siz mənə adınızı da demədiniz.. - Gülafət xanım şəfqətlə dilləndi.

- Sağ olun! Bağışlayın ki, narahat etdim!

Qasımlı bunu deyib tələsik kabinetdən çıxdı. Həyətə düşüb maşına mindi və sükanın arxasında oturub onu gözləyən Nemətə:

- Bu gün, nədənsə, özümdən heç xoşum gəlmir - dedi və bir siqaret yandırdı.

Nemət bir söz deməyib maşını işə saldı. Belə vaxtlarda Qasımlını danışdırmağın mənasız olduğunu başa düşürdü. Ancaq polkovnikin əhvalı, doğrudan da, yaxşı deyildi.

## XV Fəsil

## Xoşagəlməz xəbərlər

Qanbay Qasımlı Nemətdən ayrılıb öz mənzilinə girdi. Nuranə artıq gəlmişdi. Mətbəxdə axşam yeməyini hazırlayırdı. Hansı ki, qoyub getdiyi nahar süfrəsinə heç əl də vurulmamışdı. Ev sahibinin gəldiyini görüb mətbəxdən çıxdı.

- Yenə nahar etməmisiniz? - deyə sıxıla-sıxıla soruşdu. - Qızdırım gətirim?

- Yox! Qəhvə içəcəm! - Qasımlı bir qədər kobud cavab verdi. - Siz nahaq gündə zəhmət çəkib iki dəfə gəlirsiniz! Günorta gəlib həm nahar, həm də şam yeməyini hazırlayıb qoya bilərsiniz. Süfrəni özüm hazırlayaram.

Nuranə pərt oldu. Boyasız olsa da, canlı görünən dodaqlarını yaladı.



downloaded from KitabYurdu.az

- Bağışlayın...- deyib yenidən mətbəxə keçdi.

Qasımlı iş otağına keçərək kresloda oturdu və ürəyində özünü danlamağa başladı. Niyə axı bu qadını acılayır? O ki qadınlara qarşı həmişə mədəni, həmişə iltifatlı olmuşdu?! Bəlkə bu qadını öz evində görməyi hələ də ona qəribə gəlir? Yox! Qasımlının qanı, doğrudan da,

qaralmışdı. Çox ağır və dolaşıq bir işə rast gəlmişdi.

Veneranın həmin sirli məktubu hansı şəraitdə yazması barədə artıq onda inamlı mülahizələr var idi. Bəs Məlikxanlının ifşa olunması kimə lazım idi? Bu gün vəkil ekspertizaların son nəticələrini ona çatdıracaqdı. Onda bəzi şeylər aydınlaşa bilərdi.

Qasımlı hiss edirdi ki, son dərəcə hiyləgər, qorxulu, əclaf bir düşmənlə üz-üzə gəlib. Ancaq o düşmən hələlik gözəgörünməz idi. Gözə görünmədən hadisələri idarə edirdi.

Lakin polkovniki əsəbiləşdirən bu deyildi. Əksinə o özünə layiq olan düşmənlə rastlaşdığı üçün sevinməli idi. Onun qanını daha çox qaraldan Gülafət xanımla münasibətlər idi. Rusiya kimi ölkədə özündən deyən çox cinayətkarın, qatilin bağrını yaran, real ölümün qabağından qorxub çəkilməyən, necə deyərlər, üzü üzlər görmüş polkovnik Qanbay Qasımlı bir qadına məğlub olmağa başlamışdı.

Hələ boş-boş suallardan ötrü, durub onun kabinetinə də getmişdi. Elə buna görə özünə də, Gülafət xanıma da acığı tuturdu.

Nuranə otağa girib əlindəki qəhvə fincanını ev sahibinin qarşısına qoydu. Qasımlı onun üzünə baxmadan:

- Deyəsən, xətrinizə dəydim. Üzr istəyirəm! - dedi.

- Yox, yox, nə danışırsınız? - Nuranənin səsi titrədi. Deyəsən lap

kövrəldi də. - Yemək gətirim?



downloaded from KitabYurdu.az

Qasımlı başını qaldırıb gülümsədi:

-Yaxşı, gətirin!

Nuranə otaqdan çıxdı. Ev sahibi onun arxasınca baxdı. Nuranədə nə isə dəyişiklik var idi. Hə, tapdı! Əvvəlkilərdən fərqli olaraq əyninə kip oturan yubka geyinmişdi. Bu onun gözəl bədən quruluşunu daha qabarıq göstərirdi. Hətta alt paltarının cizgiləri də bilinirdi.

Qasımlı tez gözünü ondan çəkdi. “Bu gün yaman qəribə olmuşam” deyə özünü məzəmmət etdi.

Telefon zəng çaldı. Polkovnik dəstəyi götürdü.

- Bəli!

Zəng vuran Mahir Talıbov idi.

- Hə! Mahir, eşidirəm!

- Elnur Qafarlı yarım saat əvvəl özü zəng vurub Gülşəni görüşə çağırıb.

-Aha!... - Qasımlı maraqlandı.

- Ondan xahiş edib ki, əgər Veneranın yaxın rəfiqəsi olmuş şəxs kimi polisdən onu danışdıran olsa, Elnurun adını çəkməsin. Deyib ki, istəmir Veneranın ölümü ilə əlaqədar onun adı hallansın və qəzetlərə düşsün. Deyib, onsuz da məlum olur ki, Venera onu aldadıb və sirlərini ondan gizlədib... Eşidirsiniz məni?

- Eşidirəm... - Qasımlı sakit cavab verdi. Nuranə yeməyi stola düzürdü.

- Hə... - Mahir davam etdi. - Gülşən birdən alışqanı istəyib. Mənim öyrətdiyim kimi. Deyib ki, qardaşım tələb edir. Elnur cavab verib ki, alışqanı evdə qoymuşam. Həmin vaxt siqaret çəkəndə doğrudan da başqa alışqan işlədib.



downloaded from KitabYurdu.az

- Başqa sözün yoxdu ki?

- Yox... Hə, bir də sizə demək yadımdan çıxmışdı. Elnurun sağ əlində sarğıya səbəb olacaq heç bir yara filan olmayıb.

-Yaxşı... Sağ ol, Mahir!

- Dəyməz! Mən sabah sizə lazım olmayacam ki?

- Lazım olsan, zəng vuraram.

Dəstəyi yerinə qoyub, fikirli halda yeməyini yedi. Nuranə gəlib süfrəni yığışdırdı. Qabları yuyub Qasımlıya «Gecəniz xeyrə qalsın» dedi və çıxıb getdi.

O gedəndən sonra polkovnik bir müddət kresloya yayxanıb fikrə getdi. Ona bəzi məsələlər artıq məlum olsa da, ortalıqda özünə cavab istəyən son dərəcə vacib və ciddi bir sual dururdu:

- Məlikxanlını şantaj etmək kimə lazım idi?

Cahangirova? Yox! Qasımlı öyrənmişdi ki, onun Məlikxanlının yerinə keçməsinə real şansı yoxdur. Həm də Cahangirov ağıllı adam idi və eyni zamanda Məlikxanlı ilə işləmək ona sərf edirdi.

Ruslan Dadaşova? Yox! Onu, doğrudan da, Məlikxanlının yerinə qoymazlar. O, heç özü də bunu istəməz.

Məlum olurdu ki, Ruslan dostunun şəxsi müəssisələrinə birbaşa nəzarəti həyata keçirir. Belə olan təqdirdə Məlikxanlının ləkələnməsi, vəzifədən çıxarılması, hətta həbs edilməsi onun yalnız ziyanına ola bilərdi. Lap ziyanına olmasa da heç nə dəyişməyəcəkdi. Müəssisələr kimlərin adına yazılmışdısa, həmin adamlar yenə də həmin müəssisələri Məlikxanlınınkı hesab edəcəkdilər, Ruslanınkı yox!

Doktor Muradzadəyə? Yox! Niyə ki? Hansı səbəbə görə? Buna heç bir səbəb görünmürdü.



downloaded from KitabYurdu.az

Bu adam kim idisə, doğrudan, çox hiyləgər adam idi. Məlikxanlı tamam ifşa olunub işdən çıxarılsaydı, həmin adam onun yerini tutacaqdı və onda bilinəcəkdi ki, o kimdir! Ancaq bu işi heç kəs təxribat saymayacaq, heç kəs də həmin adamı günahkar görməyəcəkdi. Çünki Qasımlıdan başqa, hamı qəti inanırdı ki, məktubda yazılanlar böhtan ola bilməz və Məlikxanlı doğrudan da qızın namusunu ləkələyib.

Bəlkə də bu təxribatı heç Məlikxanlının kreslosuna göz dikən adam etməmişdi. İntiqam məsələsi də ola bilərdi bu işdə. Kim bilir?..

Ancaq bəs kim ola bilərdi Məlikxanlının düşməni? Özü də belə qəddar, rəhmsiz və soyuqqanlı düşməni?..

Polkovnik bütün bu suallarla bərabər, bir də əldən çıxmış alışqan barədə düşünürdü. Onun fikrincə, alışqan, doğrudan da əldən

çıxmışdı və onu təcili geri qaytarmaq lazım idi. Ancaq necə?..

* * *

Nəhayət, Qasımlının bayaqdan gözlədiyi vəkil gəlib çıxdı. Yaman dilxor görünürdü. Ev sahibi onu otağa dəvət edib divanı göstərdi:

- Əyləşin, nə xəbər var?

- İşlər yaxşı getmir! - Fazil divanda oturub başını yellədi.

- Ekspertizanın nəticəsi məlum oldu?

- Bəli! Sizin qələmdəki əl izinə nə verdiyimiz stəkanda, nə də pulda rast gəlinməyib.

- Hə... Bu doğrudan da, yaxşı xəbər olmadı. - Polkovnik əli ilə alnını övkələdi.

- Hələ bundan da pis xəbəri indi deyəcəyəm! - Fazil Məmmədli kədərli halda Qasımlının üzünə baxdı.



downloaded from KitabYurdu.az

- Eşidirəm! - polkovnik qətiyyətlə dilləndi.

- Tibbi ekspert komissiyasının da rəyi alınıb. İntihar etmiş qızın uşaqlıq yolunda tapılmış spermatozoidlər Məlikxanlıya məxsusdur!

Fazil bu sözlərdən sonra təcrübəli xəfiyyənin dəhşətə gələcəyini gözləyirdi. Lakin onun, sadəcə, tutulduğunu görüb soruşdu:

- Başa düşdünüz?

- Davam edin! - Qasımlı sakitcə dilləndi.

- Nəyi davam edim? - Fazil çiynini çəkdi. - Müstəntiq Əlibəyli Məlikxanlı üçün qətimkan tədbiri seçib. Ev dustaqlığı... Məlikxanlının arzusu ilə tələb etdim ki, o öz evində, yaxud bağında yox, sürücüsü Asəfin bağında olsun. İndi onun oradan çıxmağa ixtiyarı yoxdur. Ancaq yanına adam gedib-gələ bilər...

- Sən bu işdən nə başa düşürsən? - Qasımlı soruşdu.

- Belə çıxır ki, Məlikxanlı bizi dolayıb. Mən heç! Ancaq sizin kimi, ölkədən kənarda da məşhur olan bir əməliyyat işçisini ələ salmaq onun ağlına haradan gəlib?

- Geri çəkilirsiniz? - Qasımlı diqqətlə vəkilin gözlərinə baxıb sual verdi.

- Bəs siz? - Fazil cavabdan yayındı.

- Mən heç vaxt geri çəkilməmişəm!

- Bəs onda nə etmək istəyirsiniz?

- Mən onu fikirləşirəm ki, Elnur Qafarlı alışqanı mənim düşündüyüm adama bağışlayıbsa, onu həmin adamdan necə almaq olar?

Fazil təəccüblə əlini havada oynatdı:

- Nə alışqan? Elnur Qafarlı kimdir?



downloaded from KitabYurdu.az

Qasımlı ona cavab vermədi. Gözlərini harasa, otağın bir küncünə zilləyib dərin fikrə getdi.

Fazil onu narahat etdiyini başa düşüb ayağa qalxdı:

- Mən gedim... Səhər zəngləşib danışarıq.

Qasımlı etiraz etmədi. Xoşagəlməz xəbərlər gətirmiş qonağını yola salıb geri qayıtdı və cib telefonunu götürüb Məlikxanlının yalnız üç nəfərə məlum olan nömrəsinə zəng vurdu...

XVI Fəsil

Namus bir dəfə itirilir

Televiziyada gənc xanəndələrin konserti gedirdi. Birdən verilişi dayandırıb, Niyazi Məlikxanlının tutduğu vəzifədən azad edilməsi barədə məlumat verdilər.

- Bax, bu çox pis oldu! - Məlikxanlının mənzilində, divanda yayxanıb televizora baxan Ruslan Dadaşov ucadan dilləndi.

- Nə pis oldu? - yataq otağından Gülafətin səsi gəldi.

- Niyazi müəllimi işdən çıxartdılar!

Gülafət cəld otağa keçdi. Təəccüblə əvvəl Ruslana, sonra isə televizora baxdı. Televizorda yenə gənc xanəndələr oxuyurdu. Gülafət, ekspertizanın son nəticələri barədə Ruslandan indicə eşitmişdi. Bilirdi ki, artıq hər şey təsdiq olunub. Buna baxmayaraq, ərinin vəzifədən çıxarılmağı onun üçün gözlənilməz oldu. Ağlamamaq üçün üst dodağını dişlərinin arasına salıb bərk-bərk sıxdı.

Artıq, o, nazir xanımı hesab edilməyəcəkdi. Ətrafdakıların qibtə dolu baxışları, yüksək mövqe, hörmət, dəbdəbəli həyat - hamısı keçmişdə qalacaqdı.

- Mən bir şeyi başa düşə bilmirəm ki, nə üçün Niyazi müəllim əsl



downloaded from KitabYurdu.az

həqiqəti məndən gizlətdi?! - Ruslan çəkib qurtardığı siqareti külqabına basıb söndürdü. - Axı həqiqəti bilsəm də, köməyimi ondan əsirgəməyəcəkdim?!

Ekspertizanın nəticəsinin onu təmizə çıxaracağına o qədər inanırdım ki, heç xüsusi bir fəaliyyət göstərməyə ehtiyac da duymurdum.

- Daha mənim üçün bunun fərqi yoxdur! - Gülafət simasına uymayan çılğınlıqla dilləndi: - Qoy o, daha buraya ayaq basmasın!

Nə zir-zibili var, Asəf gəlib aparsın. Mənzil mənim adımadır! Adıma yazılmış restorana da özüm sahiblik edəcəm. Mənə onun nə özü lazım deyil, nə də vəzifəsi!

- Belə insafsız danışma, ay qız! O, sənin ərindir və inan ki, səni sevir. Bir də unutma ki, onun dostu ilə danışırsan.

Ruslan Gülafətin «dost» sözünə necə istehzalı reaksiya verdiyini görməməzliyə vurdu. O özünün bu qadın üzərindəki hakimiyyətini hiss edir və bundan böyük zövq alırdı.

- Mən hələ onun bəraət alacağına ümidimi itirməmişəm. - Ruslan dedi. - Onun köməyə çağırdığı o canavara oxşayan kriminalist nə özü bir iş görə bildi, nə də tapdığı boşboğaz vəkil. Sabahdan özüm fəaliyyətə başlayacam. Onda ərin də görəcək ki, dostu Ruslan

Dadaşov heç nəyi Qanbay Qasımlıdan az bilmir. Lap Niyazi müəllim günahkar olsa da, onu təmizə çıxaracam!

- Özünüzü yormayın! - Gülafət kinayə ilə dilləndi. - Onu daha heç nə xilas edə bilməz! Buna heç ehtiyac da yoxdur. Qoy öz cəzasını çəksin! Qız uşağını yoldan çıxaranda nə səndən soruşmuşdu, nə də məndən.

- Belə şeyi heç kəsdən soruşmurlar! - Ruslan ev sahibəsinə göz vurdu. Gözlərindən yayılan isti qığılcımlar, yenə də, qadını yumşaldıb əritməyə başladı.



downloaded from KitabYurdu.az

Gülafət özündən baş aça bilmirdi. Axı nəyə görə bu çopur, yekəburun, dəvə gövşək eləyən kimi, həmişə yekə, kobud dodaqlarını gəmirən adamı ərindən də, cavan, yaraşıqlı Asəfdən də üstün tutur?.. Əlbəttə, söz yox ki, belə bir adamın həyat yoldaşı, dostu, sirdaşı olmaq istəməzdi. Ancaq indi, ərinin xəyanətini bildiyi gündən bəri, daxilində illərlə yatıb qalmış ehtiras elə oyanmışdı ki, o özünü heç kəsə yox, məhz bu kobud və vəhşi xislətli adama təslim etmək istəyirdi.

Ruslanın telefonu səsləndi. Zəng vuran Məlikxanlı idi. Xahiş edirdi ki, Ruslan ya indi, ya da sabah Asəfin bağ evinə gəlsin.

- Sabah onsuz da gələcəkdim, Niyazi müəllim... - Ruslan

gözucu Gülafətə baxıb davam etdi: - Qətiyyən ruhdan düşməyin! Bəzi məsələləri dəqiqləşdirim, sabah söhbət edərik. Bir şeyə ehtiyacınız yoxdur ki?.. Asəf yanınızdadır?.. Arxayın olun. Həqiqət öz yerini tapacaq! Gecəniz xeyrə qalsın!

Telefonu qapayan Ruslan fikrə getdi. Məlikxanlının səsində, özünə qarşı, səbəbi aydın olmayan bir inamsızlıq və soyuqluq hiss etmişdi.

- Nə deyirdi? - Gülafət rişxəndlə soruşdu.

- Sabah bağa, yanına getməliyəm... - Ruslan fikirli halda dilləndi və sonra başını qaldırıb ev sahibəsinə baxdı. - Yaxşı olar, sabah siz də gedəsiniz yanına. Ürək-dirək verəsiniz. Yaman ruhdan düşüb kişi...

- Yox a! Ürək-dirək verməliyəmmiş! Bircə bu qalmışdı. - Gülafət ürəyindən keçirdiyi fikrin təsirindən qızarıb işvə ilə əlavə etdi: - Son¬rası da, görək hələ sabaha sağ çıxıram, yoxsa yox... Çay içirsiniz?

Gülafət ərinin vəzifədən çıxarılması xəbərini təklikdə, ya ayıq vaxtında eşitsəydi bu ona daha pis təsir edərdi və yəqin ki, sarsılardı. Ancaq indi, Ruslan yanında olduğu bir vaxtda, ehtiras dalğalarında üzdüyü üçün, bu



downloaded from KitabYurdu.az

xəbər hələ də ona tam çılpaqlığı ilə çatmamışdı. O, hələ tam dərk etmirdi ki, daha heç kəs üçün əvvəlki Gülafət xanım ola bilməyəcəkdi.

- Hə, gətir! - Gülafəti başdan-ayağa şəhvətli baxışlarla süzən

Ruslan divanda yerini rahatladı. Onun bu gecə öz mənzilinə qayıtmaq

arzusu yox idi...

* * *

Gecə saat on iki olardı... Birdən cib telefonu səsləndi. Yataqda çılpaq vəziyyətdə uzanmış Gülafət səksənib arxaya çevrildi və əlini telefona uzatdı. Telefonun ekranında görünən nömrə tanış deyildi.

- Kimdir? - Ruslan soruşdu.

- Yad nömrədir.

- Onda söndür getsin!

- Yox. Qoy görüm, kimdir... Qadın telefonu açdı.

- Gülafət? Mənəm... - Bu Niyazinin səsi idi.

Gülafət qorxu və həyəcanla Ruslana baxdı. Ruslan da deyəsən, zəng vuranın kim olduğunu başa düşmüşdü. Qadın özünü birtəhər ələ alıb dilləndi:

- Eşidirəm...

- Yatmısan? - Əri mehribanlıqla soruşdu.

-Yox... Yatmaq olar, belə vəziyyətdə?

- Sən də inanırsan bu işə?

- Niyə inanmayım ki?

-Ancaq mən düşünürdüm ki, kim inansa da sən inanmazsan.



downloaded from KitabYurdu.az

-Yox, Niyazi. Daha mən sənə inanmıram.

- Niyə, axı? Mən nə vaxtsa, sənə xəyanət etmişəm?

- Etmisən! - Gülafət əlini uzadıb Ruslanın dinc durmayan əlini sıxdı və özündən uzaqlaşdırdı, - elə indi də, iki gecədir məni evdə tək qoyub haradasa kef çəkirsən!

- Mən Asəfin bağındayam. Asəflə Aybənizdən başqa bağda heç kəs yoxdur. Mən bu saat çox dəhşətli anlar keçirirəm.

- İndi də bəlkə Aybənizə girişmişən? - özü də bilirdi ki, yersiz söz danışır.

- Ayıbdı, Gülafət! - Niyazinin səsi çox kədərli idi.

- Niyə, kukla kimi qızdı...

- Mən həyatımda heç kəsə xəyanət etməmişəm, Gülafət!

- Ancaq mənə etdin!

- Mən səni həmişə sevmişəm. İstəyirəm ki, belə günümdə, heç olmazsa, sən məni başa düşəsən.

- Mən səni həmişə başa düşmüşəm, Niyazi. Ancaq sən məni sındırdın. Öldürdün sən məni! Qürurumu, mənliyimi heçə döndərdin!

- Belə danışma, Gülafət, qoy bu iş axıra çıxsın, ondan sonra vəzifə də cəhənnəm olsun. Özümüzü bir-birimizə sərf etməyə daha

çox vaxt olacaq. Əvvəlkindən də xoşbəxt yaşayarıq. Mənə ancaq sən lazımsan, sən!

- Gecdi daha, Niyazi!.. - Gülafət dilləndi.

Ruslan əlini uzadıb telefonu ondan aldı və söndürüb kənara tulladı:

- Lap ətimi tökdün, vallah!



downloaded from KitabYurdu.az

Gülafət ağzı üstə çevrilib ağlamağa başladı. Göz yaşları bütün balışı, döşəkağını islatdığı kimi, qəlbinin lap dərinliyindən qaynayıb gəldiyi üçün ləkələnmiş mənliyini də islatdı. Ancaq özü də başa düşürdü ki, bu ləkələri yuyub təmizləyə bilməyəcək göz yaşları.

## XVII Fəsil

## güllə səsi

Niyazi Məlikxanlı bütün gecəni yatmamışdı. Qara-qura fikirlərdən yuxusu ərşə çəkilmişdi. Bu tərəfdən də, gecə saat 12-də, xeyli düşünüb cəsarət toplayandan sonra, canından artıq sevdiyi həyat yoldaşına zəng vurmuş, o isə söhbəti yarımçıq kəsərək, telefonunu söndürmüşdü. Bununla da, dərdini azaltmaq istədiyi halda, üstünə yeni dərd gəlmişdi.

Aybəniz axırıncı dəfə, saat 2-də çay gətirəndən sonra Məlikxanlının tapşırığı ilə yatmağa getmişdi. Asəf isə şefinin tapşırığına baxmayaraq, səhərədək tində-bucaqda hərlənib onu güdmüş, «bir ehtiyacı olar» deyə yatmağa getməmişdi.

Qaplan da yatmamışdı bu gecə. Gah başını sahibinin ayaqlarına sürtərək ona təskinlik verməyə çalışmış, gah da bir kənarda uzanıb gözlərini ona dikmişdi. Məlikxanlı cəmi bir-iki dəfə ayağa durub gəzişmiş, gecənin qalan hissəsini isə oturduğu yerdə, stolun arxasında keçirmişdi. Gözlərini məchul bir nöqtəyə zilləyib, elə hey düşünmüş, səhərədək iki qutu siqareti çəkib qurtarmışdı.

İndi isə, yenə də evin yan tərəfindəki əncir ağacının kölgəsinə

qoyulmuş həmin stolun arxasında Ruslan Dadaşovla üzbəüz oturmuşdu. Günortaya az qalırdı. Ruslan bağa öz maşınında tək gəlmiş, yolüstü təzə quzu əti, iki şüşə bahalı konyak və xırım-xırda ərzaq alıb gətirmişdi.



downloaded from KitabYurdu.az

Asəflə arvadı evdə quzu ətini doğrayırdılar. Elə stolun yanındaca, əncirin kölgəsində tonqal qalanmış, onun iki tərəfinə, şişləri düzmək üçün, nazik beton parçaları atılmışdı.

Kababı bişirməyi Ruslan öz boynuna götürmüşdü. Tonqalı da o özü həyətin künc-bucağından yığdığı taxta parçalarından qalamışdı. Zəif tüstü havanı yararaq, ağır-ağır yuxarı qalxır, meh əsdikdə isə əyilib onların üzünə vururdu.

- Gərək tonqalı bir az kənarda düzəldəydin, - əynində qısaqol köynək və nazik idman şalvarı olan Məlikxanlı bunu deyib, ayağa qalxdı.

- Kölgəyə görə burada yandırdım. - Ruslan da qalxıb, yerə düşən kösövləri yenidən tonqalın üstünə atmağa başladı. - Gün düşən yerdə kababın dadı olmaz ki!..

Kabab dəsgahı da Məlikxanlının eynini aça bilmirdi. Dünənki xəbərin sarsıntısından sanki bir gecədə qocalmışdı. Gözləri yuxusuzluqdan qızarmış, saçları dağınıq halda idi. Üzünü qırxmadığı üçün çənəsində görünən ağ tüklər onu bir az da yaşlı göstərirdi.

O bunu gözləmirdi. Heç cür gözləmirdi. Sən bir işə bax! Haradan oldu bu sperma qalıqları?! Düşünməkdən başı şişmişdi. Ekspertizanın rəyindən şikayət etməyi də mənasız sayırdı. Mötəbər komissiya vermişdi bu rəyi!

Ömründə belə ağır günə düşməmişdi. Çarəsizlik pis şeymiş. Yaman pis şeymiş! İtirib-axtaran da yox idi onu. Ancaq o özü hamıdan gizlənmək üçün öz bağından xeyli uzaqda olan bu bağı seçməmişdimi?

Hər halda, həyat yoldaşını görmək istəyirdi. Üz-üzə gəlməyə cəsarət etməsə də, uzaqdan onu görmək istəyirdi. Gülafət xanım ona inanmayırdısa da, hətta axşam sözünü ağzında qoyub telefonunu söndürmüşdüsə də hiss edirdi ki, arvadını, həqiqətən, sevir... Əvvəlki arvadını belə sevməmişdi. Bu öz yaşı ilə əlaqədar idi, ya Gülafətin daha



downloaded from KitabYurdu.az

gözəl olması ilə, deyə bilməzdi. Ancaq, hər halda, o, sevməyin nə olduğunu indi başa düşmüşdü.

«Görəsən, indi nə çəkir o yazıq? - deyə düşündü. - yəni doğrudanmı belə iş tutmağıma inanır? İnanmasaydı, gəlib məni tapa bilərdi. Yox, Asəfin bağını tanımır o... Həm də özüm tapşırmışam axı, yerimi deməsinlər ona. İndi lap yəqin ki, fikirdən üzülür!»

Sonra oğlu barədə düşünməyə başladı. Bəs Zakir niyə axtarmır

onu? Axı o, atasının yeganə övladı idi?! Axı Məlikxanlı ondan heç nəyini əsirgəməmişdi?!

Asəf bu gün öyrənmişdi ki, vəzifəsini icra etməyi hələlik Cahangirova tapşırıblar. Hələlik... Yəni Cahangirov təşkil edə bilərdimi ona qarşı olan bu şantajı?.. Yox, Məlikxanlı buna inanmırdı. O, Cahangirova qarşı heç vaxt pis olmamışdı. Ancaq təkcə pis olduğun adamlardan pislik gözləməlisən? Xəyanətkar, nankor adamlar azdır bu dünyada?

Yenə başına gəlmiş bu iş barədə baş sındırmağa başladı. Ekspertizanın nəticəsi barədə... Dayan! Dayan! Yəni belə iş ola bilərmi? Hə... Deyəsən ola bilər... Yaxşı bəs bu fahişə niyə belə bir məktub yazıb axı? Niyə özünü də rüsvay edib, məni də?

Məlikxanlı bu saat polkovnik Qasımlını görməyi arzuladı. Özü də, lap tezliklə görməyi! Ona deyiləsi vacib sözü var idi. Zəng vurub çağırsınmı? Yox... Yox... Gecdir deyəsən! Ancaq Qasımlı sakit danışırdı dünən. Arxayın idi sanki.

Dönüb Ruslana baxdı. Ruslan tonqala taxta parçası atırdı. Yenə Ruslan ona təskinlik verir, başını qarışdırmaq istəyir. Fikri yenə Qasımlıya qayıtdı. Onunla olan dünənki telefon danışığına. Bu onun nəyinə lazımdır? Yəni polkovnik artıq, nəsə öyrənib?.. Heç baş açılası

adam deyil bu xəfiyyə!



downloaded from KitabYurdu.az

Gözü evin arxa tərəfində, öz yerində uzanıb onu izləyən Qaplana sataşdı. İt ərik ağacının kölgəsində, onun üçün müvəqqəti qurulmuş yuvanın qarşısında uzanmışdı. Məlikxanlı stoldan aralanıb ona doğru getdi. Asəf ərik ağacına bir kəndir də bağlamışdı. Ancaq it açıq idi. Məlikxanlı öz bağında da Qaplanı nadir hallarda, həyətdə qonaq-qara, xüsusən də uşaq olanda bağlayardı. İt sahibinin gəldiyini görüb ayağa qalxdı və onun qabağına getdi. Məlikxanlı onu öz yerinə, kölgəyə qaytardı və əyilib başını tumarladı. İt başını qaldırıb diqqətlə sahibinin üzünə baxdı. Elə bil onun son günlər kədərli olduğunu duymuşdu. Gözünü üzündən çəkmirdi.

Yaxşı ki, dünən Asəfin bağına köçəndə iti də özü ilə gətirmişdi. Heç olmasa ürəyini ona boşalda bilirdi. Elə indi də itə ona görə yaxınlaşmışdı.

- Nə baxırsan? - deyə bir də onun başını sığalladı. - Soruşursan ki, bu nə işdir, düşmüşəm? Heç, vallah, özüm də anlamıram! - Sözünə ara verib, bir qədər itə tamaşa etdi. - Heyif ki, sən itsən! Yoxsa bilərdin, indi mən nə çəkirəm. Məni işdən çıxartdılar. İstintaqın sonunu da gözləmədilər. Hələ, deyəsən, tutacaqlar da! Türmədə yatmalıyam bu vaxtımda. Mən ha! Mən, Məlikxanlı türmədə

yatmalıyam! Yuxuma girməzdi bu! Ozü də nəyin üstündə? Əslində, heç nəyin! Bir pozğunun, şərəfsizin ucbatından! Deyən lazım, a qancıq, namusunu satmısan, daha niyə özünü öldürürsən? Öldürürsən, belə cəhənnəmə öldür, daha niyə məni kimi adamı da özünə qatıb rüsvay edirsən?

Qaplan Məlikxanlının danışığına elə diqqət yetirirdi ki, elə bil hər şeyi başa düşürdü. Sahibi sözünü bitirəndə əlini qaldırıb onun dizinə qoydu. Sanki «Səbirli ol» demək istəyirdi. Məlikxanlı onun əlini götürərək, ah çəkdi. Ayağa qalxıb itdən aralandı və Ruslanın yanına gəldi.

- Hazır olmadı? - deyə soruşdu.

- Az qalıb. - Ruslan konyak şüşəsini stolun üstünə qoydu.



downloaded from KitabYurdu.az

- Süz, içək! - Məlikxanlı stulda əyləşdi.

Ruslan iki qədəhə konyak süzdü. İçdilər. Məlikxanlının davranışı Ruslana bir az qəribə gəlirdi. Nədənsə, onunla soyuq davranır, başqa vaxtlardakı kimi, danışıb dərdini, fikrini bölüşmək əvəzinə, daha çox susub xəyala dalırdı. Yəni bu onun dərdinin ağırlığından idimi?..

Məlikxanlı konyakı içən kimi bir siqaret götürüb damağına qoydu. Ruslan cəld alışqanını çıxarıb onun siqaretini yandırdı.

... Asəf Aybəniz ilə birlikdə doğranıb duzlanmış, istiotlanmış əti

şişə çəkirdi. O bu işi nə qədər həvəslə görsə də, Məlikxanlının onun qonağı olmasına nə qədər sevinsə də qəlbindəki kədəri gizlədə bilmirdi. Məlikxanlının başına gələn iş onu çox sarsıtmışdı. Bu, həqiqətən də belə idi. Onun öz şefinə həmişə böyük istəyi olmuşdu və Məlikxanlının vəzifədən çıxarıldığı indiki vəziyyətdə də bu istək azalmamışdı. Əslində, Məlikxanlı da heç vaxt ona qarşı pis olmamışdı. Onun üçün həmin bu bağı almış, evi tikdirmiş, təzə aldığı bu maşını ona bağışlamışdı. Həmişə də yüksək əməkhaqqı vermişdi. Asəf özlüyündə inanırdı ki, Məlikxanlı üçün hər çətinliyə atıla bilər. Hətta bu çətinlikdə ölüm qorxusu olsa da!

Ancaq bəs... Ancaq bəs Gülafət xanımla keçirdiyi o yarım saat? ... Asəfin bütün bədəni gizildədi. Qəlbinə elə şirin duyğular doldu ki, hətta Aybənizin bunu duymasından ehtiyatlandı da!

O, Gülafət xanımın xətrini həddindən artıq istəyirdi. Onun yolunda, heç düşünmədən, ölümə gedərdi. Təki Gülafət xanım ondan xahiş edəydi. Həmin gizli görüşə görə o bu qadını çirkin adla adlandırmaq istəmirdi. Əksinə, qəribə də olsa, Gülafət xanım gözündə bir az da doğmalaşmış, ona olan hörməti bir az da artmışdı.

Daha qəribəsi isə, öz hərəkətinə də haqq qazandırırdı: «Bir- birimizi istədik, arzu etdik... O, qadındır, mən isə kişi. Onu Allah elə



downloaded from KitabYurdu.az

yaradıb, məni belə! Buna xəyanət demək olarmı? Yox... Heç kəs bilmir axı?!» Asəf, birdən, necə oldusa, bir anlıq düşündü ki, bu iş Aybənizlə yad bir kişinin arasında olub. O saat hiddətləndi. Bilsə, Aybənizi öldürərdi. Hətta özündən asılı olmayaraq, ona acıqlandı:

- Bir az cəld ol görüm!

Aybəniz bəstəboy, ağappaq, toppuş bir gəlin idi. Yumru, ətli yanaqları onu kuklaya bənzədirdi. Sifətdən əməlli-başlı uşağa oxşayırdı. Ən çox da güləndə. Acıqlı bir söz eşidəndə o saat yanaqları qızarardı. Elə indi də ərinin gözlənilməz iradından diksinib qızardı:

- Nə olub sənə? Özün məndən asta eləyirsən ki?! Mən dörd şiş düzəltmişəm, sən hələ üçün...

-Yaxşı! Yaxşı! - Asəf razılaşdı. Aybəniz düz deyirdi...

Allah göstərməsin, Məlikxanlı bilsə, nə olar? Əlbəttə, dəhşət olar! Birdən-birə başa düşdü ki, çörəyini yediyi adama qarşı kişi hərəkəti etməyib. İndi xatırladı ki, onun üzünə də baxa bilmirdi, bu işdən sonra. Yox, bu iş birdəfəlik unudulmalıdır və bir də heç vaxt təkrar olunmamalıdır!

Ancaq... Gülafət xanım da lap möcüzə idi... Bəziləri deyir ki, bütün qadınların dadı-tamı nəticə etibarilə eyni şeydir. Yalandır! Özü də lap ağ yalandır! Gülafət xanımdan aldığı ləzzəti başqa heç bir qadından ala bilməzdi Asəf! Onunla keçirdiyi həmin yarım saat müddətində cənnət həzzinin nə olduğunu ilk dəfə dərindən duymuşdu bu gənc... Çünki Gülafət xanım hərtərəfli gözəl idi və bu gözəlliyi ona əvəzolunmaz dad verirdi.

Bu öz yerində, axı Aybəniz də çox gözəldir, hələ üstəlik də cavandır. Bəs niyə?.. Yəqin ki, əlçatmaz zirvələri fəth etmək adama daha çox ləzzət verir. Gülafət xanıma da Asəf həmişə əlçatmaz bir varlıq kimi baxmışdı...

Ruslan içəri daxil olub şişlərə baxdı:



downloaded from KitabYurdu.az

- Qurtarmırsınız?

- Daha qurtarmışıq, ikicə dənə şiş qalıb. - Asəf cavab verdi.

- Əti çox çəkmisiniz. - Ruslan irad tutdu. - Hər şişdən bir tikə çıxarıb təzə şiş hazırlayın!

-Yaxşı! - Asəf bilirdi ki, kabab məsələsində onunla razılaşmaq lazımdır.

Ruslan çıxdı. Asəf:

- Sən dur, salatları hazırla! - deyə arvadına tapşırdı. - Mən əti çəkib qurtararam.

- Salatlar hazırdır. - Aybəniz dilləndi. - Çörəyi də doğramışam.

- Hamısını yığ podnosa. Birdəfəlik apararıq. Kabab üçün boşqab

da qoy!

- Sən arxayın ol, birinci dəfə deyil!

Asəf ət tikələrini şişlərə çəkib qurtardı. Bu vaxt həyətdən Ruslanın səsi eşidildi:

- Asəf, cəld olun, görək! Nə eləmisiniz gətirin!

Asəf:

- Bu saat! Gəldik! - deyib Aybənizə tərəf döndü:

- Tez podnosu götür!

- Bir şey verin, mən də aparım! - Ruslanın səbirsiz səsi gəldi. Asəfin əlində hazır şişlər, Aybənizdə isə dolu podnos həyətə

çıxdılar. Ruslan qapının ağzında dayanmışdı. Şişlərin bir neçəsini Asəfdən almaq istədi.

- Özüm apararam! - Asəf etiraz etdi.



downloaded from KitabYurdu.az

- Ver görüm! Sən də podnosu götürərsən.

Qaplan bu zaman, nəyəsə, bərkdən hürür, daha doğrusu, ulayırdı.

- Bu it nəyə hürür? - deyə Aybəniz soruşdu.

- Niyazi müəllim ağaca bağladı, ona görə hürür. - Ruslan dedi. Şişin biri yerə düşdü. Asəf əyilib onu götürdü. Elə bu vaxt evin

yan tərəfindən, əncir ağacının altından güllə səsi gəldi. Hər üçü oraya

tərəf boylandı. Ancaq durduqları yerdən əncir ağacı görünmürdü. Heyrət və qorxu ilə bir-birinin üzünə baxdılar. Bu, tapança gülləsinin səsi idi.

XVIII Fəsil

bu da axırı...

Asəf əlindəki şişləri yerə tullayıb, Ruslanın ardınca, səs gələn tərəfə qaçdı. Əlləri əsə-əsə podnosu yerə qoyan Aybəniz də onlardan geri qalmadı.

Əncir ağacının altında ürəkağrıdan bir səhnə ilə üz-üzə gəldilər. Məlikxanlı stuldan aşaraq, böyrü üstə yerə sərilmişdi. Gicgahındakı güllə yarasından axan qan yerdə kiçik gölməçə yaratmışdı. Yarıbükülü sağ əlində tapança var idi.

Onlar bir anlığa yerlərində donub qaldılar. Baş vermiş qəfil hadisəni dərk etmək elə də asan deyildi. Bu dəhşətli yuxu da ola bilərdi. Ancaq yuvasının yanında kəndirlə ağaca bağlanmış Qaplanın bərkdən hürə-hürə dartınıb əncir ağacına tərəf can atması və ömründə çıxarmadığı bir səslə ulaması göstərirdi ki, bu yuxu yox, acı bir həqiqət idi. Niyazi Məlikxanlı özünü tapança ilə vurmuşdu!..

Aybəniz qiyyə çəkdi. Asəf irəli atılıb, Məlikxanlını yerindən qaldırmaq istədi. Bu zaman Ruslanın hökmlü səsi onu yerində durmağa məcbur etdi:

- Dayan! Əl vurma!



downloaded from KitabYurdu.az

Ruslan Dadaşov əyilib diqqətlə dostunun qanı qaçmış sifətinə nəzər saldı. Sonra başını qaldırıb əvvəlcə üşütməli adamlar kimi tir-tir titrəyən Aybənizə, daha sonra isə Asəfə baxdı və:

- Güllə gicgahını parçalayıb! - dedi.

Qaplan bircə an da ara vermədən hürür, onlara tərəf dartınırdı. Onun bağlandığı ərik ağacı elə hey silkələnirdi.

Asəf başını əncir ağacının gövdəsinə söykəyib için-için ağlamağa başladı. O elə ürəklə ağlayırdı ki, Aybəniz də heç cür özünü saxlaya bilmədi və göz yaşlarını sel kimi axıtmağa başladı.

- Bəsdir, qurtarın! - Ruslan onlara acıqlandı. - Ağlamağın bir xeyri olacaqsa, mən də sizə qoşulub ağlayım. Prokurorluğa xəbər vermək lazımdır!

Sonra özü cib telefonunu çıxarıb, kiməsə zəng vurdu və:

- Məlikxanlı intihar edib! - deyə bildirdi.

İt daha böyük qüvvə ilə onlara tərəf dartınırdı...

Asəf gözlərini qurulayıb itə tərəf getdi. Onu nə qədər sakitləşdirməyə çalışdısa da, bu, səsi bütün həyəti başına götürmüş Qaplana təsir etmədi. Asəf naəlac qalıb, yenidən stolun yanına qayıtdı. Ona çox yaxşılıqlar etmiş Məlikxanlının yerdə sərilib qalmış meyitinə baxa bilmirdi.

Birdən nə düşündüsə, telefonu çıxarıb Qanbay Qasımlıya zəng vurdu. Vəziyyəti ona anladan kimi, polkovnik:

- Biz yoldayıq, ora gəlirik! - dedi.

Aybəniz hələ də özünü ələ ala bilmir, hey ağlayırdı. Asəf əlini onun çiyninə toxundurdu və ciddi səslə:

- Keç evə! - dedi.



downloaded from KitabYurdu.az

Sarsılmış qadın əlləri ilə başını tutub evə qaçdı. Bir daha meyitə nəzər salan Ruslan ağır-ağır stulda oturub:

- Bu da axırı... - dedi. - Dağ boyda kişinin axırına çıxdılar!

Asəf başını yerə dikib fikrə daldı. Belə çıxır ki, məktubda

yazılanlar doğru imiş? Deməli, bir səhvinin güdazına getdi bu boyda kişi? Ancaq necə olub ki, Asəf onun işindən xəbərdar olmayıb? Yox, bu ağlabatan deyildi. Böhtana dözə bilmədi yazıq...

Başını qaldırıb Ruslana baxdı:

- Kim çıxdı axırına?

- Kim çıxacaq? O pozğun qız! - Ruslan sözünü kobud bir söyüşlə tamamladı.

Asəf közü ölməkdə olan ocağa baxıb köksünü ötürdü:

- Bu da bizim kabab qonaqlığımız! Belədə deyirlər ki, sən saydığını say...

Qaplan sakitləşmək bilmirdi. Elə qəzəblə dartınırdı ki, deyərdin ərik ağacını kökündən çıxarmaq istəyir.

- O itin səsini kəs! - Ruslan əsəbi halda dilləndi.

- Xeyri yoxdur... - Asəf kədərlə başını yellədi. - Meyiti görür axı?!

- Qabağına ət at! - Ruslan təklif etdi.

- O heç ətə gözünün ucu ilə də baxmaz. Bəlkə açım gəlsin? Onda sakitləşər...

- Yox! - Ruslan qəti etiraz etdi. - Sahibinin meyiti aparılana qədər açmaq olmaz!

Asəf yenə kövrəldi:



downloaded from KitabYurdu.az

-Ancaq əslində, o da vidalaşmaq istəyəcək...

Ruslan ayağa qalxıb stoldan kənara çəkildi və dönüb, istehza ilə Asəfə baxdı:

- O itdir!

Qaplan dayanmadan və o qədər bərkdən hürürdü ki, darvazaya yaxınlaşan maşının səsini heç kəs eşitmədi.

Qara rəngli «Mersedes» darvazanın qarşısında dayanan kimi əvvəlcə polkovnik Qasımlı, onun dalınca isə Mahir Talıbov maşından düşüb həyətə girdilər. Qasımlının üz-gözündən, sanki zəhrimar tökülürdü. O, heç kəsə salam vermədən, yaxınlaşıb hadisənin baş verdiyi yerə ani nəzər yetirdi və Məlikxanlının cansız cəsədi qarşısında çökdü.

Qaplan bir anlığa susub, uzaqdan sakitcə polkovnikə tamaşa etdi. Sonra yenə kükrəyib yoğun kəndirin bağlandığı ağacı silkələməyə başladı.

Məlikxanlının geniş açılmış gözləri qorxunc bir heyrət ifadə edirdi. Bu onun həyata ən sonuncu baxışı idi ki, yerindəcə donub qalmışdı. Həqiqi ölümün dərk edilməsinin heyrəti idi bu, ya ani peşmançılığınmı? Ya bəlkə heç biri yox, beyni parçalayan güllənin gücünə olan heyrət idi bu? Bu vəziyyətdə onun gözlərinə baxmaq çox çətin idi. Xoşagəlməz bir məna həkk olunmuşdu bu gözlərdə. Ancaq Qasımlı deyəsən, daha çox bu gözlərə baxıb orada yazılanları oxumağa çalışırdı.

Bir qədər arxada yubanmış Mahir görüşmək üçün Asəfə, sonra isə Ruslana əl uzatdı. Elə həmin andaca ona elə gəldi ki, Qanbay Qasımlı Məlikxanlının köynəyinin döş cibindən nə isə bir şey götürdü. Bu o dərəcədə ani baş verdi ki, Mahir bunun, doğrudan da belə olduğunu dəqiq deyə bilməzdi. Bir neçə saniyədən sonra isə başa düşdü ki, bu sadəcə olaraq, onun gözünə belə görünüb. Çünki ayağa qalxıb onlara tərəf dönən polkovnikin əlində heç nə yox idi.



downloaded from KitabYurdu.az

Qanbay Qasımlı cibindən bir siqaret çıxartdı. Ancaq yandırmadan dönüb bir də meyitə nəzər saldı.

- Axı o, niyə özünə qəsd etdi? - deyə təəccüblə sual verdi.

Sonra heç kəsdən cavab gözləmədən, siqaretini yandırdı və

Asəfə baxdı:

- Necə baş verdi bu?

Asəf həyəcanla danışmağa başladı:

- Ruslan müəllimlə, ikisi, burada oturmuşdular. Mən isə həyat yoldaşımla içəridə idim. Kabab bişirmək üçün əti doğrayıb, şişə çəkirdik. İşimizi qurtaranda Ruslan müəllimin səsini eşitdik. O bizi tələsdirdi ki, şişləri gətirək. Biz ikimiz də, mənim əlimdə hazır şişlər, Aybənizin əlində podnos qapıya çıxdıq. Ruslan müəllim bizi qapının ağzında gözləyirdi. O mənə kömək üçün şişləri almaq istədi. Bu vaxt tapança gülləsinin səsi gəldi. Tez buraya yüyürdük. Gördük ki, özünü vurub...

Qasımlı onu dinləyəndən sonra dönüb sualedici baxışla Ruslan Dadaşova baxdı. Ruslan, deyəsən heç danışmaq istəmirdi. Ancaq Asəfin də maraqla ona baxdığını görüb dilləndi:

- Mən tonqalla məşğul idim. Bu rəhmətliksə fikirli halda

oturmuşdu. Elə hey nə isə fikirləşirdi. İt bir-iki dəfə gəlib ona yalmandı. Aparıb iti ağaca bağladı. Mənə elə gəldi ki, istəmir it onun düşüncələrinə mane olsun...

Qasımlı bütün qüwəsi ilə onlara tərəf dartınıb hürən Qaplana tərəf baxdı:

- Səhv etmirəmsə, bu onun öz itidir. Bağında gördüyümüz...

- Bəli. - Asəf cavab verdi. - Dünən özü ilə gətirdi.

- Niyə açmırsınız? - Mahir Asəfdən soruşdu. - O öz sahibini istəyir.



downloaded from KitabYurdu.az

- İndi əməliyyat qrupu gələcək. - Ruslan dedi. - Qoy mane olmasın!

Qasımlı üzünü ona tutdu:

- Xahiş edirəm, davam edin!

Ruslan harada qaldığını düşünürmüş kimi bir qədər susub söhbətinə davam etdi:

- Bəli... Sonra mənə dedi ki, bax gör bunlar niyə qurtarmadılar? Mən cəld Asəfgilin yanına gedib onları tələsdirdim. Geri qayıdanda onun davranışı, nədənsə, mənə şübhəli göründü.

- Necə? - Qasımlı soruşdu.

- Sanki məni görüb özünü itirdi və tez qayıtdığım üçün mənə

acıqla baxdı.

- Sonra?

- Beş dəqiqə sonra yenə mənə dedi ki, get onlara kömək elə, tez qurtarsınlar, acından öldük! Mən də heç nə anlamadan durub evə getdim. Qalanı da ki, belə...

Ruslan Dadaşov söhbətini bir qədər əsəbi yekunlaşdırdı. Qasımlı ətrafına göz gəzdirib yenə sual verdi:

- Nə danışırdı? Özünü necə aparırdı?

- Qəribə sual verirsiniz! - Ruslan açıq-aydın əsəbiləşdi. - Özünü necə aparmalı idi? Ekspertizanın nəticəsi, o boyda vəzifədən çıxarılması, sizə olan ümidlərinin boşa çıxması! Siz onun yerində olsaydınız, özünüzü necə aparardınız?!

- Düzdür... - Qasımlı təəssüflə başını yırğaladı. - Ancaq bir az da dözə bilərdi.



downloaded from KitabYurdu.az

O, bir tərəfdən özünü uduzmuş hesab edirdi. Uğrunda çalışdığı adam artıq ölmüşdü. Yaşayıb, çalışdığı çətin işdə Qasımlıya kömək etmək istəməmişdi. Ancaq o, xəfiyyəyə olan inamını doğrudanmı itirmişdi? Əgər itirmişdisə, bəs onda nə üçün...

Polkovnik fikrini yarımçıq qoydu. O, çalpaşıq fikirlər arasında qalmışdı və əslində, indi heç düşünmək də istəmirdi. Başını qaldırıb

Ruslan Dadaşova baxdı və onun bayaqkı sualına cavab verdi:

- Mən onun yerində ola bilmərəm!

- Onun adını təmizə çıxarmaq üçün aldığınız pulları nə vaxt qaytaracaqsınız? - Ruslan hökmlə soruşdu.

- Sizə? - polkovnik bunu çox sakit dedi.

- Mənə niyə? Arvadına!

- Adını təmizə çıxara bilməsəm, qaytaracağam! - polkovnikin nazik, sərt qaşları düyünləndi. - Ancaq buna nail olsam, pulun qalan yarısını da alacam!

- Arvadından? - Ruslan gizli rişxəndlə soruşdu.

- Yox, sizdən! - Qasımlı cavab verdi. - Ən yaxın dostu kimi!

- O, artıq ölüb. Siz hansı təmizə çıxarmaqdan danışırsınız?

- Mən onun canını qorumağı boynuma götürməmişdim. - Qasımlı dedi və söhbətə qarışmaq istəyən Mahirə mane olmaq üçün əlini qaldırdı. - Gedək!

Onlar darvazadan çıxıb maşına mindilər. «Mersedes» əsəbi hərəkətlə yerində burulub, birdən irəli şığıdı və böyük qalmaqala səbəb olacaq intiharın baş verdiyi həyətdən uzaqlaşdı.



downloaded from KitabYurdu.az

Ruslan Dadaşov dodaqlarını çeynəyib hrrslə, onların arxasınca donquldandı:

- Xəfiyyəyə bir bax! Buna arxayın olmasaydıq, indi işi çoxdan bağlatdırmışdım. Kişini boş yerə arxayın etdi!

Asəf isə həmin anda canından da çox istədiyi Gülafət xanım barədə düşünürdü. «Ona indi bu xəbəri necə deyəcəyik, ay Allah?!» Onun nə hala düşəcəyini təsəwür edəndə narahatlığı bir az da artdı və bu barədə Ruslanla məsləhətləşmək qərarına gəldi:

- Gülafət xanıma necə deyək bunu, Ruslan müəllim?

- Zəng vur, de də! Guya çox vecinədir onun?!

Ruslan Dadaşov bunu deyərək, stolun üstündən stəkanı götürüb konyak ilə doldurdu və başına çəkdi.

Qaplan boynuna bağlanmış kəndirə o qədər güc verirdi ki, az qalırdı boğulsun...

XIX Fəsil

qaplan

Bir neçə maşın gəlib bağın darvazası qarşısında düzüldü. Hadisənin baş verdiyi rayonun prokuroru, polis rəisi, məhkəmə tibb eksperti eyni maşında gəlmişdi. Axırda gələn tünd yaşıl rəngli «Mersedes» dən isə müstəntiq Ramin Əlibəyli və daha iki nəfər düşdülər. Televiziya və qəzet işçilərindən də gələnlər az deyildi. Meyiti aparmaq üçün gətirilmiş xəstəxana maşını da nəzərə alınmaqla, küçədə iyirmiyə yaxın maşın yığılmışdı.

Jurnalistlər meyitə yaxın buraxılmadılar. Prokurorluğun işçiləri mərhumun müxtəlif tərəflərdən şəklini çəkdilər. Əlibəylinin göstərişi ilə



downloaded from KitabYurdu.az

Məlikxanlının əlindəki «Baykal» tipli tapançanı nazik dəsmalla götürüb, elə həmin dəsmala da bükdülər.

Ən yaddaqalan hadisə isə meyiti yerdən götürüb təcili yardım maşınına aparanda baş verdi. Bu zaman, onsuz da, bir an da olsun hürməyini kəsməmiş Qaplan elə tükürpərdici səslə uladı ki, həyətdəkilərin əksəriyyəti bu səsdən sarsıldı. Meyiti maşına qoyandan sonra da, çılğınlaşmış it elə hey dartınır, kəndiri qırmaq istəyirdi.

Televiziyadan gələnlər Ramin Əlibəyliyə yanaşdılar:

- Ramin müəllim, bu intihardımı?

- Bəli, intihardır! - müstəntiq cavab verdi və bir anlıq fikrə gedib, yenə dilləndi. - Güllə lap yaxından atılıb. Tapança demək olar ki, gicgaha dirənib. Bu, yaranın formasından görünür. Sözsüz ki, ekspertizadan sonra, suallarınıza daha dəqiq cavab vermək olar.

- Sizin fikrinizcə, bu intiharın səbəbi nədir?

- Səbəb aydındır! Bir neçə gün əvvəl bir tələbə qız - Muradzadə Venera Əlisəttar qızı intihar etmişdi. Qız öz əli ilə yazıb qoyduğu məktubda Məlikxanlının onu aldadıb tora saldığını və namusunu ləkələdiyini qeyd etmişdi. Əlbəttə, biz dərhal cinayət işi açdıq. İbtidai araşdırma göstərdi ki, məktubda yazılanlar doğrudur. Bunu sonra tibbi ekspert komissiyası da təsdiqlədi.

- Bu intiharın özünə də cinayətin yeni bir təsdiqi kimi baxmaq olarmı?

- Olar... Ancaq ehtiyac yoxdur. Hər şey aydın idi.

- Cənab müstəntiq, - başqa birisi mikrofonunu daha irəliyə uzatdı. - Bildiyiniz kimi, möhtərəm prezidentimiz son günlər tutduğu mövqedən sui-istifadə edən vəzifəli şəxslər barədə qəti və kəskin addımlar atır. Bu barədə sizin mövqeyiniz necədir?



downloaded from KitabYurdu.az

- Mən bunu alqışlayıram... - Əlibəyli qısa cavab verdi.

- İş məhkəməyə göndərilmişdimi? - arıq bir qız sual verdi.

-Xeyr! Mən hələ ittiham aktını tərtib edib, prokurora

verməmişdim. Bəzi xırda məsələlər qalmışdı ki, onlar da bu gün yekunlaşmalı idi.

- Bəs indi nə etmək fikrindəsiniz?

- Nə etməliyik ki? - Əlibəyli çiynini çəkdi. Onu jurnalistin savadsız sualı təəccübləndirmişdi. - Əlbəttə, cinayət işi üzrə icraata xitam veriləcək. Cinayət prosessual məcəllənin 39.1.5-ci maddəsinə əsasən.

Ramin Əlibəyli sonuncu cümləsini imla deyirmiş kimi, uzada- uzada söyləyib jurnalistlərdən ayrıldı və kənarda söhbət edən rayon prokuroru ilə polis rəisinə yaxınlaşdı. Onlar söhbətlərini kəsib müstəntiqə baxdılar. Əlibəyli ətrafına boylanıb başını yellədi:

- Aləm yığılsa, bir adamı biabır edə bilməz, amma özü-özünü bircə anın içində rüsvay edə bilər.

Prokuror da, rəis də başlarının hərəkəti ilə onun fikrini təsdiq etdilər.

Qaplanın səsi getdikcə dəyişilib xırıltıya çevrilir, az qala boğulan it, buna baxmayaraq, bütün qüvvəsi ilə kəndirə güc gəlib onu qırmağa çalışırdı.

Jurnalistlər, necə tanımışdılarsa, indi də, Ruslan Dadaşovu dövrəyə aldılar:

- Bacarıqlı bir hüquqşünas və mərhumun yaxın dostu kimi bu hadisəyə münasibətinizi bilmək istəyirik.

Ruslanın qanı qara idi. Baş vermiş hadisə öz yerində, aclığı bir yandan, içdiyi konyak da bir yandan içini göynədirdi. Üst dodağını çeynəyib jurnalistlərə baxdı:



downloaded from KitabYurdu.az

-	Müstəntiq Əlibəyli hər şeyi dedi. İşə xitam veriləcək. Ancaq yaxşı olardı ki, bu, müstəntiqin dediyi kimi, 39.1.5-ci yox, 39.1.1-ci maddəyə əsasən olaydı.

-	Xahiş edirik, fikrinizi aydınlaşdırın! - jurnalist yəqin ki, heç nə başa düşməmişdi.

-	Yəni ki, - Ruslan səbirsizlik göstərdi. - İşə Niyazi müəllimin ölümünə görə yox, onun heç bir cinayət törətmədiyinə görə xitam veriləydi.

-	Siz onun günahsız olduğuna inanırsınız?

-	Məlikxanlı yaxşı adam idi...

-	Siz sualımıza cavab vermədiniz. Məlikxanlının günahsız olduğuna inanırsınızmı? - jurnalist sualını inadla təkrar etdi.

-Açılın başımdan!

Ruslan Dadaşov gənc oğlanın uzatdığı mikrofonu sərt hərəkətlə özündən uzaqlaşdırdı. Jurnalistlərdən ayrılıb boz «Nissan»a yaxınlaşdı. Sükanın arxasında oturub qapını hirslə çırpdı. Maşını işə salıb həyətdən çıxdı.

Onun ardınca məzəmmətlə baxan jurnalistlər birdən qışqırıb pərən-pərən oldular. Nəhayət, kəndiri qıra bilmiş Qaplan onların arasından ildırım sürətilə keçib darvazaya şığıdı. Küçəyə yığılmış maşınların arasında bir neçə an vurnuxub küçə boyu harasa qaçdı. Onun hərəkətindən heç kəs baş aça bilmədi. İt bir azdan dayanıb geriyə qayıtdı və sahibinin meyiti qoyulmuş təcili yardım maşınının arxa qapısını cırmaqlamağa başladı. Maşının sürücüsü Qaplanı maşından uzaqlaşdırmağa çalışsa da, bir şey alınmadı.

Kənarda saxlanılmış maşınların birinin yanında, hadisə yerinə lap axırda gəlmiş vəkil Fazil Məmmədli ilə mərhumun oğlu Zakir Məlikxanlı dayanıb söhbət edirdilər.



downloaded from KitabYurdu.az

- Bu nə pis oldu!... - Fazil ah çəkib dilləndi. - Mən əlimdən gələni edirdim ki, ona bəraət qazandırım. Özünü öldürməklə o cür rüsvayçı cinayəti boynuna götürdü.

- Mən də biabır oldum... - Zakir dərdli-dərdli söylədi. - Adamların üzünə necə baxacağam, bilmirəm. Məni də, yəqin ki, işdən çıxaracaqlar. Bu da atanın övlada xeyri!

- Ataya görə oğluna cəza vermək olmaz! - Fazil bildirdi və başını bulayıb köks ötürdü. - İlk dəfədir ki, özümü gücsüz hesab edirəm. Qanbay müəllim nahaq məni bu işə caladı. Mən məğlub oldum...

- Məğlub olan siz deyilsiniz, baxın, odur! - Zakir təcili yardım maşınına işarə etdi. - Öz düşünülməmiş hərəkəti ilə özünü məğlubiyyətə uğratdı.

-Atanızın evi kimin adınadır? - Fazil qəflətən söhbəti dəyişdi.

- Gözəlçə arvadının... - Zakir istehza ilə cavab verdi. - Bağ evi, bir də bir başqa mənzili öz adına idi. Vəssalam! Onlar da o gözəlçəyə qalacaq.

- Siz Gülafət xanımı niyə bəyənmirsiniz? - vəkil soruşdu.

- Bilmirəm... Bəlkə də ona görə ki, çox gözəldir. Bəlkə də ona görə ki, rəhmətlik anamın yerini tutub. Kişi onu hamımızdan çox sevirdi.

- İndi sevməsin... - Vəkil astadan dilləndi.

Ramin Əlibəylinin göstərişi ilə həyətə yığılan adamlar çıxıb maşınlara mindilər. Əlibəyli Asəfə bir saatdan sonra arvadı ilə birlikdə yanına gəlməyi tapşırdı. Sonra özü də maşına oturdu və karvan yola düşdü.

Təcili yardım maşını yerindən tərpənən kimi Qaplan da onun dalınca qaçmağa başladı. O, maşından sahibinin qoxusunu almışdı və dəqiq bilirdi ki, sahibi həmin bu üstündə göy fənər yanan ağ rəngli maşındadı. Maşın



downloaded from KitabYurdu.az

sürətini artırdıqca, it geri qalır, ancaq ümidini üzmədən, bütün qüvvəsini toplayıb onun dalınca qaçırdı.

...Həyət birdən-birə boşalmışdı. Asəf həyətin ortasında təkcə dayanıb fikrə getmişdi. Baş verən hadisənin ciddiliyi ona hələ də bütün reallığı ilə çatmırdı. Yandırıcı günəş başına döyəndə fikirdən ayrılıb əncir ağacının kölgəsinə tərəf getdi. Gözü evin qabağında, divarın dibinə atılmış şişlərə sataşanda dərindən ah çəkdi.

Zəng vurub hadisəni Gülafət xanıma bildirmişdi. Bu qara xəbər onda hələ qadına bütün acısı ilə çatmamışdı. Bəs indi, görəsən, nə çəkirdi o? Asəf çox istəyirdi ki, indi Gülafət xanımın yanında olsun, onun dərdinə şərik çıxsın. Ancaq müstəntiq gözləyəcəkdi onu. Aybənizi səslədi:

- Bir tikə çörək ver, yeyək, müstəntiqin yanına getməliyik.

- Nə üçün? - Aybəniz təəccüblə soruşdu.

- İzahat verməyə!

* * *

Qaplan maşının arxasınca bir xeyli qaçandan sonra yorulub

tamamilə əldən düşmüş, dar asfalt yolun ortasındaca yıxılıb qalmışdı.

Arxadan gələn bir «Jiquli» düz onun arxasında dayandı. Əvvəlcə siqnal verdilər. İtin siqnala əhəmiyyət vermədiyini görən sürücü düşüb itə yaxınlaşdı və onu ayağı ilə vurdu:

- Ay it, dur rədd ol buradan!

Qaplan yavaş-yavaş ayağa qalxıb, küskün nəzərlərlə yad adamı süzdü. Sürücü onun sifətini islatmış göz yaşlarını görüb, ucadan:

- Lənət sənə şeytan! - dedi və maşında oturmuş kişiyə baxdı:

- Qəribədir!.. Lap adam kimi ağlayır...



downloaded from KitabYurdu.az

## XX Fəsil

## Doktor muradzadə

Binanın qarşısında qurulmuş yasxanada Veneranın dəfninin üçgünlüyü ilə əlaqədar ehsan verilirdi.

Xəstəxanadan bu gün çıxmış Nelya xanım kölgəlikdə qoyulmuş bir stulda əyləşmiş, yaxın qohumlardan olan bir neçə qadın başına yığılmışdı. İnfarkt keçirdiyini özünə deməmişdilər. Bacardıqları qədər çalışırdılar ki, onu həyəcanlanmaqdan qorusunlar və xüsusilə qadınların ağlaşma mərasiminə yaxın buraxmasınlar.

Arifdə yasxanada idi. Bacısının dəfninə gəlib çata bilməmişdi. Dəfnin səhəri günü gəlmişdi. Əvvəl, hadisəni ona xəbər verməyə ürəkləri gəlməmişdi. Sonra isə gec olmuşdu. İsti havada meyiti çox saxlamaq istəməmişdilər.

Hadisənin mahiyyətindən xəbər tutan Arif and içmişdi ki, bacısının ölümünə bais olan adamı tapıb öldürəcək. Onu birtəhər sakitləşdirib, başa salmışdılar ki, cinayət işi açılıb və günahkar mütləq cəzalandırılacaq.

İndicə qaynı Həsənağa zəng vurub Məlikxanlının intihar etməsi xəbərini doktora çatdırmışdı. Muradzadə bu xəbərdən hiddətlənmişdi.

Deməli, məktub düzgün yazılıbmış. Deməli, o alçaq, həqiqətən, günahkar imiş. Yoxsa o boyda adam, hər halda, özünü müdafiə edə bilərdi. Ancaq bir tərəfdən də ürəyi rahat olmuşdu. Çünki doğma balasının ölümünə səbəb olan cinayətkar cəzasına çatmışdı. Lap öz əli ilə olsa da! İndi, yəqin, Arifdə sakitləşərdi.

Günortaya yaxın verilmiş ehsan mərasimində doktor Atayev də iştirak etmişdi. Muradzadə onu görən kimi yadına düşmüşdü ki, bu gün hökmən Aydana baş çəkməlidir. Məsələ burasında idi ki, qızın nadir xəstəliyinin yeganə müalicəsi Muradzadənin tərtib etdiyi və on gündən bir qana



downloaded from KitabYurdu.az

yeridilməli mürəkkəb dərmanlar sistemində idi. Bu sistem on gündən bir mütləq damara qoşulmalı idi. Sistemi özü tərtib edib, özü qarışdırırdı. Bunu tibb bacılarına, ya başqa bir həkimə etibar etmək olmazdı. Çünki xəstənin vəziyyətindən asılı olaraq, dərmanların qarışma nisbətində dəyişikliklər edilirdi. Qalan ara günlərdə orqanizmi qüvvətləndirən köməkçi dava-dərman qəbul edilirdi ki, buna da anası Rüxsarə xanım nəzarət edə bilərdi. Muradzadə tam əmin idi ki, heç kəsə məlum olmayan həmin dərmanlar sistemi ilə Aydanı sağalda biləcəkdi. Bir şərtlə ki, müalicə ardıcıl aparılsın və yarımçıq qo¬yulmasın.

Doktor evə çıxıb lazım olan dərmanları götürdü. Bunların bir çoxu nadir, həm də çox bahalı dərmanlar idi. Biri isə təbii bitki şəklində idi ki, doktor onu Altaydan gətizdirib, özü emal etmişdi.

Yasxananın yanına qayıdıb bacısı oğlu Akifdən açarları aldı və maşına oturdu. Bu üç gündə onu ancaq Akif sürmüşdü. Muradzadənin maşın sürməli halı nə gəzirdi onda?...

Maşını işə salıb həyətdən çıxdı. Yenə də fikirli idi. Bəzi fikirlər onu üzüb əldən salırdı. Başlarına gəlmiş bu faciə yenə də onun üçün qaranlıq və müəmma olaraq qalırdı. Onun məsum körpə hesab etdiyi, dərs oxumaqdan, televizora baxmaqdan, ata-anası ilə mehriban söhbət etməkdən başqa həyatında önəmli bir şey olmayan qızı birdən-birə intihar etmişdi. Və məlum olmuşdu ki, böyük vəzifəli bir adam, lazım gəlsə doktorun özünü qəbul otağında gözlədə bilən bir adam, heç bir şəxsi tanışlıqları, əlaqələri olmayan bir adam onun namusuna toxunmuşdu. Axı harada, necə? Veneranı onunla kim tanış etmişdi? Qızı kim yoldan çıxartmışdı? Muradzadə bu suallara cavab axtarırdı və tapmayınca rahat olmayacaqdı.

Belə çıxırdı ki, qızının həyatından onun, doğrudan da heç bir məlumatı yox imiş. Özünü möhkəm qınayırdı. «Belə də atalıq olar?» - deyirdi.



downloaded from KitabYurdu.az

Ancaq o, qızını pis tərbiyə etməmişdi axı?! Uşaqlıqdan onu da,

Arifi də elmə, təhsilə, kitaba həvəsləndirmişdi. «Oxuyun, - deyirdi, - pis uşaqlara qoşulub vaxtınızı da, özünüzü də zay etməyin». Qızına daha çox nəsihət verirdi. Deyirdi, heç vaxt unutma ki, sən Muradzadənin qızısan! Nə mənim, nə ananın adına xələl gətirə bilən iş tutma! Öz vicdanını ləkədən gözlə. Yadında saxla ki, vicdanın ləkələnsə, bu ləkəni başqalarının görüb-görməməyi önəmli olmayacaq. Həmin ləkə səni içəridən çürüdəcək. Həyatda bədbəxt olacaqsan!

Muradzadə, birdən, öz fikirlərindən diksindi. Bəlkə elə verdiyi tərbiyənin nəticəsi idi bu intihar? Bəlkə belə dərin əxlaqı, mənliyi olmasaydı, o əclafın, o gorbagorun təhqirinə dözər, özünə qəsd etməzdi? Bəli, elədir! Qızı, özü də bilmədən, anlamadan, yoldan çıxarıb ləkələyiblər. O da dözməyib bu ləkəyə! Yaşamaq istəməyib... Elə bu cür də yazıb axı məktubunda...

«Öl, köpək oğlu! Yerin cəhənnəmlikdir sənin! Ah, kaş qızı yoldan çıxarıb onunla tanış edənləri də tapa biləydim. Bir də... O gün özünü «polkovnik» kimi təqdim edən həmin adam zəhər barədə soruşdu. Doğrudan da, axı bu dəhşətli zəhəri qızıma kim vermiş olar? Hansı zəhərli ilan öz zəhərini verib qızıma?»

O polkovnik qayçını niyə tapşırdı mənə?.. Qayçının buraya nə dəxli var? Bəs niyə stəkanı aparıb, qayçını saxladı? Özü də mənə elə bərk-bərk tapşırdı ki, sanki həyatı da bu qayçıdan asılı idi. O, kim idi axı? Müstəntiq deyildi... Bəs kim idi, görəsən, o adam?..

Gəlib dostu Ələsgər Atayevin yaşadığı binaya çatdı. Dərmanlar yığılmış çantasını götürüb maşından düşdü. Mənzilin qapısı ağzında dərdli fikirlərini başından qovaraq, nikbin görkəm almağa çalışdı. Yalnız çətinliklə də olsa buna nail olandan sonra zəngin düyməsini basdı. Ələsgər Atayev işdə idi. Ayaqüstü yas yerinə baş çəkib yenə işə qayıtmışdı. Qapını



downloaded from KitabYurdu.az

Rüxsarə xanım açdı. Doktoru bir qədər təəccüblə qarşıladı və bildiyi bütün münasib sözlərlə ona başsağlığı verməyə, qəlbini ovundurmağa çalışdı. O, əlbəttə ki, Veneranın yasına getmişdi, ancaq orada Muradzadəyə yaxınlaşıb dil-ağız eləyə bilməmişdi.

Nəhayət, sözünə ara verib, yasda iştirak etmiş bütün qadınlar kimi onu da çox maraqlandıran sualı verdi:

- Bu qız niyə öz canına qıyıb, ay Əlisəttar qardaş?

Muradzadə köks ötürüb:

-Bilmirik... - dedi.

Doktor bu sirri tanış-biliş arasında, imkanı qədər sirr olaraq saxlamağa çalışırdı. Ancaq onun xəbəri yox idi ki, bu gün müstəntiq

Əlibəyli Məlikxanlının intiharı ilə əlaqədar olaraq jurnalistlərə müsahibə verib və həmin müsahibəsində hər şeyi olduğu kimi açıqlayıb. Onun bundan xəbəri yox idi, çünki müsahibə hələ təzə verilmişdi və televiziyada səsləndirilməmişdi.

Muradzadə Rüxsarə xanıma danışmamaq işarəsi verdi və Aydanın otağına keçdilər. Aydan divanda uzanıb kitab oxuyurdu. Tibb universitetinin birinci kurs tələbəsi olan bu ağbəniz, arıq, ancaq həm də suyuşirin qız xəstəliyi ilə əlaqədar, axırıncı semestr imtahanlarını verə bilməmişdi. Ona görə də, halı bir az yaxşı olan kimi kitabı əlinə götürürdü.

Doktoru görən kimi sevincək ayağa qalxdı. Görüşmək üçün onun üstünə yeridi. Ancaq birdən-birə dodaqları səyridi, iri ala gözlərində yaş damcıları parıldadı və başını Muradzadənin sinəsinə söykəyib ağlamağa başladı. O, Veneranın faciəli və sirli ölümündən sonra öz sevimli həkimini görməmişdi.

Rüxsarə xanım bu səhnəyə dözməyib otaqdan çıxdı. Doktor Aydanın saçlarını mehribanlıqla sığalladı.



downloaded from KitabYurdu.az

- Bəsdi, ağlama! Sənə ağlamaq yaramaz. Demişəm axı, tez sağalmaq istəyirsənsə, gərək özünə baxasan. Maşallah, maşallah! Necə də yaxşılaşmısan. Deməli, müalicəmiz lap əla gedir!

Aydan bu dəfə bərkdən hıçqırdı.

- De yaxşı! - doktor onu aparıb divanda oturtdu. - İstəyirsən gec sağalasan? Hə? Məni biabır eləmək istəyirsən? Axı mən söz vermişəm ki, səni lap tez sağaldacam...

Rüxsarə xanım çay gətirdi. Ancaq Muradzadənin oturmağa vaxtı yox idi. Axşamacan yasxanaya gəlib-gedən olacaqdı və başsağlığı vermək üçün onu axtaracaqdılar.

Ayağa qalxıb çantasını açdı. Dərmanları stolun üstünə düzüb sistemi hazırladı. Aydanı Rüxsarə xanımın köməyilə divanda rahatlayıb iynəni damarına yeritdi. Dərman axan borunun uc tərəfini yapışqanlı parça ilə qızın qoluna bənd edib qalxdı.

- Hə, necədi, qızım, rahatdımı yerin? - deyə soruşdu.

- Bəli, rahatdı, çox sağ olun! - Aydan bunu deyib, utandığı üçün üzünü yana çevirdi.

- Əliniz var olsun, Əlisəttar qardaş, əyləşin çay için! - bunu da Rüxsarə xanım dedi.

Muradzadə:

- Ehtiyac yoxdur, zəhmət çəkməyin! - deyib qızın bayaq oxuduğu «Fiziologiyanın əsasları» kitabını götürdü və stulu divana yaxınlaşdırıb oturdu.

- Bunu oxuyurdun, qızım?

- Bəli! - Aydan başını ona tərəf çevirdi.

- Bir şey bilirsən?



downloaded from KitabYurdu.az

- Yaxşı bilmirəm.

- Hə, gəl onda biliyimizi möhkəmləndirək!

Muradzadə kitabı vərəqləyib hər bir mövzu barədə qısa və aydın məlumat verməyə başladı. O qədər maraqlı danışırdı ki, vaxtın haradan gəlib-getməyindən qızın heç xəbəri də olmadı. Dərmanın axıb qurtardığı qırx beş dəqiqə müddətində doktor bütün mövzulara elə toxundu ki, yəqin, Aydanın bir də həmin kitabı oxumasına ehtiyac olmayacaqdı.

Ayağa qalxıb iynəni qızın qolundan çıxartdı. Spirtə batırılmış pambığı yaranın üstünə qoyub qolunu dirsəkdən qatladı:

- Bir az belə saxla. - deyib dikəldi.

- Əyləşin, çay için! - ev sahibəsi bir də təklif etdi.

-Yox, sağ olun, getməliyəm. Gəlirlər-gedirlər, orada olmalıyam.

Doktor dərman şüşələrini çantasına yığıb Aydana yaxınlaşdı. Əyilib onun alnından öpdü:

- Elə sevinirəm ki, - dedi, - lap sürətlə yaxşılaşırsan. Bizim belə əl-ayağa düşməyimizə baxma ha, boş şeydi sənin bu xəstəliyin.

Ancaq səni o qədər çox sevirəm ki, istəyirəm səni özüm müalicə edim.

Aydan gülümsədi. Ancaq gözləri də yaşardı nədənsə.

- Çox sağ olun, əmisi. - Rüxsarə xanım dilləndi. - Aydan da çox istəyir sizi, özü də dünyalar qədər!

- De sağ ol, mənim balam! - Muradzadə əlini qızın saçına çəkib qapıya getdi.

- Sağ olun... - arxadan Aydanın zəif səsi eşidildi.

Rüxsarə xanım doktoru yola salanda özü də mənzildən çıxdı və qapını örtdü. Əlində bir dəftər də var idi.



downloaded from KitabYurdu.az

- Necədi uşaq, doktor? - deyə narahatlıqla soruşdu.

Doktor artıq nikbinlik maskasını üzündən çıxarmış, yenə bir saat əvvəlki Muradzadə olmuşdu.

- Müalicə yaxşı gedir, ancaq vəziyyət hələ ciddiliyində qalır. Köməkçi dərmanları özünüz vaxtında içirin, o barədə mənə ehtiyac yoxdur. Əksinə, tez-tez gəlməyim qızda öz xəstəliyinin ağırlığı barədə fikri möhkəmləndirər. Bir də on gün sonra sistem qoşacam. Yeməyinə fikir verin... Bir də mütləq soyuqdəymədən gözləyin! Mənimlə də telefon əlaqəsi saxlasın Ələsgər. Bax belə... Hər şey mən deyən kimi olsa, sağaldacam uşağı. Buna inanıram!

- Allah köməyiniz olsun, Əlisəttar qardaş, - Rüxsarə sanki yalvarırdı. - Bizim ümidimiz ancaq sizədir! Siz olmasanız heç kəs sağalda bilməyəcək onu. Özü də bilirsiniz, necə uşaqdı, necə ürəyi var onun? - Əlindəki dəftəri doktora göstərdi. - Baxın, bu dəftəri bu gün görmüşəm. Gizlicə gündəlik yazırmış. Başınızı ağrıtmaq istəmirəm, təkcə elə burasını oxuyun, xahiş edirəm!

Muradzadə qadından dəftəri alıb göstərilən səhifəni oxumağa başladı. Aydan bu sətirləri dünən yazmışdı:

«İki gündür ki, sevimli həkimimi görmürəm. Veneranın özünü öldürməyini bu gün eşitdim. Keçirtdiyim dəhşətli və kədərli hissləri qələmlə yazmaqda acizəm. Axı Veneranın başına hansı faciə gəlib, bu həyatdan niyə bu qədər bezib ki, özünə qəsd edib? Mən indi Əlisəttar əminin nə çəkdiyini təsəvvür belə edə bilmirəm. Kaş onun yanında olub, ona təskinlik verə biləydim...

Mən özüm də ölümün lap astanasındayam. Anam elə bilir ki, bundan xəbərim yoxdur. Ancaq doktor deyir ki, mən ölməyəcəm. O məni sağaldacağına söz verib. Mən yaşamaq istəyirəm. Yaşamaq, həm də həkim olmaq istəyirəm.



downloaded from KitabYurdu.az

Əgər ölməsəm, söz verirəm ki, doktor Muradzadə kimi həkim olacam. Xəstələrimlə onun kimi mehriban rəftar edəcəm. Xəstəm lap düşmən də olsa, çalışacam ki, onu mənfur xəstəliyin caynağından xilas edim. Əgər ölməsəm...»

Doktorun gözləri yaşarmışdı. Dəftəri cəld Rüxsarə xanıma qaytardı:

-Yaxşı! Yaxşı! Dəftəri yerinə qoyun, bilməsin! Sağ olun!

Pilləkənlərlə aşağı düşüb, həyətə çıxdı. Başını aşağı dikib, fikirli halda addımlamağa başladı. Binaların arasından keçib maşınların sürətlə şütüdüyü geniş küçəyə çatdı. Yalnız bu zaman yadına düşdü ki, o buraya öz maşını ilə gəlmişdi.

## XXI Fəsil

## Onunla zarafat qorxuludur!

Asəfin bağından çıxandan sonra Mahir Qanbay Qasımlını evə gətirdi və öz aləmində, ona təskinlik verərək çıxıb getdi. Nuranə də nahar üçün xörək hazırlayıb getmişdi. Qasımlı ac da olsa, əvvəlcə keçib divanda oturdu. Çoxsuallı məsələlər beynində bir-birinə qarışmışdı. Məlikxanlının, heç gözlənilmədən, belə bir addım atması fikirlərini alt-üst etmişdi. O, hələ ki, baş açmırdı, özünü məğlub hesab etməlidir, yoxsa yox?! Hər şey qurtardı, yoxsa hər şey hələ indi başlanır?

Hər halda, düşünmək lazım idi və bir siqaret yandırıb, baş verənləri məntiqi ardıcıllıqla araşdırmağa çalışdı.

Birinci olaraq, qarşıya belə bir sual qoydu: «Bu intihardırmı?» Əlbəttə, bunun intihar olmasına şübhə doğuran heç nə yox idi. Yeganə şübhə Qasımlının ürəyində idi ki, o da Məlikxanlının Qasımlının fəaliyyətinin



downloaded from KitabYurdu.az

nəticəsini gözləməməsi idi. Bu da ki, böyük əsas ola bilməzdi. Hadisənin üç şahidi var idi: Ruslan, Asəf və onun arvadı. Səhv etmirdisə, Asəf arvadının adını Aybəniz dedi. Düzdür, Qasımlı Aybənizi görmədi. Ancaq hər halda qəbul etmək olar ki, o da

şahidlərin sırasındadır. Bağda olarkən, evin qabağına atılmış dolu podnos və qadının qumun üzərində qaçarkən qalmış ayaq izləri xəfiyyənin nəzərindən yayınmamışdı.

Daha ciddi rəyi isə ekspertiza verəcəkdi ki, Qasımlının fikrincə, həmin rəy də hadisənin intihar olduğunu təsdiq edəcəkdi.

İkinci sual istər-istəməz belə olmalıydı ki, Məlikxanlı nə üçün intihar etdi? Buna cavab vermək, o qədər də, çətin deyildi. O, çox çıxılmaz bir vəziyyətə düşmüşdü və günahkar olsa da, olmasa da intihar etməsi ağlabatan idi...

Ancaq kim bilməsə də, Qasımlı bilirdi ki, Məlikxanlı ölümünə bir neçə saat qalmışa qədər polkovnik Qasımlının fəaliyyətinə olan inamını itirməmişdi. Bunu söyləməyə Qasımlının əlində ciddi əsas var

idi...

Bəlkə Məlikxanlının özünü öldürməsinə tamamilə ayrı bir şey səbəb olmuşdu? Bu, Qasımlının adəti idi. Bir dolaşıq məsələni həll edəndə əsas və ağlabatan suallardan başqa, əhəmiyyətsiz və ağlabatmaz görünən suallara da cavab axtarmağa çalışırdı.

Ancaq indi ya yorulmuşdu, ya da əvvəlcədən dolaşıq olan məsələ bir az da dolaşığa düşmüşdü.

Müstəntiqə göndərdiyi stəkanda və kağız pulda onu

maraqlandıran əl izləri tapılmadı. O, bundan pərt oldu və çox da təəccübləndi. Ancaq özünə inamı azalmadı. Qasımlı artıq Veneranın ölümünün hansı şəraitdə baş verdiyini bilirdi. Bunu bu saat sübut etməyə



downloaded from KitabYurdu.az

əlində imkan olmasa da, bilirdi. Bilirdi ki, Venera həmin məktubu könüllü, özbaşına yazmayıb. Daha doğrusu, bilirdi ki, heç zorakılıqla da yazmayıb... Ancaq...

Məsələ, doğrudan da, çox mürəkkəb idi. Məlikxanlı özünü öldürüb, oyundan kənara çıxmışdı və bununla əlaqədar Qasımlının da öz üzərinə götürdüyü öhdəlik əhəmiyyətini itirmişdi. Onun yerində kim olsaydı, Məlikxanlının ölümündən sonra birdəfəlik kənara çəkilər, bu iş üçün aldığı pulu da özünə halal hesab edərdi.

Qasımlını isə pul heç düşündürmürdü. Qarşısına açılması çox çətin olan ciddi bir iş çıxmışdı və belə görünürdü ki, bu işdə onun güclü rəqibləri olacaqdı. Polkovnik Qasımlı isə belə işlərdən heç vaxt geri çəkilmirdi.

Bütün fikirləri başından qovaraq ayağa qalxdı. Mətbəxə gedib səbirlə nahar etdi. Qəhvə dəmləyib iş otağına keçdi. İçində sanki, bir boşluq hiss edir, heç nə düşünmək istəmirdi. Şkafı açıb oradan kiçik əl radiosu ölçüdə bir cihaz götürdü. Onu stolun üstünə qoyub, yenə mətbəxə keçdi. Özü üçün bir fincan qəhvə süzüb otağa qayıtdı.

Kreslosunda oturub, isti qəhvədən bir qurtum içdi. Yalnız bundan sonra cibindən üstündə qızıl işləmələrlə qartal rəsmi çəkilmiş bir alışqan çıxartdı. Bu alışqan son iki sutkada, ardıcıl olaraq, yeddi adamın əlinə keçmişdi ki, həmin sırada birinci və yeddinci adam Qanbay Qasımlı özü idi.

O, alışqanı o üz-bu üzünə çevirib diqqətlə gözdən keçirtdi. Sonra əlinə götürdüyü iynəni onun arxasındakı kiçik deşiyə saldı. Alışqanın təqribən üçdəbir hissəsi ayrılıb stolun üstünə düşdü. Polkovnik həmin hissəni əlinə alıb şkafdan götürdüyü cihazın xüsusi yarığına daxil etdi. Cihazın bir neçə düyməsini basandan sonra kresloda yayxanıb qollarını sinəsində çarpazladı. Bir azdan sonra cihazdan səslər gəlməyə başladı:

- Deməli belə... Yazıq Venera!



downloaded from KitabYurdu.az

- Götür, qoy məndən yadigar olsun.

- Yox! Yox!

- Xahiş edirəm, götür! Mən siqaret çəkməyəcəm ki?!

- Çox sağ ol, Gülşən!...

Bunlar Elnur Qafarlı ilə Gülşən adlı tələbə qızın danışıqları idi. Qasımlı söhbətə axıradək, diqqətlə qulaq asdı. Ancaq məkan dəyişiləndə diqqətini daha da topladı. İndi söhbət Elnur ilə başqa bir

adamın, Qasımlının Nemətlə birlikdə restoranda gördükləri Snayper Mürsəlin arasında gedirdi.

- Səndən nə əcəb?

- Şefə zəng vurmuşdum. Dedi ki, bura gəlim...

- Dal həyətdədir!

Sonra Qasımlının Nemətə göstərdiyi, özünün isə yaxşı tanıdığı qızıl sağanaqlı eynək taxmış həmin adamın səsi gəlirdi:

- Gəldin? Danış görək, nə xəbər var?

-Veneranın rəfiqəsi zəng vurub mənimlə görüşmək istədi. Görüşdük. Qızın özünü öldürməsini xəbər verdi. Ürəyimə gəlir ki, onu tapıb danışdırarlar, o da mənim adımı çəkər. Sonra başım ağrıyar.

-Ağrıyıb eləməz! Ağrısa, apteklərdə baş dərmanı çoxdur. Bir də ki, işi Ramin aparır. O da... Ancaq hər halda, o qızı bir də tap, görüş. Tapşır ki, sənin adını çəkməsin. Bir şey fikirləş də! Yazıçı adamsan. Yox, əgər şübhəli bir şey varsa, özümüz məşğul olaq o qızla.

- Hələlik, özüm görüşüb danışaram.

- Ver görüm, o necə şeydir?

- Buyur!



downloaded from KitabYurdu.az

- Qiymətli şeydir... haradandı bu səndə?

- Bir dostum bağışlamışdı...Rusiyadan gətirib...

- Dosta peşkəş olunmalı şeydir.

- Qurbandı sizə, götürün!

- Sağ ol!

- Bəs Ələsgər? O deməz ki?

- Nəyi?

- Zəhəri verməyini... Bir də o birini...

- Niyə deməlidir?

- Yəni ilişsə... - Elnurun səsi lap yavaş gəldi.

- Başın xarabdır? Deyəsən, qorxudan birtəhər olmusan?!

- Doğrusu, qorxuram...

- Qorxmaq lazım deyil! Əgər başa düşsən, sənin özünü o boyda problemdən qurtarmışam. Sənə dedim ki, işi kim aparır... Sonrası da ki, biz burda balqabaq deyilik. Hər şey yaxşı olacaq. Ancaq ya sən, ya Ələsgər, ağzınızdan lazım olmayan bircə kəlmə qaçırsanız dilinizi boğazınızdan çıxartdıraram. Harada olmanızdan asılı olmayaraq! Aydın oldu?

- Mən qələt eləyərəm, qədeş!

- Pivə içirsən?

- Yox, sağ olun!

- Onda, get! Get, işinlə məşğul ol!

Bunun ardınca həmin adamın Mürsəl ilə söhbəti gəlirdi. Mürsəl bir qədər restoranın və mağazanın işlərindən danışdı ki, bunlar Qasımlı üçün



downloaded from KitabYurdu.az

maraqlı deyildi. Ancaq söhbət dəyişəndə yenə diqqətini toplamağa məcbur oldu. Həmin adam soruşurdu:

- Polkovnikin məsələsi necə olacaq?

Mürsəl ona cavab verdi:

- Hər şey sizin dediyiniz kimi olacaq. Sizin qurduğunuz plan doğrudan da dahiyanədir.

- Tələsmək lazımdır. Vaxt gedir!

- Arxayın olun! Bu bizim əlimizdə çox asan bir şeydir.

- Qətiyyən elə düşünmə və bu işi də zarafata salma! Yadında saxla ki, onunla zarafat qorxuludur!

- Biz də axı, dünənin uşağı deyilik?! - Mürsəl dedi.

- Bilirəm! Ancaq yenə xəbərdarlıq edirəm, plandan kənara çıxmayın!

- Baş üstə!

- Mən getdim!

- Sizə yaxşı yol!

Qasımlı bir anlıq fikrə getdi: «Bunlar hansı plandan danışırlar? Polkovnik deyəndə mənimi nəzərdə tutuıiar?»

Çox fikirləşə bilmədi. Bu vaxt cihazdan elə bir tanış səs eşitdi ki, təmkinini saxlaya bilməyib, əlini stola vurdu. Qəhvə fincanı silkələndi və stola da bir neçə damcı töküldü. O, bir siqaret yandırıb söhbətin ardına qulaq asdı. Daha doğrusu, qulaq asmaq istədi. Ancaq alınmadı. Burada səsyazanın lenti qurtarmışdı!

- Heyif! - deyərək ayağa qalxdı. Əllərini qoynuna qoyub, otaqda gəzişməyə başladı:



downloaded from KitabYurdu.az

«Onların nə əlaqəsi ola bilər, axı? Bəlkə bu görüş təsadüfidir?.. Ola bilməz?»

Özü haqqında eşitdikləri artıq yadından çıxmışdı. Yalnız sonuncu səsin sahibi barədə düşünürdü. Üç söz!.. Üççə kəlmə söz dedi həmin adam və Qasımlı onun səsini tanımaya bilməzdi. Ancaq heyif ki, lent çox pis yerdə qurtarmışdı.

Stəkana araq süzüb içdi. Sakitləşmək, fikirlərini toplamaq istəyirdi. Heç içkisiz də özünü ələ ala bilərdi və tezliklə ələ aldı. Sakitliklə düşünməyə başladı.

Ona maqnitofonsuz da hər şey məlum idi. Təhqiqat ardıcıl və düzgün olaraq davam etdirilirdi. Qarşıda yeganə bir ciddi sual var idi ki, o da «Məlikxanlının ifşa edilib vəzifədən uzaqlaşdırılması kimə lazımdır» sualı idi. İndi Məlikxanlı artıq təkcə vəzifədən yox, həyatdan

da gedib... Vəzifədən çıxarılmağına, yaxud çirkin böhtana dözməyib, intihar edib. İndi yenə də sualı elə qoymaq lazımdır, yoxsa?..

Qasımlı başa düşürdü ki, bir çox şeydən xəbərdar olsa da, məsələnin əsas özəyi hələ qaranlıq içindədir. Nə isə, incə bir məqam var ki, o məqama toxuna bilsə həmin qaranlıq işıqlana bilər və hər şey məlum olar. Ancaq o məqam nədən ibarət idi?

Neyləsin? Yenə də düşünsün ki, Məlikxanlının işdən çıxması kimə lazım idi? Ya həbs olunması kimə sərf edirdi? Artıq bununla əlaqədar müəyyən dairələrə gizlicə «əl gəzdirilmişdi». Yox! Qanbay Qasımlı duyurdu ki, bu suala cavab axtarmaq təhqiqatı azdıra bilər, necə ki, azdırır. Ona elə gəlirdi ki, bu sual köhnəlib və onu atmaq lazımdır. Məlikxanlı özünü öldürmüşdü... Bununla da məsələnin həlli qəribə bir düyünə düşmüşdü. Ya bu düyün hər şeyin açarı olmalı idi, ya da heç nə!..

Snayper Mürsəllə «şef»in son danışığından belə çıxırdı ki, onlar «polkovnik» üçün, yəni çox güman ki, Qanbay Qasımlı üçün nəsə



downloaded from KitabYurdu.az

hazırlayıblar. Bu onu göstərirdi ki, onlar Qasımlının düz yola düşəcəyini indidən duyublar. Deməli, polkovnik düz yolun başlanğıcında idi!..

Qasımlı özünü, səhvən, qaranlıqlar səltənətinə doğru getdiyi bir

vaxtda, səhvini başa düşüb, işığa gedən yola burulan, lakin bu zaman daha qatı bir zülmətə düşən adam kimi hiss edirdi. Bu zülməti adlayıb keçmək lazım idi. Bu zülmətdən sonra işıq gələcəkdi. Ancaq Qasımlı o işığı görmürdü. Zülmət qaranlığın düz içində idi. Qaranlıq isə elə qaranlıqdır. Nə olduğu bilinmir...

Bəs o səs? Bu səs onun idi, buna heç bir şübhə ola bilməzdi. Düzdür, cəmi üç söz deyildi, səs də bir az uzaqdan gəldi. Ancaq...

Qapının zəngi çalındı. Ev sahibi gözlükdən baxıb, qapını açdı. Gələn Nemət idi. Görüşüb otağa keçdilər.

Nemət:

- Şahmat oynamağa gəlmişəm, - dedi.

- Lap yaxşı!

Qasımlı şahmat taxtasını gətirib öz kreslosunda əyləşdi. Nemət stulunu yaxına çəkib, arxası qapıya, ev sahibi ilə üzbəüz oturdu. Fiqurları düzüb, oynamağa başladılar.

Polkovniki şahmatda udmaq çətin məsələ idi. Şəxsən Nemətə bu səadət nəsib olmamışdı. Bu baxımdan, Nemətlə oynamaq Qasımlıya heç ləzzət də verməzdi. Buna görə də, həmişəki kimi, oyunun əv¬vəlindən polkovnikin bir fiqurunu götürüb kənara qoydular. Nemət ilk gedişi gedib:

- Məlikxanlının işi nə yerdədi? - deyə soruşdu.

- Məlikxanlı indi morqdadır. - Qasımlı sakitcə cavab verdi və cavab gedişi etdi.



downloaded from KitabYurdu.az

- Harada?! - müsahibi qulaqlarına inanmadı.

- Meyitxanada.

- Ola bilməz! - Nemət oyunu saxladı.

- Təəssüf ki, oldu !.. - Qasımlı başını yırğaladı.

- Neçəyəni?..

- İntihar etdi!

- Deməli, hər şey təsdiq olundu?

- Dünən ekspertiza qızın uşaqlıq yolunda onun spermalarını aşkar etdi. Beləliklə, sübut olundu ki, o, qızla əlaqədə olub.

- Siz ekspertə inanırsız? Bilərəkdən, kimlərinsə göstərişi ilə belə rəy verməz ki?

- Mən də şübhələndim. Ona görə də, bəzi adamlardan xahiş etdim, maraqlandılar. Ekspertiza bürosunda mənim inanılmış adamım var. Öyrəndim ki, ekspert komissiyası düzgün rəy verib. - Qasımlı bunu deyib piyadanın birini irəli itələdi. Onun fikrinin əsas hissəsi cihazdan eşitdiyi son səslərdə olduğu üçün, lazımınca oynaya bilmirdi.

- Bəs siz indi nə düşünürsünüz? - Nemət oyundan ayrılıb qonşusunun üzünə baxdı. - Deməli, məktub düzgün yazılıbmış?

- Bilirsən, Nemət! - Qasımlı kresloya söykəndi. - Özümü tərifləməyi qətiyyən sevməsəm də deməliyəm ki, mən yuxarı dairələrdə yaxşı tanınan xəfiyyəyəm. İstər Azərbaycanda, istərsə də dəvət olunduğum xarici ölkələrdə öhdəmə götürdüyüm elə bir cinayət işi olmayıb ki, onun sirrini aça bilməyim. Mənim gözümdən heç nə yayına bilməz! Bunu Məlikxanlı da yaxşı bilirdi. Mən onun nüfuzlu bir dostunun xarici ölkə ilə əlaqəsi olan çox dolaşıq bir işini həll etmişdim. Belə olan halda, özün cavab ver,



downloaded from KitabYurdu.az

Məlikxanlı məni bu işə niyə cəlb etdi? Məgər o bilmirdi ki, məni aldada bilməz?!

- Bəli, o bilməliydi ki, - Nemət dilləndi, - Sizinlə zarafat etmək...

- Qorxuludur, hə? - Qasımlının yadına səsgücləndirən cihazdan eşitdiyi cümlə düşdü və gülümsədi.

- Bəli. - Nemət təsdiq etdi.

- Bir də, o məni niyə aldatmalıydı axı? Bu işin ki, mənə heç bir dəxli yoxdur?! Mən rəsmi adam deyiləm axı?!

- Doğru deyirsiniz... - Nemət fikirli halda onun sözlərini təsdiq etdi. - Ona görə də, mənə elə gəlir ki, şahidi olduğum işlərinizin içində bu ən qəribəsidir.

- Ola bilər... - ev sahibi əlini şahmat taxlasına uzatdı.

## XXII Fəsil

## Çirkin plan

Həmin vaxt, Nuranə Qasımlının mənzilinə getmək üçün hazırlaşırdı. Axşam yeməyini hazırlamağa.

Yaxalanıb vanna otağından çıxdı. Güzgüyə baxıb saçını daradı. Köynəyinin yaxasını qaydaya saldı. Şux sinəsi köynəyi qabartmış, ona görə də, iki düymənin arası aralı qalmışdı. Həmişə, xüsusilə də yeriyəndə sinəsini qabağa vermək uşaqlıqdan adəti idi. Bu, onu çox yaxşı göstərirdi. Sifətini güzgüyə bir az da yaxınlaşdırıb əlini dodaqlarına sürtdü. Dodaqları ürəyinin hərarətindən qırmızıya boyanmışdı. Rəngli dodaq boyasına ehtiyac görmədi. Belə yaxşıdır. Sadə, təmiz. Yüngülcə pudralanıb, ətirləndi.

Birinci dəfə geydiyi, təzə ipək alt paltarı onu qıcıqlandırırdı. Bədənində qəribə, xoş bir duyğu baş qaldırırdı. Ağlına gətirdiyi hisslərdən utandı.



downloaded from KitabYurdu.az

Çevrilib uşaqlara baxdı. Başları qarışıq idi. Onun intim duyğularından xəbərsiz, öz aləmlərində idilər.

Tural oyuncaq daşlardan evcik qurur, evcik tam hazır olan kimi Nuray onu vurub uçururdu. Sonra isə gülməkdən uğunub gedir, bununla da Turala acıq verirdi.

Nuranə dayanıb onlara tamaşa etdi. Necə də qayğısızdılar. Kaş ki, bunları böyüdüb, bir yana çıxara biləydi. Bunun üçün, hələlik ki, maddi problemi yox idi. Qasımlı kifayət qədər əməkhaqqı verirdi.

«Allah onun köməyi olsun! - deyə fikirləşdi. - Allah ömrünü uzun eləsin! Ancaq yazığın nə ailəsi, nə uşağı var...» Qasımlının ailəsinin başına gələn faciəni Fədayədən eşitmişdi. Yadına düşəndə yenə hiddətləndi. «Əli quruyaydı, kaş o qatilin!»

Qanbay müəllim Nuranənin nəzərində getdikcə doğmalaşırdı. Onu bir gün görməyəndə, gənc qadın özü də başa düşürdü darıxdığını. Öyrəşmişdi ona. Onun ilk baxışdan sərt və qaşqabaqlı görünən sifətinə baxanda, elə bil, rahatlıq tapırdı. Belə adama həmişə, hər bir işdə etibar etmək olardı. Onun son dərəcə iti və təmiz baxışları xəyanət deyilən şeydən uzaq idi.

Nuranə gecikdiyini başa düşüb qapıya getdi:

- Tural, bacından muğayat ol!

-Yaxşı, ana... - Tural yavaşca dedi.

- Ana, tez gəl! - Nuray dalınca qışqırdı.

-Yaxşı! Gəlin, qapını bağlayın!

Həyətə düşüb, dayanacağa tərəf buruldu. Dayanacağa yetişmək üçün hündür şam ağaclarının əhatəsində olan dar asfalt yolla bir



downloaded from KitabYurdu.az

qədər getməli idi. Dar yolda «Qaz - 31» markalı bir maşın, arxası ona tərəf dayanmışdı. Maşının sağ tərəfindən keçəndə arxa qapı açıldı və Əlikram düz qarşısında peyda oldu.

- Salam, Nuranə! - bayquş gözlərinə oxşayan balaca gözlərində xoşagəlməz məna var idi.

- Nədir? Nə istəyirsən? - Nuranə bir anlıq dayandı. Ancaq bu adamdan qətiyyən yaxşı söhbət gözləmirdi.

- Keç otur maşında, səninlə söhbətim var! - O, arxa qapını əli ilə açıq saxlamışdı.

- Mən tələsirəm! Səninlə söhbət etməyə vaxtım yoxdur!

- Beş dəqiqə! - Əlikram sağ əlinin beş barmağını göstərdi. - Beşcə dəqiqə söhbətim var səninlə.

İndi bəlkə də çox içməmişdi. Lakin neçə illərin sərxoşluğunun təsirindən başı əsirdi. Pal-paltarı yenə əzik-üzük, səliqəsiz idi. Ancaq üzünü qırxmışdı. Nuranənin sifətinə elə diqqətlə baxırdı ki, qadın bu baxışlardan ehtiyatlandı və oradan uzaqlaşmaq istədi:

- Dedim ki, tələsirəm!

Əlikram cəld burulub onun sağına keçdi. İndi Nuranənin qarşısını açılmış qapı, sağ tərəfini isə Əlikram kəsmişdi. O bu dəfə bir barmağını qaldırıb Nuranənin qarşısında tutdu:

- Bircə dəqiqə vaxtını alacam!

- Əlikram, çəkil yolumdan!

Nuranə ətrafa boylandı. Nə qabaqdan gələn var idi, nə də arxadan. Maşında, hələ deyəsən, başqa adam da var idi. Birdən-birə üşürgələndi. Burulub üçtərəfli mühasirədən çıxmaq istədi.



downloaded from KitabYurdu.az

Birdən açıq qapıdan sol böyrünə bir tapança dirəndi. Sükanın arxasında oturmuş hündürboy, əyriburun, kobud bir kişi, özü kimi kobud səsilə dilləndi:

- Otur maşına! Səsini çıxarsan meyitini sərərəm yerə!

Özünə gəlməmiş, Əlikram onu bərk itələdi və bir də ayıldı ki,

maşının içindədir. Keçmiş əri cəld sağ tərəfində oturub qapını çırpdı. Maşın o saat yerindən götürüldü. Əlikram Nuranənin çantasını alıb qabaqdakı oturacağın üstünə atdı.

Sükanın arxasındakı kişi snayper Mürsəl idi. Diqqətinin bir hissəsi yolda olsa da, daha çox, güzgüdə Nuranənin əksinə tamaşa edirdi. Maşın isə şəhərin küçələri ilə sürətlə irəliləyirdi.

- Məni hara aparırsan? - Nuranə keçmiş ərindən soruşdu.

- Bilərsən! - Əlikramın yekə hülqumu uzun boğazı boyunca qalxıb endi. Balaca gözləri işıldadı.

Onun şalvarının sol cibində tapança var idi. Tapançanın dəstəyi

sürüşüb çölə çıxmışdı. Nuranə heç nə anlaya bilmirdi. Axı ondan nə istəyirlər?

- Deyirəm, məni haraya aparırsınız? - deyə daha ucadan soruşdu. Elə bil qızlıq vaxtındakı cəsarəti yenə özünə qayıtmışdı.

- Sənə dedilər ki, bilərsən! - bu dəfə Mürsəl cavab verdi.

- Saxlayın maşını!

- Bağışla, gözəl xanım, biz sənə tabe deyilik! - Mürsəl güzgüdən ona baxıb güldü. Əyri dişləri onsuz da eybəcər olan sifətini bir az da eybəcərləşdirdi.



downloaded from KitabYurdu.az

Maşın şəhərdən çıxmaq üzrə idi. İşıqforlarda da qırmızı işığa rast gəlmirdilər ki, yazıq qadın düşüb qaçaydı. Ancaq iki dəfə də qırmızı işığa məhəl qoymamışdı Mürsəl. Bu tərəfdən də Əlikram Nuranənin qolundan tutmuşdu. Nuranə bu təmasdan açıq-aydın çimçişirdi. Axır ki, hirslə qolunu dartıb onun əlindən çıxartdı.

- Əlini çək, alçaq! - dedi.

Əlikram əlini çəkdi. Nuranənin gözü onun cibindəki tapançada qalmışdı. İndi tapançanın yarısı çöldə idi. «Görəsən, bunu cəld götürə bilərəmmi? - deyə düşündü. - Bu alçaqlardan nə desən, gözləmək olar. Allah bilir, məni hara aparırlar! Başıma hər oyun açacaqlar. Yox! Götürəcəm!

Həyəcanlanmağa başladı. Gözaltı maşındakıları süzdü. Əlikram daha ona baxmırdı. Sürücünün də güzgüdəki murdar baxışları çəkilib getdi. Nuranə cəsarətini toplayıb əlini tapançaya atdı və onu asanlıqla əlinə keçirtdi. Bir az sola çəkilib həyəcandan və qorxudan doğan çılğınlıqla ucadan əmr etdi:

- Saxlayın maşını, yoxsa vuracam!

Mürsəl arxaya baxmadan qəhqəhə çəkib gülməyə başladı:

- Sənin nə hikkəli arvadın var imiş ə? Bununla necə dolanmısan, ay bədbəxt?! Canavar imiş bu, canavar!

- Dedim, saxlayın! Vallah, vuracam!

Nuranə hirsindən, hikkəsindən əsim-əsim əsirdi. Nə vaxtsa adam öldürməyi, cinayət törətməyi ağlına belə gətirməyən gənc qadın əlindəki tapançanı bərk-bərk sıxıb qarşısındakı adamlara baxırdı. O qorxurdu. Çox möhkəm qorxurdu. Bəlkə elə buna görə də, özünü müdafiə etməyə məcbur idi. Namusunu, şərəfini əldən vermək istəmirdi. O, ustalıqla qurulmuş çirkin plandan xəbərdar deyildi və düşünürdü ki, onu harasa aparıb bir qadın kimi, bədənindən istifadə edəndən sonra buraxacaqlar. Elə bu özü onu dəhşətə gətirirdi və düşünürdü ki, bununla gözlə görünən



downloaded from KitabYurdu.az

bir şey itirməsə də, əslində hər şeyini itirəcəkdi. O, daha əvvəlki Nuranə olmayacaqdı və deməli,

Nuranənin özünü itirəcəkdi. Turalın, Nurayın üzlərinə ömrü boyu baxa bilməyəcəkdi, deməli, onları da itirəcəkdi. Hər gün iki dəfə getdiyi mənzilə ayaq basmağa üzü olmayacaqdı, deməli, bacılarından, qohum-qardaşından, nə bilim, bütün nəslindən çox istədiyi o gözəl insanı itirəcəkdi... Daha nə qalırdı ki, bu dünyada? Heç nə! Daha yaşamağın nə mənası olurdu? Heç bir mənası! Odur ki, özünü də olsa, vuracaqdı!

- Özümü vuracam! Saxlayın maşını!

- Onun gülləsi yoxdur, əzizim! Qoy onu yerinə! - Mürsəl bir də qəhqəhə çəkdi.

Nuranə tapançanı maşının döşəməsinə çevirib tətiyi çəkdi. Onda doğrudan da güllə yox idi. Yalnız çaqqıltı eşidildi.

- Al onu əlindən! - Mürsəl Əlikrama əmr verdi.

Əlikram əlini tapançaya uzatdı.

- Dəsmalla! Sarsaq oğlu sarsaq!

Əlikram cibindən dəsmal çıxarıb onunla tapançanı tutdu və asanlıqla Nuranənin boşalmış əlindən aldı.

Nuranə heç nə anlamadı. Ondan nə istəyirlər axı? Əlikram tapançanı niyə dəsmala bükdü? Yox, burada nəsə başqa məqsəd var... Nuranənin ürəyi az qalırdı ki, sinəsindən çıxsın. Artıq maşından xilas olmağa ümidi qalmamışdı. Bilirdi ki, bu mümkün deyil.

Maşın şəhərdən çıxmışdı. Bakı kəndlərinə tərəf şütüyürdü. Lap qabaqda, yolun qırağında iki nəfər yol polisi əməkdaşının dayandığını görən qadının ürəyində zəifdə olsa, ümid qığılcımları közərdi. «Kaş saxlayaydılar! - deyə düşündü. - Saxlasalar, qışqırıb çıxacam maşından».



downloaded from KitabYurdu.az

Ancaq közərmiş ümid qığılcımları elə həmin anda da sönüb getdi. Yol polisi işçiləri əllərini qaldırıb Mürsələ salam verdilər və maşın sürətini azaltmadan onları arxada qoydu.

Əlikram Nuranənin qısa yubkadan çıxan gözəl ayaqlarına baxıb udqunurdu. Axır ki, ürəyinə gələni deməkdən özünü saxlaya bilmədi:

- O evə gedib-gələndən sonra özünə yaman baxırsan ha!.. Əməlli-başlı ətə-cana gəlmisən....

Nuranə ona nifrətlə baxdısa da, bir söz demədi. Əvəzində, Mürsəl geri qanrılıb Əlikrama söz atdı:

- Deyəsən, ağzının suyu axır ha?! Ancaq yadında saxla ki, sən onu boşamısan, daha ona naməhrəm sayılırsan. İndi o mənimdir!

- Sən öləsən! - Nuranə Əlikramın pərt olsa da, dillənmədiyini görüb, Mürsəlin cavabını özü verdi. - Sən hardan oldun məhrəm?

- Mənim maşınıma minənlər hamısı mənə məhrəm olur!

Nuranə bu həyasız kişi ilə höcətləşməyi özünə rəva bilməyib susdu. Onun ürəyi quş kimi çırpınmağa başlamışdı. Ona elə gəldi ki, ürəyinin səsini aydınca eşidir. Bu adamların məqsədinin nə olduğunu fikirləşirdisə də, bir yana çıxa bilmirdi.

Axır ki, üzücü yol qurtardı və maşın gəlib hündür hasarlı bir bağın darvazası önündə dayandı. Mürsəl uzun siqnal verdi. Yəqin ki, bağın gözətçisi olan, üz-gözünü tük basmış kişi darvazanı açdı və maşın içəri girdi. Həyətdə ikimərtəbəli bir ev var idi. Çox geniş olan həyət hər tərəfdən hündür daş hasarla örtülmüşdü.

Maşından düşdülər. Əlikram maşından bir dolu zənbil götürüb evə apardı və tez də qayıtdı. Nuranə maşının yanında dayanıb ürkək nəzərlərlə ətrafına boylandı. Deyəsən, başa düşürdü ki, buradan qaçmaq mümkün olmayacaq.



downloaded from KitabYurdu.az

Mürsəl Nuranənin çantasından bir açar götürüb Əlikrama verdi. Onun bu hərəkətini Nuranə görmədi.

- Hə!.. Sənə yaxşı yol! - Mürsəl göstəriş verdi. - Axşama kimi gözləyirəm. Əlcək maşındadır. Onsuz silaha əl vurma. Gülləleri elə burada doldur!

Əlikram maşından əlcəyi götürərək əlinə geydi. Sonra güllə darağını tapançaya keçirdi. Silahı yenidən cibinə qoyub, əlcəyi soyundu və onu maşına tullayaraq Mürsələ yaxınlaşdı. Mürsəlin Nuranəyə necə iştahayla baxması gözündən yayınmadı. Nuranə gözündə sanki bir az da gözəlləşdi. Ondan ayrılmağına peşmançılıq keçirtdi. Bir də ki, onun nə günahı var, Nuranə özü boşanmışdı. Lənət şeytana! Daha gecdir! Mürsəllə pisləşmək olmaz. Adamın boğazını toyuq boğazı kimi üzər! Həm də ki, onun çörəyini də Mürsəl verirdi axı?!

- Nədir, niyə getmirsən? - «Snayper» rişxəndlə soruşdu. - Yoxsa keçmiş arvadını qısqanırsan?

- O nə sözdü, qədeş? Sən mənim böyük qardaşımsan! - Əlikram yaltaqcasına qımışdı. - Uzağı, saat 10-da burdayam.

- Yox, sən belə et! - Nuranəni şorgözlüklə süzən Mürsəl dilləndi. - İşini qurtaran kimi mənə zəng vur. Bura isə gəlmə. Sabah saat 9-da gözləyəcəm səni!

Əlikram:

- Baş üstə! - deyib maşına yaxınlaşdı.

Nuranə irəli atılıb onun qabağını kəsdi:

- Məni burada qoyub getmə, Əlikram!

Əlikram bir az aralanmış Mürsəlin ardınca baxıb dedi:

- Çəkil, görüm...

- Mən sənin uşaqlarının anasıyam axı, çıxart məni burdan!



downloaded from KitabYurdu.az

- İndi nə yaxşı, mənim uşaqlarım oldu, heç istəyəndə vermirdin saxlamağa?

Nuranə ətrafa boylandı. Mürsəl evə girmişdi. Gözətçi isə darvazanı açıb maşının çıxmağını gözləyirdi. Çarəsiz qadın əlinə düşən son imkandan istifadə etmək istədi:

- Yalvarıram sənə, Əlikram, apar məni burdan, uşaqların hansını istəsən verəcəm sənə!

Əlikram əvvəlcə oğrun-oğrun, evə, sonra isə qabağında dayanıb ona yalvaran gözəl qadına baxdı. O gözəl qadına ki, axtilə arvadı olmuşdu... Çıxıb qaçmağa imkan var idi. Buradakı yeganə maşının açarları Əlikramın əlində idi. Hələ üstəlik də, cibində dolu tapança! Ancaq sonra Mürsəl onu tapıb başına elə oyun açardı ki...

Nuranə hiss etdi ki, Əlikramı yola gətirmək mümkündür. Axı necə olmasa, bu adam on ilə yaxın onun əri olmuşdur?! Bir yastığa baş qoyub, bir süfrədən çörək yemişdilər... Uşaqları var idi... Əlini uzadıb onun qolundan yapışdı.

- Sənə qurban olum, Əlikram, ömrümün axırına qədər qulluqçun olaram. Qaçaq burdan!

Əlikram bir də evə baxdı və Nuranəni itələdi:

- Rədd ol görüm, məni zibilə salma!

Nuranə bu dəfə onun yaxasından yapışdı:

- Məni yad kişiyə təhvil verib hara gedirsən?

Əlikram:

- Qanbaydan pisdir? - dedi və həmin anda da Nuranə onun sifətinə bir şillə çəkdi:

- Cındır!



downloaded from KitabYurdu.az

Bu Nurananin, həyatı boyu, Əlikrama vurduğu ikinci şillə idi. Bu söz ona həyatı boyu dediyi ikinci pis söz idi. Tanış olduqları gün, on il bundan əvvəl bulvarda və indi! Evli olduqları müddətdə bir dəfə də onun üzünə qayıdıb ağır söz deməmişdi. Ərinin kişiliyini, şəstini gözləmişdi həmişə. Əri onu söysə də, döysə də, təhqir etsə də! «Ərimdir!» deyib dözmüşdü.

Əlikram əli ilə üzünü tutub bir qədər beləcə qaldı. Sonra maşına oturub hirslə qapını çırpdı. Onu işə salıb sürətlə həyətdən çıxdı.

Nuranə maşının dalınca həyətdən çıxmaq istəyəndə, gözətçi darvazanı bağladı və əli ilə evi göstərdi:

- Get evə!

Vəziyyətini bütün çılpaqlığı ilə indi başa düşən Nuranə dizi üstə yerə çöküb ağlamağa başladı...

XXIII Fəsil

«Sən öləcəksən, polkovnik!»

Əlikram on il əwəl Nuranə ilə evlənəndən sonra, Bakıda dolanmaq üçün iş tapmayıb öz rayonlarından olan gənclərə qoşuldu və ticarətlə məşğul olmaq üçün Rusiyaya getdi. Bir ilə yaxın mehriban yoldaşlıq etdilər. Ancaq Əlikram, imkan düşdükcə, haqq-hesabda yoldaşlarını aldadırdı və qəribəsi də bu idi ki, bu əməlini günah hesab etmirdi. Onda, artıq belə bir səhv əqidə formalaşırdı ki, yaşadığı bu dünya alıb-aldatdı dünyasıdır və kim aldatmağı bacarmasa, onun özünü aldadacaqlar. Onun arzuları var idi ki, bu arzuları həyata keçirmək üçün çalışırdı. Bakıda ev almaq, yaxşı iş tapmaq, varlanmaq istəyirdi. Varlı adamlara paxıllıq edirdi və ona elə gəlirdi ki, bütün varlı adamlar öz var-dovlətlərini kimlərisə aldatmaqla, fırıldaqla qazanıblar. Beləliklə, Əlikram Moskvada alver edir, aldatmağın daha incə üsulları barədə təsəvvürünü genişləndirirdi.



downloaded from KitabYurdu.az

Lakin yoldaşları ona biliyini bu sahədə axıra qədər təkmilləşdirməyə imkan vermədilər. Tez duyuq düşdülər və üzünə tüpürüb, öz aralarından qovdular.

Əlbəttə, bütün bunlardan Nuranənin xəbəri yox idi. Hamilə qadın

ərinin arabir göndərdiyi pulla birtəhər dolanıb, onun yolunu gözləyirdi. Onun da arzuları var idi və bu arzuları hamısı Əlikramla bağlı, yerinə yetirilməsi isə Əlikramdan asılı idi.

Əlikram yoldaşları tərəfindən biabırçılıqla qovulduqdan sonra bir az sınmışdı. Necə deyərlər, başı daşa dəymişdi. Ancaq bu hadisənin ona müsbət bir təsiri də olmamışdı. Özü, az da olsa, öz gözündən düşmüş, qərara gəlmişdi ki, tüpürcəklə ona bir şey olmamışdısa, başqa şeylə də heç nə olmayacaq. Düşünürdü ki, çalışıb çoxlu pul qazanmalı və üzünə tüpürmüş həmin yoldaşlarından üstün olmalıdır.

Həmin vaxtlar başqa bir tanışına rast gəldi və onun vasitəsilə gedib Sibirə çıxdı. Novosibirskdən altı-yeddi saatlıq məsafədə olan kiçik şəhərdə Elman adlı gənc bir azərbaycanlı ilə tanış oldu. Elman böyük bir firmanın sahibi və şəhərdə yaşayan azəri türklərinin başçısı idi. O, Azərbaycandan gəlmiş başqaları kimi Əlikramı da hörmətlə qarşıladı.

Ona əvvəlcə xırda-xuruş işlər tapşırdı. Ancaq tezliklə zirəkliyini görüb və ilanı yuvasından çıxara bilən şirin dilinə aldanıb daha böyük işlər etibar etməyə başladı. Bir neçə mağazaya nəzarəti ona həvalə etdi. Onun bu hərəkəti öz yanında işləyən hüquqşünas qardaşı Telmana xoş gəlmədi. Əlikram barədə ilk mənfi rəyi də o söylədi:

- Buna çox da etibar eləmə! Şəxsiyyətsiz adama oxşayır.

Elman qardaşı ilə razılaşmadı:

- Dilli-dilavərdir. Zirəkdir. Bizə belə adamlar lazımdır.

Telman daha dinmədi və bu söhbətlər də elə oradaca qaldı.



downloaded from KitabYurdu.az

Qardaşlar arasında böyük-kiçiklik pərdəsi var idi. Elmanın hər bir sözü Telman üçün də, ondan kiçik qardaşı, xasiyyətcə çox dəlisov olan Nazim üçün də qanun idi.

Elman Əlikramın bütün arzularını yerinə yetirirdi. Hətta onun evsiz olduğunu bilib, Bakıya - ailəsini görməyə gedəndə ev almağa pul da verdi.

- Get, hələlik, özünə ev al, pulu sonra yavaş-yavaş qaytararsan!

- dedi.

Yaşadıqları şəhərdə isə onun üçün yaxşı ev tutdu, maşın və sürücü verdi. Bir sözlə, onu özünə «Sağ əl» elədi. Bir məclisini onsuz ötürmürdü.

Əlikram isə «İnsanlara etibar yoxdur!» deyərək, Elmandan yeyir, Elmandan dolanır, qazandıqlarını və hətta qazanmadıqlarını gizlicə yığırdı. O, Elmanın həyatına, dolanışığına, hörmətinə yana-yana göz qoyur və nə vaxtsa, Bakıda özünə belə bir güzəran qazanacağını düşünürdü.

Elmanın həddindən artıq sakitliyi, təmkinliliyi, hətta Əlikramın nəzərində «sadəlövhlüyü» onu arxayınlaşdırmışdı və o, bacardığı qədər çapıb talayırdı. Telmanla Nazim ondan şübhələnir, bu barədə böyük qardaşlarını xəbərdar edirdilərsə də, Elman susurdu. O, Əlikrama özü qədər inanırdı və bu barədə artıq heç nə eşitmək istəmirdi.

Beləliklə, Əlikram beş ildən çox Elmanın yanında işlədi. Bütün bu müddət ərzində, ürəyində gizlətdiyi xain arzuları yerinə yetirməyə məqam gözləyirdi və nəhayət, belə bir məqam gəlib çatdı. Elman zəng vurub onu kabinetinə çağırdı və:

- Barnaula gedə bilərsən? - deyə soruşdu.

- Niyə getmirəm? - Əlikram həmişəki işgüzar görkəmi ilə cavab verdi.



downloaded from KitabYurdu.az

Elman ayağa qalxıb seyfdən bir bağlama Amerika dolları götürdü və onun qarşısına qoydu:

- Otuz mindir... Bunu Barnaulda Viktor adlı bir nəfərə verəcəksən. Bu da onun ünvanı, telefonu. Bizə maşın gətirməlidir.

- Mənim gözüm üstə! - Əlikram yaxınlaşıb pulu götürdü.

- Dayan! - Elman onu saxladı. - Səni Pavel aparacaq, öz maşını ilə. Get evə, bir saatdan sonra gəlib səni götürəcək.

Əlikram evə gəldi. Təzadlı fikirlər beynini doldurmuşdu. Gələcəyi barədə düşünürdü. Yaşadığı evdə Elmandan xırda-xırda oğurladığı iyirmi altı min dollar pulu var idi. O bu pulu beş ilə yığmışdı. İndi isə əlində tutduğu bağlama onu hey qıcıqlandırır, düşünürdü ki, bu qədər pulu qazanmaq üçün yenə beş il vaxt lazımdır. Kim bilir, onu da qazana biləcəkdimi? Bu tərəfdən də Telmanla Nazim ondan həmişə şübhələnir, ona düşmən kimi baxırdılar. Bəlkə də bir azdan əlində bir fakt tutub onu ifşa edəcəkdilər. Hələ, Bakıdakı evin də pulunu gec-tez verməlidir.

Bəlkə nə qədər gec deyil, qaçıb Bakıya getsin? Elman onu Bakı boyda şəhərdə necə tapa bilərdi ki?.. Əlikram Azərbaycanın tamamilə uzaq bir rayonundan idi və indiyə qədər Elman onun yeri-yurdu, əsli- kökü ilə maraqlanmamışdı. Deməli, onu Azərbaycanda tapmaq çətin məsələ idi...

Fikirləşməyə vaxt az idi. Bir azdan Elmanın inanılmış sürücülərindən biri olan Pavel gələcəkdi. Amma nə yaxşı ki, bu gün cümə axşamı idi. Həftədə bir dəfə uçan Novosibirsk-Bakı təyyarəsi bu gün, gecə vaxtı uçurdu. Gecəyə isə hələ bir xeyli vaxt vardı. Hələ gündüz saat on bir idi. Bilet də tapmaq olardı. İlin bu vaxtlarında Bakıya uçan az olurdu.

«Cəhənnəmə ki!» deyib yığışmağa başladı. Vacib xırım-xırda şeylərini və pulunu götürüb, hamısını iri bir çantaya yığdı. Qapını bağlamağı da unudub, mənzildən çıxdı. Küçədə bir taksi saxlayıb, birbaş Novosibirskə



downloaded from KitabYurdu.az

danışdı və təyyarəyə gecikdiyini bildirib, sürücüdən sürətlə sürməyi xahiş etdi.

Bir azdan Pavel Elmanın yanına gəldi. Nazim də bu vaxt kabinetdə idi. Pavel bildirdi ki, Əlikram evdə yoxdur, qapını da açıq qoyub, harasa gedib.

Nazim cəld çıxıb özünü oraya çatdırdı və mənzili axtaranda anladı ki, Əlikram vacib şeylərini götürübsə, deməli, buradan birdəfəlik gedib. Son dərəcə gərgin bir vəziyyətdə qardaşının yanına qayıdıb, hirsini onun üstünə tökdü:

- Mən sənə deyirdim axı, bu tülkü köpəkoğluna inanma! Qaldırıb başımızda otuzdurmuşdun. Bu da nəticəsi!

Elman nəsə duymasına baxmayaraq, sakitcə soruşdu:

- Nə olub axı?

- Nə olacaq?! Əlikram şələ-küləsini yığışdırıb, aradan çıxıb!

Elman başını aşağı dikib ürəyini ovuşdurmağa başladı. Xəyanətin

zərbəsi ona çox bərk dəymişdi. Son beşillik ömrü mənasız və gülünc göründü ona. Bu yandan da, kiçik qardaşından elə utanırdı, elə

utanırdı ki, başını qaldırıb onun üzünə baxa bilmirdi.

- Gedirəm dalınca! - Nazim qətiyyətlə dilləndi.

«BMW» markalı təzə maşını ofisin qarşısında dayanmışdı. Yüksək sürət azarkeşi olan Nazim ümid edirdi ki, maşını möhkəm sürərsə, Əlikramı haqlaya bilər.

- Haraya? - Elman axır ki, başını qaldırdı.

- Novosibirskiyə! Təyyarə axşam uçacaq. Çatmaq olar!

-Yox, dayan görüm...



downloaded from KitabYurdu.az

Elman yenə başını aşağı dikdi: «İnsanı doğrudan da tanımaq olmazmış, sən demə! Bu əclaf oğlu necə aldatmışdı məni, necə inanmışdım ona!»

Nazim çox səbirsiz idi və əgər Elman onu buraxsaydı, bu saat öz maşınında Novosibirskə yollanacaqdı. Ancaq istəmirdi qardaşının oraya getməyini. Bilirdi ki, yenə maşını dəli kimi sürəcək. Yolda bir şey olmasaydı da, Əlikramı tapandan sonra əlindən xəta çıxa bilərdi.

Birdən Jora yadına düşdü. Bamaulda yaşayan bu oğlan Nazimlə canbir dost idilər. Özünün reker dəstəsi var idi və hər yana əli çatırdı. Buna baxmayaraq, çox mərifətli, yerbilən bir cavan idi. Elmanı özünə böyük qardaş hesab edirdi, hörmətini saxlayırdı.

Qəti qərara gəlib cib telefonunu çıxartdı.

- Salam, Jora!

- Salam, Elman, mənə görə qulluğun?!

- Bir nəfər pullarımı götürüb qaçmaq istəyir. Adı Əlikramdır. Çox güman ki, bu axşam Novosibirsk-Bakı reysilə uçmağa çalışacaq...

- Narahat olma, Elman! - Jora tam arxayın dilləndi. - Pullarını sabah özünə çatdıraram.

- Sağ ol, Jora!

Artıq danışmağa heç bir həvəsi yox idi. Ümumiyyətlə, indi heç kimlə, heç nə barədə danışmaq istəmirdi. Nazim də, deyəsən, bunu başa düşmüşdü və sakitcə kabinetdən çıxıb, qapını örtdü.

...Novosibirsk-Bakı reysilə uçan sərnişinlərin qeydiyyatı başlanmışdı. Bir saat qabaq bilet alıb cibinə qoymuş Əlikramın həyəcandan ürəyi çırpınırdı. Gözləmə zalında oturub dəqiqələri sayırdı: «Bircə Bakıya çatsaydım... Heç kəs məni orada tapa bilməz! Yaxşı ki, evimin ünvanını Elmana deməmişəm».



downloaded from KitabYurdu.az

Bakıya çatan kimi, birinci növbədə Nuranəyə, uşaqlara bahalı hədiyyələr alacaqdı. Sonra isə, yaxşı bir kafe açmaq fikri var idi. Beləliklə, pullar cibinə durmadan axacaq, həmişəlik təmin olunacaqdı.

Birdən fikirləşdi ki, burada oturmaqdansa, durub qeydiyyatdan keçsə yaxşıdır. Ayağa qalxanda daha da həyəcanlanmağa başladı.

Çünki pulları bildirmək fikri yox idi. Bildirsəydi bu qədər pulu keçirməyə icazə verməyəcəkdilər. Üstəlik, pulların hardan alınması barədə sənədi də yox idi.

Özünü ələ alıb, birinci yoxlanış stoluna yaxınlaşdı. Baqaja verməli yükü yox idi. Təkcə çantası idi ki, onu da əlində götürmüşdü. Təyyarə bileti ilə pasportunu cavan rus qızına uzatdı. Qız pasporta baxıb, onun adını oxuyan kimi rus dilində:

- Əlikram, siz əvvəlcə o oğlana yaxınlaşın! - dedi və bir qədər kənarda dayanmış gənci göstərdi.

Heç nə başa düşməyən Əlikram pasportla bileti qızdan alıb həmin gəncə yaxınlaşdı. Dağıstan tərəfin adamlarına oxşayan bu cavan oğlan Nazimin dostu Jora idi...

- Əlikram sizsiniz? - deyə o, Əlikramı qabaqlayıb soruşdu.

Bu adam Joraya tanış gəlirdi. Deyəsən, Elmanın təşkil etdiyi

məclislərin birində onu görmüşdü.

- Bəli, mənəm... - Əlikram udqundu.

- Məni tanıdın? - Jora mehribanlıqla soruşdu. Ancaq çox iti gözləri var idi və buna görə də baxışları Əlikramın bütün vücudunu titrədirdi.

- Tanış gəlirsiniz... - deyə narahatlıqla cavab verdi.

- Bir dəqiqə mənimlə həyətə çıxaq!



downloaded from KitabYurdu.az

-Axı... - Əlikram dönüb qeydiyyat stoluna baxdı.

Cavan rus qız öz işində idi. Sərnişinlərin sənədlərini yoxlayırdı. Əlikram tərəfə heç baxmırdı da.

Bu vaxt iki nəfər uca boylu, pəhləvan cüssəli kişi onlara yaxınlaşdı və Əlikram özündən asılı olmayaraq, onlarla birlikdə çölə çıxdı.

- Başqa yükün var? - Jora soruşdu.

-Yox-

Qapının ağzında iki dənə «Jeep» markalı maşın dayanmışdı. Maşınların yanında bir neçə adam var idi. Ancaq Əlikramın gözünə indi hər şey dumanlı görünürdü. Maşınların birinə nə vaxt mindiyindən xəbəri olmadı. Maşınlar onun qaçıb gəldiyi şəhərə tərəf yola düşdülər. Heç kəs danışmırdı.

Novosibirskdən xeyli uzaqlaşandan sonra sıx şam meşəsi ilə əhatə olunmuş yolun kənarında dayandılar. Hər yan zülmət qaranlıq idi. Maşınlar burulub yoldan çıxdılar və faraların işığını meşəyə saldılar. Hamısı maşından düşdü. Əlikramın qorxudan bağrı çatlayırdı. Xüsusilə də onu əhatə edənlərdən ikisi gözünə lap dəhşətli görünürdü.

Əlikramın başı onların sinəsinə güclə çatardı.

Gözü birinin çiynindən sallanmış avtomata sataşdı. «Öldürəcəklər!» deyə düşündü. Daha başqa heç nə düşünə bilmirdi. Nuranəni, uşaqlarını xatırlamaq istədi. Ancaq hiss etdi ki, bu saat heç nə, heç kim gözündə deyil. Təki öldürməyəydilər onu...

Çantanı Joranın qabağına gətirdilər. Pulları çıxarıb başçılarına verdilər. Jora bağlamanı əlində tutub qorxudan tir-tir titrəyən Əlikramı nifrətlə süzdü:

- Elmanın nə qədər pulu var burda?



downloaded from KitabYurdu.az

- Otuz min... - Əlikramın danışığını başa düşmək olmurdu. Dili boğazına qədər qurumuşdu.

- Bəs qalanı?

- Qalanı özümündür...

- Yox, daha sənin heç nəyin yoxdur! Heç nəyin!

Jora bunu çox sakit dedi. Elə sakit dedi ki, sanki əhəmiyyətsiz bir şeydən danışırdı. Ancaq nə qədər sakit deyilsə də, bu sözlər Əlikram üçün qəti bir hökm kimi səsləndi və o başa düşdü ki, öz pullarını geri istəməyə ixtiyarı yoxdur. O, indi ancaq quruca canının hayına qalmalıydı. Yaşamağın nə qədər şirin olduğunu indi başa düşmüşdü. Həyatla ölümün sərhədində dayandığı bir vaxtda!

O, yaşamaq istəyirdi. Qoy lap onun hər şeyini əlindən alsınlar, qoy onu söysünlər, üzünə tüpürsünlər, ancaq öldürməsinlər, döyməsinlər. Dili ilə qurumuş dodaqlarını yalayıb Joranın qabağında dizləri üstə çökdü:

- Qoy hamısı sizin olsun! Ancaq yalvarıram, məni buraxın!

Jora tüpürüb ondan uzaqlaşdı və maşınların yanına getdi. Həmin iki yekəpər Əlikramın qollarından tutub qaldırdılar və faraların gur işığından kənara çəkdilər.

Əlikram onların nə edəcəyini bilmirdi. Sanki keyləşmişdi. Eşitdiyi ağır söyüş yeddi qatından keçib onu ayıltdı. Ona görə yox ki, təhqir olunmuşdu, ona görə ki, belə bir söyüşün dalınca fiziki işgəncə gəlməliydi.

Elə birinci zərbə onu yerə sərdi. Dəhşətli ağrı hiss eləsə də səsi çıxmadı. Dişlərinin bir neçəsi sınmış, ağzı qanla dolmuşdu. Bədəninə dəymiş güclü təpiklərdən qorunmağa cəhd də göstərmirdi. Ayağa qalxmağa nə gücü, nə də həvəsi qalmışdı. Bu saat onun ən böyük arzusu yox olmaq idi. Kaş əriyib yox ola biləydi bu təpiklərin altından. Xilas olaydı bu zərbələrdən,



downloaded from KitabYurdu.az

bu ağrılardan. Bayaqdan yaşamaqdan başqa heç nə istəməyən Əlikram indi ölmək istəyirdi. Ölsəydi, daha vurmayacaqdılar onu, daha ağrı hiss etməyəcəkdi...

Ancaq onu qaldırdılar. Yenidən vurub yerə sərmək üçün... Yenə təpiklədilər onun gərəksiz vücudunu. Yorulana qədər... Nəhayət yorulub, çəkildilər və Əlikramı oradaca tullayıb getdilər.

Əlikram qaranlıq meşənin kənarında tək qaldı. Bədənindəki ağrılar getdikcə şiddətlənməyə başlayırdı. Ayağa qalxmaq istəsə də alınmadı. Birdən bütün içini dolduran qəhər qalxıb boğazına tıxandı və uşaq kimi hönkürüb ağlamağa başladı.

Onda Əlikram ikinci dəfə və həmişəlik sındı. Özü də qəti əmin oldu ki, o bir heçdir, ayaq altına sərilən əsgi parçasıdır. Onu da başa düşdü ki, indi hamıya nifrət edir. Başa düşdü ki, imkanı olsa, düşünmədən adam öldürə bilər. Bax, onu bura gətirənlərin birinin çiynindən sallanmış o avtomat onda olsaydı, hamısını qırardı onların. «Uf» da deməzdi.

Bir də səhəri günü özünə gəlib, meşədən çıxdı. Yolun kənarı ilə bir qədər məqsədsiz addımlayıb, kiçik bir kababxanaya rast gəldi. Orada ona qabaqdan qalan yeməklərdən verdilər. Bir-iki həftə beləcə başını girlədi. Ona hərdən iş də tapşırırdılar. Arvad işi də görürdü, kişi işi də. Qazancı isə yenə də qabaqdan qalan yeməklər və sür-sümük olurdu.

Nəhayət, başa düşdü ki, bu cür yaşaya bilməyəcək. Bakıya

qayıtmaq istədi. Nuranə üçün, uşaqlar üçün bumunun ucu göynəyirdi. Ancaq Bakıya qayıtmağa pul lazım idi ki, o da yox idi.

Çox fikirləşəndən sonra avtobusa minib beş il yaşadığı həmin şəhərə getdi. Birbaş ofisə girib Elmanın ayaqlarına düşdü və yalvardı ki, Bakıya qayıtmağa kömək etsin. Elman bir qədər düşünüb:

- Sabah yanıma gəl! - dedi.



downloaded from KitabYurdu.az

Səhər bir də Elmanın kabinetinə gələndə Nazim də orada idi. Qanlı nəzərlərlə onu süzürdü. Ancaq qəribədir ki, Elman Əlikramın üzünə baxa bilmirdi. Sanki xəyanəti qarşısındakı adam yox, özü eləmişdi. Stolun siyirməsindən bir təyyarə bileti çıxarıb Nazimə uzatdı:

- Apar bunu yola sal getsin! Bu da təyyarədən düşəndən sonra evinə qədər taksi pulu... - sonra sonuncu dəfə üzünü Əlikrama tutdu: - Bir də buralarda görünmə!

Vəssalam! Əlikram birdəfəlik Bakıya qayıtdı. Bunun səbəbini Nuranəyə başqa cür izah etdi: «Alverdə əlim gətirmədi» - dedi. Gah fəhləlik elədi, gah hamballıq. Sonra da heç işləmək istəməyib, ruh düşkünlüyünə qapıldı. Evdəkilərə zülm eləyirdi, xüsusən də Nuranə yazığa. İşləyib evi saxlamamağı bəs deyildi, hələ gecələr də bunun nazı ilə oynamalı idi. Axır ki, Əlikramın əziyyətinə, təhqirlərinə dözmədi və ayrıldılar.

Ayrılandan sonra, Əlikram, bir müddət yarıac, yarıtox yaşadı. İş axtardısa da, münasib bir iş tapa bilmədi. Nəhayət, snayper Mürsələ rast gəldi və bu adam onu işlədiyi supermarketə fəhləliyə götürdü.

Lakin Mürsəl tezliklə başa düşdü ki, Əlikramdan hər işdə istifadə etmək olar. Tək yaşayırdı. Ailə məsuliyyəti yox idi. Son vaxtlar aclığın nə olduğunu görmüşdü. Kişiliyi, mənliyi də Mürsələ sərf edən dərəcədə idi. Yəni ki, yox idi. Hər söyüşü qəbul edirdi. Təki onu işdən qovmayaydılar. Mürsəldən də yırtıcı heyvandan qorxduğu kimi qorxurdu.

Mürsəldən, əslində, təkcə o yox, işçilərin hamısı çəkinirdi. Bilirdilər ki, kəsdiyi başın sorğu-sualı yoxdur. Ərköyünlük edəni ölümlə hədələyirdi. Tapançasının həmişə üstündə olduğunu da işçilər hamısı bilirdi. Onu da bilirdilər ki, Mürsəl çox sərrast atıcıdır. Necə deyərlər, göydə quşu gözündən vuranlardandır.

Əlikram Mürsələ hər cür yaltaqlanmağa, onun hər bir işinə yaramağa çalışırdı. Bunu heç pis hərəkət də saymırdı. Çünki xarakteri belə idi.



downloaded from KitabYurdu.az

Mürsəl onunla çox danışanda, özünü xoşbəxt sayır, Mürsəllə guya dost olmağı ilə fəxr edirdi. Ancaq hərdən özünün heçliyini də dərk edirdi və bunu dərk etdikcə, hər şeyini ayaq altına atmağa hazır olurdu.

Elə indi, vaxtilə bir yastığa baş qoyduğu, uşaqlarının anası Nuranəni qadın düşkünü olan Mürsəlin yanında qoyub gedən Əlikram heç də Mürsələ arxayın deyildi. Daha doğrusu arxayın idi. Arxayın idi ki, Mürsəl Nuranəni sakit buraxmayacaq. Mürsəlin Nuranə kimi mütənasib bədənli, normal arıq qadınlardan xoşu gəldiyini də bilirdi. Onun belə qadınlar haqqında iştahayla dediyi ədəbsiz sözləri xatırlayır, bundan qəribə hisslər keçirirdi. Bu mənəvi köləliyin yaratdığı hisslər idi. Əlikram hərtərəfli Mürsələ tabe idi və onun Mürsəlin hərəkətlərini müzakirə etməyə haqqı yox idi.

Əlikram bu saat şəhərə Mürsəlin soyuqqanlılıqla verdiyi bir tapşırığı yerinə yetirməyə gedirdi. Ünvanı göstərilmiş doqquzmərtəbəli binanın 23-cü mənzilində tək yaşayan adam öldürülməli idi. Əlikram bilirdi ki, həmin adam istefada olan polis polkovniki Qanbay Qasımlıdır. Onu da bilirdi ki, Nuranə onun evində qulluqçuluq edir...

Əlikrama tapşırılmış iş, alçaqcasına düşünülmüş planın ikinci hissəsi idi. Birinci, artıq başa çatmış hissə Nuranəni qaçırıb, onun əl izlərini tapançada qoymaq, üçüncü hissə isə Nuranənin dənizdə boğulmasını «təşkil etmək» idi. Beləliklə, cinayəti araşdıran əməliyyat işçiləri qəti qərara gələcəkdilər ki, Nuranə Qanbay Qasımlını mənzilində öldürüb, sonra isə özünü dənizə atıb.

Uşaqlar da, onların yaşadıqları mənzil də Əlikrama qalacaqdı.

Əslində, Əlikram Nuranənin öldürülməsinə o qədər də razı deyildi. Ancaq o bu narazılığını yalnız ürəyində saxlaya bilərdi.

Əlikram başa düşürdü ki, bu plan Mürsəlin özününkü deyil. O da başqa bir adamın əmrini yerinə yetirir. Əlikram onu da hiss edirdi ki, özü



downloaded from KitabYurdu.az

Mürsəldən nə qədər qorxursa, Mürsəl də həmin adamdan o qədər qorxur, çəkinir.

Əlikram Nemətin mənzilində heç olmamışdı. İndi getdiyi ünvanı da ona Mürsəl vermişdi. Sən demə, onun adamları Nuranəni izləyib, ünvanı öyrənmiş, onun qapını öz açarı ilə açdığını da görmüşdülər.

İndi həmin açar Əlikramda idi və o, çətinlik çəkmədən, səssizcə qapını açıb mənzilə girəcək və ev sahibini vuracaqdı.

Qasımlıdan onun özünün də acığı var idi. Nuranə onun mənzilinə gedib-gəldiyi üçün daha Əlikramı saymır, onun nə özünə, nə də puluna ehtiyac hiss edirdi.

Nuranənin həmin mənzilə hər gün getdiyi vaxtdan keçirdi.

Qasımlı duyuq düşə bilərdi. Odur ki, Əlikram maşının sürətini bir az da artırdı və dişlərini qıcayıb bərkdən dilləndi:

- Sən öləcəksən, polkovnik! Səni, heç tərəddüd etmədən, vuracağam!!!

## XXIV Fəsil

## Şeytanın caynağında

Mürsəl evdən çıxıb, Nuranənin yanına gəldi. Çarəsiz qadının dizləri hələ də qumlu torpağın üstündə idi. Başını yerə dikib, əlləri ilə üzünü tutmuşdu. Həyətin sahibi bir müddət onun başı üstündə dayanıb hamar söyüd budağı kimi gərilmiş bədəninə baxdı. Nuranə başını torpağa qədər əydiyi üçün köynəyi bir qədər yuxarı çəkilmişdi. Yubka ilə köynəyinin arasından alt paltarın bel hissəsi və çox nazik bir zolaq qədər açıq bədən görünürdü. Dalğalanaraq bir hissəsi qumlu torpağa tökülmüş şabalıdı



downloaded from KitabYurdu.az

saçlarından tutmuş, ta yubkanı qabardan, enli arxaya qədər - bütün bunlar birlikdə həqiqi, təbii və əvəzolunmaz bir gözəllik yaratmışdı.

Mürsəlin, inək dalınca düşmüş cavan erkək danalar kimi, ağzının suyu axdı. Sən xoşbəxtliyə bir bax! Bu qadın indi tamamilə onun ixtiyarında idi. Lap qədimlərdə qullar həqiqi sahiblərinə necə məxsus idilərsə, bu qadın da ona o cür məxsus idi. Özü də belə gözəl, təmiz, sağlam, üzü üzlər görməmiş bir gənc qadın!

Düzdür, bu qadın lap axıradək onun hökmündə deyildi. Mürsəlin özünün tabe olduğu həmin qəddar adamın göstərişinə görə Nuranə

bu gecə dənizdə boğulmalı idi. Mürsəl bu qadının qeyri-adi gözəlliyi xatirinə, onun ömrünü ancaq sabah səhərədək uzada bilərdi. Ondan o yana uzatmağa isə cəsarəti çatmazdı. Hər şey qurulmuş plan üzrə getməli idi.

Ancaq lap olsun sabah səhərə kimi! Deməli, hələ də ərə getməmiş qıza oxşayan bu gözəl qadın sabah səhərə kimi onun ixti¬yarında idi. Tamamilə! Mürsəlin fikrincə, ona nələr etmək olmazdı?! Hər şey etmək olardı. Hər şeyi sınaqdan keçirmək olardı onun üzərində! Yox, səhərə qədər yatmaq yoxdur! Belə şans, Allah bilir, bir də nə vaxt ələ düşə bilər... Mürsəl bu bağ həyatinə çox qızlar, qadınlar gətirmişdi. Ancaq onların heç biri, Nuranə kimi, yüz faiz ona məxsus olmamışdı. Yox... Deyəsən, Mürsəl qızışaraq, ona tapşırılan işi unudurdu. Axı bu qadın, guya Qasımlının ölümündən sonra, özünü dənizə atmalıdı. Deməli, onun bədənində çox da ciddi nişanələr qoymaq, yəni didib-dişləyib parçalamaq, caynaqlarını ətinə keçirmək, qolunu-qıçını sındırmaq olmazdı. Təəssüf...

Deməli, bir az mədəni olmağa məcbur idi Mürsəl. Nə olar, çarə nədir, çalışar ki, belə olsun. Ləzzət almalı başqa şeylər də çoxdur. Artıq bir neçəsini beynindən keçirtmişdi. Lüt anadangəlmə soyundurub həyətdə gəzdirəcəkdi, özündən sonra gözətçiyə də təslim

edəcəkdi onu...



downloaded from KitabYurdu.az

Köynəyin aşağısındakı ağ zolağa axırıncı dəfə baxıb hökmlə dilləndi:

- Dur, keç stolun yanına!

Evin ön tərəfində, üstü rəngli keramitlə örtülmüş «besedka» deyilən kölgəlik qurulmuşdu. Kölgəliyin ortasına stol qoyulmuş, stolun ətrafına isə oturacaqlar bərkidilmişdi. Stolun üstündə pomidor-xiyar salatı, çörək və bir şüşə araq var idi.

Nuranə bu hökmlü səsdən səksənib ayağa qalxdı. Mürsəlin qorxunc sifətinə baxa bilmirdi. Bu sifətdə elə iyrənc və məkrli niyyətlər həkk olunmuşdu ki, o niyyətlərin ancaq kiçik bir hissəsini anlayan Nuranənin bədəninə üşütmə düşdü. Verilmiş əmrə sakitcə tabe olub, «besedka»ya tərəf getdi.

Mürsəl stolun üstündəki iri stəkana araq süzüb başına çəkdi və bir topa saçı pərişan halda, gözünün üstünə tökülmüş Nuranəyə baxdı:

- Yemək istəyirsən?

- Yox! - Nuranə başını nifrətlə silkələdi.

- Özün bil! - Mürsəl pomidor dilimini götürüb ağzına atdı.

Nuranə düşdüyü vəziyyəti aydınlaşdırıb dərk etməyə çalışırdı. Bu

murdar xislətli kişi kim idi, görəsən? Bu baxışları ilə yuxusuna girsəydi, dəli olardı Nuranə. Axı onu buraya niyə gətirmişdilər? Bu ayıya oxşayan özü üçün gətirib onu? Əlikram da kömək elədi ona? Deməli, Nuranə bu gecə bu adamı, daha doğrusu, adamı yox, erkək heyvanı əyləndirməli idi... Yerində oynayıb, par-par parıldayan gözlərini doydurmalı idi...

Ürəyi köksündə çırpınan qadın hiss etdi ki, həyatının axır saatlarını yaşayır. Xüsusilə son vaxtlar qəlbən bağlandığı gözəl həyata əlvida deməlidir. Ancaq onu daha çox yandıran o idi ki, ömrü təmiz və sakit bitməyəcəkdi. Bütün varlığı, mənliyi, damarlarında axan qandan da vacib



downloaded from KitabYurdu.az

olan «namus» adlı hissiyyatı tapdalanandan sonra köçəcəkdi bu dünyadan. Əlbəttə, onun aləmində, hələ ki, onu ölümlə hədələyən yox idi. Özü öldürəcəkdi özünü! Öz əlləri ilə... Ancaq bu, yəni həyatdan getmək, daha doğrusu, baş götürüb o dünyaya qaçmaq əvvəlcədən mümkün deyildimi? Deyəsən, yox... Nuranə cəsarətli qadın idi. Ancaq bu saat, birdən-birə, özünü həyatdan məhrum etməyə bir vasitə bilmirdi. Bu ölüm, lap yəqin ki, sonra olacaqdı.

Bütün gecəni, gözünə şeytan surətində görünən bu mənfur adamla keçirəndən, mənəvi cəhətdən məhv olandan sonra. Onda özünü öldürməyə vasitə tapacaqdı Nuranə... Mütləq tapacaqdı!

Ancaq bəs Əlikram, silahla, özü də belə tələsik haraya getdi?

Kimi vurmağa? Nuranə hələlik bir şey başa düşə bilmirdi. Bəlkə bu murdar ayının özündən soruşsun? Hə... Bəlkə deyər. Başını qaldırıb Mürsəlin üzünə baxmadan:

- O hara getdi? - deyə soruşdu.

- Kim? - iştahayla salatdan yeyən Mürsəl təəccüblə ona baxdı.

- O... - Nuranə keçmiş ərinin adını da çəkmək istəmirdi. - Sənin biqeyrət dostun!

Mürsəl ağzındakı tikəni çeynəyib uddu və:

- O mənim dostum deyil... İtimdir! - dedi.

Nuranənin qəlbində acınacaqlı bir hiss baş qaldırdı. Bu, nifrətlə peşmançılığın qarışığından ibarət xoşagəlməz bir hiss idi. Axı necə olmuşdu, axı necə olmuşdu ki, o, belə bir qeyrətsiz adama ərə getmişdi? Qadın olanda nə olar? Məgər qadın hər adını kişi qoyana qadınlıq etməlidir? Nuranəni Allah qadın yaratsa da və özü bundan məmnun olaraq qadınlığından həzz alsa da, bir qadın kimi, qadınlığını başa düşüb özünə kişi arzulasa da, Əlikram kimilərə ancaq ərlik edə bilərdi, arvadlıq yox!



downloaded from KitabYurdu.az

Ona ərlik etmək istəyənin mənliyi, mənəmliyi, kişiliyi, gücü, heç olmasa, onunkundan bir az artıq olmalıydı. Ancaq Allah ona qarşı niyə bu qədər insafsız, bu qədər qəddarlıq göstərmişdi

ki, onu belə nadürüstə arvad eləmişdi?! Arvad ha?! Arvad! Kimin arvadısan? Əlikramın! Tüpürüm belə bəxtə! Tüpürüm belə həyata!

Gözləri doldu. Keçmiş bəxtinə, taleyinə doyunca ağlamaq istəyirdi. Ancaq indi bu alçaq təbiətli insanın qarşısında, özü də bu məqamda, bu vəziyyətdə ağlamağın yeri deyildi. Burada cəsarətli olmaq, mübarizə aparmaq lazım idi. Bu pəzəvəng kim idi ki, Nuranə ondan qorxaydı?! O, indiyədək heç kimdən qorxmamışdı axı?! Sərt şəkildə dikəlib Mürsəlin həyasız sifətinə baxdı:

- Lap it olsun! Hara getdi o?

Mürsəl stəkana yenə də araq süzüb güldü:

- Yola salmağa!

- Kimi? Haraya? - Nuranə yumşaq danışmaq fikrində deyildi.

Mürsəl arağı başına çəkib xiyar dilimindən birini əlinə götürdü:

- Sənin Qanbayını... O dünyaya!

Mürsəl bunu desə də, planın üçüncü hissəsilə, yəni qadının özünün boğulub dənizə atılmalı olacağı hissəsilə onu tanış etmək istəmirdi. Belə olarsa, Nuranə bütün gecəni öz ölümünün hayına qalar, Mürsələ ürəyi istədiyi ləzzəti verə bilməzdi. Sabah saat doqquza hələ on dörd saat qalırdı və bu on dörd saatı Mürsəl gözəl və yaddaqalan keçirmək istəyirdi.

Nuranə qulaqlarına İnanmadı: «Necə yəni...»

- Kimi? - kəskin şəkildə soruşdu.

- Hörmətli Qanbay müəllimi...



downloaded from KitabYurdu.az

- Nə üçün?

- Yəqin ki, belə lazımdır! - Mürsəl sakitcə yeməyinə davam etdi.

Nuranə onu nifrətqarışıq istehza ilə süzdü:

- Qanbay müəllimi? Özü də kim, Əlikram?!

- Demək istəyirsən ki, - Mürsəl güldü. - Sənin Qanbay müəllimin Rusiyada tapan,a atmaq üzrə ölkə çempionu olub? Bunu bilirəm... Əlbəttə, pis deyil... Snayper Mürsələ şagird durmağa layiqdir. Ancaq deyəsən, sən öz ərciyəzini, mənimsə itimi yaxşı tanımırsan. Qanbayı öldürüb, sonra fikirləşəcək ki, öldürüm, yoxsa öldürməyim.

- Bu ola bilməz! - Nuranə hiddətləndi.

Mürsəl onun çığırtısına məhəl qoymadan sözünə davam etdi:

- Bir də ki, sənin açarın ondadır. Qapını açıb səs salmadan girəcək mənzilə. Polkovniki qanına qəltan eləyib, tapançanı tullayacaq döşəməyə... Tapançada da ki, sənin incə barmaqlarının izləri...

Nuranə daha dözə bilmədi.

- Əclaf! Vicdansız! - deyə qışqıraraq Mürsəlin üstünə atıldı. Stolun üstündəki araq şüşəsini götürüb onun başına çırpmaq istədi.

Mürsəl araq şüşəsini göydə tutdu. Asanlıqla Nuranənin əlindən alıb yerinə qoydu. Sol əli ilə qadının biləyini tutub sıxdı. O biri əlini qaldırıb gücü gəldikcə Nuranənin üzünə vurdu.

Üzünə dəyən şillənin zərbəsindən Nuranənin bütün bədəni silkələnib lərzəyə gəldi. Bütün cəsarəti və fədakarlığı, sanki bircə anda uçub getdi. Cəsarətin, qətiyyətin də bir həddi var imiş... Bu Nuranəyə, bəlkə də bütün həyatı boyu dəyən ilk zərbə idi ki, onu sındırmışdı. Həqiqi qorxunun nə olduğunu elə bil indi hiss etmişdi. Digər tərəfdən, Mürsəl onun sağ



downloaded from KitabYurdu.az

biləyini elə sıxırdı ki, deyərdin sümük bu saat şaqqıltıyla qırılacaq. Mürsəl gözlərini bərəldib, qəzəblə onun üzünə baxırdı:

- O sözləri mənə dedin? Mürsələ dedin o sözləri?!

Nuranə onun gözlərinə baxa bilməyib, üzünü yana çevirdi. Şillə dəyən sifəti istidən alışıb yanırdı. Biləyinin ağrısına dözmək isə getdikcə müşkülləşirdi.

- Üzr istə! - Mürsəl dişlərini qıcayıb tələb etdi.

Nuranə dartındı. Ancaq biləyini bu pəzəvəngin güclü

barmaqlarından qoparmaq qeyri-mümkün bir şey idi.

- Qolunu sındıracam! Üzr istə!

Nuranənin qətiyyəti onsuz da qırılmışdı. Daha dözə bilmirdi.

Sözlər dodaqlarının arasından güclə eşidiləcək dərəcədə yavaş çıxdı:

- Üzr... istəyirəm...

Mürsəl onun biləyini buraxdı:

- Bax belə! Adam balası ol və özünü gicliyə qoyub artıq-əskik hərəkət etmə! Onu bil ki, buradan səsin heç yana çata bilməz!

Nuranənin qabağa çıxmış şux sinəsi sürətlə qalxıb enirdi.

«Neyləyim, ay Allah! - deyə çarə axtarırdı. - Bunun əlindən qurtarmaq mümkün deyil». Gözətçi də darvazanı içəridən qıfıllayıb öz daxmasına girmişdi. Nuranə bu şeytanabənzər insanın caynağına keçmişdi və xilas olmasına heç bir ümid yeri görmürdü.

O, əslində, bu saat özü barədə düşünmürdü. Özü, belə görünürdü ki, bu gecəni Mürsəllə keçirməli idi və səhər onu evə buraxanda mütləq özünü öldürəcəkdi. Başqa cür ola da bilməzdi. Ancaq özünü öldürməmişdən qabaq uşaqları Fədayəyə tapşıracaq¬dı...



downloaded from KitabYurdu.az

İndi isə... Qanbay Qasımlını xilas etmək üçün yollar axtarırdı. Qanbay müəllimi xəbərdar etmək lazım idi. Ancaq necə? Onun nə ev, nə də cib telefonunu indiyəcən soruşub öyrənməmişdi. Hə! Ancaq Fədayənin mənzilinə zəng vurmaq olardı. Ya da ki, Nemətin, Fədayəgilin cib telefonuna... Lakin hansı telefonla? Nuranənin cib

telefonu çantasında qalmışdı. O da ki, maşında... Bu əclaf oğlu əclafın telefonunu bircə dəqiqəliyə ələ keçirə bilsəydi...

Ancaq o, nə Fədayənin, nə də Nemətin cib telefonunun nömrəsini əzbər bilmirdi. Nömrələr telefonunun yaddaşına yazılmışdı və Nuranə onlara həmişə birbaşa, nömrələri yığmadan zəng vururdu. Mənzillərində isə bu saat heç kəs yox idi. Fədayə İlhamı da götürüb rəfiqəsigilə getmiş, Nemət isə şahmat oynamaq üçün Qasımlının mənzilinə keçmişdi. Yollar hər yerdən bağlanmışdı və hələ Nemətin özünü də ölüm təhlükəsi gözləyirdi. Nuranə isə bütün bunlardan xəbərsiz, ətrafa boylanıb çıxış yolu axtarırdı. Qanbay müəllimi mütləq xilas etmək lazım idi. O, ölməməliydi! O, ölməli adam deyildi. Nuranə onsuz da istəsə də, istəməsə də bu gün, bu gecə başına gətiriləcək oyunlara dözəcək, sabah isə, ixtiyarı özünə qayıdan kimi özünü öldürəcəkdi. Ancaq mütləq, qarşıdakı təhlükə barədə polkovniki xəbərdar etmək lazım idi. Bunun üçün Nuranə çox şeyindən keçərdi. Bəlkə də hər şeyindən!

Mürsəl boşqabdakı salatın axırına çıxıb, bayaqdan ayaq üstə dayanıb həyəcandan titrəyən qadına yaxınlaşdı. Sol əli ilə onu özünə tərəf çəkib sinəsinə sıxdı. Sağ əlini isə qadının kürəyində gəzdirməyə başladı.

Nuranənin gözü bu vaxt evin arxa tərəfindəki uca hasarın dibinə atılmış nərdivanın başına sataşdı. «0 nərdivandımı, görəsən? - deyə düşündü. - Hə, nərdivandır, deyəsən! Onu hasara söykəyib o biri tərəfə adlamaq olsaydı... Ancaq kim bilir, ora kimin həyətidir. Adam varmı orada? Mürsəl dalınca oraya gələ bilərdi. Bircə bu əclaf ondan aralanıb evə girəydi. Gözətçi də görünmür...»



downloaded from KitabYurdu.az

Mürsəlin əli indi qadının arxasında gəzməyə başladı. Çırpınsa da əlindən çıxa bilmədi. Mürsəlin tüklü sinəsinə elə sıxılmışdı ki, az qalırdı, nəfəsi kəsilsin. Bu tərəfdən də onun əlinin hərəkəti! Bütün vücudunu təhqir olunmuş hiss edirdi. Mürsəlin nəfəsindən sarımsaqqarışıq araq iyi, bədənindən isə qıcqırmış tər qoxusu gəlirdi. Nuranə başını nə qədər yana çevirsə də, bu pis qoxular ondan uzaqlaşmırdı.

Birdən Mürsəlin barmaqları köynəyinin altına girdi. Sonra aşağıya doğru hərəkət etmək istədisə də, alınmadı. Paltar əyninə kip idi. Qızışmış Mürsəl nə düşündüsə, Nuranəni buraxıb kənara çəkildi:

- Çıxart tulla bunları əynindən! Hava da istidir.

Onsuz da həyəcandan boğulan Nuranənin lap ürəyi düşdü. Neyləsin? Qaçsınmı? Haraya qaçacaq? Tutub döyəcək, sümüklərini qıracaq. Üstəlik də, yenə istədiyini eləyəcək! Qışqırsınmı? Bunun nə

xeyri var? Kim gələcək köməyə? Ancaq Qanbay müəllimi xəbərdar etmək lazımdır! Mütləq xəbərdar etmək lazımdır! Onu vuracaqlar!..

Mürsəl Nuranənin susub dayanmasını yola gəlmək əlaməti kimi qəbul etdi:

- Nə gözəl imişsən sən! Boyunu yerə soxum Əlikramın, sənin qədrini bilmədiyinə görə!

Nuranə bircə şey düşünürdü: - Qanbay müəllimi vuracaqlar! Yaxşı danışmaq lazımdır. Bəlkə bununla nəyəsə nail olmaq olar... Rola girməyi bacarmadığına görə, üzünü yana çevirib çətinliklə dilləndi:

-Allah evini yıxsın Əlikramın, necə ki, yıxdı!

Onun sakit danışmağı Mürsəlin xoşuna gəldi:

- Əlikramdan niyə ayrıldın? İstəmirsən yanında kişi olsun?

Nuranənin gözü uzaq hasarın dibindəki nərdivanda idi.



downloaded from KitabYurdu.az

- İstəyirəm... Ancaq o, kişi deyil...

- Bəs mən necə, kişiyəm, ya yox? - Mürsəl gözlərini həyasızlıqla onun üzünə zillədi.

Nuranə gözaltı nərdivana baxırdı. «Yaxşı danışmaq lazımdır. Pis danışmağın heç bir mənası yoxdur...» deyə düşünüb lap astadan dilləndi:

-Bilmirəm... Deyə bilmərəm... Hələ...

Mürsəl yenə ondan razı qaldı. «Bu qız Əlikram deyən qədər də, dəlisov deyilmiş. Əməlli-başlı adam balası imiş. Bir də ki, qadın əsl kişinin qabağında əriyib muma dönür, daha elə arvadağızların yox!»

Nuranə ağlına qəfil gələn fikirdən istifadə etmək istədi:

- Acmışam! Nəsə yemək istəyirəm!

Süfrədə yeməyə bir şey qalmamışdı. Mürsəl:

- Otur, bu saat gətirim! - deyib evə doğru getdi.

Nuranə cəld geriyə boylandı. Gözətçi görünmürdü! Vaxt itirmədən qaçıb evin arxasına keçdi. Hasarın dibinə atılmış nərdivanı əlləri əsə- əsə qaldırıb hasara söykədi. Ancaq onu əyri qoyduğu üçün üç pillə çıxmamış nərdivanla birlikdə yerə yıxıldı. Ona elə gəlirdi ki, ürəyinin döyüntüsü bütün həyətdə eşidilir. Mürsəlin bu dəqiqə başının üstünü alacağını gözləyirdi. Sonra isə... Sonra isə, Allah sən özün kömək ol! Birtəhər ayağa qalxdı. Çılpaq dizi bərk yerə dəydiyi üçün qanamışdı. Yubanmadan nərdivanı yenidən daş hasara söykədi. Qıçları titrəyə- titrəyə hasarın başına qalxdı və ayağının birini tanımadığı, görmədiyi həyətə tərəf aşırdı. O andaca, həmin həyətdən qəzəbli it səsi eşitdi. Baxanda yekə bir itin hasara tərəf yüyürdüyünü gördü. İt hasara çatıb aşağıdan yuxarı ona baxaraq hürməyə başladı.



downloaded from KitabYurdu.az

Dünya-aləm Nuranənin başına fırlanmağa başladı. Qonşu həyətdə heç bir adam-insan da gözə dəymirdi.

Yazıq qadın qorxu və həyəcandan özünü hasarın üstündə güclə saxlayırdı. Odla su arasında qalmışdı sanki! Onu irəlidə də ölüm gözləyirdi, arxada da! Nə qədər cəsarətli olsa da, hələ uşaqlıqdan itdən qorxurdu.

Neyləsin? Geriyə qayıtsınmı? Haraya? Mürsəlin yanına? O ikiayaqlı yırtıcı heyvanın yanına? Yox! Min dəfə yox! Ölüm mütləq idisə, bu azman it tərəfindən parçalanmağı daha üstün tutardı.

Fikirləşməyə vaxt da qalmamışdı. Daha heç nə düşünmədən, nərdivanı ayağı ilə öz yerinə aşırdı və gözlərini yumub, özünü qonşu həyətə - birbaş itin üstünə tulladı.

Yaralı dizi yenə də yerə dəydiyi üçün bərk ağrıtdı. İtin nəfəsini üzündə hiss edib, dikəlməyə çalışdı. Gözləri hələ də yumulu idi. İtin bu saat üstünə atılacağını düşünüb, qorxudan titrəyən qadın özünü tamamilə taleyin hökmünə buraxmışdı.

Az sonra itin ona toxunmadığını və daha hürmədiyini anlayıb gözlərini açdı. Yaraşıqlı bir ov iti düz qarşısında dayanmışdı. Gözlərini qırpmadan Nuranənin üzünə baxırdı. Birdən onun qəribə baxışları qadının diqqətini cəlb etdi. Bu gözlərdə nə qədər kədər var idi, ay

Allah! Gərək nə qədər qubarlı olasan ki, gözlərinə bunca kədər yığılsın. İt sakit-sakit Nuranəyə baxırdı. Bu baxışlarda təəccüb də yox idi, maraq da. Dünyanın işlərinə biganəlik, dünyadan bezmək var idi bu baxışlarda...

Nuranə yenə də ayağa qalxmağa qorxurdu. Ancaq indi qorxusu arxadan idi. Mürsəl nərdivandan şübhələnsəydi, qalxıb hasardan baxa bilərdi. Boylanıb həyətə göz gəzdirdi. Həyətdə ikimərtəbəli bir ev var idi. Darvazanın yanında «BMV» markalı avtomobil dayanmışdı.



downloaded from KitabYurdu.az

Evdən gənc bir oğlan çıxdı. Nuranəni itin qabağında, dizi üstə çökdüyü vəziyyətdə görüb:

- Qaplan! - deyə iti səslədi və onlara yaxınlaşdı.

İt sonuncu dəfə Nuranəyə baxıb sakitcə döndü və evin arxasına keçdi. Bu bağ Asəfin bağı, Qaplanı səsləyən isə Asəf özü idi. O, bu gün, günortadan sonra Aybənizi də götürüb şəhərə - müstəntiq Əlibəylinin yanına getmiş, oradan çıxandan sonra Aybənizi aparıb şəhərdəki evə qoymuşdu. Aybəniz bu gecəni ölüm hadisəsi baş vermiş bu bağda keçirmək istəməmişdi. Asəf bağa Qaplana görə qayıtmışdı. Qaplan təcili yardım maşınının arxasınca qaçandan sonra qayıtmamışdı. Asəf bağa qayıdanda görmüşdü ki, it darvazanın qarşısında uzanıb. Maraqlıdır ki, Məlikxanlının bağına yox, məhz

buraya qayıtmışdı. Asəf darvazanı açaraq onu həyətə buraxmış, it həmin anda qaçıb sahibinin yıxılmış olduğu yeri iyləmişdi. İyləmiş və Asəfi təsirləndirən bir səslə ulamışdı.

Asəf Nuranəyə çatıb təəccüblə soruşdu:

- Siz kimsiniz? Burada nə edirsiniz?

- Mən, bu həyətdən qaçmışam! - Nuranə ayağa qalxıb əli ilə hasarı göstərdi və ağlamsınıb: - Sizə yalvarıram, mənə kömək edin! - dedi.

Asəf Mürsəlin bəzi işlərindən xəbərdar idi. Onun hərdən, cavan qızları tovlayıb bağa gətirdiyini bilirdi. Elə ona görə də ondan zəhləsi gedirdi. Ancaq bu qız təmiz qıza oxşayırdı. Necə olmuşdu ki, onun toruna düşmüşdü?..

Fikirləşmədən əlini evə uzatdı:

- Keç evə!



downloaded from KitabYurdu.az

- Yox! Yox! - Nuranə yenə qorxa-qorxa arxaya boylandı. - Mən təcili şəhərə çatmalıyam. Lap təcili! Ya da zəng eləməliyik. Bir nəfərin həyatı təhlükədədir!

- Kimin? - Asəf maraqlandı.

- Qardaşımın... - Nuranə ani tərəddüddən sonra dilləndi.

Asəf narahat halda darvazaya baxdı:

- Keç, hələlik maşında gizlən!

Nuranə yüyürüb «BMW»-nin arxa qapısını açdı və özünü içəri saldı. Və elə həmin anda da darvaza açıldı. Mürsəlin həyətə girdiyini uzaqdan duyan Qaplan hürə-hürə onun üstünə şığıdı.

- Qaplan, dayan! Qaplan! - Asəf itə acıqlandı.

İt Mürsəlin qarşısında dayansa da hürməyini kəsmirdi. Mürsəl bir gözü itdə olduğu halda həyətə boylandı:

- Bura bir qız qaçıb girdi...

- Nə qız? -Asəf yalançı təəccüblə soruşdu.

- Fahişə! - Mürsəl acıqla ona baxdı. - Yoldan götürmüşdüm maşına. Pulumu oğurlayıb qaçdı.

Asəf sakit olmaq istəməyən Qaplana təpinib yenə Mürsələ üz tutdu:

- Buraya qız girsəydi, it aləmi dağıdardı. Sən də səsini eşidərdin. Görürsən, evin dalında idi, sənin gəlməyini duyub üstünə yüyürdü.

İt yenə də səsini kəsmirdi. Mürsəl bir də həyətə boylanıb çiynini çəkdi və dönüb həyətdən çıxdı.

Asəf cəld yaxınlaşıb maşının qapısını açdı. Qorxudan oturacağın qarşısındakı ayaqaltına uzanmış Nuranə onun səsini eşidib dikəldi və oturacaqda oturdu.



downloaded from KitabYurdu.az

- Qalxın, hara zəng vurmaq lazımdır?

Nuranə Fədayəgilln mənzilinin telefon nömrəsini dedi. Asəf nömrəni yığdı.

- Cavab vermirlər...

Həyəcandan Nuranənin əlləri əsirdi. Nə Nemətin, nə də Fəda- yənin mobil telefonunun nömrəsini yada sala bilmirdi.

Onun heç ağlına da gələ bilməzdi ki, xilas etmək istədiyi adamın şəxsən öz cib telefonunun nömrəsi Asəfin telefonunda var və polkovnikin özü ilə bircə saniyəyə danışmaq mümkündür. Ancaq o bunu bilmirdi və ümidsizlik yenə də onu məngənəyə salıb sıxmağa başlamışdı. Başqa yol görməyib, yalvarmağa başladı:

- Qardaşımsan, sənə qurban olum, məni şəhərə çatdır!

Asəf bir az duruxdu. O, şəhərə hava qaralandan sonra qayıtmaq istəyirdi. Baxışlarını qaldırıb Nuranənin üzünə baxdı. Ancaq bu qız, doğrudan, təmiz adama oxşayırdı. Onun xatirinə nəsə etmək olardı. Darvazanı açıb maşını küçəyə çıxartdı. Bu vaxt Nuranə öz bağının darvazasından çıxan Mürsəli gördü və yenə aşağı yatdı. Asəf darvazanı bağlayıb Mürsələ tərəf döndü:

-Tapmadın?

- Tapacam!.. - Mürsəl qəzəblə fısıldadı. - Hara qaçacaq ki?

Dünyaya gəlməyinə peşman edəcəm onu!

Asəf bir söz deməyib sükanın arxasına keçdi. Maşını işə salıb yerindən tərpətdi. «BMW» bağ evlərinin arası ilə toz qopararaq şəhərə tərəf sürət götürdü.

XXV Fəsil

Gözlənilməz atəş



downloaded from KitabYurdu.az

Qanbay Qasımlı Nemətlə tanış olduğu vaxtdan bu yana, onunla çox şahmat oynamışdı. Ancaq indi birinci dəfə idi ki, oyun öz məğlubiyyəti ilə başa çatmışdı. Bu, hətta Neməti də təəccübləndirdi. Fiqurları yenidən taxtaya düzüb:

- Deyəsən, yaman fikirlisiniz? - deyə soruşdu.

- Hə... Ola bilər! - Qasımlı cavab verdi.

O, indi daha çox səsyazan mikroqurğuda, lentin qurtarmasına yaxın, ani olaraq eşitdiyi səsin sahibi haqqında düşünürdü.

Nemət piyada ilə ilk gedişini edib danışmağa başladı:

- Qəzetimizdə, baş vermiş bu hadisələrlə əlaqədar, «İki intihar» başlıqlı geniş yazı vermək istəyirik. Necə bilirsiniz, sizin haqqınızda qısa qeyd getsə necə olar?

- Məğlubiyyətim barədə? - Qasımlı cavab gedişi edib təəccüblə Nemətə baxdı.

- Yox! Elə niyə?

- Ona görə ki, yazınız, adından da göründüyü kimi adi kriminal xəbər xarakteri daşıyacaq. Onda orada mənlik nə var ki? Bir də axı sizə demişəm, adımın haradasa hallanmağının qəti əleyhinəyəm.

- Bilirəm! Hər ehtimala qarşı soruşmaq istədim.

- Ancaq mən məsləhət görərdim ki, hələ geniş yazı verməyə tələsməyəsiniz. Heç kriminal xəbər kimi də!

Bu vaxt ev sahibi ekranda nə gördüsə, pultu götürüb televizorun səsini qaldırdı. Ramin Əlibəyli danışırdı. Bu onun Asəfin bağında verdiyi müsahibəsi idi. Hər ikisi oyundan ayrılıb müsahibəyə qulaq asdılar. Kadr dəyişildi. Ruslan Dadaşovun çıxışını vermədilər. Qasımlı televizoru söndürdü.



downloaded from KitabYurdu.az

- Deməli, işə xitam veriləcək... - Nemət dedi.

- Bu müstəntiqin öz işidir... - Qasımlı diqqəti şahmat taxtasında olduğu halda, dilləndi. - Görək vəkil nə edəcək...

- Vəkil etiraz edə bilər! - Nemət fikrini bildirdi.

Qasımlı oyunda bir gediş edib ayağa qalxdı. «Nuranə xanım gəlib çıxmadı...» - deyə düşünüb mətbəxə keçdi. Qəhvə hazırlayıb, bir fincan Nemət üçün, birini isə özü üçün gətirdi və yenidən öz yerində əyləşdi.

- Nuranə niyə gəlməyib? - Nemət soruşdu.

- Bilmirəm!

- Necədir? Razısınızmı ondan? - Nemət ilk dəfə idi ki, bu barədə

soruşurdu.

Qasımlı cavab vermədi. Gözlərini otağın açıq qapısına dikmişdi. Ona elə gəldi ki, mənzilin qapısını açarla açdılar. «Yəqin, Nuranədir» - deyə düşündü və tez də fikrini dəyişdi. Qapı çox sakit açılmışdı. Hətta həddindən artıq sakit açılmışdı...

Nuranənin gəlməyinə yaxın, ev sahibi cəftəni vurmurdu ki, o gələndə qapını öz açarı ilə aça bilsin. Qapını elə örtürdü ki, bu vaxt o özü avtomatik bağlanır, həm də çöldən açarla açıla bilirdi. İndi Qasımlının üzü, Nemətin isə sol çiyni otağın açıq qapısına baxırdı.

«Aha!.. Ayaqqabılarını çıxarmadı... Gəlir... Bu Nuranə deyil!

Bu fikirlərə bircə saniyə vaxt sərf edən polkovnik qarşısındakı si¬yirməni çəkib, əlini «Makarov» tipli tapançasının üstünə qoydu. Ancaq bu da bir saniyə çəkdi. Silahı qaldırıb, otağın açıq qapısında görünən və əlindəki tapançanı ona uzadan adamın qoluna atəş açdı.

Əlikram çığırdı və tapançası əlindən döşəməyə düşdü. Nemət yerindən dik atıldı. O, hələ, nə baş verdiyini dərk etməmiş, Qasımlı qalxıb Əlikramı



downloaded from KitabYurdu.az

kənara itələdi. Diqqətini açıq qapıya verərək, cibindən çıxardığı burun dəsmalı ilə yerdəki tapançanı götürüb şkafa qoydu. Mənzilin qapısını bağlayıb geri qayıtdı. Və dava-dərman saxlanılan siyirməni Nemətə göstərərək:

- Bunun yarasını sarı! - dedi.

Sonra keçib öz kreslosunda oturdu. Silahı yenidən siyirməyə qoydu. Soyumuş qəhvədən bir qurtum içib siqaret yandırdı. Və beləcə, Nemətin yaranı necə sarıdığına tamaşa etməyə başladı.

Nemət yaranı könülsüz sarıyırdı. Nifrətlə keçmiş qohumuna baxıb:

- Bu nə deməkdir, Əlikram?! - deyə soruşdu.

Əlikram dinmədi. Qorxudan hələ də özünə gəlməmişdi.

Qasımlının atdığı güllə onun sağ biləyini yaralamış, sümüyünü zədələmişdi. Nemət işini qurtarıb, çağırılmamış qonağı ev sahibinə təqdim etdi:

- Bu əclaf, Nuranənin keçmiş əridir. Əlikram...

-Aha! - Qasımlı qarşısındakı bu arıq, bayquş gözlü adamı başdan-ayağa diqqətlə süzdü. - Deməli, siz Nuranə xanımın keçmiş ərisiniz. Çox gözəl. Xoş gəlmisiniz! Buyurun, əyləşin!

Ona yaxındakı stulu göstərdi. Əlikram, bir qədər tərəddüddən sonra, göstərilən stulda oturdu.

- Qolunuz ağrıyır? - Qasımlı soruşdu.

- Elə də yox... - Əlikram sakit dilləndi. Düşdüyü vəziyyət hələ də ona yuxu kimi gəlirdi.

-Açarı sizə Nuranə xanım verdi?



downloaded from KitabYurdu.az

Əlikramın ciblərini axtaran Nemət mənzilin açarını Qasımlıya vermişdi. O, indi ev sahibinin əlində idi.

-Yox...

-Axı bu onun açarıdır?!

-Məcbur almışam...

- Məni öldürmək istəməkdə məqsədin nə idi?

- Nuranəyə görə... Qısqanırdım...

-Aha... Deməli, istəmirsiniz ki, Nuranə xanım buraya gəlsin?- Qasımlı Nemətə baxdı. Nemət Əlikramı yenə də nifrətlə süzürdü.

- İstəmirdim...

- Yox! - polkovnik əlini stola vurdu. - Bu olmadı! Məni aldatmağa çalışmayın!

Sonra qəhvədən daha bir qurtum içib sakit danışmağa başladı:

- Gəlin, belə danışaq... Mən bəzi Amerika filmlərindəki detektivlər kimi sizi zorakılıqla danışmağa məcbur etməyəcəm. Daha yaxşı olar ki, bir qədər düşünək... Baxın, siz əlinizdə silah mənim mənzilimə soxulmuşunuz. Özü də maskasız... Deməli, məni qorxutmaq, mənimlə zarafat etmək yox, öldürmək məqsədilə gəlmisiniz. Qapını Nuranə xanıma məxsus olan açarla açmısınız və

elə vaxtda məni öldürəcəkdiniz ki, həmin bu vaxtda Nuranə xanım həmişə bu mənzildə olur. Deməli, əgər siz məni öldürə bilsəydiniz, əməliyyat-axtarış qrupu ilk öncə kimdən şübhələnəcəkdi? Əlbəttə, Nuranə xanımdan. Sözsüz ki, siz Nemətin təsadüfən burada olacağını nəzərə almamısınız...

Qasımlı ani olaraq nəsə fikirləşib söhbətinə davam etdi:



downloaded from KitabYurdu.az

- Nuranə xanım açarı heç vaxt könüllü olaraq sizə verməzdi. Deməli, doğrudan da, bunu ondan zorakılıqla almısınız. Onun mənim mənzilimə gəlmək vaxtından saat yarımdan çox keçir. O, indiyə qədər bu barədə mənə xəbər çatdırmayıbsa, deməli, başı öz əlində deyil. Yəni o sizin əsirliyinizdədir... Sonra... Siz mənzilə əlcəklə daxil olmusunuz. Vəziyyət və şərait göstərir ki, siz əlcəyi qapıya görə yox, tapançaya görə geyinmisiniz. Tapançada əl izlərinizin qalmağını istəməmisiniz. Belə çıxır ki, onu özünüzdə saxlamayacaqdınız. Ya burada atıb gedəcəkdiniz, ya da kimisə ilişdirmək üçün, harayasa qoyacaqdınız. Deməli, bu tapançada kiminsə əl izləri var... Sizcə, kimin ola bilər? - ev sahibi Nemətə baxdı.

Nemət təəccüblə çiyinlərini çəkdi. Polkovnik yenə də Əlikrama müraciət edib danışmağa başladı:

- Mənim əlimdə dəqiq məlumat var ki, mənə qarşı dahiyanə bir

plan qurulub. Ona görə də, mən sizin planınızı elə təsvir etməliyəm ki, o doğrudan da "dahiyanə" olsun. Nuranə xanım sizin üçün çox təhlükəli bir şahid olacaqdı. Deməli, o, onsuz da aradan götürülməli idi. Bu baxımdan mənim fikrimcə, sizdən alıb şkafa qoyduğum tapançada başqasının yox, yalnız Nuranə xanımın əl izləri var... O məni niyə öldürə bilərdi? Evi soymaq üçün? Yox, bu gülünc olardı. Kiminsə tapşırığı ilə? Yox! Onda da özü üçün açıq şübhə oyadıb, məni bu radələrdə, özü də tapançada əl izlərini qoymaqla öldürməzdi. Deməli, burada daha çirkin bir məqsəd nəzərdə tutulub.

Qasımlı birdən yerində qurcuxub, bir qədər tələsik danışmağa başladı:

-Vaxtımız azdır, ona görə də, gəlin mən sizə «dahiyanə» çirkin planınızı olduğu kimi deyim: Siz məni öldürəndən sonra Nuranə xanımın əl izləri üzərində olan bu tapançanı mənzilimə tullayıb gedəcək, sonra isə Nuranə xanımı hansı yollasa, öldürəcəkdiniz. Guya o məni vurandan sonra gedib



downloaded from KitabYurdu.az

özünü öldürüb. Bəlkə də bu belə deyil, ancaq mən öz fərziyyəmə inanıram. Siz nə deyirsiniz, bu barədə?

Əlikram dinmədi. O, qarşısındakı adama heyrətlə baxırdı.

- Həyətdə sizi gözləyən var? - Qasımlı sual verdi.

-Yox... - Əlikram başını yellədi.

- Maşınlasınız?

-Hə...

- Tez ol, de görüm, Nuranə haradadır? - Nemət ayağa qalxıb Əlikramın yaxasından yapışdı. - Bu saat səni öldürəcəm!

- Dayan, Nemət! - Qasımlı onu sakitləşdirdi. - O, bizə Nuranə xanımı xilas etmək üçün kömək edəcək.

Nemət telefonunu çıxarıb, Nuranənin cib telefonuna zəng vurdu. Ancaq onun telefonu bağlı idi.

Qanbay Qasımlı ayağa qalxıb, siyirmədən tapançasını götürdü. Onu arxadan qayışına keçirib Nemətə baxdı:

- İstəyirsən, deyim Əlikramı bu işə kim qoşub? Dünənki restoranın müdiri. Adı da Mürsəldir. Biz restorandan çıxanda, o bunu söydü. Hələ, sən də bir az pərt oldun... Bax, onda bu onun adını çəkdi.

- Hə!... - Nemət başını yırğaladı.

Polkovnik üzünü Əlikrama tutdu:

- Hə, nə deyirsiniz? Bizə kömək etmək istəyirsiniz ya, yox?! Əlikram ayağa qalxdı. Odla su arasında qalmış adamlar kimi

könülsüz dilləndi:

- Mən ondan qorxuram...



downloaded from KitabYurdu.az

- Nuranə xanım haradadır? - Qasımlı sərt şəkildə soruşdu.

- Onun bağında...

- Siz ancaq bizə bağın yerini göstərəcəksiniz!

Əlikram əlacsız vəziyyətdə başını aşağı dikdi. Qolu yaman ağrımağa başlamışdı. Onsuz da nə edəcəyi barədə fikirləşə bilmirdi. Əgər bu xəfiyyəyə hər şey məlumdursa, nəyisə gizlətməyin mənası yox idi.

Birdən, Qasımlı nə düşündüsə, öz-özünə danışırmış kimi dedi:

- Vaxt keçir... Biz gecikə bilərik! Yaxşı olar ki, mən ona zəng vurum. Hə... zəng vursam yaxşıdır! - üzünü Əlikrama tutdu: - Mürsəlin telefon nömrəsini deyin! Tez olun! Sizdən aldığımı bildirməyəcəm.

Əlikram cib telefonunu çıxarıb, Mürsəlin telefonun yaddaşındakı nömrəsini Qasımlıya oxudu.

- Siz ona nə deyəcəksiniz? - Nemət təəccüblə soruşdu.

- Deyəcəyəm ki, mənimlə zarafat etməsin və Nuranə xanımı təcili olaraq, azadlığa buraxsın. Onsuz da «dahiyanə» planı baş tutmayıb...

Nömrəni yığıb zəng vurdu. Ancaq elə həmin andaca, mənzilin zəngi çalındı. Qasımlı cəld telefonunu qapayıb Nemətə baxdı. Nemət qapını açmaq üçün otaqdan çıxıb Nuranə ilə geri qayıtdı. Nuranə həddən artıq həyəcanlı idi. Əlikramı otaqda görüb qışqırmaq istədi. Ancaq gözləri onun sarıqlı qoluna sataşdı və vəziyyəti başa düşdü. Sarıq qana bulaşmışdı...

- Nə olub, Nuranə xanım? - ev sahibi diqqətlə ona baxdı.

- O, sizi öldürməyə gəlmişdi! - Nuranə hiddətlə keçmiş ərinə baxdı.

- Yox, nə danışırsınız?.. - Qasımlı güclə sezilən istehza ilə dilləndi. - O, sadəcə, mənimlə söhbət etməyə gəlmişdi. İstəyir ki, sizinlə barışsın.



downloaded from KitabYurdu.az

- Heç vaxt! - Nuranə nifrətlə başını silkələdi. - O, Mürsəl adlı bir cinayətkarla birlikdə məni onun bağına qaçırtdı. Elə etdilər ki, mən bunun tapançasını əlimə götürdüm. Tapançada güllə yox idi. Sən demə, istəyirlərmiş ki, silahda mənim əlimin izi qalsın. Bu əclaf sizi öldürüb tapançanı otağa tullamalı idi. Guya sizi... - sözünün dalını demək istəmədi. - Əclaflığa bax! Qansızlığa bax! Mən oradan güclə qaçıb gəldim ki, sizi xəbərdar edim. Ancaq gecikdim...

Qasımlının cib telefonu zəng çaldı. Mürsəl idi. Ev sahibi Nuranəyə əli ilə susmaq işarəsi verib telefonu açdı.

- Bəli?

- Siz kimsiniz, mənim telefonuma siqnal göndərmisiniz... - Mürsəlin səsi kobud və acıqlı idi.

- Hə! - Qasımlı gözucu otaqdakılara baxdı. - Mən sizə demək istəyirdim ki, Qanbay Qasımlını öldürmək üçün göndərdiyiniz adam öz vəzifəsini bacardığı qədər vicdanla yerinə yetirdi.

- Siz kimsiniz?! - Mürsəl çığırdı.

- Qanbay Qasımlı!

Mürsəl dərhal telefonunu qapadı...

Polkovnik telefonunu stolun üstünə qoyub Əlikrama qəribə bir nəzər saldı. Elə bil adama yox, iyrənc bir həşərata baxırdı:

- Rədd ol buradan. Gözüm səni görməsin!

- Deməli, məni tutdurmursunuz? - Əlikramın sevincdən gözləri işıldadı.

- Dedim ki, rədd ol! - sonra Nemətə tərəf döndü. - Bunu yola sal, Nemət!



downloaded from KitabYurdu.az

Nemət Əlikramın yaralı qolundan tutub onu mənzildən çıxartdı. Pilləkənin başına gətirib sifətinə yağlı bir yumruq ilişdirdi:

- Cəhənnəm ol, namussuz köpək oğlu!

Onlar otaqdan çıxan kimi Nuranə ev sahibinə doğru bir neçə addım atdı. Ondan üzr istəyib, hər şeyi izah etmək istəyirdi. Ancaq möhkəm qəhərləndiyi üçün təkcə bunları deyə bildi:

- Sizdən dönə-dönə üzr istəyirəm! Hamısı mənim ucbatımdan oldu.

Qasımlı bir qədər susandan sonra Əlikramdan aldıqları açarı stolun üstündən götürüb ona uzatdı:

- Bu məni aradan götürmək üçün bir plan idi. Burada sizin heç bir günahınız yoxdur. Əslində mən sizdən üzr istəməliyəm ki, sizi də bu işə qatıb incidiblər.

Qanbay Qasımlı həmişəki kimi quru və soyuq danışırdı. Heç «incidiblər» də söz idi?.. Nuranə bu gün cəhənnəmin özünü görüb qayıtmışdı. Bu gün ölümün bir addımlığında olmuş və onun, həqiqətən nə olduğunu anlamışdı. Bu gün şeytan cildinə girmiş insanların, yaxud insan cildinə girmiş şeytanın varlığına inanmışdı. Bu gün Əlikramın həqiqətdə kim olduğunu başa düşüb, onunla keçirdiyi on ilə lənət oxumuşdu. Bu gün... Bu gün Nuranə bir kədərli həqiqəti də dərk etmişdi. Dərk etmişdi ki, bunu düşünmək onun üçün nə qədər çətin olsa da, o, Qanbay Qasımlını sevir... Heç bir ağlabatan sonluğu görünməyən bu məhəbbət, bu gün onu diksindirmiş, ayıltmış, həm də ağrıtmışdı. Sevdiyi adamı itirmək qorxusu keçirmişdi o bu gün.

Bundan dəhşətli qorxu ola bilməzdi ki?!

Hər şeyin yaxşı qurtardığını görəndə, mənzilin açarını Qasımlıdan geri alanda, nə qədər istədi ki, nə qədər istədi ki, dözsün, bacarmadı. Divanda oturub ağlamağa başladı...



downloaded from KitabYurdu.az

Nemət otağa qayıdanda onu bu vəziyyətdə görüb, əvvəlcə təəccübləndi. Sonra tez də düşündü ki, gör nə qədər sarsıntı keçirib yazıq qız...

- Dur keç bizə! - dedi. - Fədayəgil də gəlib.

Nuranə gözlərini qurulayıb:

- Mən yemək hazırlamalıyam! - dedi.

- Gedin, yemək hazırlamaq lazım deyil! - deyə ev sahibi dilləndi və Nemətə üz tutdu: - Maşının nömrəsini götürdün?

- Götürdüm! - Nemət başı ilə də təsdiq etdi.

Polkovnik gülümsədi. Nemət onunla yoldaşlıq etdiyi müddətdə az şey öyrənməmişdi. «Yola sal!» deyəndə başa düşmüşdü ki, bunu heç də Əlikrama hörmət mənasında demir Qasımlı.

Nuranə qalxıb kədərli halda mənzildən çıxdı.

- O, maşını necə sürəcək? - Qasımlı istehza ilə soruşdu.

- Gərək görəydiniz... - Nemət gülümsədi və nə düşündüsə, o saat qaşqabağı tutuldu: - Onlar sizi nə üçün öldürmək istəyirlər, Qanbay müəllim?

Polkovnik mənalı şəkildə başını yırğaladı:

- Belə çıxır ki, dinc oturmuram!

Nemət daha nəsə soruşmaq istədi, ancaq soruşmadı. Şahmat taxtasına baxıb köksünü ötürdü:

- Oyunumuz da yarımçıq qaldı!

Qasımlı da şahmat taxtasına baxdı:

- Eybi yoxdur, sonra oynayarıq. Bu gün, hələlik, ilk qələbəni bayram et.



downloaded from KitabYurdu.az

Nemət sağollaşıb öz mənzilinə getdi. Hiss etmişdi ki, qonşusu nəyinsə barəsində ciddi düşünmək istəyir. Mənzilinə girəndə Nuranəni yenə də ağlayan gördü. Fədayə ona bacardığı qədər təskinlik verməyə çalışırdı.

Nemət çıxandan sonra, Qasımlı divanda oturub bir xeyli fikrə getdi. Sonra qalxıb cib telefonu ilə Asəfə zəng vurdu:

- Asəf, salam!

- Salam, Qanbay müəllim!

- Mənə sənin köməyin lazımdır.

- Buyurun, qulluğunuzda hazıram.

- Mən istəyirəm ki, rəhmətlik Məlikxanlının bütün şəxsi təsərrüfatlarının siyahısını mənə verəsən!

Asəf bir qədər duruxdu:

- Məndə elə bir siyahı yoxdur, Qanbay müəllim. Rəhmətlik məndən sirr saxlamırdı. Ancaq müəssisələrini mən də tanımıram. Beş-on dənəsini deyə bilərəm. Birlikdə gəzəndə göstərib, ancaq tapşırıb ki, heç kəs bilməsin...

- Yox, Asəf, qulaq as! Ola bilməz ki, belə bir siyahı olmamış olsun. Sən onun evində yüngül bir axtarış apar. Qoy Gülafət xanım da sənə kömək etsin. Ancaq nə axtardığını, ya mənim nə istədiyimi heç kimə, o cümlədən Gülafət xanıma da demə!

-Yaxşı, Qanbay müəllim, bağ evinin açarı hələ məndədir. Onun seyfi var orada. Baxaram. Bu vacibdirmi?

- Çox vacibdir! - Qasımlı qısaca cavab verdi.

-Yaxşı... Çalışaram. Nə vaxt lazımdır?



downloaded from KitabYurdu.az

- Sabah, nahar vaxtına qədər siyahı məndə olsa, sənə çox minnətdar olaram. Onu da deyim ki, bu iş Gülafət xanımın da xeyrinə olar.

- Oldu, Qanbay müəllim!

Qasımlı telefon söhbətini qurtarıb, özünə yemək hazırlamaq üçün mətbəxə keçdi. Bu gün daha heç bir şey barədə düşünmək istəmirdi.

Axşam, yataqlarına girəndən sonra, Fədayə ilə Nemətin arasında gizli bir söhbət oldu. Söhbətə birinci Fədayə başladı:

- Bilirsən bu gün nə hiss eləmişəm, Nemət?

- Nə hiss eləmisən?

- Hiss elədim ki, Nuranə Qanbay müəllimi sevir.

- Ola bilməz! - Nemət heyrətləndi.

- Niyə ola bilməz ki? - Fədayə də heyrətlə soruşdu.

Nemət bir az gec dilləndi:

- Əslində sən düz deyirsən. Burada pis nə var ki? Dünyada ən gözəl şey elə sevməkdi də! Biz bir-birimizi sevib evlənməmişik?

- Orası elədir. - Fədayə razılaşdı. - Ancaq sən özün deyirdin ki, Qanbay müəllimin heç vaxt evlənmək fikri yoxdur.

- Düzdür...

- Elə ona görə Nuranəyə yazığım gəlir. Hələ orasını demirəm ki, Qanbay müəllim başa düşsə, onu uzaqlaşdıra bilər. Yazıq qız yaman bağlanıb ona.

- Mən heç nə deyə bilmərəm bu barədə. - Nemət dilləndi. - Ancaq Nuranə, həqiqətən, yaxşı qızdır. Xoşbəxt olmağa layiqdir.

- Yazıq xoşbəxt ola bildi ki?.. On il elə zülm çəkdi, indi də belə bitməz sevdaya düşübsə, günü lap qara olacaq yazığın...



downloaded from KitabYurdu.az

- Qanbay müəllim, doğrudan da, bilməsə yaxşıdır bunu... Nuranənin bu söhbətdən xəbəri yox idi. Ona elə gəlirdi ki, özünün də qəlbində bu gün tapıb kəşf etdiyi gizli duyğulardan özündən başqa heç kəsin xəbəri yoxdur.

## XXVI Fəsil

## Xitam verilmiş cinayət işi

Səhəri gün Məlikxanlının vəkili Fazil Məmmədli müstəntiq Ramin Əlibəylinin kabinetində qaşqabaqlı halda oturmuşdu. Əlibəyli bir qədər əvvəl Muradzadə Venera Əlisəttar qızının intihar etməsi ilə əlaqədar açılmış cinayət işinə xitam verilməsi barədə qərarını yazmışdı. Yalnız onu təsdiq etmək üçün prokurora vermək qalırdı.

- Axı iş tam şəkildə araşdırılmayıb?! - Fazil Məmmədli artıq ikinci dəfə idi ki, bu sözləri işlədirdi.

- Necə yəni araşdırılmayıb?! - müstəntiq əsəbi halda səsini qaldırdı. - Siz, eşitdiyimə görə, bilikli vəkilsiniz, amma lap uşaq kimi danışırsınız! Ekspertiza göstərib ki, qız stolun üstündəki çay stə¬kanında zəhər içib, özünü zəhərləyib...

- O, zəhəri haradan əldə edib? - Fazil onun sözünü kəsdi.

Müstəntiq başını buladı:

- Qəribə sual verirsiniz!..

- Xeyr, xahiş edirəm, sualıma cavab verin! Elə bir nadir zəhəri Venera haradan tapıb?

- Deməli, sözünüzdən belə çıxır ki, zəhərin haradan əldə edildiyini aşkar edə bilməsək, qızın ölümünü intihar hesab etməməliyik. Bəs məktub?! - müstəntiq əlini havada yellədi. - Məktuba nə sözünüz var?



downloaded from KitabYurdu.az

Məktubu ki, o özü yazıb! Bunu nüfuzlu ekspert komissiyası təsdiq edib! Üstəlik vərəqdə qızın özünün əl izləri də aşkar edilib.

- Məktub məcbur da yazdırıla bilər! - Fazil inadından əl çəkmədi.

- Xeyr! Qətiyyən! - Əlibəyli barmağını silkələdi. - Qız məktubu yazanda, onun başının üstündə durub məcbur edən olsaydı, onun yazısı əyri-üyrü olardı. Məktub aydın və sərrast yazılıb. Ekspertlər bu barədə də öz rəyini veriblər.

- İntihardan bir az əvvəl Veneranın yanında adam olub! Buna şahid də var. Biz Qanbay müəllimlə, şahidlərlə söhbət etmişik.

Ramin Əlibəyli gülümsədi:

- Olmayıb, əzizim, olmayıb! Mənim Qasımlının bacarığına böyük hörmətim var, ancaq siz balaca bir uşağın fərziyyəsinə inanırsınız. Uşaq deyib ki, qız kimdənsə pul istədi. Yəni qızın özündə iki min manat pul tapılmırdı ki, uşağa versin? Deyirsiniz ki, uşağın anası bloka girən, əlisarıqlı bir adam görüb. Məgər həmin blokda təkcə Muradzadə yaşayır? On səkkiz mənzil var həmin blokda! Sonra, gətirib mənə verdiyiniz stəkan! Başa düşmürəm, onu haradan tapıb

çıxardınız? Nə onda, nə də verdiyiniz pulda, daha sonra verdiyiniz qələmdəki əl izlərinə rast gəlinmədi.

- Mənim bir sualıma cavab verin! - vəkil yerində dikəlib stulunu qabağa çəkdi.

- Buyurun! - Əlibəyli səbirsiz hərəkətlə əlini oynatdı.

- Venera Muradzadə nəyə görə zəhəri çaya töküb içib?

Müstəntiq Əlibəyli qəhqəhə çəkib güldü:

- Oyunun olsun sənin, Məmmədli!

- Mən gülməli sual vermədim! - Fazil qaşqabaqlı dilləndi.



downloaded from KitabYurdu.az

Müstəntiq də ciddiləşdi:

- Fazil müəllim, siz məni elə bezdirmisiniz ki, elə bu gün, evə gedən kimi özümü zəhərləyib öldürəcəyəm. Özü də bilirsiniz, zəhəri nəyə qatacağam? Fanta içkisinə! Bunun dəxli varmı sizə?

- İstəyirsiniz, konyaka qatın! - Fazil küsmüş kimi üzünü yana çevirdi.

Əlibəyli əlinin dalını bir neçə dəfə stola vurub səsini qaldırdı:

- Axı siz nə demək istəyirsiniz?! Demək istəyirsiniz ki, Məlikxanlının heç bir günahı olmayıb bu işdə? Bu ekspert komissiyasının rəyinə nə deyirsiniz? Məgər mən o rəhmətliyin düşməniyəm?

Fazil Məmmədli tibbi ekspert komissiyasının rəyinə şübhə etmirdi. Çünki komissiyada Qasımlının inanılmış adamlarının iştirak etdiyini bilirdi.

Onun susduğunu görən Ramin Əlibəyli özü dilləndi:

- Nəhayət, Niyazi Məlikxanlının intihar etməsi! Özü də məktubda yazılanın ekspertlər tərəfindən təsdiq olunduğu günün səhərisi! Bu özü onun günahını, daha doğrusu, cinayətini etiraf etməsi deyilmi?

- Yox! - Fazil etiraz etdi. - Belə də qəbul etmək olar ki, o, böhtana dözməyərək, intihar edib!

- Siz yenə də mübahisə edirsiniz? - Əlibəyli təəccübləndi.

Fazil Məmmədli məğlub olmaq istəmirdi:

- Mənim istədiyim odur ki, müdafiə etdiyim Niyazi Məlikxanlı bəraət alsın!

- Lap günahkar olsa da? - müstəntiq istehza etdi.

- Yox! - Vəkil başını buladı. - İstəyirəm ki, işə xitam verilməsin və hər şey təzədən, incəliyinə qədər araşdırılsın. Mən bir vəkil kimi bunu tələb edirəm. Özünüz də yaxşı bilirsiniz ki, bu işin daha dəqiq



downloaded from KitabYurdu.az

araşdırılması üçün özüm tərəfimdən dəvət etdiyim ekspert, bəlkə də bu saat dünyada ən bacarıqlı ekspertdir.

Müstəntiq Əlibəyli açıq-aşkar əsəbiləşməyə başlayırdı:

- Cənab Fazil Məmmədli! Əgər Muradzadə Venera Əlisəttar qızı öz əli ilə yazıbsa ki, Məlikxanlı mənim namusuma təcavüz edib və sonra özü zəhər içib özünü öldürübsə, tibbi ekspert komissiyası onun uşaqlıq yolunda həmin Məlikxanlının şəxsən özünün spermatozoidlərini tapıbsa sizin dünyanın ən bacarıqlı ekspertiniz burada nə edə biləcək?

Bax, bunu Fazil Məmmədli özü də bilmirdi. Onu bu işə Qanbay Qasımlı dəvət etmişdi və o, polkovnikə inanırdı. Ancaq polkovnik Qasımlı cadugər, ya sehrbaz da deyildi, sadəcə, güclü kriminalist, bacarıqlı xəfiyyə idi. Doğrudan da, ekspertlərin sanballı rəyi olduğu halda, o nə edə bilərdi?

Bir tərəfdən də, Fazilin Qanbay Qasımlıya acığı tuturdu. Çünki Qasımlı öz düşündüklərinin hamısını Fazillə bölüşmürdü. Lap o qayçı məsələsini götürək, o, nə demək idi? Niyə qayçını Muradzadənin mənzilində saxladı? Niyə həmin bu müstəntiqin kabinetində, məktub üzərində apardığı tədqiqat barədə bir söz demədi?

Fazil Məmmədli nə qədər məğlub olmaq istəməsə də, Məlikxanlının günahkar olduğunu başa düşürdü. Ancaq bir tərəfdən də Qasımlıya kor-koranə inanırdı ki, bu inamı da hələlik ona heç nə verməmişdi.

Ramin Əlibəyli qarşısında oturmuş gənc vəkilə baxıb, başını buladı:

- Sizin xəbəriniz varmı, istedadına hörmət etdiyimiz həmin Qanbay Qasımlı nə işlərlə məşğuldur?

- Nə işlərlə məşğuldur? - Fazil təəccüblə sual verdi.

Müstəntiq cavabdan yayındı:



downloaded from KitabYurdu.az

- Biz bütün bu işlərə göz yumuruq. Lakin bu əsas vermir ki, dövlət orqanlarının işinə müdaxilə edəsiniz. Məlikxanlıdan beş-on manat pul almısınız və nahaqdan da olsa ona bəraət qazandırmağa çalışırsınız. Yaxşı deyil bu!

Fazil dinmirdi. Əlibəyli onu soyuq baxışlarla süzüb davam etdi:

- Mən elə indicə, işə xitam verilməsi barədə qərara qol çəkib prokurora təqdim edəcəm. Şəxsən sizə bildirirəm ki, işə yenidən baxılması barədə tələbinizin əhəmiyyəti olmayacaq. Əksinə, özünüzü biabır edə bilərsiniz. Hansı ki, sizin gələcəyiniz hələ qabaqdadır...

Fazil Məmmədlinin yenə Qasımlıya acığı tutdu. «Nahaq o məni belə bir dolaşıq işə qoşdu. Doğrudan da məğlub olub hörmətimi itirəcəm». Əlini stola dayayıb ayağa qalxdı:

-Yaxşı! Xitam verin işə! Mən çəkilirəm...

Fazil prokurorluqdan çıxan kimi Qanbay Qasımlıya zəng vurdu:

- Qanbay müəllim, işə xitam verildi!

- Siz, heç olmasa, işin uzadılmasına nail ola bilmədiniz? - Qasımlı təəssüflə soruşdu.

- Yox! Mən bu işlə qurtardım! Bir də ki, bunun nə əhəmiyyəti var? Yoxsa siz, hələ də Məlikxanlının günahsız olduğuna inanırsınız?

- Günahsız insan olmur... Ancaq bu iş barədə hə, inanıram. Axşam bu inamım bir az da möhkəmləndi.

- Axşam nə olub ki?

- Bu barədə sonra danışarıq. Ancaq sən ruhdan düşmə!

- Axı işə xitam verilib?!



downloaded from KitabYurdu.az

- Bizim fəaliyyətimizə ki xitam verilməyib! Biz axıra qədər gedəcəyik!

- Mən sizə inanıram. Ancaq...

Fazil Məmmədli prokurorluqdan qəti fikirlə çıxmışdı. Qərara gəlmişdi ki, bu işdən birdəfəlik kənara çəkilsin. Məlikxanlı ölüb getmişdi. Onun bəraət qazanması üçün çalışmaq lazımdırsa, qoy oğlu, ya arvadı qabağa düşsün. Ancaq Qanbay Qasımlı ilə telefon söhbətindən sonra yenə tərəddüd etməyə başladı. Axı polkovnik Qasımlı nəyə inanırdı? Nəyə görə o, mümkün olması ağıla batmayan bir işdə belə inamla canfəşanlıq edir? Fazil yavaş-yavaş başa düşürdü ki, hər yerdə ağızdolusu tərifədiyi Qanbay Qasımlını özü də hələ yaxşı tanımır...

## XXVII Fəsil

## Doktor atayev

Doktor Atayev kabinetində telefonla danışırdı:

- Buyurun, gəlin! Tək günlər birinci, cüt günlər ikinci növbə burada oluram. Bəli... Bəli... Anonimlik tam təmin olunur... Yox, gələrsiniz, baxarıq. Yoxlamamış heç nə deyə bilmərəm... Sağ olun!

Dəstəyi yerinə qoyub, stolun üstündəki düyməni basdı. Köməkçi, həm də katibə vəzifəsini yerinə yetirən cavan tibb bacısı otağa girdi. Balacaboy, nərmə-nazik bir qız idi bu. Əyninə sinəsiaçıq, qolsuz köynək, son dərəcə qısa yubka geyinmişdi. Bu yubkada ona adam yanında qətiyyən əyilmək olmazdı. Yerdən nəyisə götürmək istəyəndə, gərək bir dizi üstə çökəydi.

Ələsgər, adəti üzrə, gözünü onun ayaqlarına dikib dedi:

- Gör kim var orada, Sveta, tək-tək gəlsinlər! Mənə də çay gətir!

- Baş üstə!

Sveta öz qeyri-adi, nazlı yerişilə otağına, oradan da dəhlizə keçib:



downloaded from KitabYurdu.az

- Kimin növbəsidir, keçsin! - dedi.

Yekəqarın bir kişi qızın otağından keçib doktorun kabinetinə daxil

oldu. Sveta öz stolunun arxasında əyləşib başını aşağı dikdi və dırnaqlarıyla məşğul olmağa başladı. O, kabinetin anonim xüsusiyyəti ilə bağlı, heç vaxt girib-çıxanların üzünə diqqət yetirmirdi. Utanırdı və daha çox da, xəstələrin ondan utandığını bilirdi.

Gözünə rəngli eynək taxmış bir gənc otağa daxil oldu. Bu, yazıçı- jurnalist Elnur Qafarlı idi. Yaxınlaşıb qıza salam verdi.

- Salam! - Sveta başını qaldırdı və Elnuru tanıdı. Buraya gəlib-getmişdi.

- Boşdur? - Elnur əli ilə kabinetin qapısına işarə etdi.

- Xeyr, bir dəqiqə gözləyin, xəstə var.

Elnur qızın yanında gözləməyə başladı. Sveta dırnaqlarını rəng¬ləyirdi. Gənc jurnalist isə, heç ona tərəf baxmırdı. Nədənsə fikirli görünürdü.

Kabinetdəki yekəqarın kişi çıxdı. Svetanın üzünə baxmadan:

- Sağ olun! - deyib getdi.

Sveta Elnur Qafarlıya baxıb:

- Keçə bilərsiniz! - dedi.

Elnur kabinetə girən kimi 75-80 yaşlarında bir kişi Svetaya yanaşdı. Rayondan təzə gələnə oxşayırdı. Svetanı səksəndirən uca səslə:

- Salam, ay qızım! - dedi.

- Salam!.. - Sveta gülməyini güclə saxladı.

- Məndə prostat var. Dedilər bura gəlim, gəldim!..

Sveta başını buladı:



downloaded from KitabYurdu.az

- Ay əmi, çıx dəhlizdə gözlə, kabinet boşalanda girib sözünü həkimə deyərsən!

- Hə?! - kişi, deyəsən, yaxşı eşitmirdi.

Sveta səsini qaldırmağa məcbur oldu:

- Çıxın, orada gözləyin, çağıranda gələrsiniz!

-Yaxşı! Yaxşı! Nə deyirəm... - kişi dəhlizə çıxdı.

Bu vaxt kabinetdə, kənardan qulaq asan üçün anlaşılmaz ola biləcək, ciddi bir söhbət gedirdi. Doktor Atayev öz kreslosunda oturmuşdu. Elnur stolun arxasında, onun sağ tərəfində oturmuşdu. O, nə demişdisə Atayev yerindən sıçradı:

- Deməli, siz məndən Muradzadənin qızı üçün istəmişdiniz onu?!

- Hə... Nə olub axı?.. - Elnur heyrətlənmişdi.

Doktor Atayev axşam, televizorda müstəntiq Əlibəylinin müsahibəsinə qulaq asmamışdı. İndi eşitdiyi xəbərdən isə, açıq-aşkar sarsılmışdı. Elnura yaxınlaşıb, onun yaxasından yapışdı:

- Deməli, onun qızı üçün?!

- Doktor, özünüzü ələ alın! Xahiş edirəm, sakit olun! - Elnur Qatarlı əli ilə özünü qorumağa çalışdı.

- Ə, siz nə əclaf adamlarsınız, nə alçaq adamlarsınız?! - Atayev özünü ələ ala bilmirdi.

- Kimi deyirsiniz, doktor? - Elnur yavaş səslə soruşdu.

Ancaq nə qədər yavaş deyilsə də, bu sual doktoru ayıltdı. Söyüşü də, narazılığı da o adama aid olmamalıydı. Qulağına çata bilərdi və onda doktorun vəziyyəti heç də yaxşı olmazdı...

Hədəfi dəqiqləşdirməyə məcbur oldu:



downloaded from KitabYurdu.az

- Səni deyirəm! Şəxsən səni! Sən mənə deməliydin, qızın kim olduğunu!

- Bilmirdim, doktor! - Elnur and-aman eləməyə başladı. - İnanın ki, bilmirdim, sizin dost olduğunuzu...

Atayev keçib yerində oturdu. Əlləri ilə başına vurub:

- Elə bil dammışdı ürəyimə... - dedi. - Eşidəndə ki, qız özünü zəhərlə öldürüb, ürəyimə dammışdı nəsə... Ancaq daha bilməzdim ki, bu boyda nakişilik eləmisən sən!

- Doktor, biz ikimiz də göstəriş yerinə yetirmişik. - Elnurun qorxduğu səsindən aydın duyulurdu.

- Sən o qızla gəzmisən? - Atayev başını qaldırıb sual verdi.

-Hə...

Doktor başını bulayıb əlini zərblə stola vurdu.

- Sən işə bir bax! - sonra nə düşündüsə istehza ilə dilləndi. - Əlisəttar da ancaq tərbiyədən danışmağı bacarırdı. Qızının nə oyunlardan çıxdığından xəbəri yox imiş.

- Burada sizin heç bir günahınız yoxdur. - Elnur dilləndi. - Bu qurulmuş bir iş idi...

- Onunla görüşmüsən bu yaxınlarda? Nə deyir?

- O deyir ki, qətiyyən, narahat olmağa dəyməz. Hər bir iş öz qaydasında gedir. Məlikxanlı da intihar etdi... Ramin müəllim işi bağlayacaq və bu sirr heç vaxt açılmayacaq. Ancaq sirrin açılmaması bizdən də asılıdır.

- Necə? - Atayev sərt şəkildə soruşdu.



downloaded from KitabYurdu.az

- Bu iş elə qurulub ki, - Elnur izahat verdi. - Heç kəs, heç nədən şübhələnə bilməz. Digər tərəfdən Məlikxanlı dözməyib, özü intihar etdi və hər şey qurtardı. Ancaq bu işi qurdalamaq istəyən adam var, buna görə də biz işimizi ehtiyatlı tutmalıyıq. Mən Veneranın rəfiqəsi ilə görüşüb başa saldım ki, mənim adımı heç yerdə hallandırmasın. Siz də, öz növbənizdə, çalışmalısınız ki, Məlikxanlının buraya gəlmiş olduğu sirr olaraq qalsın.

- Buradan sirr çıxmaz! - doktor qətiyyətlə dilləndi və sonra maraqla soruşdu: - Kim qurdalamaq istəyir işi?

- İstefada olan polis polkovnikidir... Məlikxanlının adamıdır.

- Boş şeydir! - Atayev əlini yellədi. - Ölülər təzədən dirilib danışmırlar. İş bağlansa, onunla da hər şey qurtarıb gedəcək. Ancaq bu iş heç yaxşı olmadı! Muradzadə ilə ailəvi dostluğumuz bir yana dursun, o mənim xəstə qızımı müalicə edir...

- Həkim qəhətliyidir? - Elnur təəccüblə soruşdu.

- Ondan başqa heç kəs sağalda bilməz qızımı... - Atayev dalğın halda cavab verdi. - Nadir bir xəstəlikdir bu!

- Muradzadə bunu heç vaxt bilməyəcək! - Elnur doktoru arxayın etdi. - Ancaq xahiş edirəm, siz də ehtiyatı əldən verməyin. Məsələn, sizin bu qız, - qapıya işarə etdi. - Məlikxanlını yəqin ki, görüb... Və, artıq, məni də tanıyır.

- Ondan narahat deyiləm. - Atayev arxayın cavab verdi. - Sənin zibilinə düşməsəm, məndən heç kəs şübhələnməz!

Qəbul otağına bu vaxt otuz yaşlarında, qıvraq və yaraşıqlı bir oğlan girdi. Əynində göy rəngli cins şalvar, bənövşəyi rəngli köynək var idi.

- Dəhlizdə gözləyin! - Sveta dilləndi və yenə öz işi ilə məşğul



downloaded from KitabYurdu.az

olmağa başladı. İndi dodaqlarına boya çəkirdi:

- Sizinlə söhbətim var, gözəl qız! - deyərək oğlan ona yaxınlaşdı.

- Nə söhbət? - Sveta işindən ayrılıb oğlanı müştəri gözü ilə süzdü. Oğlan zövqünə tam uyğun gəlirdi. Beş-on dəqiqə məzələnmək olardı.

- Bu həkim, - oğlan başı ilə qapıya işarə etdi, - sizcə, sonsuzluğu sağalda bilər? Yəni demək istəyirəm ki, yanına girməyə dəyər, ya yox...

- Niyə ki? Lap əla həkimdir! - qız əda ilə cavab verdi.

-Yox, bilirsiz, mən baxıram, heç bunun yanına ağıllı-başlı bir

adam gəlmir. Düzdür, mənə tərifləditər. Mən əvvəlcə, Türkiyədən gəlmiş həkimlərin yanına getmək istəyirdim. Çox pul istədilər. Ancaq deyəsən, Ələsgər doktorun yanına kasıb-kusub gəlir. O da yəqin ki, çarəsizlikdən.

- Nə danışırsınız? - Sveta gözlərini süzdürdü. - Ələsgərin yanına lap böyük adamlar da gəlir. Elə bir həftə bundan əvvəl Niyazi Məlikxanlı özü gəlmişdi. Nazir!

- Ola bilməz! Siz məni lap doladınız. - Oğlan təəccübləndi.

- Qardaşımın canı haqqı!

Kabinetin qapısı açıldı və Elnur Qafarlı çıxdı. O, Svetaya «Sağ

olun!» deyib gedən kimi, Sveta qapıda gözləyən bir oğlanı içəri dəvət etdi:

- Buyurun, keçin!

Sonra yenə qarşısındakı oğlana baxdı:

- İndi, bu saat içəridən çıxan jurnalist idi.

Oğlan:

- Haradan bildiniz? - deyə maraqla soruşdu.

- Dörd-beş gün əvvəl də gəlmişdi. Müsahibə götürməyə.



downloaded from KitabYurdu.az

- Deməli, Ələsgər doktordan müsahibə də götürürlər? - deyə sual verən oğlan, deyəsən, lap təəccüblənmişdi.

- Bəs necə? - Sveta lovğalandı. - Qəzetlərdən çox gəlirlər.

- Bayaq kimi dediniz?... - oğlan yadına salmağa çalışdı. - Hə! Məlikxanlını. O, niyə gəlmişdi? Onun da uşağı olmur?

- Deyəsən olmur, - qız çiynini çəkdi. - Çünki o barədə analiz verdi.

-Sizgötürürsünüz... analizi?

- Mən? - Sveta əməlli-başlı utandı.

- Yox da... yəni... - oğlan izah etmək istədi.

- Ələsgər özü götürdü. Mən, sadəcə, bunun üçün lazım olan şüşə qabı gətirəndə bildim ki, analiz verir.

- Onda, deməli, məndən də götürəcəksiniz? Analizi deyirəm... Sveta gülümsəyib dərindən köks ötürdü. Bu oğlan ya sırtığın

yekəsi idi, ya da ki zır kəndçi.

- Yox! Analizi laboratoriyada götürürlər. Biz burada, ümumiyyətlə, analiz götürmürük. Doktor o kişiyə hörmət qoyub, laboratoriyaya göndərmədi. Götürdüyü nümunəni özü apardı oraya.

- Nəyi dediniz? - oğlan cəld soruşdu.

- Özünüz yaxşı bilirsiniz... - Sveta nazlandı.

- Laboratoriyada kim qəbul edir analizi?

- Cəlilov! Onu neyləyirsiniz? Məsləhət olsa, doktor özü sizi onun yanına göndərəcək.

- Vaxt itirmək nəyə lazımdır?! - «zır kəndçi» qapıya doğru getdi.

- O, sizi qəbul etməyəcək! - Sveta oğlanın dalınca səsləndi.



downloaded from KitabYurdu.az

- Eləyər! - oğlan dönüb ona əl elədi. - Puluna minnət!

Sveta onun dalınca gülməkdən uğunub getdi:

- Dəlinə şükür, ay Allah!

Bu vaxt divardakı zəngin musiqisi səsləndi. Doktor Atayev çay istəyirdi. Sveta armudu stəkana çay süzüb kabinetə girdi. Stəkanı Ələsgərin qarşısına qoyub, qayıdanda doktor onu saxladı:

- Getmə, dayan görüm!

Sveta dayanıb mütiliklə onun üzünə baxdı. Kabinetdə onlardan başqa heç kəs yox idi. Xəstə çıxmışdı. Gözlədi ki, Atayev, həmişəki kimi, onu yanına çağırıb, ayağa qalxmadan, sol əli iiə qucaqlayacaq. Elə yubkasının da bu dərəcədə qısa olması doktorun sifarişi idi... Hə... Qucaqlayıb, bir-iki kəlmə şirin söhbət edəcək, sonra isə əli ilə dalına yüngülcə vurub, «Get!» deyəcək. Ancaq deyəsən, doktorun məqsədi başqa idi:

- Bir həftə əvvəl yanıma bir kişi gəlmişdi. Vəzifəli adam... Sən onu tanıdın?

- Niyazi Məlikxanlını deyirsiniz? - Sveta cəld soruşdu. Onun sonuncu intihardan və ümumiyyətlə, baş vermiş hadisələrdən xəbəri yox idi.

- Haradan tanıyırsan onu?

- Televizorda görmüşəm. Siz də adını çəkdiniz. Mən çay gətirəndə...

- Onun buraya gəlməsini heç kəsə deməmisən ki? - Atayev hirslə soruşdu.

- Yooxl... - doktorun baxışlarından möhkəmcə qorxuya düşmüş Sveta dilləndi.

- Bura bax! - Atayev barmağını onun üstünə silkələdi. - Dilini kəsib...



downloaded from KitabYurdu.az

Axırıncı sözlərdən Sveta qıpqırmızı qızardı.

- Aydındır?! - doktor Atayev qızı sərt baxışlarla süzüb, onun öz qarşısında necə əridiyindən məmnun oldu.

- Aydındır... - qız başını aşağı dikdi.

-Get!

Sveta əsə-əsə kabinetdən çıxdı.

Bayaq onun yanından çıxan oğlan dəhlizdə qapıların üzərindəki yazıları oxuyub laboratoriyanı tapdı. İçəri daxil olub, oradakı qadından Cəlilovu soruşdu. Laboratoriyanın işçisi olan qadın yanındakı qapını göstərib:

- Buraya keçin! - dedi.

Oğlan qapını döyüb, otağa girdi. Başı tamamilə ağarmış bir kişi kompüterin arxasında oturub nəsə yazırdı.

- Buyurun, nə lazımdır sizə? - deyə işindən ayrılmadan soruşdu. Oğlan cibindən bir vəsiqə çıxarıb ona uzatdı. Cəlilov vəsiqəni

alıb, əvvəlcə oğlana, sonra isə vəsiqəyə baxdı: «Daxili İşlər Nazirliyi... Polis kapitanı Mahir Talıbov» Vəsiqəni sahibinə qaytardı.

- Eşidirəm sizi. - Bu dəfə işindən ayrıldı.

- Bir həftə əvvəl Niyazi Məlikxanlıdan götürdüyünüz analizin

nəticəsilə maraqlanıram. - Mahir Talıbov təmkinlə dedi.

- Niyazi Məlikxanlı? - Cəlilov özünü itirdi. O, Məlikxanlının dünən intihar etdiyini eşitmişdi.

- Bəli!

- Mən ondan analiz götürməmişəm. - Cəlilov qəti bildirdi. - Düzdür, onun bir həftə əvvəl bizim poliklinikaya gəldiyini eşitmişəm, ancaq özünü görməmişdim.



downloaded from KitabYurdu.az

- Özünü görməyə də bilərsiniz. Ondan alınmış spermotozoid nümunəsini sizə veriblər. - Mahir onun gözlərinin içinə baxdı.

- Xeyr! Mən qəti deyirəm. Nə özü, nə də doktor Atayev onun spermasını analiz üçün bizə verib.

- Sizə inanım?

- O nə sözdür? - Cəlilov başını buladı. - Versəydi, burada nə qəbahət var ki, gizlədəydim!

- Onda, xahiş edirəm, bu söhbət yalnız ikimizin arasında qalsın!

- Yaxşı, nə deyirəm... - Cəlilov əllərini yanlara açdı.

... Mahir Talıbov poliklinikadan çıxıb maşınına oturdu və cib telefonu ilə Qanbay Qasımlıya zəng vurdu:

- Qanbay müəllim, evdəsiniz?

- Yox! Nə olub?

- Mən poliklinikadan çıxdım. Harada görüşək?

- Düz bir saat sonra evdə olacam. Gələrsən! Mənim ehtimalım özünü doğruldur? - Qasımlı üstüörtülü sual verdi.

- Sizin ehtimalınız həmişə özünü doğruldur, Qanbay müəllim! Ancaq mən burada qəşəng bir qızla da tanış oldum.

- Sən düzəlməyəcəksən, Talıbov! - Qasımlı zarafat etdi. - Mən ömrümdə satqınlıq etməmişəm, ancaq səni Şəbinə xanıma satmalı olacam. Evdə görüşərik!..

Şəbinə xanım Mahirin həyat yoldaşı, nüfuzlu bir şəxsin qızı idi. Həm də gözəl və mehriban qadın idi. Əslində, Mahir qayınatasının adı hesabına ərköyünlük edir, işdə də heç kəs xətrinə dəymirdi. Ancaq özünü də çox istəyirdilər iş yoldaşları. Səmimiliyi və zarafatcı İlığı na görə...



downloaded from KitabYurdu.az

Geriyə bax, polkovnik!

Polkovnik Qasımlı sakit kafelərin birində, söyüd ağacının kölgəsində qoyulmuş stolun arxasında oturmuşdu. O, tək deyildi. Onunla üzbəüz, bəzi səbəblərə görə adını və peşəsini bildirmək istə¬mədiyimiz bir adam da əyləşmişdi. Əlliyə yaxın yaşı olan bu kişi tanınmamaq üçün gözünə tünd qara rəngli eynək taxmışdı.

Çay sifariş vermişdilər. Həmin adamın vacib işləri olduğu üçün tez getməliydi. Odur ki, Qasımlı giriş söhbətindən sonra birbaşa mətləbə keçdi:

- Bu saat məşğul olduğum çox vacib işlə əlaqədar, sizdən iki xahişim olacaq.

- Buyur, polkovnik, ancaq bilmək olarmı, nə işdir?

- Niyazi Məlikxanlının işi.

- Maraqlıdır... - Qara eynəkli adam başını tərpətdi. - İşə xitam verilib, məncə... Sənin o iş barədə xüsusi fərziyyən var?

- Var! - Qasımlı qısa cavab verdi.

Həmsöhbəti bir qədər susub, sonra nəyə görəsə gülümsədi:

-Yaxşı, soruşmayacam, Qara xəfiyyə, xahişini de!

Qanbay Qasımlı, lazım gəldikdə, həmin adamın işlədiyi orqanın, daha doğrusu, birbaşa həmin adamın vacib tapşırıqlarını yerinə yetirirdi. Qara eynəkli adam iş əsnasında onun xarakterini öyrənmişdi və bilirdi ki, son dərəcə zirək və prinsipial xəfiyyəyə apardığı iş başa çatmamış sual vermək mənasız şeydir.



downloaded from KitabYurdu.az

Polkovnik bir qədər ara verib dilləndi:

- Mənə müstəntiq Əlibəyli haqqında ətraflı məlumat lazımdır!

-Aha!.. - O, başını tərpətdi. Bilirdi ki, Qara xəfiyyə bunu

istəyirsə, demək bu vacibdir. - Sonra?

Qasımlı cibindən iki yerə qatlanmış bir neçə vərəq çıxarıb qara eynəkli adamın qarşısına qoydu. Bu, Məlikxanlının şəhərdə və kənd rayonlarında olan şəxsi müəssisələrinin, obyektlərinin uzun siyahısı idi. Onu bu gün nahara yaxın Qasımlıya Məlikxanlının sürücüsü Asəf çatdırmışdı.

- İkinci xahişim budur ki, bu siyahıda göstərilən obyektlərin həqiqətdə nə dərəcədə Məlikxanlıya məxsus olması gizlin şəkildə öyrənilsin. Rayonlarda olan şöbələriniz vasitəsilə, siz bunu asanlıqla edə bilərsiniz.

- Aydındır! - Qara eynəkli adam saatına baxdı. - Mənə görə daha nə qulluğun var, polkovnik?

- Başqa heç nə! - Qasımlı cavab verdi. - Bu dediklərim, iki-üç gün ərzində yerinə yetirilsə, sizə çox minnətdar olaram.

-Arxayın ol! Səni harasa aparmaq lazımdır?

- Yox, sağ olun, özüm gedəcəm.

- Onda görüşənədək!

Qara eynəkli adam kafedən bir qədər kənarda onu gözləyən gümüşü rəngli «Mersedes»ə minib getdi.

O gedən kimi Qasımlı qalxmadı. Özü üçün bir stəkan çay süzüb fikrə getdi. Ona, demək olar ki, çox şey məlum idi. Ancaq tam və əsaslı şəkildə yox! Bir-iki xırda, lakin vacib məqamı aydınlaşdırmalı idi. Bunlar aydınlaşdırıldıqdan sonra, hər şey onun dediyi kimi olsa da, hələ iş bitmirdi. Hər şeyin yuxarı orqanlar qarşısında açıqlanması lazım olacaqdı



downloaded from KitabYurdu.az

ki, məsələ öz ədalətli həllini tapsın. Qasımlı bilirdi ki, bu mərhələnin özü də asanlıqla başa gəlməyəcək.

Polkovnik Qasımlını bu işə cəlb edən Məlikxanlı, artıq həyatda yox idi. Maraqlıdır ki, onun nə oğlu, nə arvadı, nə də dostu bu işi davam etdirməyi Qasımlıdan xahiş edirdi. Rəqib qüvvələr isə, hətta onu aradan götürmək istəyirdilər. Bunlara baxmayaraq, o, başladığı işi yarımçıq qoymaq istəmirdi. Özü də bilmədən, Məlikxanlı onu çox güclü bir rəqiblə üz-üzə qoymuşdu. Qasımlı ona verilmiş qaranlıq

məsələni həll edib rəqibini ifşa etməli idi. Yoxsa o, uduzacaqdı! Uduzmaq isə istəmirdi. Bu heç də o demək deyildi ki, lovğa adam idi və başqalarının nəzərində məğlub görünmək istəmirdi. Yox, bu işdə məğlub olsaydı, bəlkə də heç kəs ona rişxənd etməyəcəkdi. Ancaq o özü özünə «Uduzdun, Qara xəfiyyə!» deyəcəkdi ki, bunu da indiyədək deməmişdi.

Ona sui-qəsd hazırlamış, evinə qatil göndərmişdilər. Onu öz yollarından süpürüb atmaq istəmişdilər. Belə olan halda polkovnik Qasımlı kənara çəkilib «Buyurun, bildiyiniz kimi edin, siz məndən ağıllı və hiyləgər çıxdınız!» deməli idi? Yox, o bunu deməyəcəkdi!

Çayın pulunu stolun üstünə atıb kafedən çıxdı. Evə getmək üçün taksi saxlamalı idi. Ancaq hava yüngül küləkli olsa da, bir az gəzmək istədi və səki ilə addımlamağa başladı. Əynində tünd boz rəngli kostyum, açıq boz rəngli köynək var idi. Qalstuk bağlamamışdı. Yüngül külək qara saçlarını qarışdırıb alnına tökür, pencəyinin ətəyini yellədirdi. Qabaq sağ tərəfdən şalvara keçirdiyi tapançası görünməsin deyə, pencəyin yaxasını düymələdi.

Birdən-birə Ramin Əlibəylini xatırladı. O bu adam haqqında nə üçün geniş məlumat toplamaq istəyirdi? Ondan nə üçün şübhələnirdi? Birincisi, ona görə ki, qaraqabaq xəfiyyə çox az adama inanırdı.



downloaded from KitabYurdu.az

İkincisi də, müstəntiqə verdiyi stəkan və pulda əl izləri tapılmamışdı. Daha doğrusu, bu əşyalar onun fərziyyəsini doğrultmamışdı. Buna görə o, hətta Fazilin yanında bir az pərt olmuşdu. Qasımlı indi Muradzadənin evindəki qayçını Əlibəylinin sərəncamına vermədiyindən məmnun idi. Adəti üzrə, heç kəsə etibar etməməyi bu dəfə də xeyrinə olmuşdu. Əlbəttə, hələ tam demək olmazdı ki, həmin qayçı nəyə yarayacaqdı.

Kvartalın tininə çatanda fikirdən ayrılıb dayandı və taksi saxladı. Arxada oturub evin ünvanını dedi. Sonra isə əllərini qoynuna qoyub yeni xəyalların dumanı içində yox oldu.

İndi, özü istəməsə də, Gülafət xanım haqqında düşünməyə məcbur olmuşdu. Ən hiyləgər adamlarla üz-üzə gəlib, onları tələyə sala bilmiş təcrübəli xəfiyyənin qadınlarla intim ünsiyyəti az olmuşdu və o, qadın xarakterinin incəliklərini bir o qədər də bilmirdi. Eyni zamanda, onu da demək lazımdır ki, hər cür kişini yoldan çıxaran qadınlarda Qasımlını çaşdıra bilməmişdi. O, həyatını sevdiyi peşəsinə həsr etmiş ciddi adam idi və onun qəlbinin qapısına yaxın düşmək asan deyildi.

Ancaq Gülafət xanım qapıya yaxınlaşmış, hətta onu bir az aralamışdı da! Bircə qalmışdı onu tamamilə açıb içəri daxil olsun.

Bunu isə Qasımlı heç vaxt istəməzdi. Bu ona lazım deyildi! O, heç vaxt evlənib, özünün daim yaşadığı cinayətlə, qanla dolu, qorxulu mühitə başqasını salmayacaqdı. Bunu dəqiq bilirdi. Bu qərara gəlmişdisə, deməli, belə də olacaqdı. Heç vaxt evlənməyəcəkdi! Əgər belədirsə, məhəbbət nəyinə lazım idi?

Ancaq Qasımlının səmimi, qəlbi, vicdanı təmiz, ağıllı, onu dərindən başa düşəcək bir qadın dosta ehtiyacı var idi. O özü bunu etiraf etməsə də, hər hansı cinayət üzrə təhqiqatı aparıb qurtarandan, cinayətkarı ifşa edəndən sonra insanların mənfi xisləti barədə qəmli fikirlərə qərq olanda belə bir səmimi insana ehtiyac duyurdu. Ürəyindəkiləri bölüşüb, yüngülləşmək



downloaded from KitabYurdu.az

üçün. Olqa öldürüləndən sonra, hələ bir dəfə də, şəxsi duyğularını kiminləsə bölüşməmişdi. Gülafət xanım belə bir dost ola bilərdimi? Qasımlının fikrincə, yox! Belə olan surətdə, onun qapını açıb qəlbində əbədi yer tutmasına imkan verilməməli idi. İradəsinin gücü ilə çoxlarını sındırmış polkovnik bunu bacaracaqdımı? Onun qəlbində Gülafət xanıma qarşı, çox kiçik də olsa, şübhələr baş qaldırmışdı. Əgər bu şübhələr kömək edə bilsəydi, yəqin ki, bacaracaqdı.

Bəs Nuranə? Ondan dost olardımı? Yox, o haradan ağlına gəldi Qasımlının? Nuranə gözəl idi, mərd və qeyrətli idi. Dünən Qasımlıya

görə necə də fədakarlıq göstərmişdi. Ancaq yox, heç vaxt! Onunla pərdəni götürmək lazım deyildi. Birincisi, o Qasımlıdan on dörd yaş kiçik idi, sonrası və daha əsası isə Fədayənin doğmaca əmisi qızı idi. Bir də ki, onun evində işləyirdi. Yox! Bu barədə fikirləşmək də yaxşı deyil! Qasımlının yenə də özünə acığı tutdu və bütün bu fikirləri başından qovmağa çalışdı.

Sürücü maşını blokun qabağında dayanmış ağ «TOYOTA»nın arxasında saxladı. Qasımlı taksidən düşüb bloka girdi. Pillələrlə yavaş-yavaş çıxmağa başladı. Elə bu vaxt «TOYOTA»nın qapısı açıldı. Kobud, qalın bığları sifətinə qorxunc görkəm verən bir kişi maşından düşdü. Bu snayper Mürsəl idi. Sükanın arxasında isə başqa bir adam oturmuşdu. Mürsəl bloka girib, səs-küy salmadan,

Qasımlının arxasınca düşdü. Qasımlı ikinci mərtəbəyə çatmışdı və düz onun qarşısında idi. Mürsəl, tərəddüd etmədən, tapançasını çıxarıb arxadan, Qasımlının ürək nahiyəsini nişan aldı...

Lakin yad maşını blokun qapısında görəndən, diqqəti arxada olan xəfiyyə ildırım sürəti ilə geri döndü və öz silahını çıxara bildi. Ancaq ürəyini Mürsəlin gülləsindən xilas edə bilsə də, sinəsini xilas edə bilmədi. Həmin an, güllə sağ çiyninin altından sinəsini dəlib keçdi.

Qasımlı ikinci gülləni atmağa imkan vermədi. Öhdəsində olan



downloaded from KitabYurdu.az

yarım saniyə vaxt ərzində, düşmənin harasını nişan almağı düşünməyə də imkan yox idi və odur ki, geri çevrilməyi ilə düşmənin alnına atəş açmağı bircə anda baş verdi. Sərrast atdığı güllə Mürsəlin gicgahını parçaladı və o, arxası üstə pilləkənə sərildi.

Qasımlı yıxılmamaq üçün divara söykəndi. Qan sinəsindən axıb köynəyini isladır, üzü aşağı süzülürdü. Pilləkən qana bulanmışdı.

«TOYOTA»nın qapısı çırpıldı və o, sürətlə uzaqlaşıb getdi. Bloka sakitlik çökdü. Mənzillərdən güllə səsinə çıxan yox idi. Qasımlı hiss etdi ki, nəfəs almağı çətinləşir. Bütün qüvvəsini toplayıb pillələri qalxmağa başladı.

«Görəsən, Nuranə gəlibmi? - deyə düşündü. - Yox, hələ gəlməz! Nemət də işdə olar... Ancaq Fədayə, yəqin ki, evdədir...»

Ona təcili yardım lazım idi. Yoxsa ölüm yaxınlaşırdı. Boğulur, gözləri toranlaşırdı. Hər şeyi dumanlı görürdü.

«Bir azdan huşumu itirəcəm! Tələsməliyəm! Az qalıb, sağdakı qapı Nemətin qapısıdır. - Divardan tutub, daha bir neçə pillə qalxdı. - Bu nədir, bloka girən bir adam da yoxdur! Mahir gəlməliydi... Yox, ona dediyim vaxtdan tez gəldim evə. O, gec gələcək. Ancaq qanın axmasını tezliklə kəsməsələr, öləcəm... - Moskvadakı mənzili gözlərinin önünə gəldi. Qan içində olan ailəsini gördü. Körpə qızını

xatırladı. Özünü saxlaya bilməyib, pilləkənə yıxıldı. - Doğrudanmı, mən ölürəm?! Deməli, mən öləcəm, o əclafda mənə rişxəndlə güləcək? Bu ola bilməz! Bu mümkün deyil!»

Dizlərini yerə verib sonuncu pillələri də qalxdı və Nemətin mənzilinin qapısına çatdı. Ayağa qalxıb zəngin düyməsini basmaq üçün adi insan qüvvəsi xaricində iradə sərf etməli oldu. Ancaq əli düyməyə çatmamış, yenə yerə sərildi. Gözündə hər şey qaranlıqlaşmağa başladı.



downloaded from KitabYurdu.az

Birdən ona elə gəldi ki, aşağıdan qışqırıq səsi gəldi. Hə, kimsə Mürsəlin meyitini görüb qışqırmışdı. İndi isə pilləkənlərlə yuxarı qaçırdı. Bədənindəki son gücünü toplayıb, özünü yaşamağa məcbur etdi. Pilləkənləri qalxan adam ona çatanda daha bərkdən çığırıb dizi üstə çökdü və onun qollarından yapışdı. Qasımlı gözlərini birtəhər açıb, qarşısında Nuranənin sifətini gördü və o anda da huşunu itirdi.

Nuranə qalxıb zəngin düyməsini basmaq əvəzinə, bütün gücü iiə qapını yumruqlamağa başladı. Qapını açan Fədayə Qasımlının qan içində olduğunu görüb, vəziyyəti başa düşdü və içəri qaçaraq təcili yardıma zəng vurdu. Sonra isə Nuranə ilə köməkləşib çox hörmət bəslədiyi bu insanın sinəsindən axan qanı kəsməyə çalışdı.

Təcili yardım maşını tez gəldi. Qanbay Qasımlını maşına qoyub

xəstəxanaya apardılar. Nuranə də onlarla getdi. Elə maşındaca Qasımlıya tibbi yardım göstərməyə başladılar. O, həyatla ölümün arasında yer tutan anlar yaşayırdı.

Fədayə Nemətə zəng vurub onu vəziyyətdən xəbərdar etdi. Nemət də Mahirə zəng vurdu və hər ikisi birlikdə özlərini xəstəxananın həyətinə çatdırdılar. Ancaq onlar Qasımlını görə bilmədilər. Onu «Reanimasiya» şöbəsinə yerləşdirmişdilər və yanına heç kəsi buraxmırdılar.

Nuranə başını yoğun şam ağacına söykəyib ağlayır, Allaha yalvarırdı: «Ay Allah, sənə qurban olum, onu ölməyə qoyma! Məni öldür, ancaq ona qıyma! Razı olma, bir əclafın gülləsindən ölsün o!»

Nemətlə Mahiri görüb gözlərini quruladı və onlara yaxınlaşdı. O da onlar kimi dayanıb gözlərini «Reanimasiya» şöbəsinin həyətə baxan, bağlı dəmir qapısına dikdi. Nə xəbər gəlsəydi, bu qapıdan gə¬ləcəkdi... Dəqiqələrin isə biri bir il olmuşdu...

Nəhayət, həkimin köməkçisi qapıdan çıxdı:



downloaded from KitabYurdu.az

- İndi gətirilən xəstənin adamı kimdi burada?

- Bizik! - Mahir cavab verdi.

- Ona qan vurmaq lazımdır!

- Niyə vurmursunuz? - Mahir əsəbi soruşdu.

- Doğrusu, yoxumuzdur... - köməkçi əllərini yana açdı. - Ancaq almaq olar... Gec olmasa...

- Məndən alın! - Nemət dedi.

- Mən verərəm! - Mahir dedi.

- Ona birinci qrup lazımdır! - köməkçi bildirdi.

Bayaqdan Nemətgildən utanıb özünü qabağa verməyən Nuranə cəld irəli keçdi:

- Mənimki birinci qrupdur!

- Gəlin! - köməkçi onu özü ilə içəri apardı.

Nuranədən qan alıb, tələsik palataya apardılar. Bir-iki tibb bacısı dəhlizdə ora-bura qaçırdı. Nəzarətsiz qalan Nuranə səndiriəyə- səndirləyə addımlayıb (Ondan normadan artıq qan almışdılar) palatanın qapısından içəri boylandı. Hündür stolun üstündə uzadılmış Qasımlının üzərinə ağ mələfə çəkilmişdi. Ağzında süni nəfəs vermək üçün qapaq var idi. Hündürdən asılmış şüşə qabdan qırmızı maye damcılayıb nazik boru ilə onun bədəninə ötürülürdü.

Tibb bacıları Nuranəni görən kimi qapıdan uzaqlaşdırdılar. O çıxışa doğru gedəndə, özünü saxlaya bilməyəcəyini başa düşüb, pəncərənin önünə getdi və üzünü pəncərəyə tutub ağlamağa başladı. Ona elə gəlirdi ki, ən əziz bir adamı ölüm ayağındadır. Göz yaşlarının



downloaded from KitabYurdu.az

qarşısını ala bilmirdi. Bu vaxt çiynində bir əl hiss edib geri döndü. Bu, şöbənin baş həkimi idi. Nuranəni yaxındakı otağa aparıb, su verdi. Suyu içməyini gözləyib soruşdu:

- Sizin nəyinizdir o?

Nuranə cavab verməyib yenə ağlamağa başladı.

Qasımlının vəziyyəti qətiyyən yaxşı deyildi. Şöbənin həkimləri öz acizliklərini boyunlarına almaq istəmir, bacardıqlarını edirdilər... Ancaq... ümid az idi.

Bu vaxt həyətə bir maşın daxil olub, «Reanimasiya» şöbəsinin qapısı yaxınlığında dayandı. Sürücünün yanında əyləşmiş gənc cəld maşından sıçrayıb çıxdı və arxa qapını açdı. Gözlərinə qara eynək taxmış bir kişi maşından düşüb Mahirgilə yaxınlaşdı.

- Polkovnik Qasımlının adamısınız? - deyə soruşdu.

- Bəli! - Mahir cavab verdi.

- Bəs onu buraya niyə gətirmisiniz?

- Təcili yardım gətirib onu...

O, daha bir söz deməyib qapıya yaxınlaşdı. Maşında onunla gəlmiş oğlan artıq qapını açdırmışdı. Onu baş həkim qarşılayıb otağına apardı.

- Bizi indicə buraya gətirilmiş yaralının vəziyyəti maraqlandırır! - qara eynəkli adam kabinetə daxil olan kimi dilləndi.

-Vəziyyəti ağırdır... - Baş həkim dedi. - Ancaq əlimizdən gələni edirik.

- Doktor, xəbərdarlıq edirəm! - kişi ciddi şəkildə barmağını silkələdi. - O, sağalmalıdır! Əgər bacarmayacaqsınızsa, deyin, tədbir görək.

- Hələlik qan vurmuşuq. - həkim inamsız cavab verdi. - Bir azdan cərrahiyə əməliyyatı keçirəcəyik...



downloaded from KitabYurdu.az

- Siz ilkin hazırlıqları görün, əməliyyat üçün başqa həkim gələcək!
- Baş üstə, cənab general!
- İndi isə, yubanmadan işə başlayın!

Qara eynəkli kişi bunu deyib, cəld otaqdan çıxdı. Həyətə düşüb maşına minən kimi, maşın hərəkətə gəlib sürətlə xəstəxananın həyətindən uzaqlaşdı.

O gedəndən azacıq sonra, müxtəlif xəstəxanalardan ən bacarıqlı həkimlər gəlməyə başladılar. Xəstəxanada bütün işçilər əl-ayağa düşmüşdülər. Cərrahiyyə əməliyyatına ciddi hazırlıq gedirdi. Qanbay Qasımlının isə bütün bunlardan xəbəri yox idi.

## XXIX Fəsil

## Kamerada ölüm

Əlikramın Qanbay Qasımlının mənzilinə soxulması və onu öldürmək istəməsi barədə heç bir orqana məlumat verilməmiş, bu hadisə barədə heç yanda danışılmamışdı. Ancaq maraqlıdır ki, səhəri günkü hadisədən, yəni Mürsəlin ölümü, Qasımlının isə ağır yaralanması ilə bitən hadisədən dərhal sonra, Əlikram tutularaq rayon prokurorluğuna aparıldı.

İstefada olan polis polkovniki Qanbay Qasımlıya edilən sui-qəsd və restoran sahibi Mürsəlin ölümü ilə əlaqədar cinayət işi açılmışdı. İşi hadisənin baş verdiyi rayonun prokurorluğu aparacaqdı. İbtidai istintaq müstəntiq Ağatural Binyətova tapşırılmışdı.

Ramin Əlibəyli Məlikxanlının xitam verilmiş işi ilə bu işin birləşdirilməsini, yaxud onlar arasında uyğunluq axtarılmasını qətiyyən istəmirdi. Onun fikrincə, baş vermiş hadisə şəxsi zəmində olmuşdu və



downloaded from KitabYurdu.az

müstəqil xəfiyyə Qanbay Qasımlının Məlikxanlı ilə əlaqədar apardığı təhqiqata heç bir dəxli yox idi. O, Binyətova elə bu cür də tapşırmışdı. İstintaqın vasitəsilə Qasımlıya edilən qəsdin «Əsl səbəbi» aydınlaşdırılmalıdır!

Dolu bədənli, yanaqları və bumu həmişə qırmızı çuğundur kimi qıpqırmızı olan Binyətov Ramin Əlibəyliyə sadiq adam idi. Və onu çox yaxşı başa düşmüşdü. Məlikxanlının artıq xitam verilmiş işi təzələnməməlidir! Bu, Əlibəyli kimi nüfuzlu adamın adına xələl gətirə bilərdi.

Müstəntiq Binyətov istintaqa Əlikramın dindirilməsi ilə başlamışdı. İndi isə Nuranəni danışdırırdı. Nuranə Qasımlının yaralanmasından bir gün əvvəl özünün başına gələn hadisəni danışıb qurtarmışdı.

Müstəntiq ilk sualı belə verdi:

- Demək, əriniz, evində işlədiyiniz adamı öldürmək istəyib. O, yəqin ki, sizi qısqanırmış. Düzdür?

- O mənim ərim deyil! - Nuranə ikrah hissi ilə dilləndi.

- Olsun keçmiş əriniz! Ancaq hər halda sizi qısqanırmış.

Elədirmi?

- Bəli... - sualın və ümumilikdə istintaqın məqsədini anlamayan Nuranə cavab verdi. - Bir dəfə demişdi ki, oraya niyə gedirsən? Amma...

- Nə amma?! - Binyətov səsini qaldırdı. - Onun narazılığına baxmayaraq, Qasımlının evində işləməyə davam etmisən. Onun isə qeyrəti buna dözməyib və Qasımlını öldürmək qərarına gəlib. Bu

birinci dəfə alınmayanda isə dostu Mürsəldən kömək istəyib.



downloaded from KitabYurdu.az

- Xeyr! - Nuranə qəti etiraz etdi. - Onlar Qanbay müəllimi başqa işə görə öldürmək istəyirdilər. Qanbay müəllim, nədəsə onlara mane olurmuş. Bu işdə, sadəcə, məndən istifadə etmək istəyiblər.

- Elə danışırsınız, elə bil körpə uşağı aldadırsınız! - Binyətov başını yırğaladı. - Öz işinizi ört-basdır etmək istəyirsiniz!

- Nə işimi? - Nuranə təəccüb etdi.

- Özün yaxşı bilirsən, işini! - Binyətov onu yırtıcı quş baxışları ilə süzüb dedi: - Nəzərinə çatdırım ki, sənin vəziyyətin o qədər də yaxşı deyil!

- Axı mən nə etmişəm?!

- Daha nə edəcəksən? Sənin ucbatından bir nəfər ölüb, iki nəfər isə yaralanıb. Həmin yaralılar da, hələ üstəlik həbsdə yatmalı olacaqlar. Əlikram sənin qeyrətini çəkmək istədiyi üçün bunlar baş verib.

Nuranə ağıllı və dərrakəli qadın idi. Özünə görə, məntiqi düşünmə qabiliyyəti var idi. Ancaq ilk dəfə idi ki, inzibati orqana çağırılır, ilk dəfə idi ki, müstəntiqlə üzbəüz əyləşirdi. O, bundan həddindən artıq sıxılır, özünü narahat hiss edirdi. Nə deyəcəyini, Qasımlını və özünü necə müdafiə edəcəyini bilmirdi. Yanında, bu

barədə ona məsləhət verə biləcək bir adam da yox idi. Bir qədər düşünüb, öz dediklərini sübut edəcək fakt tapdığına sevindi və danışmağa başladı:

- Deyirsiniz ki, Əlikram məni qısqanıb, mənim qeyrətimi çəkmək istəyib. Birincisi nə Qanbay müəllim, nə də mən onun düşündüyü adamlardan deyilik. Bizim aramızda, indiyədək, heç adicə söhbət də olmayıb. Sonrası da, əgər Əlikram doğrudan qeyrət çəkmək istəyən idisə, nə üçün məni kimsəsiz bir yerdə, əclafın birinə tapşırıb gedirdi?



downloaded from KitabYurdu.az

- Qəribə söz danışırsınız! - müstəntiq başını buladı. - Adam öz arvadını, yaxud özünə məhrəm hesab etdiyi başqa bir qadını dostuna tapşıra bilməz?

- Əlikram onun dostu deyildi, özünün dediyi kimi, iti idi!

- Yoxsa Mürsəl sənə orada pis gözlə baxıb?

- Bəli! - Nuranə düşünmədən dilləndi. - O, alçağın, qansızın biri idi. O, manyaklıq dərəcəsində qadın düşkünü idi!

- Yoxsa... Sənə nəsə edib? - Binyətov xoşagəlməz baxışla onu süzdü. O, Nuranəni öz sözü ilə dolaşdırmışdı və bu sualı verməkdə, istintaqın məqsədini unudub, başqa məqsəd güdürdü. Onun mütənasib bədəni, təbii gözəlliyi ilə diqqəti cəlb edən dodaqları, ağıllı və mənalı gözləri olan bu qadından xoşu gəlmişdi.

Nuranə onun sualına cavab olaraq:

- Yox! - dedi və qızardı.

- Xahiş edirəm, məndən heç nəyi gizlətməyin. - Binyətovun səsi yumşaldı. - Özünüz dediniz ki, o qadın düşkünü idi. Siz isə, düzünü deməliyəm ki, çox gözəl bir qadınsınız. Necə ola bilər ki...

Nuranə başını aşağı dikmişdi. Həyəcandan boğulur, bu söhbətin tez qurtarmağını arzulayırdı.

- Yox! Heç nə etməyib!

Müstəntiq Binyətov bir qədər düşünüb yenə «öz yoluna» qayıtdı:

- Onda, elə belə də deyin! Daha ölüb getmiş bir adama yüz cür böhtan atmayın! - azacıq ara verib, yenə sözünə davam etdi: - Qulaq asın! Əgər biz məsələni böyütsək, sizin də, Qanbay Qasımlının da adı ləkələnəcək. Biabır olacaqsınız! Təsəvvür edin ki, arvadından yeni ayrılmış kişi, onun gündə gedib-gəldiyi evin sahibi olan, həm də tək yaşayan kişini öldürmək



downloaded from KitabYurdu.az

istəyib. Bu nə deməkdir? Hələ mən orasını demirəm ki, Qasımlının evində axtarış aparılacaq və sizin əl iziniz olan tapança oradan tapılacaq. Bu da başqa cür başağrısı olacaq... Gəlin, özümüzü çox dolaşıqlığa salmayaq. Srz belə bir izahat yazın ki, ərinizdən ayrılandan sonra Qasımlının evində qulluqçuluq etmisiniz. Keçmiş əriniz oraya getməməyiniz barədə sizə dəfələrlə xəbərdarlıq

edib. Amma siz yenə oraya getməyə davam etmisiniz. Sonra istəyirsinizsə yazın ki, Qanbay müəllim çox yaxşı adamdır və aranızda heç vaxt, heç bir yaxınlıq olmayıb. Nəhayət, yazın ki, həmin gün oraya gedəndə Əlikramı Qasımlının mənzilində görmüsünüz. Əlikram onu öldürməyə gəlibmiş. Ev sahibi isə onu yaralamışdı və evdən qovdu. Vəssalam! Görürsünüz, hər şey həqiqətə uyğun və sizin xeyrinizədir. Həm də sizin Qanbay Qasımlının! Bunları yazın, daha başqa söhbət lazım deyil!

Nuranə başını aşağı dikib, fikrə getmişdi... Bu müstəntiq heç yaxşı adama oxşamır. Ancaq dediyi sözlər ağlabatandır. Bəlkə doğrudan da məsələni böyütmək lazım deyil?! Axı onunla Qanbay müəllimin adı birlikdə hallanıb, iş böyüsə Nuranə canından artıq sevdiyi o insanın üzünə baxa bilməyəcək?! Nə də, daha onun mənzilinə ayaq basa bilməyəcək! Bunu isə, o istəmirdi...

Kaş, Qanbay müəllim indi sağ-salamat, ayaq üstə olaydı. Onda özü bu işə bir əncam çəkərdi. Polkovnikin vurulmağından iki gün keçirdi. Cərrahiyyə əməliyyatı müvəffəqiyyətlə başa çatmışdı. Ancaq hələ də onun yanına adam buraxmırdılar. Nuranə buradan çıxan kimi, yenə xəstəxanaya gedəcəkdi. Mahirlə Nemət də növbə ilə xəstəxananın həyətində olurdular.

Başını qaldırıb, izahat verməyə razı olduğunu bildirdi. Binyətov cəld ona kağız-qələm verdi və nə yazacağını bir daha başa saldı. Qadın izahatı yazıb qurtarandan sonra, müstəntiq kreslosunda yayxanıb bir daha onu şor baxışlarının süzgəcindən keçirdi və yenə «sən»ə keçdi:



downloaded from KitabYurdu.az

- Neçə uşağın var?

-İki...

- Ərindən niyə ayrıldın?

- İçirdi... Bizi təhqir edirdi...

- İndi özünü dolandıra bilirsən?

- Bəli. Dolanırıq.

- Başqa evdə də işləmək istəyərdin?

- Xeyr! Heç vaxt! - Nuranə başını silkələdi.

- Niyə? Bəs onun evində niyə işləyirsən?

- O, əmim qızının qonşusudur. Onun mənzilində işləməyi əmim qızı xahiş etmişdi məndən. Həm də Qanbay müəllim kimi adam indi çox azdır...

- Bəs yaxşı pul versələr, necə? Bir də ki, hələ bilinmir, o öləcək, yoxsa qalacaq...

-Yox!

Nuranə hirsindən lap ağlamaq istədi. Yaman sıxılırdı bu otağın havasından, bu adamın xoşagəlməz baxışlarından. Tez xilas olmaq istəyirdi buradan. Lap tez!

-Yaxşı... Deməli belə... Aydındır... - Binyətov qırmızı sifətini qaşıdı. - Dur get! Səninlə yenə görüşəcəyik. Amma yenə deyirəm, artıq söhbət lazım deyil! Sən nə başa düşürsən, Qasımlı kimə mane olur, ya kiminləsə düşmənçilik edir? Başını ağrıdarsan. Dur get! Lazım olan kimi çağıracağam!

* * it



downloaded from KitabYurdu.az

Bir neçə saat sonra Binyətov, baş tutmamış birinci sui-qəsdin şahidi, jurnalist Nemət Sabirlini danışdırdı. Nemət üç gün əvvəl, qonşusunun mənzilində, onunla şahmat oynayarkən, Əlikramın mənzilə soxulduğunu və qonşusunu vurmaq istəyərkən Qasımlının özünü müdafiə edərək, onu yaraladığını bildirdi. Onu da qeyd etdi ki, Əlikramın özünün deməyinə görə, guya keçmiş arvadını qısqandığı üçün Qasımlını öldürmək istəyirmiş.

Nemət, sonra Nurananin gəldiyini və başına gələnləri danışdığını qeyd etdi. Nemətin fikrincə, bu, birbaşa Qanbay Qasımlını aradan götürmək üçün təşkil olunmuş iş imiş.

Binyətov gülüb başını buladı:

- Siz savadlı adamsınız. Başa düşməlisiniz ki, Əlikram qısqanclıq zəminində keçmiş arvadını da, Qasımlını da öldürmək istəyib. Sonradan ilişməmək üçün isə, dostu Mürsəllə belə bir plan qurub. Siz, izahatınızı elə bu məzmunda da yazın!

Nemət Sabirli etiraz etdi:

- Bu mənim başıma girmir. Əlikram şərəfsizin biridir və ondan qeyrət gözləmək düzgün deyil. Bir də ki, Mürsəl ona yox, o, Mürsələ tabe olub. Necə oldu ki, Mürsəl onun qeyrətini çəkmək üçün bu işə qoşuldu və axırda da özünü ölümə verdi?!

- Siz nə demək istəyirsiniz? - Binyətov ciddi tərzdə sual verdi.

- Mən, ancaq gördüklərimi və eşitdiklərimi yaza bilərəm. Onu da Qanbay müəllimlə məsləhətləşəndən sonra! Gözləyin, o sağalıb qalxsın, özü sizə daha çox şey deyə bilər.

- Bəlkə heç o sağalmayacaq? - Binyətov istehza ilə soruşdu.

- O sağalmalıdır! Əməliyyat uğurla keçib. Ən yaxşı həkimlər baxır



downloaded from KitabYurdu.az

ona.

- Sizin dostunuz sağalsa da, işi yaxşı olmayacaq. O, adam öldürüb. Birini öldürüb, birini də yaralayıb!

- Hər ikisində özünü müdafiə edib! - Nemət qətiyyətlə dilləndi.

- Bunu hələ bilmək olmaz! Həm də ki, qanunsuz silah saxlayıb.

- Onun silahı qanunidir. - Nemət bunu bildiyi üçün belə dedi.

- Evinə gəlib-gedən qadını yoldan çıxarıb!

- Bu heç vaxt ola bilməz! - Nemət ayağa qalxdı.

- Baxarıq... Deməli, siz izahat vermək istəmirsiniz...

- Mən izahat verdim!

- Yazmaq istəmirsiniz?!

- Xeyr! Bu mənim hüququmdur!

- Nə deyirəm... gedin, çağıranda gələrsiniz. Ancaq fikirləşin! Mən sizdən yalnız görüb, eşitdiklərinizi yazmağı xahiş edirəm...

Nemət prokurorluqdan dilxor halda çıxdı:

«Bunlar nə düşünürlər, nə etmək istəyirlər? Şeytan da baş açmaz

bunlardan! Bircə Qanbay müəllim özünə gəlsəydi... Ancaq gərək bir

Fazil Məmmədli ilə də məsləhətləşim...»

* * *

Binyətov Əlikramı iki gündə üçüncü dəfə idi ki, danışdırırdı. Birinci dəfə danışdıranda, Əlikram Mürsəlin göstərişini yerinə yetirdiyini, hətta Mürsəlin də başqa bir şəxsin əmri ilə hərəkət etdiyini demişdi. Binyətov bu barədə Ramin Əlibəyliyə məlumat verməyinə peşman olmuşdu. Əlibəyli hirslənib, telefonda ona ağzından gələni demişdi:



downloaded from KitabYurdu.az

- Sən orada istintaq aparırsan, yoxsa nağıllara qulaq asırsan?

Beşinci sinif şagirdi qədər savadın olmaya-olmaya o postu tutmusan, elə bilirsən işləmək asandır? Nə adam? Nə göstəriş?! Kişi öz namusunu kiminsə göstərişi ilə qorumalıdır? Sizlərdə belə olur?!

Binyətov bu sözlərdən sonra, bir daha öz payını götürmüşdü...

İndi isə sağ qolu hələ də sarıqlı olan, üç gündə xeyli arıqlayıb gözləri çuxura düşən Əlikrama baxıb sakitcə soruşdu:

- Fikirləşdin?

- Başına dönüm! - Əlikram fağırcasına dilləndi. - Axı mən kiməm ki, Mürsələ göstəriş verəydim. Vallah, o öyrətdi məni. O yazığa da həmin, dediyim adam göstəriş vermişdi.

- Kimdir axı o adam? - Binyətov səbrini basıb soruşdu.

- Mən onu iki dəfə görmüşəm. Mənim işlədiyim mağazaya gəlib. Ayaqüstü Mürsəllə danışıb, sonra da maşına minib, gedib. Ancaq bilirdim ki, Mürsəl nə edirsə, onun əmriynən edir. Ondan bərk çəkinirdi rəhmətlik...

- Sən o adamı görsən, tanıyarsan?

- Əlbəttə ki...

- Bura bax! - müstəntiq söhbəti dəyişdi. - Necə oldu ki, sən öz arvadın olmuş qadını bağda Mürsəllə tək qoyub getdin Qasımlının evinə? Buna qeyrətin necə yol verdi?

- O, daha mənim arvadım deyil axı? - Əlikram sakitcə cavab verdi.

- Sənin üçün fərqi yoxdurmu, onlar orada nə iş görüblər?

-Xeyr... Biz ayrılmışıq...

- Səncə, Mürsəl nəsə edə bilərdi ona?



downloaded from KitabYurdu.az

- Bilmirəm... Yəqin ki...

- O barədə yola gələndir?

-Kim?

- Nuranə...

- Nə bilim...

- Evli olanda necə idi?

-Yaxşı... - Əlikram başını aşağı saldı.

- Bəs niyə ayrıldın, ay axmaq?

- Özü ayrıldı. Mən istəmirdim.

Binyətov sorğu-sualdan bezib əlini stola vurdu:

- Ə, sən nə namussuz adamsan!? Mən istəyirəm sənə kömək edim, sən isə iki gündür özünü tərsliyə qoymusan. Sən onsuz da yatacaqsan, a it oğlu, it! Heç olmasa, yatanda kişi kimi yat! Bircə kəlmə yaz ki, keçmiş arvadını Qasımlıya qısqandığın üçün onu öldürmək istəmisən. Alınmayanda bunu Mürsəldən xahiş edib, ona

pul təklif etmisən.

- Mənim pulum haradandır, ay sənə qurban olum? - Əlikram əlini yellədi.

- Yaxşı, havayı xahiş etmisən. Dost kimi!

- Axı belə olmayıb!? - Əlikram ağlamağa başladı.

- Sən yaz ki, belə olub! - Binyətov bağırdı. - Belə yazmasan Mürsəlin əlaltısı kimi, Qasımlının mənzilinə soxulub ona qəsd etmək istəyən şəxs kimi türməyə düşəcəksən! Onda sənə deyəcəklər ki, arvadının qeyrətini başqasının göstərişi ilə çəkmək istəmisən. Hələ onu da bacarmamısan! Bilirsən, onda başına nə oyunlar gələcək? Ancaq mən deyən kimi yazsan,



downloaded from KitabYurdu.az

deyəcəklər ki, özünün gücü çatmayanda dostundan istifadə edib. Deyəcəklər ki, kişi adamsan!

- Balalarımın canına and içirəm, mənim bu işdə heç bir günahım yoxdur. - Əlikram zarıdı. - Məni məcbur etdilər. Mən də, Mürsəl də bircə onu bilirdik ki, o polkovnik öldürülməlidir. Mürsələ belə göstəriş vermişdilər. Mürsəl də məni məcbur elədi.

- Sən yenə öz dediyini deyirsən? - Binyətov qalxıb onu vurmaq istədi.

Ancaq nədənsə, tez də fikrindən daşındı. Sakitləşib yerində oturdu:

- Qulaq as! Mən səninlə razılaşıram. Ancaq sən də daha mənim əsəblərimlə oynama. İndi deyəcəyim şəkildə izahat ver. Sol əlinlə yaza bilmirsənsə, diktofona danış, mənim yazacağım protokola qol çək!

- Necə? - Əlikram gözünün yaşını qolunun sarğısı ilə sildi.

- De ki, Qanbay Qasımlı ilə Nuranədən söz-söhbət gəzirdi. Bu isə sənin qeyrətinə toxunurdu. De ki, özünü təhqir olunmuş hesab edirsən və bunun günahı Qasımlı ilə Nuranədədir. Sonra, guya Mürsəl sənə deyib ki, kişisənsə, gərək Qasımlını öldürəsən! Sən də onun sözüylə Qasımlını öldürməyə getdin. Ancaq alınmadı. Onda Mürsəl dedi ki, dostumun qeyrətini mən çəkəcəm. Getdi və Qasımlı onu öldürdü. De ki, Qasımlıya, Nuranəyə, hətta özünə nifrət edirsən. Eşidirsən? Özünə də! Belə desən, bu, etdiyin əməli xeyli yüngülləşdirəcək. De ki, səndə heç bir günah yoxdur. Guya sənin qeyrətini tapdalayıblar. Buna görə, həyatdan da bezmisən. Bax, diktofona bu şəkildə danışsan, sənin günahların yuyulmuş olar.

Mürsəl də öldüyü üçün iş bağlanar. Səni buraxarlar. Rədd olub gedərsən, xarabana. Mən də istəmirəm ki, sən həbs olunasan. Razısan?

- Razıyam... - Əlikram dilləndi. - Sizə yalvarıram, məni qurtarın

buradan!



downloaded from KitabYurdu.az

- O, sənin özündən asılıdır. Hazırsan?

-Bəli...

Müstəntiq diktofonu stolun siyirməsindən çıxarıb, düyməsini basdı.

- Danış! - dedi. - Nəyə görə Qanbay Qasımlını öldürmək istəyirdiniz?

Əlikram eynən müstəntiqin öyrətdiyi kimi danışmağa başladı. Danışığının sonunu o qədər təbii bitirdi ki, Binyətov özü də məəttəl qaldı:

- Əməlli-başlı artistsənmiş ki sən?!

Sonra protokol yazıb ona qol çəkdirdi. Düyməni basıb, növbətçi

polisi çağırdı və Əlikramı kameraya göndərdi.

* * *

Səhəri gün tezdən müstəntiq Binyətova xoşagəlməz xəbər verdilər. Əlikram kamerada özünü öldürmüşdü. Başını beton divara vurub parçalamışdı. Binyətov xəbəri eşidəndə yalançı bir təəccüblə ah çəkib başını buladı:

- Bədbəxt oğlu bədbəxt! Namusunun intiqamını ala bilmədi. Axırda gücü özünə çatdı... Dözə bilmədi namussuzluğa! Kişi adam

imiş!

Təklikdə qalan kimi zəng vurub bunu Ramin Əlibəyliyə çatdırdı. -Aha!... Deməli belə! - Əlibəyli cavab verdi. - Cənab Qasımlı cavab verməli olacaq buna!..

XXX Fəsil

Həkimi çağırın

Qanbay Qasımlı sürətlə sağalırdı. Xəstəxanaya gətirildiyinin dördüncü günü «Reanimasiya» şöbəsindən çıxarılıb, tək adamlıq, rahat bir palataya yerləşdirildi. Onun sürətlə sağalmasında özünün də rolu böyük idi. Dəmir



downloaded from KitabYurdu.az

iradəli bu adam bütün gücünü toplayıb bədənindəki həyat prosesini qüvvətləndirməyə çalışır, özündə tez sağalacağına inam yaradırdı. Çarpayıda hərəkətsiz uzanıb qalmağın narahatlığını azaltmağa çalışırdı. Vərdiş etdiyi siqaret və qəhvədən ayrı düşməyi də onun narahatlığını artıran səbəblərdən idi. Ancaq dözürdü. Yeganə arzusu tezliklə sağalıb ayağa durmaq, başladığı təhqiqatı sona yetirmək idi. Sonra isə, bir həftə heç bir işlə məşğul olmayıb dincəlmək istəyirdi.

Palataya köçürüləndə Mahir, Nemət və Nuranə yanında idilər. Onlar çox sevdikləri bu adamın qanı qaçmış sifətinə, kəskinliyini bir qədər itirsə də yenə ağıllı və qəmgin görünən gözlərinə baxıb baş vermiş hadisə üçün dərindən təəssüf hissi keçirirdilər. Eyni zamanda sevinirdilər ki, Qanbay müəllim ölümdən qurtarıb, yenidən həyata qədəm qoymuşdu.

Həkim Nuranəni Qasımlıya göstərib dedi:

- Bu qız, nəyinizdi bilmirəm, qanınızın tükənmək üzrə olan bir vaxtında sizə öz qanını verdi. Dostlarınız da bu üç gündə xəstəxanadan uzaqlaşmayıblar.

Qasımlı gülümsər baxışları ilə onlara minnətdarlığını bildirdi. Təşəkkür etmək üçün münasib bir söz tapa bilmirdi. Mahirin baxışlarında həmişəki kimi həyat qaynayırdı. Sevindiyi açıq-aydın hiss olunurdu. Nemət sevinirdisə də, gözlərində kədər oxunurdu. Deyəsən, dostunu itirmək qorxusu hələ tam çəkilib getməmişdi. Nuranənin rəngi ağarmışdı. Yetişmiş albalı rəngində olan dodaqları bir az solğunlaşmışdı. Yəqin, bu, qan verdiyi üçün belə olmuşdu. Mahirgilə nisbətən, bir az kənarda dayanmışdı. Həyəcanlı və narahat görünürdü. Bəlkə də dostların arasında özünü artıq hesab edirdi.

Qasımlı bu üç nəfərin üçünə də ayrılıqda nəzər yetirdi. Onlardan başqa, əslində onun kimi var idi ki?.. Bunu düşünəndə Moskvada dəfn etdiyi ailəsi yadına düşdü. Sifəti tutqunlaşdı...



downloaded from KitabYurdu.az

Birdən, nə fikirləşdisə, Nemətə baxıb soruşdu:

- Sizi danışdırıblar?

- Hə! - Nemət cavab verdi: - Ancaq mən izahat vermədim.

- İşi şəxsi zəminə yönəldirlər?

- Hə... - Nemət başı ilə təsdiq etdi.

Qasımlı üzünü kənara çevirdi. Elə bil ki, bu məsələyə görə Nuranədən utanırdı. Onu narahat etməmək üçün hamı palatadan çıxdı. Palatanın qarşısında dəhliz bir qədər genişlənmişdi ki, əmələ gələn bu meydançada divar boyu divan və kreslolar düzülmüşdü. Pəncərələrin qarşısına iki böyük gül dibçəyi qoyulmuşdu. Dibçəklərdəki güllərin süni olduğu diqqəti cəlb edirdi. Dəhlizdə sakitlik idi. Tək-tək adamlar gözə çarpırdı. Palata ilə üzbəüz meydançanın qarşı küncündəki kresloda başının yarıdan çoxu keçəlləşmiş, qırx yaşlarında kişi oturmuşdu. Əyninə geydiyi mavi rəngli köynəyin üstündən sarı qalstuk vurmuş bu kişi qəzet oxumaqla məşğul idi. Mahir Talıbov nədənsə, onun davranışından şübhələndi. Ancaq tez də fikirləşdi ki, palataların hansındasa yatan bir xəstənin adamı ola bilər.

Həkim onlardan ayrılıb kabinetinə gedəndə dedi:

- Yaxşı olar ki, gecələr biriniz gəlib xəstənin yanında qalasınız. Gördüyünüz kimi, palatada boş çarpayı da var. Düzdür, növbətçi həkim və tibb bacıları səhərə kimi öz otaqlarında oyaq olurlar. Ancaq ehtiyac olanda onları çağırmaq və bir də, xəstə su istəyəndə vermək üçün deyirəm. Hər ehtimala qarşı...

Nuranə fikirləşmədən:

- Mən gəlib qalaram! - dedi.

- Bəs uşaqlar? - Nemət soruşdu.



downloaded from KitabYurdu.az

- Onları gətirib sizdə qoyaram.

Nemətin yadına bir neçə gün əvvəl Fədayə ilə olan söhbəti düşdü. Bir söz deməyib razılaşdı. Qərara gəldilər ki, Nuranə hələlik evə getsin. Ancaq axşam düşən kimi, Qasımlının yanında qalmaq üçün qayıdıb xəstəxanaya gəlsin. Mahirlə Nemət də palataya girib polkovnikə tezliklə sağalmağı arzu etdilər və birlikdə xəstəxanadan çıxdılar. Nemət Nuranəni maşınla aparıb evlərinə qoydu.

Onlar gedəndən az sonra çiyninə ağ xalat atmış, gözlərində qara eynək olan bir nəfər, həkimlə birlikdə palataya gəldi. Dəhlizdəki kresloda oturmuş sarı qalstuklu kişi onları görəndə ani olaraq yerində qurcuxdu. Ancaq qara eynəkli adamın ona ötəri nəzər salıb palataya girdiyini görəndə, yenidən qəzeti üzünə tutub oxumağa başladı.

Həkim özü ilə gətirdiyi adamı palatada qoyub çıxdı.

Qara eynəkli adam stulu çarpayıya yaxınlaşdırıb əyləşdi:

- Salam, polkovnik, sizin burada nə işiniz var?

- İstirahət edirəm... - Qasımlı gülümsəyib cavab verdi. - Gördüyünüz kimi...

- Görürəm... - qonaq başını yırğaladı. - Ancaq mənə elə gəlir ki,

bu heç də xoşagələn istirahət deyil... - bir qədər susub, yenidən danışmağa başladı. - Mən sizi möhkəm məzəmmət edərdim, amma sizə qarşı ardıcıl olaraq təşkil olunmuş sui-qəsd məni düşünməyə vadar edir. Mənə elə gəlir ki, bu sui-qəsdlər, öyrəndiyimiz kimi, heç də şəxsi zəmində deyil. Sizin kimi ciddi adam haqqında belə düşünmək, nadanlıq olardı...

- Bəs siz nə düşünürsünüz? - Qasımlı maraqla soruşdu.

- Əslində, bu çox qaranlıq məsələdir. Mənim özüm üçün də maraqlıdır ki, siz özünüz bu barədə nə düşünürsünüz? Aydındır ki, siz indi



downloaded from KitabYurdu.az

Məlikxanlının işi ilə məşğulsunuz. Mən, artıq, bu işlə maraqlanmışam. Burada şübhə doğuran heç bir şey yoxdur.

Məlikxanlı öz imkanlarından sui-istifadə edib, tələbə qızı yoldan çıxarıb. Əlbəttə, burada onun əlaltılarının da iştirakı şübhəsizdir. Qız düşdüyü vəziyyətlə barışmayıb, özünü öldürüb və bu barədə məktub qoyub. İstintaq Məlikxanlının cinayətini sübuta yetirəndə isə o, tamamilə ifşa olunduğunu görərək, intihar edib. Buraya qədər hər şey gün kimi aydın və sadədir. Lakin sizin bu işi müstəqil araşdırmağınız və çox güman ki, məhz buna görə sizə sui-qəsd təşkil edilməsi məndə də şübhə oyadıb. Düşünmüşəm ki, bu iş Məlikxanlını rüsvay edib, vəzifədən qovdurmaq üçün də təşkil edilə bilərdi. Əlbəttə, bu çox

alçaqcasına təşkil edilmiş bir iş olardı, ancaq hər halda biz bəzi adamları, xüsusilə Cahangirovu və həmin vəzifəyə şansı olan digər adamları diqqət altına almışıq. Bununla belə, qarşıda yenə çox qaranlıq bir sual durur. Lap tutaq ki, bu təşkil edilmiş işdir, bəs onda necə olub ki, həmin qız öz xətti ilə belə bir iftira yazaraq, altında da öz adını qeyd edib?!

Qasımlı gözlərini tavana zilləyib müsahibinə qulaq asırdı. Onun qurtardığını görüb ağır-ağır dilləndi:

- Mən də bütün bunları aydınlaşdırmaq üçün çalışıram. Ona görə də sizdən kömək istəmişdim...

Müsahibi onun sözünü kəsdi:

- Sizə qarşı edilən sui-qəsd cəhdlərinin səbəbi nədir, bu bizə, əlbəttə, tam aydın deyil. Bəlkə, doğrudan da, bu şəxsi münasibətlərə görə baş verib?! Hər şey ola bilər. Hər halda, bunun səbəbini siz bizdən yaxşı bilirsiniz. Qaldı ki, təhqiqatınıza, fikrimcə, siz o qədər də düz yolda deyilsiniz.

- Niyə? - Qasımlı sakit səslə soruşdu.



downloaded from KitabYurdu.az

- Siz müstəntiq Ramin Əlibəyli ilə maraqlanırsınız. Belə çıxır ki, ondan şübhələnirsiniz. Niyə? Ona görə ki, o istintaqın yekununda sizin istədiyiniz nəticəyə gəlməyib? Nə olsun ki? Bəlkə o haqlıdır? Ya

bəlkə işin qaranlıq məqamlarından baş aça bilməyib?! Axı özünüz də təsdiq edirsiniz ki, bu iş heç də asan iş deyil. Qaldı onun haqqında məlumata, buyur, bu onun tərcümeyi-halı. O, bacarıqlı və təcrübəli bir hüquqşünasdır. Bu vaxta qədər işində hər hansı nöqsana rast gəlinməyib. Tərcümeyi-halı da ləkəsizdir...

- Bəs o biri xahişim? - polkovnik onun söhbətini yarımçıq kəsdi. Deyəsən, yenə yarası incidirdi. Üz-gözünü turşutmuşdu.

- O biri xahişinizlə isə, - müsahibi cavab verdi: - əziz polkovnik, deyəsən məni dolamısınız, ya da kimsə sizi aldadıb. Məsələ burasındadır ki, verdiyiniz son dərəcə uzun siyahıda qeyd olunmuş obyektlərin heç biri Məlikxanlıya mənsub olmayıb. Ümumiyyətlə, rəhmətlik Niyazi müəllimin heç bir şəxsi müəssisəsi yox idi. Əlbəttə, öz adına, sözsüz ki, ola bilməzdi. Ancaq heç başqalarının da adına açmamışdı. O, təmiz, həm də ehtiyatlı adam idi. Rüşvət də almırdı. Bunlardan bizim məlumatımız var... Mənə verdiyiniz siyahıdakı müəssisələr isə, hamısı ayrı-ayrı adamların adına olmaqla, əslində bir nəfərə məxsusdur: Hüquqşünas-sahibkar Ruslan Dadaşova! Mən özüm də şəxsən o adamı tanıyıram və bilikli hüquqşünas, eyni zamanda bacarıqlı iqtisadiyyatçı olduğunu eşitmişəm.

- Bəs niyə o, obyektlərini öz adına keçirmir? - Qasımlı sual verdi.

- O ki vəzifədə işləmir?

- O, deputatlığa namizədliyini verməyə hazırlaşır. Yəqin ki, bunu əvvəlcədən düşünüb. Ya da başqa bəzi məsələlərə görə öz adında çox müəssisənin olmağını istəməyib. Biz kapitalizmə yeni qədəm qoyduğumuz üçün, hələ çox şeyə alışa bilmirik. Ehtiyat edirik...



downloaded from KitabYurdu.az

- Deməli, o siyahıda olan obyektlərin heç biri Məlikxanlının olmayıb?

-Yox, əzizim, onların bir çoxunun «yalançı rəsmi» sahibi heç Məlikxanlını tanımırmış...

Qasımlı nəyə görəsə, üzünü divara çevirdi. Qara eynəkli adam onun narahatlığını hiss edib, qalxmaq istədi və mehribanlıqla «sən»ə keçdi:

- Mənə görə, nə qulluğun var? Burada sənə yaxşı baxırlarmı?

Qasımlı birdən üzünü ona çevirdi:

- Kömək edin, Əlibəylini bu işdən kənarlaşdırıb, istintaqı başqa adama tapşırsınlar!

Qara eynəkli adam gülümsədi:

- Çox kinlisən, Qara xəfiyyə! Lap dəvə kimi kinlisən! Özün bilirsən ki, sən bizə çox lazımsan və biz sənin qədrini bilirik! Ancaq bəzən lazım olmayan işlərlə məşğul olursan. Bilmirəm, bu pula

görədir, ya həqiqətən peşənə belə bağlısan, ancaq hər halda, özünü daha ciddi işlər üçün, bizim üçün qorumalısan!

- Bu ciddi iş deyil? - Qasımlı sakitcə soruşdu.

Müsahibi qaşqabağını tökdü:

- Bilmirəm, siz nə düşünürsünüz... Və onsuz da bunu deməyəcəksiniz. Ancaq sizin çalışmaqlarınız hədər olmayacaqsa, belə çıxacaq ki, ciddi iş imiş.

- Kömək etməyəcəksiniz?

- İnanın ki, bunun üçün əldə heç bir əsas yoxdur!

-Yaxşı... - Qasımlı laqeydliklə dilləndi.

- İnciyirsiniz?



downloaded from KitabYurdu.az

- Yox, niyə ki? Qətiyyən! Topladığınız məlumatlara görə çox sağ olun!

- Rişxənd edirsiniz?

- Yox! - Qasımlı gülümsədi. - Ürəkdən deyirəm.

Qara eynəkli adam ayağa qalxdı:

- Mən getdim! Özünü qoru, Qara xəfiyyə! Çalış, tez sağal!

Bunu deyib palatadan çıxdı. Palatanın qapısı yaxınlığında

həkimlə dayanmış iki nəfərə ani nəzər salıb həkimə:

- Sağ olun, doktor! - dedi və çiynindəki xalatı təhvil verərək çıxıb

getdi.

Sarı qalstuklu adam onu baxışları ilə yola salıb, yeni gəlmiş iki nəfərə göz qoymağa başladı. Onlar vəkil Fazil Məmmədli və rəhmətlik Məlikxanlının oğlu Zakir idilər. Həkimlə birlikdə palataya daxil oldular. Həkim onları doğrudan da Qasımlının çağırdığına əmin olandan sonra, çıxıb getdi.

Gələnlər stul çəkib oturdular.

- Necəsiniz, Qanbay müəllim? - Fazil mehribanlıqla soruşdu.

- Sağ olun. Pis deyiləm. - Qasımlı bunu deyib, baxışlarını Zakirə çevirdi:

- Bilirsiniz sizi niyə çağırmışam, Zakir müəllim?

- Eşidirəm sizi... - Zakir dilləndi.

- Mən mərhum atanıza söz vermişdim ki, lazımi təhqiqat aparıb, onun adını bu ləkədən təmizləyəcəm. Başa düşmədiyim səbəbə görə, o, intihar edib məni çətin vəziyyətdə qoydu. Düzdür, bundan sonra onun heç nədən



downloaded from KitabYurdu.az

xəbəri olmayacaq, ancaq bizim borcumuzdur ki, onun günahsız olduğunu sübut edək...

- Mən... - Zakir nəsə demək istədi.

- Xahiş edirəm, qulaq asın, - polkovnik narahat halda onun sözünü kəsdi. - Mən dincəlmək istəyirəm. Müstəntiq işi tələsik aparıb,

axırda da xitam verdi. İndi sizin hər ikinizdən çox şey asılıdır. Siz Məlikxanlının işinə, yəni o qızın ölüm işinə yenidən baxılmasını tələb etməlisiniz. Qoy iş başqa müstəntiqə tapşırılsın. Ramin Əlibəylidən isə, əvvəldən gözüm su içmədi.

Fazil, nədənsə, fikrə getdi. Məlikxanlının oğlu isə, tez dilləndi:

- Eşitdiyimizə görə siz çox bilikli adamsınız. Cinayət qanunlarını da əzbər bilirsiniz. Gün kimi aydın olan bir həqiqətin əleyhinə necə çıxış edirsiniz? Ekspertiza atamın günahkar olduğunu sübut etdi. İntihar etməklə, bunu özü də boynuna aldı. Daha nə qalıb ki?

- Daha nə qalıb? - Qasımlı onun sualını təkrar etdi. - İnam və mübarizə!

Zakir əsəbi halda əlini yellədi:

- Mənim nə ona inamım qalıb, nə də onun üçün mübarizə etmək həvəsim!

-Axı o sizin atanızdır?!

- Bunun məsələyə dəxli yoxdur!

- Xahiş edirəm, Fazil müəllimi dəhlizdə gözləyin! - Qasımlı baxışları ilə qapını göstərdi.

Zakir ayağa qalxıb, palatadan çıxdı.

- Siz necə? - polkovnik Fazilə müraciət etdi. - İşə təzədən



downloaded from KitabYurdu.az

başlamağa razısınız?

Fazil o saat danışmağa başladı:

- Qanbay müəllim, siz məni tanıyırsınız. Bilirsiniz ki, hələ heç bir işdə geri çəkilməmişəm. Nə də məğlub olmamışam. Boğazımdan assalar da, sözümü deyən adamam. Ancaq bu iş, indiyədək öhdəmə götürdüklərimin heç birinə bənzəmədi. Hər şey Məlikxanlının günahkar olduğunu təsdiq etdi. Mən, şəxsən sizə çox inanıram. Əgər sizdə onun günahsız olduğuna az da olsa inam qalıbsa, mən bütün qüvvəmlə yenidən bu işə başlamağa hazıram!

- Onda qulaq asın! - Qasımlı səbirlə sözə başladı. - Günü sabah aparılmış istintaqın nəticəsi barədə şikayət verin! İşi başqa müstəntiqə tapşırmağı tələb edin. Siz buna nail ola bilsəniz, böyük iş görmüş olacaqsınız.

- Arxayın olun! - Vəkil ayağa qalxdı. - Mən sabahdan aləmi bir- birinə qatıb, işi təzələyəcəm. Ancaq yadda saxlayın ki, bunu sizə inandığım üçün edirəm. Qaldı ki, nəyə inanıram, onu heç özüm də bilmirəm!

- Çox sağ olun! - Qasımlı vəkilə səmimiyyətlə təşəkkür etdi.

Sanki Fazil Məmmədli sabahdan Məlikxanlı üçün yox, onun özü üçün çalışacaqdı.

Fazil polkovnikə yüngül yataq arzulayıb palatadan çıxdı. Zakir

Məlikxanlı dəhlizdə yox idi. Onu gözləməyib, getmişdi...

* * *

Həkim bu qırmızısifət, kobud adamı, sənədlərini təqdim etməsinə baxmayaraq, palataya buraxmaq istəmirdi. Qasımlı, onsuz da, bu gün neçə adamı qəbul etmişdi və ona istirahət lazım idi. Ancaq müstəntiq Binyətov,



downloaded from KitabYurdu.az

istintaq aparmağın çox vacib olduğunu israr edib, həkimin razılığını aldı və palataya daxil oldu.

Qasımlı onu tanımırdı. Binyətov özünü təqdim edib stulda oturdu və istintaqa başladı:

-Vətəndaş Qasımlı, siz dörd gün əvvəl mənzilinizdə Əlikram adlı bir nəfəri qolundan yaralamısınız. Səhəri gün isə blokunuzun pilləkənində Mürsəl adlı şəxsi güllə ilə öldürmüsünüz. Etdiyiniz bu əməlləri nə ilə izah edə bilərsiniz?

- Mən özümü müdafiə etmişəm. Əks təqdirdə onlar məni öldürəcəkdi... - Qasımlı təmkinlə dilləndi.

- Bunu sübut edə biləcəksinizmi?

- Birinci hadisədə şahid var, ikincidə isə hadisənin mahiyyəti və motivləri özü hər şeyi sübut edir.

- Silahınız qanunidirmi?

- Bəli! Onu mənə Rusiya milisində işləyərkən, hədiyyə veriblər. Sənədi var və burada da təsdiq olunub.

- Sizin fikrinizcə, Əlikram, yaxud Mürsəl sizi nə üçün öldürmək istəyirdilər?

- Deyə bilmərəm!

-Ancaq mən deyə bilərəm! - Binyətov inamla başını yellədi. - Əlikram sizi qısqanclığa görə öldürmək istəyirmiş. O, keçmiş arvadı ilə sizin aranızda olan münasibətlər barədə gedən söz-söhbətə dözə bilmirmiş. Buna görə sizi öldürmək üçün mənzilinizə gəlib. Siz onu yaralayıb silahını almısınız. Qadınla aranızda olan münasibətlərin yayılmaması üçün, sizə edilən hücum barədə polisə də xəbər verməmisiniz. Nəhayət, Əlikram sizi öldürə bilməyəcəyini görüb, dostu Mürsəldən bunu xahiş edib. Mürsəli isə siz



downloaded from KitabYurdu.az

öldürmüsünüz. Nəzərinizə onu da çatdırım ki, bunları bizə danışan Əlikram namusunu tapdalanmış hesab edirdi və elə buna görə də kamerada özünü öldürüb...

Binyətov susub Qasımlıdan cavab gözlədi. Onun danışmadığını görüb, özü sual verdi:

- Bu dediklərimə bir sözünüz var?

Polkovnik dodaqlarını bir-birinə sıxıb, narahatlıqla üz-gözünü

turşutdu və Binyətova baxıb:

- Həkimi çağırın! - dedi.

- Nə oldu sizə? - müstəntiq təəccüblə soruşdu.

- Həkimi çağırın!

Binyətov qalxıb palatanın qapısını açaraq, dəhlizə boylandı. Tibb bacıları görünmürdü. Yalnız sarı qalstuklu bir kişi kresloda əyləşib qəzet oxuyurdu. Binyətov məcbur olub tibb bacılarının yaxınlıqdakı otağına getdi. Qapını açıb:

- Həkimə deyin ki, dörd nömrəli palatadakı xəstə onu istəyir, - dedi.

Sonra yenə palataya qayıdıb, bayaqkı stulda oturdu. Qasımlı gözlərini yummuşdu. Binyətov danışmadan gözünü ona zilləyib, həkimin gəlməsini gözləyirdi. Bir dəqiqə keçmiş, həkim palataya daxil oldu. Xəstəyə yaxınlaşıb:

- Nə olub, Qanbay müəllim? - deyə soruşdu.

Qasımlı gözlərini açıb həkimə baxdı:

- Doktor, xahiş edirəm, bunu buradan rədd edin! - dedi və yenə gözlərini yumdu.



downloaded from KitabYurdu.az

Binyətov hirslə ayağa qalxdı. Nəsə demək istəyirdi ki, həkim onun qolundan tutub palatanı tərk etməyi tələb etdi.

Binyətov xəstəxanadan çıxan kimi Ramin Əlibəyliyə zəng vurub, başına gələni ona danışdı. Əlibəyli bir az fikrə gedib, onun gözləmədiyi bir göstəriş verdi:

- Ona baş qoşma, Binyətov! İşə xitam ver, qurtarsın, getsin!

## XXXI Fəsil

## Səadət dolu gecə

Nuranə xəstəxanaya - Qasımlının yanına getməyə hazırlaşırdı. Vanna otağına girib yuyundu. Ağ rəngli köynəyini, təzə aldığı, bədəninə kip oturan «cins şalvar»ı geydi. İlk dəfə belə şalvar geydiyi üçün, özü-özündən utandı. «Belə paltarı necə geyinirlər, - deyə düşündü. - Adamın bütün əzaları açıq-aydın bilinir...» Çıxarmaq istədi. Ancaq bədənində, özündən asılı olmayaraq, xoş bir əhval- ruhiyyə baş qaldırmışdı. Burulub böyük güzgüdə hərtərəfli özünə baxdı. Deyəsən, razı qalmışdı. Bədən forması çox mütənasib və gözəl idi. Saçlarını darayıb, mavi koftasını geydi.

- Ana, nə qəşəng göründün? - Nuray anasına baxıb heyrətlə dilləndi.

- Yaraşır, Nuray? - O, birdən hiss etdi ki, uşaqlardan utanır.

- Əladır! - Tural bacısından tez dilləndi.

- Siz hazırsınız? - Nuranə soruşdu.

- Hazırıq! - dedilər.

Bu vaxt telefon zəng çaldı. Nuranə cəld dəstəyi götürdü. Xətdə kişi səsi idi:

- Nuranə xanım?



downloaded from KitabYurdu.az

-Bəli... Kimdir danışan?

- Müstəntiq Binyətovdur. Siz prokurorluğa gəlib izahat verməlisiniz.

-Axı axşama az qalıb?! - Nuranə həyəcanlandı.

- Nə olsun?! Mən işdəyəm.

- Gələ bilmərəm... - Nuranə qurumuş dodaqlarını yaladı. - Qonaq getməliyik.

- Keçmiş ərinizin özünü öldürməyini bilirsiniz?

- Yoox!... - Nuranənin bədəni qorxudan əsməyə başladı. Ona elə gəlirdi ki, əlindəki telefon dəstəyindən, bu saat ona nəsə edəcəklər. Dəstəyi yerinə tullamaq istəyirdi.

- Bəli, kamerada özünü öldürüb. Dünən gecə... Özü də sizin ucbatınızdan. Sizi gözləyirəm! İstəyirsiniz, özüm gəlib sizi maşınla gətirim!

- Yox! Yox!

- Evinizə də gələ bilərəm. Biz söhbət etməliyik. Mən sizin xeyriniz üçün çalışıram.

- Yox! Gəlməyin! Xahiş edirəm! - Nuranə daha nə deyəcəyini bilmirdi.

- Onda, sizi gözləyirəm, gecikməyin!

Binyətov bunu deyib, dəstəyi yerinə qoydu. Nuranə isə əlində telefonun dəstəyi, donub qalmışdı. Turalla Nuraya baxıb, nə deyəcəyini bilmirdi. «Əlikram özünü nə üçün öldürüb? Bu ola bilməz axı? Özü də mənə görə... Yox, burada nəsə, başqa bir şey var...»

- Ana kim idi? - Tural soruşdu.

- Heç kim! Durun, gedək!



downloaded from KitabYurdu.az

Nuranəni əcaib bir qorxu hissi bürümüşdü. Ona elə gəlirdi ki, o qırmızısifət müstəntiq artıq onu gözləməkdən bezib və bu saat özü durub buraya gələcək. Hansı ki, telefon danışığından heç beş dəqiqə də keçməmişdi. Yaxşı ki, bu gecəni xəstəxanada keçirməli idi. Qanbay müəllimin yanında heç kəsdən qorxmazdı. Həm də ondan məsləhət ala bilərdi.

Bəs atalarının ölümünü uşaqlara necə deyəcəkdi? Necə olmasa, onların ataları idi. Nuranə özü Əlikramın ölümünə təəssüflənmirdi. Əlikram onu yad kişinin ixtiyarına vermiş, üstəlik Qanbay müəllimin üstünə silah çəkib onu öldürmək istəmişdi. Zirəklik edib Mürsəlin əlindən qaçmasaydı, kim bilir, başına nələr gələcəkdi. Yox, uşaqlara heç nə deməyəcək! Qoy bilməsinlər!

Uşaqları da götürüb mənzildən çıxdı. Oradan birbaş Nemətgilə

gəldilər. Mənzilin qapısını Fədayə açdı. Uşaqların üzündən öpüb, onları içəri ötürdü. Nuranə evə girmək istəmirdi. Birbaş xəstəxanaya gedəcəkdi. Fədayə onun gözəl saç düzümünə, şux sinəsinə, şalvara çətinliklə sığan yaraşıqlı əndamına mənalı tərzdə göz yetirib gülə-gülə dilləndi:

- Günü-gündən qəşəngləşirsən, ay qız, bu nədir?
- Yaxşı görək, bəsdi sən Allah! - Nuranə qızardı.
- Nə olub, elə bil qanın qaradı?
- Heç nə... Heç nə olmayıb!
- Bax, qonşumuzdan muğayat ol, ha! Biz onu sənə tapşırmışıq.
- Yaxşı... Sən də uşaqlardan muğayat ol. Səhər gəlib götürəcəm.
- Arxayın ol! - Fədayə ona bir də mənalı nəzərlə baxıb gülümsədi.



downloaded from KitabYurdu.az

Nuranə onun baxışlarından nəsə anlayıb, duruxdu. Ancaq heç nə deməyib pilləkənlə düşməyə başladı. Pilləkənin birinci meydançasında dönəndə Fədayənin ona arxadan baxdığını gördü.

- Nə baxırsan? - yalandan acıqlandı.

- Deyirəm, kaş oğlan olaydım indi.

- Neyləyərdin?

- Hər şey!

- Heç nə eləyə bilməzdin! - Nuranə bunu deyib güldü və pillələri düşüb blokdan çıxdı.

Tez də qanı qaraldı. Binyətov yadına düşmüşdü. İndi onu prokurorluqda gözləyirdi. Yenə ürəyini qorxu bürüdü. Binyətovun özünü ədalı aparmağından, şorgöz baxışlarından əvvəldən çiyrənmişdi. «Ərsiz qadının baş saxlamağı nə çətin şey imiş!» deyə düşündü. O saat da Əlikram yadına düşdü. «Elə ərdənsə, ərsiz qalmaq min dəfə yaxşıdır». Daha orada durmayıb, xəstəxanaya yola düşdü.

... Palatada Qasımlıdan başqa heç kəs yox idi. Əllərini başının arxasına keçirib sakitcə uzanmışdı. Nuranənin palataya girdiyini görüb təəccübləndi:

- Niyə gəldiniz? - günortakı məsləhətləşmədən onun xəbəri yox idi.

- Həkim demişdi ki, birimiz gəlib yanınızda qalmalıyıq... - Nuranə özünü itirdi. Elə bil birdən-birə ayılmışdı ki, burada necə qalacaq?

Təzə geyindiyi dar paltarda Qasımlının qarşısında durmaqdan utanırdı. Əlindəki çantanı qarşısında tutsa da keçirdiyi həya hissindən qızarmışdı.

- Lazım deyil! Gedin evə! - Qasımlı üzünü qırışdırdı.

- Gecə həkim çağırmaq lazım ola bilər... Həm də mən özüm tibb bacısıyam axı?! Kömək lazım ola bilər...



downloaded from KitabYurdu.az

- Əksinə, mən narahat olacağam. Gedin evə! - Qasımlı təkid etdi.

- Sizi narahat etmərəm. Dəhlizdəki divanda oturacam.

Qasımlı cavab verməyib gözlərini yumdu. Sanki daha danışmaq istəmədiyini bildirirdi.

- Əlikram özünü öldürüb... - Nuranə astadan dilləndi. - Kamerada...

- Bilirəm... - Qasımlı gözlərini açmadan dedi.

Nuranə onun solğunlaşmış, ancaq qətiyyətini itirməmiş sifətinə tamaşa etməyə imkan qazanmışdı. Çünki Qasımlının gözləri yumulu idi və Nuranəni görmürdü. Ancaq Nuranə həyəcanlı idi. Dünyalar qədər sevdiyi bu insan istənilən anda gözlərini açıb «Niyə getməmisiniz?» deyə soruşa bilərdi. Odur ki, tələsik dilləndi:

- Müstəntiq indicə evə zəng vurmuşdu. Məni yanına çağırırdı. Təzə izahat almağa. Dedim ki, gələ bilmərəm... Yenə də təkidlə gözləyəcəyini deyib, dəstəyi asdı. Mən isə uşaqları Fədayəgilə qoyub, buraya gəldim.

Qasımlı gözlərini açıb ona baxdı:

- Lazım deyil oraya getmək! Heç bir izahat-filan da verməyin!
Nuranə özündə bir arxayınlıq hiss etdi. Sanki bayaqdan onu üzən qorxu çəkilib getmişdi. İndi özünü arxalı hesab edirdi. Fikirlərini yenə də bu ağıllı adamla bölüşmək istədi:

- O özünü niyə öldürüb, görəsən?

- Kim? - bütün fikri bu saat Məlikxanlının intihar hadisəsində olan Qasımlı qəfil soruşdu.

- Əlikram...

- O özünü öldürməyib. Onu öldürüblər!



downloaded from KitabYurdu.az

- Kim öldürüb? - Nuranə qorxuqarışıq təəccüblə soruşdu. Polkovnik əvvəlcə bir qədər susdu. Bəlkə də bunu Nuranəyə

deməməli idi. Ancaq daha demişdi. Öz-özü ilə danışırmış kimi astadan dilləndi:

- Axmaqlar... Özlərini çoxbilmiş hesab edirlər!..

Nuranə onun fikirli olduğunu başa düşüb, palatadan çıxdı. İndi də az qalırdı ki, qapıdan çıxana kimi çantanı arxasında tutsun. Ancaq onsuz da Qasımlı gözlərini yummuşdu.

Keçib dəhlizdəki divanda oturdu. Onunla üzbəüz divara bitişik kresloda oturmuş sarı qalstuklu kişi diqqətini cəlb etdi. Ona elə gəldi

ki, günorta palatadan çıxanda da həmin kişini görmüşdü. Kişi ona sınayıcı nəzərlərlə baxıb yenə öz işi ilə məşğul olmağa, yəni qəzet oxumağa başladı. Nuranə ona bir qədər göz qoyandan sonra «Yəqin ki, onun da bu mərtəbədə xəstəsi var» qənaətinə gəlib özünün şirindən şirin, acıdan acı düşüncələrinə qərq oldu.

O özündən baş aça bilmirdi... Bax, bu saat palatada uzanmış bu insan, istefada olan polis polkovniki, gecəsi-gündüzü cinayətlə bağlı düşüncələrlə keçən, Nuranədən on dörd yaş böyük olan bu kişi onun nəyidir? Atası, qardaşı, əmisi oğlu, qaynı? Yox, heç nəyi! Ancaq bu «Heç nəyi!» sözü ilə də razılaşmaq istəmirdi Nuranə. Axı insanları bir- birinə yaxınlaşdıran, doğmalaşdıran təkcə qohumluq əlaqələri deyildi. O qədər qohumlar barədə eşitmişdi ki, onlara heç yaxın adam demək mümkün də deyildi. Belə qohumlar səndən sonsuzluq qədər uzaq ola bilərlər.

Lap elə Əlikramı götürək. Əri olmuşdu. Uşaqlarının doğmaca atası idi. Ancaq onu əclafın biri ilə qaçırıb, namusunun ixtiyarını da ona verib, getdi. Bunu ən uzaq insan da etməzdi Nuranəyə, azacıq insanlığı olmuş olsaydı. Qanbay müəllim isə heç vaxt ona xəyanət etməzdi. Belə adamlara



downloaded from KitabYurdu.az

həmişə arxalanmaq mümkündür. Düzdür, o, Nuranə ilə həmişə qaşqabaqlı davranır, ancaq Nuranə inanırdı ki,

Qanbay müəllim heç vaxt onun pisliyini istəməz. Nuranə isə onu çox istəyirdi. Lap çox! Lap elə canından da çox!

Axı kimə nə dəxli var ki, Qanbay müəllim onun nəyidir? İnsan kiməsə rəğbət bəsləməlidir, ya yox? Bəlkə də Nuranə Qasımlının nəzərində adi bir qadın idi. Amma... Qanbay müəllim yəqin bilmirdi ki, adi qadın hesab etdiyi Nuranənin ürəyində onun xüsusi yeri var. Bu nə idi, görəsən? Məhəbbət? Lap belə, olsun məhəbbət! İnsan kimisə sevə bilməz? Yəni lap Nuranənin özü, ömründə heç kəsi sevməyən, məhəbbətin şirinliyini indiyədək duymayan bu yazıq, kimisə sevə bilməz? O ki bu məhəbbətini açıb, kiməsə bildirmir?! O ki Qasımlıya mane olmaq, onu yoldan çıxarmaq, fikrindən yayındırmaq istəmir?! O ki Qanbay müəllimin ancaq və ancaq yaxşılığını, xoşbəxtliyini istəyir?!

Bu sevib-sevilmək məsələsi haradan düşdü başına? Nə məhəbbət? Nuranə öz fikirlərindən utandı. Ayıbdır, vallah! Elə bircə bu qalıb! Qanbay müəllim bilsə, o mənzilin qapısı Nuranənin üzünə həmişəlik bağlanar. Heç daha üzünü də görə bilməz onun! O çox ciddi adamdır. Məhəbbət nədir? Nuranə onun xətrini çox istəyir, ona hörmət edir, vəssalam!

Nemətlə Fədayə də duysaydılar yaxşı düşməzdi heç! Deyərdilər ki... Nə deyəcəklərini bilmirdi. Ancaq... Nuranə çox istəyirdi ki, onun

bu dərdini, bəli, məhz dərdini, çünki bu istək, bu məhəbbət ona ancaq dərd verirdi, Fədayə biləydi. Biləydi, ancaq bir şərtlə ki, həm də başa düşəydi onu...

Dəhlizdə tək-tək adam gözə çarpırdı. Xəstələr, ya tibb bacıları o baş-bu başa gedib-gəlirdilər. Nuranə, artıq sarı qalstuklu kişidən əməlli-başlı şübhələnmişdi. Palatada xəstəsi olan da dəhlizdə bu qədər oturardımı? Nuranə heç! O, səhərədək yatmayıb, burada - divanda oturacaqdı. Ancaq



downloaded from KitabYurdu.az

bu kişi hərdənbir oğrun-oğrun Qasımlının yatdığı palataya baxırdı. Nuranə, birdən-birə, beyninə gələn fikirlərdən üşürgələndi. Bu adam kimdirsə, Qasımlını güdürdü. Buna heç şübhə ola bilməzdi.

O palatada Qanbay müəllimdən başqa heç kəs yatmır axı! Bax, yenə də palatanın qapısına baxdı. Qəzeti də əlində yalandan tutub.

Bu vaxta qədər on dənə qəzet oxuyub qurtarmaq olardı.

Nuranənin narahatlığı getdikcə, artmağa başladı. Bu kişi sakitlik yaranan kimi palataya girib Qasımlını öldürə bilərdi. Nuranə daha heç nə fikirləşmədən, qalxıb həkimin kabinetinə getdi. Vaxtında gəlmişdi. Həkim evə getməyə hazırlaşırdı. Nuranəni tanıdı:

- Nədir, qızım, nə lazımdır?

Nuranə fikrini ona izah etdi. Həkim məsələnin nədən ibarət

olduğunu başa düşəndə narahatlıq keçirdi. Əynindən çıxartdığı xalatı təzədən geyinib kabinetdən çıxdı və Nuranəyə:

- Gəlin mənimlə! - dedi.

Sarı qalstuklu kişinin yanına gəldilər. Həkim ondan kim olduğunu və burada nə üçün əyləşdiyini soruşdu. Həmin kişi başqa yolu olmadığını görüb cibindən bir vəsiqə çıxartdı və həkimə göstərdi. Həkim vəsiqəyə baxıb, dedi:

- Aha! Çox gözəl! Ancaq yenə də mən bilməliyəm ki, siz burada nə edirsiniz?

Sarı qalstuklu kişi əli ilə Qasımlı yatan palatanı göstərdi:

- Mən o xəstənin həyatı üçün cavabdehəm!

Həkim vəsiqəni ona qaytarıb dedi:



downloaded from KitabYurdu.az

- Lap yaxşı! Ancaq tibb bacısına mən də göstəriş vermişəm. Onun yanına yad adam buraxılmayacaq. Siz nahaq əziyyət çəkirsiniz.

- Təki siz deyən olsun! - kişi dilləndi. - Vəziyyəti rəisimə çatdıraram. Ancaq bu gecə öz növbəmi qalmalıyam.

- Yaxşı. Nə deyirəm... - Həkim Nuranəyə baxıb dilləndi və çıxıb getdi.

Nuranə təzədən divanda oturdu. O sevinirdi ki, Qanbay müəllimi qoruyan var. Ancaq eyni zamanda narahatlıq da keçirirdi. Sarı

qalstuklu kişi indi, sanki ona kinli nəzərlərlə baxırdı.

İki tibb bacısı əllərində dava-dərman Qasımlının palatasına girdilər. Nuranə onların arxasınca baxdı. Yəqin «sistem» qoşacaqdılar. Görəsən, bu tibb bacıları təcrübəlidirlərmi? Təmizkardırlarmı? Birdən necə gəldi qoşarlar, qana infeksiya keçər, ya da başqa problem yaranar. Kaş, onların yerində indi o özü olaydı. Daha diqqətlə, daha nəvazişlə qoşardı «sistemi».

Dəhlizdə daha Nuranədən və sarı qalstuklu kişidən başqa heç kəs görünmürdü. Hamı çəkilib yatmağa getmişdi. Tibb bacıları palatadan çıxdılar. Onlardan biri Nuranəyə baxıb:

- Nuranə xanım sizsiniz? - deyə soruşdu.

- Bəli, mənəm! - Nuranə təəccüblə cavab verdi.

-Xəstənizsizi çağırır.

Nuranə cəld ayağa qalxıb palataya girdi. Həyəcandan bədəni əsirdi. Əynində mavi rəngli, uzunqollu idman köynəyi olan Qasımlı başını hündür balışa söykəmiş, hava isti olduğu üçün, yorğanı, belinə qədər, aşağı çəkmişdi. Nuranəyə məzəmmətlə baxıb dedi:

- Niyə getmədiniz evə, sizin üçün əziyyətdir axı?!



downloaded from KitabYurdu.az

- Yox, vallah, heç bir əziyyəti yoxdur, Nemətlə Mahir səhər durub işə getməlidirlər... Ancaq mən...

Elə bil demək istəyirdi ki, mənim işim elə sizsiniz. Ancaq düşdüyü vəziyyətdən çox həyəcanlandığı üçün sözünün dalını gətirə bilmədi. Yenə də çantasını qabağına tutmuşdu. Barmaqları ilə çantanı didişdirirdi. Qasımlı onu çətinlikdən qurtarmaq istədi:

- Uşaqlara atalarının ölümünü bildirdiniz?

- Yox... - Qadın başını yellədi. - Demədim.

- Ölümünü, nə vaxtsa, desəniz də, belə pis adam olduğunu heç vaxt deməyin. Mənəvi cəhətdən şikəst böyüyə bilərlər.

- Demərəm...

Qasımlı bir qədər susub, gözlənilmədən dilləndi:

- İşığı söndürün, özünüz də yatın! - başı ilə boş çarpayını gös¬tərdi: - Yəqin ki, yorğunsunuz...

Nuranə istədi desin ki, yox, mən dəhlizdə gözləyəcəm. Ancaq Qasımlı sözünü elə demişdi ki, bunun qarşısında danışmağı yersiz hesab etdi. Əlini uzadıb işığı söndürdü. Otaq zülmətə qərq oldu. Qasımlının çarpayısı qapıya yaxın idi. İkinci çarpayı isə kiçik palatanın o biri başında - pəncərənin yanında idi. Nuranə ehtiyatla həmin çarpayıya yaxınlaşıb üstündə oturdu. Palatada elə sakitlik idi ki, nəfəs almağa belə çəkinirdi. Bir qədər beləcə dayandı. Görəsən soyunsunmu? O heç vaxt paltarlı yatmamışdı. Ancaq, yox, birdən

gözləri yuxuya gedər, üstünü açar. Bunu fikirləşəndə, utandığından bədəninə hərarət gəldi. Koftasını çıxarıb çarpayının başına atdı və uzanıb, nazik yorğanı üstünə çəkdi. Gözləri qaranlığa alışdıqca, otaq sanki işıqlanırdı. Pəncərədən içəri ay işığı düşürdü. Başını ehtiyatla döndərib,



downloaded from KitabYurdu.az

oğrun-oğrun Qasımlıya baxdı. Qasımlı əllərini başının altına qoyub, bayaqkı kimi, arxası üstə uzanmışdı.

O, həmin anda yenə də Gülafət xanım barəsində düşünürdü. Gülafət xanım həyat yoldaşından sonra ikinci qadın idi ki, qəlbinə bu qədər yaxın buraxmışdı. Onun nəzərində Gülafət xanım iik görünüşdən ideal və əlçatmaz bir qadın kimi canlanmışdı. Ürəyində ona qarşı yaranmış şübhələr bu ideallığı, bu əlçatmazlığı bir qədər zəiflətsə də, o gecə bağda qarşısına qəhvə fincanını qoyarkən baxışlarında duyduğu doğmalığı hələ unutmamışdı.

Qasımlı sonra onunla bir otaqda, ondan cəmi iki metr aralı uzanmış qadın haqqında düşündü. Birdən dərk etdi ki, nəyə görəsə, Nuranənin onunla bir otaqda, ikilikdə qalması ona heç də qəribə görünmür. Başa düşdü ki, öyrəşib bu qadına. Bir də onu düşündü ki, minnətdar olmalıdır Nuranəyə. Son günlər onun üçün etdiklərinə görə... Yaxşı qadındır, deyə düşündü. Onun bayaq çantanı qabağında tutmasını xatırlayıb gülümsədi.

Güllə yarasının yeri gicişməyə başladı. Qasımlı xəyaldan ayrılmalı oldu. Bu nədir? O, yəni bu qədər zəifləmişdi ki, qadınlar barədə düşünməyə başlamışdı? Daha bəsdir, yatmaq lazımdır! Tez sağalıb ayağa qalxmalı və başladığı işi davam etdirməlidir!

Qanbay Qasımlı gözlərini yumub, yatmaq qərarına gəldi və az keçmiş, doğrudan da, yuxuya getdi.

Onun sakit nəfəsindən yatdığını başa düşən Nuranənin narahatlığı azaldı. Ancaq yenə də səhərə kimi yatmadı. Ona elə gəlirdi ki, əgər yatarsa, yaşadığı bu səadət dolu gecəni itirmiş olacaq.

## XXXII Fəsil



downloaded from KitabYurdu.az

Elnur və venera

Diləfruzun iki-üç gündən sonra iyirmi yeddi yaşı tamam olacaqdı. Elnurla qərara gəlmişdilər ki, ad gününü elə həmin gün axşam öz mənzillərində qeyd etsinlər. Həm də, fikirləşmişdilər ki, məclisə az adam dəvət etsinlər. Ən yaxın dostları və qohumları.

Diləfruz indidən cidd-cəhdlə ad gününə hazırlaşırdı. Hər şey alınmışdı. Xörəkləri də özü bişirəcəkdi. Ortaboy, bir qədər sarıbəniz, ətli-əndamlı Diləfruz gözəl bir xanım idi. Özünə qulluq etməyi çox sevirdi. Baxanlara o qədər incə təsir bağışlayırdı ki, heç kim onun ev işi görməyinə inanmırdı. Ancaq Diləfruz evdə bütün işləri özü görür, dadlı xörəklər bişirirdi. O, hələ üstəlik dörd yaşında qızına, iki yaşında oğluna da layiqincə baxa bilirdi.

Orta məktəbdə müəllimə işləyirdi. Onun işləməyinə maddi tərəfdən ehtiyac olmasa da, evdə oturub qalmamaq, adam içinə çıxmaq xatirinə məktəbdə az dərs götürmüşdü. Hər gün uşaqları aparıb, yaxındakı uşaq bağçasına qoyur, axşam gedib götürürdü.

Əri Elnur Qafarlı Bakıya, Universitetdə oxumaq üçün rayondan gəlmişdi. Elə universitetdə də tanış olmuş, bir-birinə bağlanmışdılar.

Diləfruzun Bakıda sanballı vəzifədə işləyən atası onlar üçün dəbdəbəli toy etmiş, toydan sonra dördotaqlı gözəl mənzil almışdı. Hələ Elnura «Daewoo» avtomobilini də o hədiyyə etmişdi. Son vaxtlar isə, müstəqil qəzetdə işləyən və arabir bədii yaradıcılıqla məşğul olan El¬nuru yaxşı bir vəzifəyə qoymaq üçün fürsət axtarırdı. Ümumiyyətlə, Elnurla Diləfruzun işləri çox yaxşı gedirdi.

Diləfruz Elnuru dərin məhəbbətlə sevirdimi? Bunu heç özü də bilmirdi. Ancaq əsas odur ki, ona sadiq idi. Ər kimi hörmətini saxlayırdı və doğma adamı sayırdı. Onu hər işində razı salmağa səy göstərirdi. Həmişə öz gözəlliyinin qeydinə qalır, şuxluğunu saxlamağa çalışırdı. Yaxşı



downloaded from KitabYurdu.az

geyinməyə də həvəsi çox idi. Çalışırdı ki, özü də, geyimi də hamıya xoş gəlsin. Evliliklərinin ilk vaxtlarında Elnur onun geyim mə¬sələlərinə çox qarışırdı. Onu geysən yaxşı olar, bunu geyinməməyin məsləhətdir və s. Diləfruzun etiraz etməyinə baxmayaraq, fikrini əsaslandırıb onu yola gətirirdi. Son vaxtlar isə, Diləfruz yeni dəblə bir paltar geyəndə və bu Elnurun ürəyincə olmayanda, ya heç nə demir, ya da Diləfruzun ilk inadını görən kimi, «Özün bilərsən!» deyə ondan əl çəkirdi. Diləfruz bunu özünün qələbəsi kimi anlamaqda səhv edirdi. Başa düşmürdü ki, bu, Elnurun ondan yavaş-yavaş soyuması deməkdir...

... Elnur həmin vaxtlar Venera ilə təzəcə tanış olmuşdu. Veneranın oxuduğu fakültənin dekanı Elnuru yaxşı tanıyırdı. Gənc jurnalist ona əla qiymətlərlə oxuyan, fəal bir tələbə haqqında qəzetdə məqalə vermək istədiyini demiş, o da düşünmədən Veneranı məsləhət görmüşdü. Beləliklə, Elnur Venera ilə görüşüb tanış olmuşdu. Bu görüşdə Gülşən də iştirak etmiş, o da rəfiqəsi haqqında jurnalistə xoş sözlər söyləmişdi. Elnurun iik baxışdan kövrək və sadəlövh baxışlı Veneradan xoşu gəlmişdi.

İkinci dəfə qızın görüşünə fotoşəklə görə getdi. Birinci görüşdə tapşırmışdı ki, evdən özünün yaxşı bir fotoşəklini götürüb gəlsin. Bununla əlaqədar Veneranın cib telefonunun nömrəsini də almışdı. Bu görüşdə də Gülşən Veneranın yanında idi.

Üçüncü dəfə isə təklikdə, özü də universitetin yaxınlığındakı parkda görüşdülər. Məqalə qəzetdə dərc olunandan sonra Elnur 10- 15 qəzet götürüb Veneraya zəng vurdu və onu parka çağırdı. Həmin gün Gülşən dərsə gəlməmişdi və Venera sevincindən uça-uça özünü parka yetirdi. İlk dəfə idi ki, onun adı qəzetdə çəkilirdi və qız bundan sonsuz fərəh hissi keçirirdi. Müxbirin məktəbə gəlib, ondan müsahibə götürməsi barədə evdə də heç nə deməmişdi. Məqalə dərc olunandan sonra onu sürpriz etmək istəyirdi.



downloaded from KitabYurdu.az

Elnur qəzetləri qıza bağışladı və Venera da bunun üçün ona xeyli təşəkkür etdi. Bir az ordan-burdan söhbət etdilər. Daha doğrusu, Elnur danışır, qız isə ona maraq və pərəstişlə qulaq asırdı. Bir saat vaxtın necə gəlib-getdiyini hiss etmədilər. Söhbətin axırına yaxın, Elnur hansısa maraqlı kitabdan söhbət salmışdı və söz verdi ki, onu Veneraya çatdıracaq. Beləliklə, cəsarət göstərib sabah dərsdən sonraya həmin yerdə görüş təyin etdi.

Venera həmin görüşə Gülşənlə gəldi. Bu dəfə havanın soyuq olmasına baxmayaraq, xeyli oturdular. Söhbət əsnasında Gülşən Elnurdan evli olub-olmadığını soruşdu. Elnur indi də tam anlaya bilmirdi, necə oldu ki, özünü subay kimi təqdim etdi. Bəlkə də o vaxt Elnurda elə bir fikir formalaşmışdı ki, evliliyini bildirən kimi qızlar ondan uzaqlaşacaqlar.

Ondan sonra görüşlər çoxalmağa başladı. Hər şey barədə danışırdılar, bircə özlərinin münasibətlərindən başqa. Bu barədə hələ ki, susurdular. Bu görüşlər Elnura doğrudan-doğruya ləzzət verirdi. O, bu gənc, ağıllı və sadəlövh qızın ona laqeyd olmadığını duyur, bundan böyük zövq alırdı.

Venerada isə özünü subay kimi tanıtmış bu yaraşıqlı oğlana qarşı istək oyanmışdı. O, Elnurla söhbət etdikcə, bu vaxta qədər duymadığı

xoş hisslərin burulğanına düşürdü. Həmin burulğan onu məhəbbət okeanının dərinliklərinə aparırdı ki, bu dərinliklərdə gördüyü yeni aləm ona maraqlı gəlirdi. Hərdən ata-anasının verdiyi tərbiyənin canında yaratdığı qorxu və intizam hissi onu üzüb bu okeanın səthinə çıxmağa məcbur edirdi. Bu zaman o, bir müddət, ayıq başla, öz hərəkəti barədə düşünürdü. Bu düşüncələrin də sonu, çox vaxt, özünə haqq qazandırmaqla bitirdi. Axı o, gec-tez, universiteti bitirəndən sonra ailə qurmalı olacaqdı. Bu, həyatın qanunu idi. Ailə qurmaq üçün isə bir oğlanı sevməli idi. Ola bilməzdi ki, bəxtinə çıxacaq həmin oğlan Elnur olsun? Ondan yaxşısını sevməyəcəkdi ki? Bu düşüncələrdən sonra özü yenidən dəryaya baş vurur, həmin burulğan onu yenidən dərinliklərə aparırdı.



downloaded from KitabYurdu.az

Elnur hələ ki, qıza sevib-sevilmək barədə bir söz deməmişdi. Əl- ayaq hərəkətlərindən isə, söhbət belə ola bilməzdi. Venera elə qızlara oxşamırdı və Elnur, hələ ki, onun əlindən də tutmamışdı. «Sevirəm» sözü isə Elnurun qorxduğu sözlərdən biri idi və düşünəndə ki, Diləfruz xəbər tuta bilər, öz özündən qorxuya düşürdü. Hələ qayınatası... Vəzifəsi, imkanı, səlahiyyəti bir yana dursun, çox qeyrət gözləyən kişi idi. Ciddi bir şey eşitsəydi, Elnurun atasına od vurardı...

Ancaq Elnurun xəbəri yox idi ki, öz xarici görkəmi, şairanə

danışığı, nəhayət, bu vaxta qədər səbir edib qızla pərdəli danışmağı ilə Veneranı ovsunlayıb və qız artıq öz qəlbində onun üçün yer ayırıb

Yaman kövrək idi yazıq qız. Kövrək, həm də sadəlövh. Bir də ki, ölümdən necə qorxurdu, ay Allah! Bir gün aralarında belə bir söhbət oldu. Həmin söhbətdən sonra Elnur qız üçün bir az da doğmalaşdı. Həm də bir qədər açılışdılar o gün. Səmimiyyət yarandı aralarında.

Elnur söhbəti haradan başlamışdısa, yadında deyil, axırı gəlib o yerə çıxdı ki, insanlar hamısı gec-tez ölməlidirlər. O danışırdı, qız isə diqqətlə qulaq asırdı. Elnur bir də baxıb gördü ki, Veneranın gözləri dolub.

- Sənə nə oldu, Venera? - deyə soruşdu.

- Heç... - Venera başını yavaşca buladı.

Elnur əlini uzadıb onun gözlərindən süzülən iki damla yaşı sildi:

- Ölümdən danışdığıma görə narahat oldun?

- Elə bil ürəyimə damib ki, - Venera astadan dilləndi. - Mən tez öləcəyəm.

- Bu haradan ağlına gəlib ay qız? - Elnur gülüb, onu da güldürmək istədi. Ancaq alınmadı.



downloaded from KitabYurdu.az

- Keçən il binamızda bir cavan qız öldü. Xəstəlikdən... Bəlkə də ondan sonra məndə bu qorxu yarandı. Özü də elə qorxuram ki, bunu

düşünəndə!.. Ölürsən, aparıb səni qəbrə qoyub qayıdırlar evə. Tək qalırsan...

- Qəbrə qoyulan artıq sən olmursan ki?! - Elnur dilləndi. - Sənin cansız bədənin olur. Ruhun isə fəzada qalır.

- Sən ruha inanırsan? - Venera maraqla soruşdu.

- İnanıram! - Elnur cavab verdi. - Ruh bizim əsl varlığımızdır. Əlbəttə, çoxlarının düşündüyü kimi, o nə görə, nə də eşidə bilər. Ruh... sənə necə izah edim, mənim fikrimcə, radio dalğaları kimi qəribə bir şeydir. Nə görünür, nə eşidilir, nə duyulur... ancaq var! Bax, bu saat əlimizdə radioqəbuledici olsa, biz onu işə salıb, tutaq ki, İstanbuldan verilən radio verilişinə qulaq asa bilərik. Bu o demək deyil ki, bizim radioqəbuledici bircə anda özündən şüa buraxıb İstanbula çatdırdı. Yox, oradan fəzaya buraxılmış radio dalğalar bu saat bizim yanımızda, bizim ətrafı mızdadır. Fəzanı doldurub, ancaq görünmür. Radio cihazı isə onu tutub dilləndirə bilər. Gələcəkdə elə cihaz ixtira olunacaq ki, o da insan ruhlarını danışdıracaq və hətta göstərəcək...

-Yaxşı, Elnur, ruhdan danışma! - Venera qorxa-qorxa dilləndi. Ancaq tez də, nə düşündüsə, sual verdi: - Adam öləndə, görəsən, doğrudanmı Əzrail gəlib onun qarşısında durur? Deyirlər, həmin anda adam Əzraili görür, hə?

Elnur güldü:

- Sənə ölüm yaraşmır, Venera! Sən yaşamaq, xoşbəxt olmaq üçün yaranmısan. Bax, təsəwür et ki, Əzrail mənəm, Allah da məni göndərib səni öldürməyə. Mən heç vaxt sənə qıymaram. Çünki sən qəşəng, həm də ağıllı qızsan.



downloaded from KitabYurdu.az

- Onda Allah da səni cəzalandırar! - Venera dilləndi.

- Cəzalandırsa, uzaq başı, adama çevirib, yenə adamların içində yaşamağa göndərəcək. Adəm və Həvva kimi...

- Allah göstərməsin! - Venera başını buladı. - Onda Əzrail daha çox adam qırar. Elə öz yerində, öz vəzifəsində qalsa yaxşıdır.

Gülüşdülər... Söhbətin axırını zarafata çevirsələr də, Veneranın o günkü sözləri indiyə kimi dəqiq yadında qalmışdı Elnurun...

O söhbətdən üç gün sonra yenə həmin yerdə görüşmüşdülər. Onda da yenə Elnur nədənsə danışırdı. Venera istək dolu baxışlarla baxıb, qulaq assa da bir az fikirli görünürdü. Əlində qalın dəftər var idi. Mühazirələri qeyd etdiyi dəftər. Sonra qələmini çıxarıb dəftərə nəsə yazdı. Elnur onun nə yazdığını görmədi və nə də buna elə bir əhəmiyyət vermədi. Bir azdan Venera dəftərindən bir vərəq cırdı və onu iki yerə qatladı. Ayağa qalxanda ovcunda büküb skamyanın yanındakı zibil qutusuna atdı. Elnur onu metro stansiyasına qədər

ötürüb, parkın yanında saxladığı maşının yanına qayıtdı. Onda Venera hələ bir dəfə də onun maşınına minməmişdi. Hə... Maşının yanına qayıtdı və birdən yadına düşdü ki, axı Venera vərəqə nəsə yazıb, bir qədər əlində saxlamışdı. Sonra nəyə görəsə ayağa qalxanda onu büküb zibil qutusuna atdı.

Tənbəllik etməyib həmin skamyanın yanına qayıtdı. Həmin kağızı çətinlik çəkmədən tapdı və əlində hamarlayıb oxudu. Kağızda iri hərflərlə yazılmışdı: «Elnur, mən səni sevirəm, özü də çox!». Elə beləcə yazılmışdı. Nə artıq, nə əskik... Elnur öz daxilində qəribə, xoş hisslər keçirtdi onda. Venera gözündə bir az da gözəlləşdi, bir az da şirinləşdi. Ancaq həm də içində eqaist və xəbis duyğular baş qaldırdı. Bəli, yarandı yox, baş qaldırdı. Çünki hər bir insanda belə mənfi hisslər, mənfi xüsusiyyətlər olur. Kimində lap dərində, kimində üzdə, kimində isə



downloaded from KitabYurdu.az

ortalarda, silkələnən kimi üzə çıxır. Fəxr etdi ki, belə bir gözəl və cavan qız onu sevir, həm də düşündü ki, bu gözəl və cavan qızla əylənmək daha heç də çətin görünmür.

Özü də, necə əylənmək?! Bir var, əyləndiyin qız pula görə sənə yaxınlıq verə, bir var, öz ehtirasını müvəqqəti söndürməyə görə, bir də var səni sevdiyinə görə... Bu axırıncısını, Elnur lap möcüzə sanırdı.

Bir neçə gündən sonra Elnur həmin kağızı zibil qutusundan

götürməyini qıza dedi. Onda necə də qızardı Venera, necə də pərt oldu?! Ancaq hər halda, aralarındakı münasibət də birdəfəlik müəy-yənləşdirildi. Elnur da onu sevdiyini bildirdi və onlar bir-birlərinin «halal» sevgililəri oldular.

Elnur həmin vaxtlar lap «göylə gedirdi». Gözəl, təmiz və işgüzar arvadı, evi-eşiyi, altında maşını, dalında onun üçün sanballı iş axtaran dağ boyda qayınatası, bu yandan da bu cür qəşəng, gül qönçəsi kimi sevgilisi...

Sonra, hərdən kafeyə-filana da getməyə başladılar. Hələ bir dəfə Gülşəni də özləri ilə apardılar.

Görüşlər zamanı Elnur Veneranın, yaşıl örtüyünün altından təzəcə baş qaldırmış qızılgül qönçəsinə oxşayan dodaqlarına, nağıllar aləmindən xəbər verən sinəsinə, oradan da ayaqlarına qədər hər ye¬rinə oğrun-oğrun nəzər yetirir, düşünürdü ki, belə bir qıza hərtərəfli sahib olmaq üçün kimsə milyonlarını tökməlidir. Ancaq Venera artıq, heç nəsiz, təmənnasız onun idi və bunu düşünəndə Elnur nəşə çəkmiş adamlar kimi xumarlanırdı.

O, əlbəttə, hərdən işin dalını da fikirləşirdi. Düşünürdü ki, qızın bakirəliyinə toxunmadan, bir müddət onunla əylənər, sonra isə bir bəhanə tapıb uzaqlaşar. Başqa cür ola da bilməzdi. Öz arvadı ola-ola,

təzədən bununla evlənməyəcəkdi ki?!



downloaded from KitabYurdu.az

Venera isə özünü, həqiqətən xoşbəxt sayırdı. Bütün qəlbi, bütün vücudu ilə sevdiyi oğlanla nişanlanacağı günü gözləyirdi. Ürəyindəkiləri, hələlik, Gülşəndən başqa heç kəsə açmamışdı. Elnura olan məhəbbətini ürəyində sirr saxlayırdı və düşünürdü ki, belə sim saxlamağın da öz gözəlliyi, öz ləzzəti var imiş.

Bir gün, bu ilin yazının əvvəlində, Elnur Veneranı dərsdən çıxarıb, öz maşınında bağa apardı. Dedi ki, gedək, bağımızı sənə göstərim və Venera da razılaşdı. Qız onda ağlına heç nə gətirmirdi. Çünki çoxsaylı görüşlərində Elnur onun əlini tutmaqdan irəli bir addım da atmamışdı.

Bağ mövsümü olmadığı üçün bağda heç kəs yox idi. Həyəti gəzdilər, çıxıb evə baxdılar. O gün Venera əvvəlkilərdən də gözəl görünürdü. Bahalı cins parçadan qısa yubka və həmin parçadan gödəkcə geyinmişdi. Gödəkcənin altından geydiyi ağ köynəyin yuxarıdan iki düyməsi açıq idi. Həmin yerdən, hamı üçün qadağan olsa da, Elnur üçün mümkün sayılan sahəyə girmək üçün yol görünürdü.

Elnur onu buraya boş yerə gətirməmişdi. Söhbəti elə parkda da, kafedə də eləmək olurdu. Burada isə, heç olmasa, bağrına basıb doyunca öpmək istəyirdi qızı. Düzdür, bakirəliyinə xələl gətirmədən,

daha dərin məhəbbət oyunları oynaya bilərdi. Ancaq bunlar hələ tez idi onun fikrincə. İlk dəfədən Veneranın gözündən düşə bilərdi...

- Necədir, bağımız xoşuna gəldi? - deyə qızdan soruşdu.

- Hə, yaxşıdır! - Venera razılığını bildirdi.

- Evlənəndən sonra bura bizim olacaq!

-Allah qoysa... - Venera qızarıb cavab verdi.

Elnur qəflətən onu qucaqlayıb bərk-bərk sinəsinə sıxdı və öpməyə başladı. Venera əvvəlcə, nə qədər dartınsa da, dodaqlarını ondan qopara bilmədi. Elnur da özünü unutmuşdu və bədəninin titrədiyini hiss edirdi.



downloaded from KitabYurdu.az

Nəhayət, qız dartınıb onun əlindən qurtardı. Qaçaraq həyətə, oradan da bir baş çölə çıxdı. Elnur bərk dilxor oldu: «Bu haraya qaçdı? Bəlkə mən tələsdim?»

O, birdən ayılan kimi oldu və fikirləşdi ki, bu işlərin axırı necə olacaq? Axı o, Venera ilə heç vaxt evlənə bilməyəcəkdi?! Bəlkə nə qədər gec deyil, bu görüşlərə son qoysun?! Axı Venera da yoldan ötən qızlardan deyildi! Tanınmış bir adamın, doktor Muradzadənin qızı idi!

Narahat halda həyətə düşüb, darvazadan küçəyə çıxdı. Veneranı darvazadan on-on beş metr aralı, başını aşağı dikib dayanmış görəndə, ürəyi bir az rahat oldu. Asta-asta yaxınlaşıb qızın əlindən

tutdu. Venera əlini çəkmədi. Bundan cəsarətlənən, ehtirası yenidən baş qaldıran Elnur onun çiynindən tutub özünə sıxdı və evə apardı. Veneranın həyəcandan çiyinləri titrəyirdi. Elnur bunu açıq-aşkar duyur, özünə bu saat dünyada hamıdan yaxın hesab etdiyi bu qızın ona məxsus olduğunu başa düşürdü.

Veneranı divanda, öz yanında otuzdurub:

- Axı biz bir-birimizi sevirik, sən niyə məndən qaçırsan? - dedi və yenə onu qucaqlayıb öpməyə başladı. Bu zaman necə oldusa, Veneranın yubkası yuxarı sıyrıldı və ağ rəngli, dar alt paltarı açıqda qaldı. Elnur daha özünə nəzarət edə bilmədi...

... Bir saat sonra bakirəliyini itirmiş qız divanda oturub əlləri ilə üzünü tutaraq ağlayırdı:

- Sənə qurban olum, Elnur, tezliklə nişanlanaq, vallah, atam öldürməsə də, qardaşım məni öldürər!

Elnur işini ehtiyatlı tutmuşdu. Venera uşağa qala bilməzdi. Bunu ona başa salmaqla, həm də arxayın elədi:

- Narahat olma, necə istəsən, elə də olacaq.



downloaded from KitabYurdu.az

Sonra, bu əhvalat beş-altı dəfə təkrar olundu. Hər dəfə, sadəlövh qız eyni sözlərlə Elnura yalvarır, Elnur isə hər dəfə söz verirdi. Ancaq daha bu nişanlanmaq söhbəti onun zəhləsini tökməyə başlamışdı... İş

uzandıqca ciddiləşər, əlaqələri getdikcə çoxlarına məlum olardı. Diləfruz, ya Diləfruzun atası bu əlaqələrdən xəbər tutsaydı, qiyamət qopardı. Həddindən artıq qısqanc olan Diləfruz, lap yəqin, ondan boşanardı. Qayınatasının ona vəzifə verməsi də xəyala çevrilərdi. Hələ, üstəlik, Elnurun başına oyun açardılar...

... Elnur Qafarlı qapıdan çıxmaq istəyəndə, Diləfruzun səsi onu saxladı:

- Bəs, sən kimləri dəvət edəcəksən ad günümə?

Elnur dayanıb bir az fikirləşdi və saymağa başladı:

- Rayondan atamla anam mütləq gələcəklər. Onlar səni çox istəyirlər. Hər il olduğu kimi, bu il də çağırılmamış gələcəklər... Sonra bir iş yoldaşımı dəvət edəcəm. Yəqin, arvadı ilə gələr. Toylarına getmişdik ha, onlar... Birdə...

«Görəsən, onu dəvət edimmi?.. Yox, o canavarın biridir. Üç ildir tanışıq, hələ evə dəvət etməmişəm. Lazım deyil! Heç qayınatamla, atam da bəyənməzlər onu...»

Elnur bir neçə gün əvvəl restoranda görüşdüyü adam haqqında fikirləşirdi. Qızıl sağanaqlı eynək taxan həmin adam haqqında...

Onunla da müsahibə götürməklə tanış olmuşdu. Eşitmişdi ki, pula pul demir, həm də əliaçıqdır. Bir bəhanə tapıb, yanına, müsahibə

almağa getmişdi. Yaxşı pul verdiyi üçün, ikinci, üçüncü dəfə də getdi. Üçüncü dəfədə, indi öz aralarında «şef» adlandırdıqları adam, oturduğu yerdən onu baş-ayaq süzüb:

- Sən, nə sürtük adamsan! - dedi.



downloaded from KitabYurdu.az

Elnur bu sözlərdən möhkəm pərt olsa da, onun qarşısına üzərində Franklinin portreti olan iki göy kağız tulladığını görüb dinmədi və pulu götürüb getmək istədi.

Ancaq həmin adam onu saxlayıb söhbətə tutdu və aralarındakı yaxınlıq beləcə yarandı. Bu yaxınlığa, qətiyyən, dostluq demək olmazdı. Elnur özü də başa düşürdü ki, onun dostu yox, quludur, nökəridir!

Əvvəllər, onunla bir süfrədə oturmağıyla da fəxr edirdi. Onun danışdığı hər sözə ləzzətlə qulaq asırdı. Onun köməyilə yüksələcəyinə, varlanacağına inanırdı. Sonra, bir az anladı ki, onsuz da Diləfruzun atası onun üçün hər şey edir və edəcəkdi də! Elnur, əslində, orta ziyalı təbəqənin adamı idi və qurd xislətli adamlarla onunku tuta bilməzdi. Ancaq iradəsi zəif olan Elnur həmişə özünü taleyin öhdəsinə buraxmağa adət etmişdi. Elə həmin adama qoşulanda da, düşünmüşdü ki, onun vasitəsilə yaxşı pul qazanmağın yoluna düşə bilsə, lap yaxşı, düşə bilməsə, qayınatasının göstərdiyi

yolla gedər.

Sonra, elə oldu ki, həmin adam Veneranı da tanıdı və məsələni bildi. Elnura incəliklə anlatdı ki, istəsə onun sinini aça bilər...

Ehtiyatda yaxşı planı da var idi əclafın. Sirri açıb Elnuru rüsvay edər, bu yandan da Veneranı atası ilə qorxuzub öz məşuqəsinə çevirər. Bütün bunlar onun əlində çox asan bir şey idi və onsuz da ondan asılı olan Elnur bu söhbətdən sonra daha da asılı vəziyyətə düşdü.

«Yazıq Venera! - deyə birdən-birə fikrindən keçirtdi və elə fikrindəcə həmin adamı asıb-kəsdi: - Yırtıcı!»

Yox, onu dəvət etməyəcək! Qərarını qətiləşdirib Diləfruza bildirdi:

-Vəssalam! Mən başqa adam çağırmayacam. Sən özün, kimi istəyirsən, dəvət elə!



downloaded from KitabYurdu.az

- Mən məktəbdəki müəllimə yoldaşlarımdan dəvət edəcəm. Bir-ikisini. Atamgil, qardaşımgil də ki, öz yerində! Onlar mütləq gələcəklər!

- Lap yaxşı, özün bil!

Elnur Qafarlı onu qapıya qədər ötürən qızının üzündən öpüb, evdən çıxdı.

İş təzələnir. Qaçış

Mahir Talıbov palatada, dostunun çarpayısının yanında oturub, son günlər baş vermiş yeniliklər barədə ona məlumat verirdi. Qanbay Qasımlı artıq bir həftədən çox idi ki, xəstəxanada yatırdı və bu müddətdə Mahirlə Nemət xəfiyyənin əsas hədəfi olan Mürsəl, doktor Atayev, Elnur Qafarlı haqqında məlumatlar toplamışdılar.

Ancaq əsas xəbərlər Fazil Məmmədlinin gördüyü işlər barədə idi. O, son üç-dörd gündə çalışıb, yuxarı orqanlarda əməlli-başlı hay-küy qaldırmışdı. Respublika prokurorluğuna yazdığı şikayət əsasında, Məlikxanlının cinayət işinə yenidən qayıdılması qərara alınmış, istintaqa rəhbərlik Ramin Əlibəylidən alınıb, bacarıqlı və prinsipial müstəntiq Səyavuş Nəzərliyə tapşırılmışdı.

Fazil işin Əlibəylidən alınması üçün ərizəsində bacardığı qədər tutarlı faktlar göstərməyə çalışmışdı. Veneranın intihar etdiyi gün, ölümündən bir saat əvvəl onun yanında başqa adamın olması barədə müstəntiqə məlumat verilməsini, lakin bunun müstəntiq tərəfindən araşdırılmadığını daha ciddi əsas kimi qeyd etmişdi. Bundan başqa, müstəntiqə verilmiş stəkan və pulun ekspertizada özünü

doğrultmaması faktı da, baxmayaraq ki, vəkil üçün, ümumiyyətlə, aydın deyildi, şikayətdə Əlibəylinin əleyhinə çevrilmişdi. Bu və şikayətdə göstərilmiş başqa ittihamların nəticəsində işin Ramin Əlibəyli tərəfindən çox yarıtmaz aparıldığı təəssüratı yaradılmışdı. Beləliklə, Ramin Əlibəyli istintaqdan kənarlaşdırılmış, Səyavuş Nəzərlinin başçılığı ilə əməliyyat-istintaq qrupu yaradılmışdı.



downloaded from KitabYurdu.az

Məsələdən xəbərdar olan prezident, hər şeyin, təcili olaraq, son dərəcə dəqiqliklə yenidən araşdırılması və əsl həqiqətin üzə çıxarılaraq, günahkarların cəzalandırılması barədə ciddi göstəriş vermişdi. Artıq iş şəxsən onun nəzarəti altında idi...

Bu baxımdan müstəntiq Səyavuş Nəzərlinin üzərinə son dərəcə ağır və məsuliyyətli bir iş düşmüşdü. O, cinayət işində toplanmış sənədlərlə tanış olaraq, işin bir qədər üzdən aparılması qənaətinə gəlsə də, şübhəli bir şeyə rast gəlməmişdi. Ancaq bu tərəfdən də Fazil Məmmədli öz şikayətində aləmi qatıb-qarışdırmışdı. Kimə inanmağı qət etmək çətin məsələ idi.

Buna görə də, Nəzərli, iş haqqında daha çox bilgiyə malik olan xəfiyyə ilə görüşməmiş, hərəkətə başlamaq fikrində deyildi. Əsas da ona görə ki, o, istintaqın təzələnməsində, Əlibəylinin istintaqdan uzaqlaşdırılmasında əsas rol oynamış şikayətin kökündə vəkildən

çox, Qanbay Qasımlının durduğunu hiss etmişdi.

Qasımlı Mahirə diqqətlə qulaq asıb, fikrə getdi. Deməli, Fazil Məmmədli ona tapşırılan işin öhdəsindən layiqincə gəlmişdi. İndi, artıq, daha ciddi mübarizəyə başlamaq vaxtı idi. O isə gərəksiz halda çarpayıda uzanmışdı. Düzdür, aldığı güllə yarası, artıq, sağalmaq üzrə idi. Ancaq müalicə hələ davam edirdi. Çoxlu qan itirmiş Qasımlı qüvvəsini və sağlamlığını bərpa edə bilməmişdi.

Polkovnikin fikrincə, işlər pis getmirdi. Bircə, Məlikxanlının intihar etməsi onun fikirlərini dolaşdırırdı. Buna görə, təcrübəli xəfiyyə baş vermiş cinayətin ümumi mahiyyəti ilə bağlı düşüncələrində yüz faiz əminlik əldə edə bilmirdi. Özü üçün, guya dəqiqləşdirmiş olduğu fikirlərə də şübhə ilə yanaşırdı. Nəyə görə? Təkcə Məlikxanlının özünə qəsd etməsinə görəmi? Bəli, deyəsən, elə idi. Axı o, niyə bir qədər səbir edə bilmədi? Yəni onun əsəbləri bu qədərmi pozulmuşdu? Yəni o,



downloaded from KitabYurdu.az

doğrudanmı yüksək peşəkarlığa malik kriminalistə də öz inamını itirmişdi? Ya bəlkə intihar etməsinin tamam başqa bir səbəbi vardı?..

Mahir dostunun fikrə getdiyini görüb, səs salmadan ona tamaşa edirdi. Qasımlının sifəti bir qədər solğunlaşmışdı. Nazik, qara qaşları burnunun üstündə sərt şəkildə haçalanmışdı. Baxışları öz kəskinliyini

itirməmişdi. O, yenə də yaraşıqlı görünürdü. Üzü təmiz qırxılmış, qara saçları səliqə ilə daranmışdı. Əyninə təmiz və ütülü ağ köynək, üstündən isə yaxası açıq idman göynəyi geymişdi. Çarpayısının yanındakı kiçik dolabın içi və üstü dostların tapıb gətirdiyi təmiz baldan tutmuş, mer-meyvəyə qədər təamlarla dolu idi.

Xəstəxanada yatdığı müddətdə dostları Qasımlını tək qoymamışdılar. Bu dostlar Mahir, Nemət və Nuranə idi ki, Qasımlı artıq onları öz qəlbində həqiqi dost kimi qəbul etmişdi. O, artıq hər cür sınaqdan çıxmış bu dostların göstərdikləri qayğıdan narahat olmurdu. Onlar bir neçə gecə, növbə ilə Qasımlının yanında qalmışdılar.

Nuranə isə hər gün ona isti xörək gətirir, pal-paltarını tez-tez yuyub ütüləyirdi.

Bu üç nəfərdən başqa, xəstəxanada yatdığı müddətdə Fədayə, Mahirin arvadı Şəbinə xanım, Fazil Məmmədli, şəhər polisində işləyən dostu mayor Namazov da ona baş çəkmişdilər. Bakıda qohumları olmayan Qasımlının dostu da çox az idi. Ancaq bu ağır günlərində özünü tək və kimsəsiz hesab etməmişdi. Ömrünün ən mənalı hissəsini cinayət axtarışına həsr etmiş xəfiyyə çarpayıya möhtac olduğu bu müddətdə dostluq, sədaqət, hətta məhəbbət barədə düşünməyə vaxt tapmışdı.

Ancaq xüsusilə Gülafət xanım barədə nəyə görə belə tez-tez düşünməsini özü də anlaya bilmirdi. O bu gözəl qadının məhəbbət dünyasından xəbər verən mehriban baxışlarını hələ də unutmamışdı.



downloaded from KitabYurdu.az

Həkim bir nəfər orta yaşlı, ciddi görkəmli, mavi, qolsuz köynəyin üstündən tünd göy rəngli qalstuk bağlamış kişi ilə palataya daxil oldu, xəstəsinə baxıb gülümsədi və:

- Özünüzü necə hiss edirsiniz? - deyə soruşdu.

- Yaxşıyam, doktor, çox sağ olun! - Qasımlı minnətdarlıqla cavab verdi.

- Bir həftədən sonra lap yaxşı olacaqsınız! - həkim bunu deyib, özü ilə gətirdiyi kişini təqdim etdi: -Prokurorluqdandır, sizinlə söhbət etmək istəyir.

Qasımlı başı ilə razılığını bildirdi. Həkim daha palatada qalmayıb, çıxdı. Onunla gələn adam Qasımlı ilə əl tutub stulda əyləşdi və özünü təqdim etdi:

- Mən müstəntiq Səyavuş Nəzərliyəm. Mərhum Niyazi Məlikxanlının işi ilə əlaqədar istintaqa rəhbərlik etmək mənə tapşırılıb. İş daha ciddi nəzarətə götürülüb. Onu da deyim ki, istintaqı başa çatdırmaq üçün mənə az vaxt veriblər. Buraya gəlməkdə məqsədim həm sizə baş çəkmək, həm də bəzi məlumatlar almaqdır. Siz peşəkar

xəfiyyəsiniz və bilirəm ki, bu iş ilə əlaqədar müstəqil təhqiqat aparmısınız. Yəqin ki, işin mahiyyəti barədə az şey bilmirsiniz. İndi, buyurun, mənə nə kimi kömək edə bilərsiniz?

Müstəntiqin danışığı Qasımlıya xoş gəldi. Onun hərdən Mahirə nəzər saldığını gördüyü üçün, əvvəlcə dostunu təqdim etmək istədi:

-Tanış olun, polis kapitanı Mahir Talıbovdur. Mənim dostumdur, həm də apardığım təhqiqatda köməkçimdir. Sizə isə, yanıma gəldiyiniz üçün təşəkkür edirəm. Mən bu təhqiqata Məlikxanlının öz xahişi ilə başlamışam və söz vermişəm ki, onun adını bu biabırçı ləkədən təmizləyim. Çox təəssüf ki, o, intihar etdi və məni pis vəziyyətdə qoydu.



downloaded from KitabYurdu.az

Buna baxmayaraq, mən sözümdən dönməmişəm və bu işin tam aydınlaşmasına qədər mübarizə aparacağam...

- Cənab polkovnik, siz istintaqın təzələnməsinə nail olmaqla cəsarətli bir risk etmisiniz. - Müstəntiq Nəzərli müsahibinin sözünü ehtiyatla kəsib, danışmağa başladı. - Mən işlə dərindən tanış olmuşam. Venera adlı qız, öz xətti ilə, tamamilə aydın məzmunlu məktub yazıb qoyaraq özünü zəhərləmişdir. Ona görə «özünü zəhərləmişdir» deyirəm ki, belə bir aydın və zorakılıq olmadan yazılmış məktubdan sonra, başqasının onu zəhərləməsinə inanmaq çətindir. Ekspertiza sübut edib ki, Məlikxanlı onunla cinsi əlaqədə

olub. Daha sonra isə, Məlikxanlı intihar edərək, belə demək mümkünsə, cinayətini boynuna götürüb. Nəhayət, bunları əsas kimi qəbul edən Ramin müəllim işə xitam verilməsi barədə qərar çıxarıb. Siz isə vəkilin vasitəsilə istintaqı təzələtmisiniz. Bu işi mənə, demək olar ki, məcbur tapşırdılar. İndi, şəxsən mən çox narahatam. Ya gərək, istintaqda yeni şeylər ortaya çıxsın, ya da onun düzgün aparılmış olduğu bir daha təsdiq edilsin. Siz istintaqda yenilik etmək üçün mənə yeni faktlar verə biləcəksinizmi?

Ona diqqətlə qulaq asan Qasımlı sözə başladı:

- Siz çox yenilik edəcəksiniz, buna inanın. Qaldı mənim sizə köməyimə, birinci sizə onu bildirməliyəm ki, məqsədli şəkildə məni öldürməyə cəhd edən Əlikramla Mürsəlin işinə ayrı baxıblar. Siz çalışın ki, bu cinayət işini Məlikxanlının işi ilə birləşdirin. Onlar məni qısqanclıq zəminində yox, Ramin Əlibəylinin qərəzli istintaqına mane olduğum üçün aradan götürmək istəyiblər. Bunu sübut etməkdə sizə köməyim dəyəcək. Birdə, Əlikramın kamerada özünü öldürməsi... Xahiş edirəm, onu ciddi araşdırın. Mən qəti əminəm ki, o cür xarakterdə olan adam özünə qəsd etməz. Düzdür, iradəsiz və qorxaq adamlar intihar edirlər. Lakin daha qorxaq və daha iradəsiz adamlar bunu etmirlər. Onu öldürüblər! Yaxşı olar ki, müstəntiq Binyətovla ciddi



downloaded from KitabYurdu.az

maraqlanasınız!

-Aydındır... - Nəzərli başını yellədi.

- Daha sonra, xahiş edirəm, mütləq doktor Muradzadənin mənzilinə gedin. Mən bu işin aparılmasından əvvəlcədən şübhələndiyim üçün müstəntiq Əlibəyliyə yalnız yad adamın çay içdiyi stəkanı və həmin pulu göndərdim. Daha vacib olan qayçını isə qorumağı doktora tapşırdım.

- Siz, nədən şübhəyə düşmüşdünüz? - Nəzərli xəfiyyənin sözünü kəsməyə məcbur oldu.

- Birincisi, - Qasımlı səbirlə izah etdi. - Məlikxanlı ilə söhbətimdə ona inanmışdım. Sonrası da ki, həmin stəkanı və pulu gərək mən yox, məndən qabaq istintaq orqanı aşkar edib götürəydi. Bir daha təkrar edirəm, bu iş çox yarıtmaz aparılıb. Ramin Əlibəylinin heç də savadsız və təcrübəsiz olmadığını nəzərə alsaq, deyə bilərik ki, iş qərəzli aparılıb və Əlibəyli cinayətin iştirakçısı kimi cavab verməlidir. Bunu da xahiş edirəm, nəzərdən qaçırmayın.

-Aydındır. Bəs qayçı?

- O barədə dəqiq fikrimi sonra deyəcəm. Ancaq siz qayçını götürüb, ondakı əl izlərini Elnur Qafarlının əl izləri ilə tutuşdurun.

Onun haqqında cinayət işində bir şey var?

- Xeyr! - Nəzərli başını yellədi. - Mən bu adı eşitməmişəm.

- Belə də olmalı idi. - Qasımlı mənalı tərzdə cavab verdi. - Onda siz onun əl izini götürməyə tələsməyin. Mən hələ bəzi məsələləri dəqiqləşdirməliyəm. Yaxşı olar ki, Qafarlı ilə mən xəstəxanadan çıxandan sonra məşğul olasınız. Hələlik isə duyuq salmaq lazım deyil.

-Yaxşı... - Nəzərli sakitcə razılığını bildirdi.



downloaded from KitabYurdu.az

-Ancaq qayçını götürün. Bir də yadınızdan çıxmasın, onu doktordan istəyəndə deyin ki, qayçını polkovnik istəyir.

- Bu paroldur? - Nəzərli gülümsədi.

- Demək olar ki, bəli! - polkovnik cavab verdi. - Mən düşündüm ki, müstəntiqin adamları qayçını alıb ondakı izləri yox edə bilər. Ona görə də xahiş etdim ki, doktor qayçını mənim razılığım olmadan heç kəsə verməsin. Mənə elə gəldi ki, o mənə inandı və doğrudan da qayçını heç kəsə verməyəcək. Sonra, Muradzadənin yaşadığı blokun birinci mərtəbəsində, 37-ci mənzildə yaşayan qadını da danışdırın. Ümumiyyətlə, mənə elə gəlir ki, sizi öyrətməyə heç bir ehtiyac yoxdur.

- Bəs axı necə olub ki, bu qız belə bir məktub yazıb? Siz, sanki nəyisə məndən gizlədirsiniz. Yəni sizin dediyiniz həmin Elnur Qafarlı qızı məktubu yazmağa məcbur edib?

- Xeyr! - Qasımlı cavab verdi.

- Mən də onu demək istəyirəm. - Nəzərli qətiyyətlə dilləndi. - Məktubu dönə-dönə, diqqətlə oxumuşam. Yazı o qədər sərbəst yazılıb ki, orada heç bir zorakılıq əlaməti hiss olunmur. Məktubu qız özü yazıb. Könüllü!

- Siz demək, heç nədən şubhələnməmisiniz? - Qasımlı soruşdu.

- Xeyr! Əgər şübhələnsəm də, məktubun bu qədər sərbəst yazılmasından şübhələnərəm. Axı qız məktubun yazılmasından beş- on dəqiqə sonra intihar edib?!

Polkovnik bir qədər düşünüb cavab verdi:

- Hadisələrin gedişi sona kimi, incəliklərinə qədər mənə məlum olandan sonra mən sizə hər şeyi danışacam. Hələlik isə mən istintaq olunmalı adamları sizə təqdim edirəm. Mənim demədiyim və ya hələlik demək istəmədiyim təfərrüatı, bəlkə də,onların özündən öyrənə



downloaded from KitabYurdu.az

biləcəksiniz. Ancaq heç buna da inanmıram. Çünki bütün bu işlərin başında duran bir nəfər var. Həmin adam ifşa olunmayana qədər istintaq etdiyiniz adamlar onun qorxusundan əsl həqiqəti danışmayacaqlar.

- Kimdir o adam? - müstəntiq Nəzərli maraq və təəccüblə sual verdi. - Bəlkə siz Ramin Əlibəylini nəzərdə tutursunuz?

- O adam Raminə də göstəriş verə bilir. O, ifşa olunmalıdır. Siz

əvvəlcə dediyim işlərə başlayın və mənim buradan çıxmağımı gözləyin. Bir də doktor Ələsgər Atayevi istintaqa cəlb etmək lazım olacaq.

- Onun bu işə nə dəxli var?

- Doktor Atayev Veneranın ölümündən bir neçə gün əvvəl, sonsuzluqla əlaqədar analizə vermək üçün Məlikxanlının spermasından nümunə götürüb, lakin onu laboratoriyaya verməyib. Çünki bu sperma nümunəsi Məlikxanlını ifşa etmək üçün onlara lazım idi. Üstəlik, cinayətdə istifadə olunan nadir zəhəri də doktor Atayevdən alıblar.

-Aha... - müstəntiq fikrə getdi və birdən səsini qaldırdı. - Axı Məlikxanlını ifşa etmək kimə və nə üçün lazımmış? Bəlkə onun yerini tutmuş Cahangirova?

- Yox! - Qasımlı yavaşca başını yellədi.

- Bəs kimə?

- Mənim ayağa qalxmağımı gözləyin!

- Sizin tezliklə ayağa qalxmağınızı bu saat məndən çox arzu edən adam, yəqin ki, ola bilməz!

Müstəntiq bunu deyib, durdu. Qasımlı ilə, daha sonra isə Mahirlə görüşüb palatadan çıxmaq istədi.

Qasımlının səsi onu dayandırdı:



downloaded from KitabYurdu.az

- Bir daha deyirəm! Əlikram özünü öldürməyib, onu öldürüblər! Birinci ondan başlayın! O birilərlə məşğul olmaq üçün isə mənim buradan çıxmağımı gözləyin. Mən çıxan kimi sizə xəbər verəcəm.

Səyavuş Nəzərli vizit vərəqini Qasımlıya verib:

- Burada telefonlarım yazılıb, - dedi və bir daha sağollaşıb palatadan çıxdı.

- Sizcə, bu bir iş görə biləcək? - o çıxan kimi Mahir soruşdu.

- Biləcək! - dostu cavab verdi. - Daha doğrusu, işi biz görəcəyik, o isə yekunlaşdıracaq.

Qanbay Qasımlı bunu deyəndən sonra gözlərini qarşıdakı divara zilləyib durdu. Elə baxırdı ki, sanki divarda onu düşündürən sualların cavabı yazılacaqdı. Mahir onu fikirdən ayırmamaq üçün danışmırdı. Bir azdan polkovnikin alnında xırda tər damcıları görünməyə başladı. O, həddindən artıq dərin düşünəndə, bir də çoxdan görüb diqqət yetirmədiyi bir şeyi xatırlamaq istəyəndə belə olurdu.

Birdən yerində dikəlib oturdu və Mahirə dedi:

- Mahir, mən buradan çıxmaq istəyirəm!

- Nə üçün? - Mahir təəccübləndi.

- Zəng vur, öyrən görək, Asəf öz bağındadırmı?

Mahir bir söz demədən, telefonunu çıxarıb, Asəfə zəng vurdu. Onunla danışıb, bağda olduğunu öyrəndi və telefonu qapadı:

- Bağındadır.

- Mən bu saat ora getmək istəyirəm. - Qasımlı ağır-ağır çarpayıdan düşdü.



downloaded from KitabYurdu.az

- Axı nəyə lazımdır bu? - Mahir heyrətləndi. - Siz hələ tam sağalmamısınız.

-Yox, yaxşıyam, Mahir! Mənə kömək et, paltarlarımı gətir.

- Həkim razı olmaz!

- Köynəyim var.. - o, özü-özüylə danışırmış kimi dilləndi. - Bir şalvar, bir də ayaqqabı lazımdır, - nə düşündüsə, tez də fikrini də-yişdi. - Yox, şalvar lazım deyil, əynimdə idman şalvarı var... Heç ayaqqabı da lazım deyil. Sən buradakı şeyləri torbaya yığ, aşağı düş. Maşınlasan?

- Hə! - Mahir cavab verdi.

- Sən yığış, aşağı düş, mən də gələcəm.

Mahir onu fikrindən döndərməyin mənasız olduğunu başa düşüb, Qasımlıya aid şəxsi əşyaları və bankadakı balı torbaya yığıb palatadan çıxdı.

Qasımlı yüngül şapşapları ayağına keçirib axırıncı dəfə palataya

nəzər saldı və dəhlizə çıxdı. Tibb bacıları görünmürdülər. O, yavaş- yavaş dəhlizlə yeriyib, cəld pilləkənlərə tərəf döndü. Pillələri düşüb həyətə çıxdı. Mahir maşını qapıya lap yaxın saxlayıb onu işə salmışdı. Qasımlı arxa qapını açıb maşına oturan kimi «Mersedes» yerindən tərpəndi. Artıq bir azdan ömrünün bir həftədən artığını keçirtdiyi xəstəxana arxada qalmışdı.

## XXXIV Fəsil

## Hərəkətə başlaya bilərsiniz!

Onları Asəfin bağında kədərli xəbər qarşıladı: Qaplan ölmüşdü... Asəfin deməyinə görə, Niyazi müəllimin ölümündən sonra yazıq it heç nə yemir, bir yerdə uzanaraq qəmli gözlərini darvazaya dikirmiş. Hərdən də



downloaded from KitabYurdu.az

sahibinin yıxıldığı yerə yaxınlaşıb torpağı iyləyir, başını göyə qaldırıb hüznlü bir səslə ulayırmış.

Asəf elə həyətdəcə, dərin xəndək qazıyıb iti basdırmışdı. Elə işini təzəcə qurtarıbmış. Qaplanın ölümü Qasımlını da, Mahiri də kədərləndirdi. Bir neçə dəqiqə sakit dayanıb, heç nə danışmadılar. Qəmli sükutu pozan Asəf onları həyətdə qoyulmuş stolun arxasına, çay içməyə dəvət etdi. Dəvəti qəbul edib əncir ağacına yaxınlaşdılar.

Burada on gün əvvəl faciəli ölüm hadisəsi baş vermişdi.

Üstündən on gün keçməsinə baxmayaraq, hər şey həmin günü xatırladırdı. Diqqətlə baxan şəxs, hətta mərhum Məlikxanlının torpağa hopmuş qanının izlərini də görə bilərdi.

Stolun üstü toz-torpaq və qurumuş əncir yarpaqları ilə dolu idi. Həmin gün kabab bişirmək üçün yandırılmış tonqalın külü olduğu kimi qalmışdı. Hadisədən bir az sonra yağmış yüngül yağış külü qismən

bərkidib qumlu torpağa yapışdırmışdı. Kül yalnız iki tərəfdən gözəçarpmayacaq dərəcədə tonqalın əhatəsindən çıxıb yayılmışdı. Şişləri düzmək üçün tonqalın yanlarına atılmış iki beton parçası da öz yerində idi.

Hər şey həmin gün baş tutmamış kabab süfrəsindən xəbər verirdi. Yerə xeyli siqaret kötüyü dağılmışdı...

Asəf evin qapısında görünən Aybənizə işarə edib çay gətirməsini tapşırdı. Sonra ucadan:

- Stolun üstünü silməyə dəsmal da gətir! - dedi və qonaqlara tərəf döndü: - Bu saat çay içərik. İndicə dəmləmişdik, siz gəlib çıxdınız.

Ancaq polkovnikin yadına çay düşmürdü. O, stolun yaxın ətrafını ani diqqətlə gözdən keçirib Asəfdən soruşdu:



downloaded from KitabYurdu.az

- Hadisədən sonra burada olmusunuz?

- Hərdən baş çəkmişəm. - Asəf cavab verdi. - Niyazi müəllimin yasına başım qarışıb. Bu gün də yenə həyətə baş çəkmək istədim. Gördüm it ölüb. Başladım onu basdırmağa...

Qasımlı başını döndərib evin arxa tərəfində, ərik ağacının köl¬gəsində it üçün müvəqqəti düzəlmiş dama baxdı. Stolun yanından baxanda ora aydın görünürdü. Qaplanın dartıb qırmış olduğu yoğun

kəndirin bir hissəsi hələ də ərik ağacından sallanırdı. Dönüb Asəfə baxdı:

- Mərhum iti tez-tez bağlayırdı?

- Yox! - Asəf cavab verdi. - Nadir hallarda... daha çox, bağda uşaq-muşaq olanda.

Aybəniz evdən çıxıb, əlində çay stəkanları qoyulmuş podnos, onlara tərəf gəlirdi. Polkovnik onu görüb cəld dilləndi:

- Xahiş edirəm, bir neçə dəqiqəliyə buradan uzaqlaşın və mənə mane olmayın. Çayı, hələlik, başqa yerdə için!

Asəf razılaşıb, Aybənizə çayı başqa ağacın kölgəsinə aparmağı tapşırdı. Aybəniz özü ilə bir stul aparıb, kənardakı ağaclardan birinin kölgəsinə qoydu və stəkanları stulun üstünə düzüb getdi. Asəflə Mahir yaxınlaşıb həmin stulun yanında bardaş qurdular və Qasımlıya tamaşa etməyə başladılar.

Qasımlı bir qədər ayaq üstə dayanıb əncir ağacının ətrafını müşahidə edəndən sonra dizi üstə çöküb əlini torpağa sürtməyə başladı. Elə bil nəsə axtarırdı. Bir neçə dəqiqə həmin ətrafda axtarış aparandan sonra əyilmiş vəziyyətdə yeriyərək hasara qədər getdi. Hərdən dayanıb əlini torpağa sürtür, hətta deyəsən, barmaqları ilə torpağı eşirdi.

- O, nə axtarır axı? - Asəf təəccüblə Mahirdən soruşdu.



downloaded from KitabYurdu.az

- Doğrusu, mən də bilmirəm... - Mahir çiynini çəkib cavab verdi.

- Niyə idman formasındadır? Haradan gəlirsiniz?

-Xəstəxanadan indi çıxıb... Daha doğrusu, qaçıb!

- Hə? - Asəf heyrətləndi. - Nə olmuşdu?

- Sui-qəsd təşkil etmişdilər. - Mahir dedi. - Həmin bu işlə əlaqədar. Yaralamışdılar...

- Deməli, Qanbay müəllim hələ əl çəkməyib bu işdən? İş ki, bitib qurtarıb?!

- Qurtarsaydı, əl çəkərdi, yəqin...

Polkovnik yorulub stulda oturmuşdu. Qalxıb onun yanına getdilər. Bir qədər çətin nəfəs alırdı.

- Nəsə öyrənə bildiniz? - Mahir soruşdu.

Qasımlı ona cavab verməyib Asəfə baxdı:

- Qəhvə varmı sizdə?

- Hə! Bu saat! - Asəf cəld evə getdi və Aybənizə qəhvə hazırlamağı tapşırıb qayıtdı.

Bir dəqiqə keçmiş, Aybəniz qəhvə süzülmüş fincanı gətirib qonağın qarşısına qoydu və süfrəni silib təmizlədi.

Qasımlı qəhvədən bir qurtum içib Aybənizə müraciətlə dilləndi:

- Xahiş edirəm, siz də burada olun və həmin gün hadisənin necə baş verdiyini danışın.

Aybəniz süfrəni silib qurtarmışdı. Əlində dəsmal dayanıb əvvəl Asəfə, sonra isə qonaqlara baxdı:



downloaded from KitabYurdu.az

- Rəhmətlik Niyazi müəllimlə Ruslan müəllim burada idilər. Biz ikimiz - Asəflə mən evdə şişləri hazırlayırdıq... Ruslan müəllim gəlib bizi qapıdan səslədi ki, şişləri gətirin...

- Yox! - Asəf onun sözünü kəsdi. - Ruslan müəllim ondan əvvəl bir dəfə də gəlib bizi tələsdirdi.

- Onda nə qədər işiniz qalmışdı? - Qasımlı sual verdi.

- İki şiş çəkilməmiş qalmışdı. - Aybəniz dilləndi. - Bir də dedi ki, əti uzun çəkmisiniz, hər şişdən birini azaldın.

- Sonra? - polkovnik qəhvə fincanını əlinə götürüb içməyə başladı.

- Sonra... - Aybəniz davam etdi. - Ruslan müəllim bizi çağıranda biz şişləri və bir də salatlar yığılmış podnosu götürüb qapıya çıxdıq.

O, Asəfə kömək etmək üçün şişləri istədi. Asəf razı olmadı...

- Yox, aldı. - Asəf söhbətə müdaxilə etdi. - Mən dedim ki, lazım deyil, özüm apararam. Ancaq bir neçəsini əlimdən aldı. Hələ şişin biri yerə düşdü. Həmin vaxt güllə səsini eşitdik.

- Həm də, it hürməyə başladı... - Aybəniz əlavə etdi.

- Biz, doğrusu, özümüzü itirdik. - Asəf davam etdi. - Əlimizdəkiləri haraya gəldi tullayıb buraya qaçdıq...

- İtin hürməsini nə vaxt eşitdiniz? - Qasımlı qəfil soruşdu.

- Güllə atılanda... - Asəf cavab verdi.

- Bir az dəqiq xatırlamağa çalışın, - polkovnik sakitcə dilləndi.

- Yox, biz qapıya çıxandan it hürürdü. - Aybəniz ərinə baxdı. - Yadında deyil, mən soruşdum ki, it niyə hürür? Ruslan müəllim də dedi ki, Niyazi müəllim onu bağladığına görə.



downloaded from KitabYurdu.az

-Nə bilim... - Asəf başını buladı.-Elə vəziyyətdə idik ki, onda... Adamın adı da yadından çıxa bilər... Ancaq Aybənizin o sualı necə verməsi yadımdadır... İt isə çox hürdü o gün. Lap kəndiri qırana kimi özünə zülm elədi.

- Bəs it kəndiri qırandan sonra neylədi? - Qasımlı soruşdu.

- Darvazaya tərəf qaçdı.

- Niyə? - Qasımlı maraqlandı.

- Onda rəhmətliyin meyitini maşına qoymuşdular. Maşın da küçədə idi... Mən itin arxasınca çıxdım. O, əvvəlcə küçə ilə qaçıb getdi...

- Elə niyə?

- Bir dəqiqə əwəl Ruslan müəllim maşınla çıxıb getmişdi. İt, yəqin elə bilib ki, sahibini o maşında apardılar. Ancaq bir azdan geri qayıtdı və «Təcili yardım» maşınından rəhmətliyin iyini aldı...

Qasımlı bir anlıq susub, sonra evin qapısına doğru getdi. O birilər də onun dalınca düşdülər. Polkovnik qapının ağzında dayanıb əncir ağacına tərəf baxdı. Oradan nə ağac, nə də stol görünürdü. Qasımlı Asəfə müraciət edərək:

- Siz şişləri harada hazırlayırdınız? - deyə soruşdu.

- İçəridə. - Asəf cavab verdi. - Arxadakı otaqda.

- Girmək olarmı?

- Buyurun, əlbəttə!

Evə girdilər. Asəf onları birinci girdikləri otaqdan keçirib, arxada yerləşən kiçik otağa apardı.

- Burada idik! - deyə otağı göstərdi.

- Bəs niyə burada? - polkovnik sual verdi.



downloaded from KitabYurdu.az

- Bu otaq sərindir. - Asəf izah etdi. - Milçək də olmur. Ona görə biz əti burada doğrayıb hazırlayırdıq.

Qasımlı otağa baxıb azacıq fikrə getdi. Sonra heç gözlənilmədən Asəflə Mahirə baxıb:

- Sizin tapançanız varmı? - deyə soruşdu.

Asəf bir anlıq duruxdu. Ancaq elə həmin an Mahir:

- Mənimki maşındadır, - dedi.

Qasımlı Mahirə:

- Xahiş edirəm, onu gətir! - dedi və üzünü Asəflə Aybənizə tutdu:

- Siz yenə də burada oturun. Guya ki, həmin işi görürsünüz. Mən bir neçə dəqiqədən sonra tapançadan atəş açacam. Güllə səsi eşidən kimi həyətə çıxarsınız!

-Yaxşı... - Asəf heç nə başa düşməsə də razılaşdı.

Qasımlı həyətə çıxıb stolun yanına getdi. Bu vaxt Mahir də maşından tapançasını götürüb gəlmişdi. Polkovnik hadisə vaxtı Məlikxanlının oturduğu stulun düz yanında idi. Tapançanı Mahirdən alıb bir qədər əlində saxladı. Elə bil nəyisə götür-qoy edirdi. Birdən nə düşündüsə aşağı əyilib tapançanı torpağa dirədi və atəş açdı. Sonra dikəlib, silahı bayaqdan ona maraqla tamaşa edən Mahirə qaytardı və gülümsədi:

- Bir patronunu korladıq!

Mahir:

- Eybi yoxdur! - deyib evin qapısına baxdı.

Asəfgilin çıxmadığını görən polkovnik:

- Onları çağırın! - deyə Mahirdən xahiş etdi.

Mahir qapıya yaxınlaşıb ucadan səsləndi:



downloaded from KitabYurdu.az

- Asəf, buraya gəlin!

Hər üçü əncir ağacının kölgəsində polkovnikin başına yığışdı. Qasımlı üzünü Asəfə tutub:

- Bəs niyə çıxmadınız? - deyə soruşdu.

- Məgər, siz atəş açdınız? - Asəf təəccübləndi.

- Belə çıxır ki... yox!.. - Qasımlı dilləndi və birdən heç gözlənilmədən soruşdu: - Gülafət xanım necədir?

-Yaxşıdır... - qəfil sualdan özünü itirən Asəf dedi. - Niyazi müəllimin ehsanını verdik. İndi işə gedib-gəlir.

- Ehsanı kim verdi?

- Ruslan müəllim rəhbərlik edirdi. Oğlu qonaq kimi gəlib, bir az oturdu, sonra çıxıb getdi.

- Zakir heç atasının var-dövləti ilə maraqlanmır?

- Yox... - Asəf cavab verdi. - Eşitməmişəm.

Qasımlı Asəflə danışsa da, fikirli görünürdü. Mahir bunu o saat başa düşmüşdü. Çarpayıdan yarımçıq qalxmış polkovnikə, yəqin ki, istirahət lazım idi.

- Qanbay müəllim, gedək? - deyə soruşdu.

- Hə! - Qasımlı başını ağır-ağır tərpətdi. - Gedək!

- Təzə bir şey öyrənə bildiniz? - Asəf maraqla sual verdi.

- Hər şey aydındır... - deyə Qasımlı müəmmalı cavab verdi. Bağdan çıxıb maşına oturdular. Mahir Talıbov səbirli adam idi və

həm də bilirdi ki, Qasımlıya artıq sual verməyin mənası yoxdur. Odur ki, maşını işə salıb arxaya çevrildi:



downloaded from KitabYurdu.az

- Yəqin ki, evinizə?

- Hə! Evə sür! - polkovnik oturacağa yayxanıb gözlərini yumdu.

* * *

Qasımlı mənzilə daxil olanda, gözləmədiyi halda, Nuranə ilə rastlaşdı. Nuranə onun təəccüblü baxışlarının mənasını başa düşüb, gəlişinin səbəbini özü izah etdi:

- Bir saat əvvəl Mahir zəng vurdu ki, siz evə gələcəksiniz. Gəldim ki, çaydan-çörəkdən hazırlayım...

Qasımlı dostlarının qayğısından təsirlənib, heç nə demədi.

- Niyə vaxtsız çıxdınız? - Nuranə qayğıkeşliklə soruşdu. - Hələ tam sağalmamısınız axı?!

- Yox! Yaxşıyam! - Qasımlı cavab verdi.

- Yemək yeyirsiniz?

-Yox, qəhvə içəcəm...

Nuranə mətbəxə keçdi. Polkovnik ilk dəfə görürmüş kimi, maraqla

mənzilinə tamaşa edib, divanda oturdu. Ağır nəfəs almağından yorğun olduğu bilinirdi. Cib telefonunu götürüb bir neçə dəqiqə din¬məzcə ona tamaşa etdi. Sonra müstəntiq Səyavuş Nəzərliyə zəng vurdu:

- Salam, Səyavuş müəllim!.. Bəli, mənəm... Mən xəstəxanadan çıxdım. Hərəkətə başlaya bilərsiniz!

## XXXV Fəsil

## Parçalanmış telefon



downloaded from KitabYurdu.az

Qanbay Qasımlının xəstəxanadan çıxdığı günün səhəri idi.

Doktor Ələsgər Atayev dilxor halda kabinetində oturmuşdu. Sir-sifətindən tökülən zəhrimardan artıq Svetaya da pay düşmüşdü və yazıq qız qapının o tayında, öz otağında qorxudan əsirdi. Atayev bu gün səhər işə gələndən belə idi. Bir tərəfdən sevimli qızının xəstəliyi, bir tərəfdən də axşam televizordan eşitdiyi xəbər qanını qaraltmışdı.

Axşam televizorda Məlikxanlı ilə əlaqədar işin təzələnməsi və istintaqa rəhbərliyin Ramin Əlibəylidən alınması barədə xəbər verilmişdi. Atayev Elnur Qafarlı kimi ağciyər deyildi. Ancaq belə bir işin üstündə ilişib ifşa olunmağı da heç cür istəmirdi. Bilirdi ki, onun bu işdəki əlaqəsi inzibati orqanlara məlum olarsa işi, vəzifəsi, hörməti və nəhayət, azadlığı ilə bərabər istəkli qızını da itirəcəkdi.

Atayevi bu işə qoşan adam, göstərdiyi xidmətə görə ona az pul verməmişdi. Buna baxmayaraq, peşman idi bu işə qoşulmağına. Düzdür, qoşulmamaq özü də çox asan başa gəlməzdi. O adam Atayevin tanıdığı, münasibətdə olduğu adamların içində yeganə adam idi ki, Atayev ondan çəkinirdi. Özündən aşağılarla söyüşlə, özündən

yuxarılarla əda ilə danışan doktor yalnız onunla danışanda həddini aşmamağa çalışırdı.

Bu hadisələr baş verəndən sonra heç onunla görüşməmişdi. Ancaq axşam televizordan eşitdiyi xəbərdən sonra onunla görüşmək və bu xəbər barədə fikrini bilmək istəyirdi. Bu məqsədlə ona zəng vurmaq üçün əlini telefona uzatmışdı ki, telefon özü səsləndi.

Zəng vuran həyat yoldaşı Rüxsarə xanım idi. Yəqin ki, danışığını Aydanın eşitməməsi üçün lap yavaşdan danışırdı:

- Ələsgər, qızdan heç gözüm su içmir. Yenə əv vəlki tutmaları qayıtmasa yaxşıdır. Əlisəttar qardaş da gəlib çıxmır. Bəlkə zəng vurasan?



downloaded from KitabYurdu.az

- Lazım deyil! - Atayev səbirsiz halda dilləndi. - Bir-iki saat gecikməyinə görə zəng vurmaq yaxşı düşməz. Özü bilir ki, bu gün «sistem»in vaxtıdır. Darıxma!

- Nə bilim... Deyirəm, yadından çıxar...

- Çıxmaz! Bir az da gözləyək.

- Yaxşı da... - Rüxsarə xanım dəstəyi asdı.

Üç gün idi ki, Aydan hamamdan çıxanda özünü möhkəm soyuğa vermişdi. Bunu doktor Muradzadəyə xəbər verməmişdilər. Birincisi, qızı soyuqdəymədən gözləmək barədə Muradzadə dönə-dönə

xəbərdarlıq etmişdi. Soyuqlayarsa, müalicə əhəmiyyətini itirə bilər, demişdi. İkincisi də Atayev, məlum səbəbə görə, Muradzadənin qarşısında diliqısa idi. Bu neçə gündə onunla heç zəngləşməmişdi də! Bu gün isə müalicənin əsasını təşkil edən sistemin qoşulmasının vaxtı idi. Atayev özü müxtəlif vasitələrlə Aydanın qızdırmasını salmağa çalışmış və buna müəyyən qədər nail olmuşdu. Ancaq vəziyyət qorxulu idi. Əvvəlki ağır tutmalar yenidən başlaya bilərdi. Bu isə, qarşısı alınmasa, ölüm demək idi...

«Əlisəttar niyə gecikir, görəsən? - Atayev düşündü. - Yəni doğrudan, yadından çıxa bilər? Heç inanmıram, çıxa!»

Ancaq Atayev bir şeyi bilmirdi. Bilmirdi ki, müstəntiq Səyavuş Nəzərli doktor Muradzadənin evindən indicə çıxıb. Və ondan da xəbəri yox idi ki, onların arasında hansı söhbət gedib.

Dediyimiz o ki, Muradzadə Səyavuş Nəzərlinin arvadını müalicə etmişdi. Aralarında yaxşı münasibət var idi. Sıx gediş-gəlişləri olmasa da hərdən bir-birlərindən hal-əhval tuturdular.

Bu gün isə Nəzərli doktorun evinə qayçıya görə gəlmişdi. Aralarında qarşılıqlı inam olsa da, qayçını polkovnikin istədiyini bildirib ev



downloaded from KitabYurdu.az

sahibindən aldı və bu barədə hal şahidlərinin iştirakı ilə protokol tərtib etdi. Sonra təklikdə bir qədər söhbət etdilər. Nəzərli bildirdi ki,

işə təzədən baxılır və ola bilsin ki, nəticədə Məlikxanlının günahsız olduğu aşkar olacaq. Guya burada kimlərinsə, başqa adamların iştirakı olub və sair. Bu söhbət doktor Muradzadənin xoşuna gəlməsə də, susdu, ancaq onu çox maraqlandıran və narahat edən bir suala müstəntiqdən cavab almaq istədi:

- Necə bilirsiniz, Səyavuş müəllim, bu qız zəhəri haradan əldə edə bilər?

Əlbəttə, gərək, müstəntiq bu suala cavab verməyəydi. O bu barədə yalnız polkovnik Qasımlıdan eşitmişdi və özünün əlində heç bir sübut yox idi. Ancaq özünü məlumatlı göstərmək istədiyinə görə, ya nəyə görəsə cavab verdi:

- Doktor, bu işdə çox ciddi məqamlar var və hər şey dərinliyinə qədər araşdırılacaq. Ancaq hələlik sizə olan böyük hörmətimə görə, zəhərin kimdən alındığını sizə deyə bilərəm. Bir şərtlə ki, bu söhbət, iş başa çatdırılana kimi ikimizin arasında qalsın.

- Əlbəttə! Əlbəttə! - doktor cəld dillənib bütün vücudu ilə müstəntiqin deyəcəyi adı gözlədi.

Səyavuş Nəzərli bir qədər tərəddüd edib, nəhayət dilləndi:

-Zəhəri Ələsgər Atayev adlı bir həkim verib...

Bu sözlərdən sonra doktor Muradzadənin nə hala düşdüyünü

təsvir etmək çox çətindir. O, müstəntiqdən daha ətraflı məlumat ala

bilməyib, onun tez çıxıb getməsini arzuladı. Tək qalmaq və eşitdiyi

sarsıdıcı xəbərin mahiyyətini dərk etmək istəyirdi...

* * *



downloaded from KitabYurdu.az

Yox, hər halda «şef»lə görüşməyi yaxşı olardı. Heç olmazsa, ondan arxayınlaşdırıcı bir söz eşidər, narahatlığının biri azalardı. Mərkəzi ofisin telefonu cavab vermədiyi üçün cib telefonuna zəng vurdu:

-Alo!

- Salam, Atayev, xeyir ola?!

- Sizinlə görüşmək istəyirəm, əgər imkan varsa...

- Bu gün tədbirdə olacam.

- Sabah?

- Sabah da Şamaxıya getmək istəyirəm, bir nəfərlə... Pirqulu tərəfə.

- Təzə canan olmasın o bir nəfər? - Atayev özünü məhrəm gös¬tərmək istədi.

- Düz tapmısan! Niyə görüşmək istəyirdin?

-Axşam televizorda eşitdim ki, Ramin Əlibəylini...

- Boş şeydir! - şef onun sözünü ağzında qoydu. - Yüz dəfə

təzələsələr də, iş həmin işdir. O həyasız vəkil qarışdırıb işi... Ona da dil verən Qasımlıdır.

-Kim?

- Əslində, kimliyi məlum olmayan şeytan! Xəstəxanada yatır. Çalışacam, palatasından birbaş morqa düşürtsünlər onu... - nə düşündüsə, qəfil soruşdu: - Yoxsa sən də qorxursan?

- Yoox...

- Qorxub eləmə! Sən ilişməzsən. Birdə ki, lap ilişsən, bilirsən də, bir sadiq adamlar sirr saxlayırlar, bir də ölülər...



downloaded from KitabYurdu.az

- Mən həmişə sadiq olmuşam, qədeş! - müsahibinin soyuq sözlərindən bədəninə üşütmə gələn Atayev cəld dilləndi.

- Əlbəttə! Sadiq olmaq ölü olmaqdan min dəfə yaxşıdır. Sağ ol! - şef bunu deyib telefonu qapadı.

Bu söhbətdən sonra doktor Atayevin narahatlığı, əsəb gərginliyi heç də azalmadı. Ürəyində baş qaldıran xoşagəlməz duyğular onu içəridən yeyib dağıdırdı. «Kefindən qalmır əclaf oğlu! - deyə fikirləşdi. Pirquluya gedir. Özü də qadınla... Onun nə vecinə?! Planını çəkib, göstərişini verib, dayanıb kənarda. İlişəndə də, hünərin var, adını çək! Elə o xarabanın özündə aradan götüzdürər. Bu saat pulun açmadığı qapı yoxdur. Pul da ki, onda!»

Atayev bilirdi ki, istənilən qanıqaraçılığın, hətta stress vəziyyətinin ən yaxşı dərmanı intim münasibətlər, məhəbbət oyunlarıdır. Düyməni basıb Svetanı çağırdı. Fikir çəkib, özünü xəstəliyə salmayacaqdı ki?!

Sveta otağa daxil olan kimi, doktor onu sol əli ilə yanına - öz həmişəki yerinə çağırdı. Qız nazlana-nazlana gəlib «yerində» durdu. Atayev əlini onun arxasına qoydu:

- Dəhlizdə gözləyən var?

- İki nəfər var. - Sveta yerində yırğalandı.

- Qoy gözləsinlər! Əhvalım heç yaxşı deyil bu gün.

Atayev qızın yumşaq ətini necə sıxdısa, qız dözməyib bərkdən ufuldadı. Ancaq ürəyində söyürdü doktoru: «İt oğlu yandırıb-tökür, sonra da buraxır ki, get tüstülənə-tüstülənə...»

Atayevin ağlına haradansa, «ağıllı» fikir gəldi:

- Gəl, sabah, ya birisigün səni aparım Şamaxıya! Yaxşı istirahət edərik... Heç Pirquluda olmusan?



downloaded from KitabYurdu.az

- Yox!... - Sveta başını buladı.

- Müsibət yerdir! Evdən bir bəhanə ilə icazə ala bilsən, axşam da orada qalarıq. Nə deyirsən?

- Nə deyim?.. - qız ona sığındı. Atayevin əli yumşaq yerini əzib-tökürdü.

- Hazırlaş, birisigün gedək!

Atayev qızı artıq soyundurmaq üzrə idi ki, cib telefonu zəng çaldı. Doktor Muradzadə idi zəng vuran. Svetanı əli ilə kənara itələyib, telefonu açdı. «Allah xeyir eləsin!»

- Eşidirəm, doktor!

- Ələsgər! - Muradzadənin səsi pis gəlirdi. Elə bil tövşüyürdü.

- Hə, doktor, eşidirəm!

- Sən nə alçaq adam imişsən, Ələsgər?! Sən necə vicdansız, namussuz, qeyrətsiz adam imişsən?!

Telefondan elə bil od tökülürdü Atayevin qulaqlarına.

- Əlisəttar!..

- Sənə necə inanmışam, səni necə adam hesab etmişəm mən?! Sən əfi ilan imişsən! Gürzə imişsən! Tanımamışam səni!

Atayev yerində quruyub qalmışdı. Əli ilə Svetaya otaqdan çıxmaq işarəsi verdi. Qız pərt halda kabinetdən çıxdı.

- Əlisəttar, mən...

- Kəs səsini, biqeyrət! Hələ bir danışmaq da istəyirsən? Mənim qızımı sən öldürmüsən! Sən əclaf köpək oğlu!

- Qulaq asın, doktor!...



downloaded from KitabYurdu.az

- Mənim sənə nə pisliyim keçmişdi a nankor?! O yazıq qız sənə neyləmişdi? «Əmi» deyirdi axı, o sənə?! Çörək kəsmişdik axı biz?! Çörək sənin gözlərini tutsun! Bu boyda da xəyanət olar ki, sən elədin? Xain köpək oğlu!

-A kişi, bir dayan...

Atayevin boğazı qurumuşdu. Stolun üstünə göz gəzdirib su axtardı. Yox idi. Qızı da çağırmaq istəmirdi...

- Səni bədbəxt edəcəm, Ələsgər! - Muradzadənin səsi getdikcə kəskinləşirdi. - Necə ki, sən məni bədbəxt etdin, yaşamağına peşman edəcəm səni! Sən məni yaxşı tanımamısan! Bütün həyatımı səndən intiqam almağa sərf edəcəm! Eşidirsən, intiqamımı alacam səndən!..

Muradzadənin səsi xırıldadı və o, telefonu qapadı. Doktor Atayev əlləri ilə başını tutub bir müddət hərəkətsiz oturdu. Elə bil bütün dünya başına fırlanırdı. «Bu haradan xəbər tutdu?.. - deyə fikirləşdi. - Kim satdı məni?.. Ona bir də zəng vurummu? Yox, o sözünü dedi. İlişsəm də onu satmamalıyam. Bir sadiq adamlar sirr saxlayırlar, bir də... Hamısı cəhənnəmə, Aydanın sağalması, müalicəsi necə olacaq?..

Gör neylədim mən?! Gör nə iş tutdum mən?! Öz qızımın həyatına balta çaldım!»

Tələsik ayağa qalxdı. Getməlidir! Haraya?.. Haraya gəldi! Axır ki, buradan uzaqlaşmalıdır!

Svetanın yanında əyinlərində tünd göy rəngli kostyum olan iki gənc kişi dayanmışdı. Atayev qapıdan çıxan kimi onlardan biri irəli yeridi:

- Doktor Atayev?

Atayev:

- Vaxtım yoxdur! Sonra gəlin! - deyib sürətlə qəbul otağından çıxdı.



downloaded from KitabYurdu.az

Pilləkənləri düşəndə hiss etdi ki, həmin kişilər arxasınca gəlirlər. Birdən şübhələndi: «Olmaya, artıq...»

Poliklinikanın həyətinə düşdü. Maşınının düz yanında qara rəngli, «Qaz-31» markalı maşın dayanmışdı. Gənc sürücü də maşının yanında idi.

Cib telefonu səsləndi. Rüxsarə xanım idi:

- Ələsgər?!

- Hə! Nə olub?! - Atayev əsəbi cavab verdi.

- Ələsgər, qız yenə o vəziyyətə düşdü! Özündə deyil!

Atayev deməyə, məsləhət verməyə söz tapmadı. Bu yandan da

həmin iki kişi düz qarşısında dayanıb, ona qulaq asırdılar...

- Əlisəttara zəng vur, Ələsgər! Özün də tez gəl!

Atayev bilmirdi nə desin... Nə desin axı?! Rüxsarə xanımın heç

nədən xəbəri yox idi. Heç nədən!..

- Təcili yardım çağır! - Bu sözləri deyən Atayev, özü də bilirdi ki, mənasız söz deyir. Qızı xilas etsəydi, bircə Muradzadə xilas edə bilərdi! Doktor Əlisəttar Muradzadə! Zəhərləyib öldürdükləri Veneranın atası!

- Sən nə danışırsan, Ələsgər? - Rüxsarə xanım ağlayırdı. - Aydan ölür!.. Başa düşürsən?! Ölür Aydan!...

- Yaxşı! Bəsdir! - Atayev telefonu qapadı.

Elə o saat da kişilərdən biri əlini irəli uzatdı:

- Telefonu verin! - Siz bizimlə getməlisiniz!

- Siz kimsiniz axı?! - Atayev acıqlandı.

Kişi sənədini çıxarıb göstərdi. Prokurorluqdan idilər. Onları Səyavuş Nəzərli göndərmişdi.



downloaded from KitabYurdu.az

- Çəkilin görüm! - Atayev çığırdı. - Mənim qızım ölüm aya¬ğı ndadır.

- Telefonu verin, dedim!

- Rədd olun başımdan! - Atayev telefonu ondan almaq istəyən kişini bərk itələdi.

Kişi müvazinətini saxlayıb əlini pencəyinin cibinə saldı və doktora lap yaxın gəldi:

- Müqavimət göstərməyini saxla, Atayev! Səni buradaca güllələyərəm, meyitini it ölüsü kimi sürüyüb apararlar!

Atayev bu kəskin sözlərdən özünə gəlib, sakitləşdi. Ancaq o, qızı bir yolla xilas etməliydi! Sevimli qızı yataqda can verirdi!

- Xahiş edirəm! - deyə yalvarmağa başladı. - Bircə dəqiqəlik icazə verin, həkimə zəng vurum...

-Yaxşı! - Telefonu almaq istəyən kişi razılaşdı. - Ancaq həkimə! Başqa söhbətə yol verməyin!

Atayev kimə zəng vuracaqdı ki? Doktor Muradzadəyə?! Qəribədir!.. Qəribə və həm də, acınacaqlı! Ancaq o, Aydanı çox sevirdi və sevimli qızının xatirinə bu çətinliyə də dözməli idi. Başqa heç bir çıxış yolu görünmürdü...

Zəng vurdu!

Muradzadə telefonu açmırdı...

«Götür telefonu, Əlisəttar, götür!.. Götür Əlisəttar, sən kişi olmusan axı, həmişə?! Götür...» Atayev həyəcandan tərləmişdi.

Telefon açıldı!

- Əlisəttar!

- Nə istəyirsən məndən, əclaf?!



downloaded from KitabYurdu.az

- Uşağın halı pisləşib, Əlisəttar!

- Sən nə üzlə mənimlə danışırsan, Atayev?

- Məni tutdular, Əlisəttar! Həbs etdilər məni! - Atayev dodaqlarını gəmirib qarşısındakı kişilərə baxdı.

- Mən səni türmədə də rahat buraxmayacağam, Ələsgər! Sən ölməli adamsan! - Muradzadənin səsi nifrətlə dolu idi. Sən həkim adına ləkəsən. Sən insan adına da ləkəsən!..

- Qızım ölür, doktor! Aydan ölür... Yenə vəziyyəti pisləşib. Anası indicə zəng vurmuşdu. Qız özündə deyil!...

Muradzadə susmuşdu... Atayevə elə gəldi ki, telefon qapanıb. Cəld ekrana baxdı. Yox, qapanmamışdı!

- Doktor!

- Qulaq as, Ələsgər! - Muradzadə indi sakit danışırdı. - Aydan mənim xəstəmdir. Mən onu sağaltmağa söz vermişəm və deməli sağaldacam! Bu saat onun yanına gedirəm! Qoymayacam onu ölməyə!

- Çox sağ ol, doktor...

- Lazım deyil, Ələsgər, qətiyyən lazım deyil. Mən həkiməm!

Muradzadə telefonu qapadı...

Doktor Atayev əvvəlcə qarşısında dayanan adamlara baxdı. Sonra çevrilib uzun illər işlədiyi poliklinikaya nəzər saldı. Bir də

telefonuna baxdı. Gözləri dolmuşdu... Nəsə demək istəyirdi... Bəlkə də, demək yox, nəsə qışqırmaq istəyirdi. Ancaq birdən nə düşündüsə, əlindəki cib telefonunu yuxarı qaldırıb bütün qüvvəsilə asfalt döşəməyə çırpdı. Parça-parça olmuş telefonun qırıqları ətrafa səpələndi...



downloaded from KitabYurdu.az

Elə o saat da qoluna qandal keçirtdilər. Kişilərdən biri onu itələyib maşına saldı. Maşın yavaş-yavaş hərəkətə gəlib poliklinikanın həyətindən çıxdı.

## XXXVI Fəsil

## Əlinizi aşağı salın!

Həmin gün Diləfruzun ad günü idi. Elnur Qafarlının mənzilində axşam keçiriləcək məclisə ciddi hazırlıq gedirdi. Ad gününə az adam dəvət olunmasına baxmayaraq, Diləfruz xanım çalışırdı ki, hər şey keyfiyyətli və yerli-yerində olsun. İçkisinə-filanına qədər hər şeyi öz arzusu ilə, özü də ən yaxşısından tapıb təşkil eləmişdi. Məclisdəkiləri valeh edə biləcək, gözəl bir tort da sifariş vermişdi. Ümumiyyətlə, Diləfruz xanımın fikrincə, yaddan çıxan bir şey yox idi və hər şey qonaqların ürəyincə olacaqdı.

Bu gün Elnur üçün də sevindirici bir gün idi. Ona görə yox ki, Diləfruzun ad günü idi. Yox. Qayınatası telefonla bildirmişdi ki, Elnurun İcra hakimiyyəti sistemində işi artıq hazırdır. Sabah qərar verilməli idi. Axşamkı məclisdə qayınatası da iştirak edəcəkdi və orada Elnur Qafarlının yeni, daha doğrusu, ilk vəzifə təyinatı barədə daha ətraflı söhbət gedəcəkdi.

Əgər bu belədirsə, deməli, Elnur sabah yox, birisigün artıq öz vəzifəsini və kabinetini təhvil alacaqdı. Artıq vəzifəsinə başladığı ilk gündə necə geyinəcəyini də düşünmüşdü. Bunun üçün yeni şalvar,

ayaqqabı, köynək almış, həmin köynəyə yaraşan qalstuk seçimində xeyli baş sındırmalı olmuşdu. Elə ilk gündən katibəsinə fikir verəcəkdi. Əgər xoşuna gəlməsəydi, işlədiyi redaksiyanın katibəsini aparacaqdı yanına. Pərvanəni. Ağıllı, sakit qızdır. Əlbəttə, Gülşəni də təyin edə bilərdi bu işə, əgər qiyabiyə keçsəydi. Necə olmasa, artıq onun xasiyyətinə bələd idi və bilirdi ki, onunla, necə lazımdır, rəftar etmək olar...

Elə bu gün, günortadan sonra Gülşənlə görüş təyin etmişdi. İstəmişdi ki, bu gününü xoş keçirsin. Gülşən də o saat razılaşıb gəlmişdi. Bu, artıq



downloaded from KitabYurdu.az

onların təklikdə keçirdikləri dördüncü, ya beşinci görüş olacaqdı. Elnurun xoşu gəlirdi bu qızdan. Qız idi də!.. Cavan qız! Qıvraq bədəni var idi. Arıq demək olmazdı. Ən əsası da o idi ki, Elnura qarşı laqeyd deyildi. Bir müddət, ürəyin istəyən kimi, hərlənmək olardı onunla. Nə də Veneranın tayı deyildi ki, sonradan ciddi problemlər çıxsın. Ona lap bəlkə evli olduğunu da deyə bilərdi. Çünki hiss etmişdi ki, onun da könlündən kiminləsə gəzmək keçir.

Evli, ya subay ilə, o qədər fərqi yoxdur.

Gülşən doğrudan da Elnura qarşı laqeyd deyildi. Özünü Veneranın qohumu kimi təqdim edən o oğlandan bir şey çıxmayacağını hiss etmişdi. O, alışqanla bağlı görüşdən sonra yoxa

çıxmışdı və Gülşəni heç itirib axtarmırdı. Gülşən Elnurun ona daha çox qiymət verdiyini görür, özü də bilmədən, ona tərəf meyil edirdi. Həm də saf-çürük edərək düşünürdü ki, Elnur heç də ondan pis oğlan deyil.

Elnurun fikri, xəyalı həyatında baş verəcək sabahkı yenilikdə qalmışdı. Gülşən bayaqdan, fasilə vermədən, özündən, öz macəralarından danışırdı. Elnur isə ona diqqətlə qulaq asa bilmirdi. Gah ürəkaçan gələcəyi, gah da buraxdığı bağışlanmaz səhvlər barədə düşünürdü. İndi başa düşürdü ki, əslində, Diləfruza rast gəlməklə onun üçün işıqlı bir həyat yolu açılıbmış. Gözəl və sakit ailə, ürəyincə olan iş, ev, maşın, ümumiyyətlə, mədəni insana lazım olan hər şey! Ancaq Elnur ona verilmiş bu şansı, hətta belə demək mümkündürsə, bu xoşbəxtliyi qiymətləndirməmişdi. Venera ilə olan o macəralar ona lazım idimi? Ya əli pulla oynamaq, adamlar üzərində hakimiyyət qazanmaq, gözəl qadınlarla kef çəkmək arzusu ilə ona - o qorxulu cəllada qoşulmağı düz iş idimi? Yox! O, düzgün yol tutmamışdı!

Məgər onun arvadı Diləfruz pis qadındır? Əlbəttə, yox! Gözəllik deyirsən, gözəllik, xanımlıq deyirsən, xanımlıq var onda. Elnur, özündən asılı olmayaraq, Diləfruzu bu saat skamyada yanında



downloaded from KitabYurdu.az

oturmuş Gülşənlə müqayisə etdi. Diləfruz həqiqi gözəldir, təmizdir, tərbiyəlidir, ailəcanlıdır, bu isə... Gərək nə qədər insafsız olasan ki, bu fərqi görməyəsən.

Gülşən yenə özündən danışırdı:

- Bilirsən, indiyə kimi neçəsi elçi gəlib bizə? Hamısına da «yox» demişəm.

- Bu gözəllik kimdə olsaydı, sənin kimi edərdi. - Elnur onu ələ alıb, istifadə etmək üçün növbəti komplimentini söylədi.

- Elnur, xoşuna gəlirəm mən? Ancaq bax, düzünü de! - Gülşən ona bir az da yaxın oturdu.

- Əlbəttə! Sən çox qəşəng qızsan. Çoxdan mənim xoşuma gəlirsən.

- İnanmıram! - Gülşənin gözləri xumarlanmışdı.

Elnur nəyə görəsə, son günlər səbirsiz olmuşdu. Belə naz- qəmzəyə dözməyə heç həvəsi yox idi. Ona görə də səsi bir qədər soyuq çıxdı:

- Niyə?

Gülşən, deyəsən heç özündə deyildi. Özünün özü üçün yaratdığı məhəbbət aləmində idi. Başını Elnurun çiyninə qoyub ona sığındı və ehtiras dolu səslə dilləndi:

- Ona görə ki, doğrudan da sevsəydin, çoxdan deyərdin bunu...

Elnur onun sözlərindən diksindi: «Lənət şeytana! Məgər mən buna dedim ki, səni sevirəm? Bu dəlidir, nədir? Bircə elə bu qalıb ki, başıma yeni problem açım!»

Qızdan bir qədər kənara çəkildi. Elə bil Gülşən birdən-birə onun gözündən düşmüşdü. İndi onun üzünə çəkdiyi ucuz və səliqəsiz boyalar, zövqsüz geyimi, saç düzümü, əcaib bədən quruluşu, kirli dırnaqları, mənasız, şit baxışları Elnurda ikrah hissi doğururdu.



downloaded from KitabYurdu.az

«Gör bir kiminlə vaxt keçirirəm?! - deyə düşündü. - Bu qız heç Diləfruzun kəsilib atılan dırnağına tay ola bilməz. Mən, bir gör, nə qədər axmaq adam olmuşam!»

Elnur qət etdi ki, bu gündən sonra Diləfruzu gözünün üstündə saxlayacaq. Vaxtının çoxunu ailəsi ilə keçirəcək. Yoxsa bu qızı da Venera kimi sevgi-məhəbbətlə aldatmağa başlasa, bu işlərin axırı heç də yaxşı olmayacaq. Venera ilə münasibətlərinin axırı nə ilə qurtardı? Dəhşət ilə, faciə ilə! Bütün ömrü boyu onu izləyəcək bu dəhşətin, bu faciənin kölgəsi. Yox, o, bir daha elə oyunlara düşmək istəmirdi!

Gülşən Elnurun birdən-birə soyuduğunu başqa yerə yozdu. Düşündü ki, sözlərinə inanmadığı üçün ondan inciyib. Yaranmış anlaşılmazlığı aradan qaldırmaq üçün dilləndi:

- Bilirsən, Elnur, belə deməyimə baxma, əslində, mən sənə inanıram. Elə Venera yanımızda olanda da mənə necə baxdığını hiss edirdim.

Onun bu sözləri Elnuru lap iyrəndirdi. Ayağa qalxıb, saatına baxdı:

- Gülşən, bağışla, mən evə getməliyəm. Atamgil gözləyir. Başqa qonaqlarımız da olacaq. Dur, gedək, səni ötürüm. Sonra zəngləşib görüşərik.

Elnur belə desə də, ürəyində qəti qərara gəlmişdi ki, bir də heç vaxt bu qızla görüşməsin.

Gülşən könülsüz ayağa qalxdı. O, hələ çox oturmaq istəyirdi. Ancaq neyləmək olardı? Elnur tələsirdi. Qızı heç maşınına da dəvət etmədi. Yaxınlıqdakı avtobus dayanacağına qədər getdilər. Elnur bunu ancaq etika qaydalarına görə edirdi. Daha doğrusu, cəsarəti çatmırdı ki, ürəyindəkini qızın üzünə deyib, ondan birdəfəlik ayrılsın.

Dayanacaqda dayandıqları beş dəqiqə Elnura beş il kimi gəldi. Lap küsülü kimi dayanmışdılar. Bu biri tərəfdən də Elnur qorxurdu ki, tanışdan-



downloaded from KitabYurdu.az

bilişdən onları bir yerdə görən olar. Nəhayət, avtobus gəldi və Gülşən ona minib getdi.

Elnur dərindən nəfəs aldı. Qurtardı daha onunla! Zəng eləsə də

cavab verməyəcək! Geriyə qayıdıb, maşınına oturdu. Tələsik onu işə salıb yola düşdü. Artıq saat altı idi. Yəqin ki, ad gününə gələnlərin hamısı yığışmışdı. Hamıdan da çox qızı Aytac onu gözləyirdi. Gözləri qapıda qalmışdı indi onun.

Elnur qızını yaman çox istəyirdi. Nə qədər dərdli, nə qədər fikirli olsa da, divanda oturub Aytacı qucağına alan kimi hər şeyi unudurdu. Elə qız da onu anasından çox sevirdi. Atası gecələr yanında uzanmasa, gözünə yuxu getmirdi. Nədənsə, heç «Ata» demirdi Elnura. Eləcə adı ilə çağırırdı. Onun son dərəcə şıltaq hərəkətlərini xatırlayan Elnur özündən asılı olmayaraq gülümsədi...

Artıq gəlib evə çatmışdı. Maşından düşüb bloka girdi. Onun arxasınca daha iki nəfərin bloka daxil olduğunu gördüsə də əhəmiyyət vermədi. Bunlar əyninə tünd göy rəngli kostyum geymiş iki kişi idilər. Elnur mənzilinin qapısına çatıb əlini zəngin düyməsinə uzadanda onlardan biri ucadan səsləndi:

- Əlinizi aşağı salın!

Qəfil səsdən diksinən Elnur geri döndü.

Elnur Qatarlı sizsiniz? - həmin kişi soruşdu.

- Bəli... Siz kimsiniz?

- Biz bayaqdan sizi gözləyirik! - yad kişi bunu deyib, sənədini

göstərdi. - Bizimlə prokurorluğa getməlisiniz!

- Nə... Nə üçün? - Elnurun dili topuq çaldı.



downloaded from KitabYurdu.az

- Bizə sual verməyin! Qapıdan çəkilin! - həmin adam bunu deyib cibindən qandal çıxartdı.

- İndi həyat yoldaşımın ad günüdür. - Elnur qapıya baxdı.

Qapının o biri üzündən şən hay-küy səsləri aydın eşidilirdi. - Sabah özüm gələrəm... Söz verirəm...

Bir söz demədən qandalı qoluna keçirtdilər.

- Gedək! Artıq söhbət lazım deyil!

- Mənim qayınatamı... yəqin ki, tanıyırsınız...

- Boş-boş danışma! - qolundan tutmuş şəxs istehza ilə dilləndi. - Qayınatanı da zibilə salarsan!

Elnur geriyə qanrılıb, sonuncu dəfə mənzilinin qapısına baxdı. Mənzildəkilər beş addımlıqda baş verənlərdən xəbərsiz, deyib-gülürdülər. Elnurun canını dəhşət aldı:

«Deməli, məni həbs etdilər? Doğrudanmı məni daha heç kim xilas edə bilməyəcək?! Bu ki dəhşətdir! Kaş yuxu olaydı bu!»

Ancaq bu, yuxu deyildi. Həqiqət idi və həqiqətdə də onu blokun qabağında dayanmış qara rəngli «Qaz-31»ə mindirib birbaşa prokurorluğa apardılar. Ancaq müstəntiq Nəzərli yerində deyildi. Ona

görə də Elnuru müvəqqəti saxlama kamerasına salıb getdilər.

* * *

Həmin vaxt müstəntiq Səyavuş Nəzərli mötəbər bir yerdə çağırılmış qapalı müşavirədə iştirak edirdi.

Müşavirədə Ramin Əlibəylinin istintaqı yarıtmaz və qərəzli aparmasından və digər şübhəli əməllərindən söhbət getdi və onun vəzifəsindən azad olunması qərara alındı.



downloaded from KitabYurdu.az

Binyətovun isə, vəzifəsindən azad olunmaqla bərabər, haqqında həbs qətimkan tədbiri seçildi. Belə bir tədbir, bəzi şübhələr sübut olunardısa, Ramin Əlibəylini də gözləyirdi.

Müşavirədə çıxış edən müstəntiq Nəzərli baş vermiş cinayətin motivlərinin hələ də qaranlıq qalmasını bildirərək qeyd etdi ki, məsələnin açılmasında müstəqil ekspert kimi fəaliyyət göstərən polkovnik Qasımlının köməyinə arxalanır.

Həmin qara eynəkli kişi də müşavirədə iştirak edirdi. O, müşavirənin sonunda üzünü yüksək rütbəli inzibati orqan işçilərinə tutub, adıçəkilən polkovnik Qasımlının bu işlə əlaqəsini bəzi vacib səbəblərə görə mümkün qədər gizli saxlamağı məsləhət gördü...

## XXXVII Fəsil

Unutma ki, dünya fani...

Səhər saat doqquz idi. Bu günün iş günü olmağına baxmayaraq, Gülafət xanım hələ də yatağından qalxmamışdı. Axşam Ruslan Dadaşov ona zəng vurub, bu gün birlikdə Şamaxıya getməyi təklif etmişdi.

- Bir az gəzib istirahət edərsən, dərdin-sərin dağılar, - demişdi.

Gülafət xanım buna etiraz etsə də, Ruslan səhər saat 10-da onun arxasınca gələcəyini deyib, telefonu qapamışdı.

Hər gün işə getmək üçün saat yeddidə yatağından qalxmalı olan Gülafət xanım bu gün yuxudan ayılandan «Gedim, getməyim?

Qalxım, qalxmayım?» deyə-deyə yatağında o üz-bu üzə çevrilmiş, iş vaxtını keçirtmişdi.



downloaded from KitabYurdu.az

Baş vermiş o məşum hadisələrdən sonra gecələri tənha keçirirdi. Axşamlar vaxtında yatağa girsə də, uzun müddət gözünə yuxu getmir, ovçu gülləsindən yaralanmış ceyran kimi yerində çapalayırdı. Belə hallarda, çox vaxt, onsuz da hər şeyini itirdiyini bir daha dərindən başa düşür, kiminsə nəvazişli ağırlığı altında olmağı arzulayırdı.

Bu gecə olduqca xoşagəlməz bir yuxu görmüşdü. Görmüşdü ki,

Asəfin bağındadırlar. Ruslan da oradadır. Niyazi özünü vurduğu vaxt oturduğu həmin stulda oturub. Əncir ağacının kölgəsində...

Gülafət xanım nə Asəfin bağını, nə də o əncir ağacını görmüşdü. Əgər bu yuxusunu olduğu kimi, həmin yeri tanıyan bir adama, məsələn, Asəfin özünə danışsaydı, yəqin ki, Asəf dəhşətə gələrdi.

Hə... Görmüşdü ki, Niyazi həmin stulda oturub, heç dinib danışmır. Bərəlmiş gözlərini eləcə bir nöqtəyə dikib, oturub. Sonra, Ruslan öz maşını ilə çıxıb getmək istəyir. Gülafət dillənir ki, mən də şəhərdəki evimizə getmək istəyirəm. Niyazinin dinmədiyini görüb Ruslanla maşına tərəf gedirlər. Bu zaman ağaca bağlanmış Qaplan bərkdən hürməyə başlayır. Gülafət xanım səsi eşidib arxaya çevrilir və təəccüblənir:

- İti niyə bağlayıblar?...

Bu zaman görür ki. Niyazi yerindən qalxmadan ona nəsə deyir. Daha doğrusu, demək istəyir, amma səsi çıxmayır. Sonra başını lap asta-asta, hətta qorxa-qorxa yelləyir. Deyəsən, «Getmə!» deyirdi.

Qaplan dartınıb ağacı kökündən çıxarmaq istəyir. Gülafət xanım maşına minəndə bir də arxaya boylanır. Yerindən qalxa bilməyən, dili tutulmuş kimi səsi çıxmayan Niyazi əlini tez-tez yelləyirdi:

- Yox! Yox! Yox!

Gözlərində bir qorxu, bir dəhşət var idi Niyazinin... Elə baxışları ilə də həmin sözləri deyirdi:



downloaded from KitabYurdu.az

- Yox! Yox! Yox!

Ancaq Gülafət xanım maşına minir və maşın həyətdən çıxır. Elə bu zaman bağlandığı kəndiri qıran Qaplan onların arxasınca düşür.

Bir müddət maşının dalınca qaçan it çata bilməyəcəyini görüb, dayanır və Gülafət xanımın ömründə eşitmədiyi tükürpərdən bir səslə ulayır.

Yuxusunun bu yerində ayılanda saat altı idi. Ondan sonra gözünə yuxu getməmişdi. Bir müddət, gördüyü bu qorxunc yuxunu yozmağa çalışmışdısa da, bir şey alınmamışdı.

Məlikxanlı sağlığında Gülafət xanımı Ruslana qısqanmırdı. Həddindən artıq inanırdı Ruslana... Elə Gülafət xanımın özünə də! Bəs bu yuxunu necə yozmaq olardı?... Bəlkə Niyazinin ruhuna agah olub onların əlaqələri? Gülafət xanım ruhun varlığına inanırdı...

Ancaq bəs Qaplan? O nə cür ulamaq idi, ay Allah? Gülafət xanım ayılandan yarım saat sonra qorxusu güclə çəkilmişdi. Bəs Qaplan nə demək istəyirdi? İtin də ruhu olurmu görəsən?..

Gülafət xanım əri öləndən sonra ağlamamışdı. Yasda da bir tərəfdə oturub əlində tutduğu yaylıqla hərdən gözlərindən süzülməkdə

olan bir damcı göz yaşını qurulamışdı. Əyninə başdan-ayağa qara paltar geyinmiş Gülafət xanım həmin anlarda da çox gözəl görünürdü. Saçının böyük bir topası sağ tərəfdən ayrılıb, sifətinə düşmüşdü. Bu onun simasına son dərəcə qəmli bir görkəm versə də, eyni zamanda, bu vaxta qədərki görünüşlərindən fərqli olan məhrəmanə bir gözəllik də verirdi. Ona başsağlığı verməyə yaxınlaşan kişilər də, qadınlar da ürəklərində onun qənirsiz bir gözəl olduğunu etiraf edirdilər.

Amma yox!.. Bir dəfə ağladı. Özü də lap ürəkdən ağladı. Deyəsən, dəfnin beşinci günü idi. Axşam evdə tək oturmuşdu. Birdən- birə, haradansa, beş-altı ay əvvəl olmuş bir kiçik əhvalat yadına düşdü...



downloaded from KitabYurdu.az

... Hansısa qış ayı idi. Gülafət xanım yüngül soyuqladığı üçün yataqda idi. İşə getməyəcəkdi. Daha doğrusu, Niyazi qoymadı qalxmağa.

- Gedərsən, xəstəliyin bərkiyər. Yat, müalicə olun, yaxşı olsan, sabah çıxarsan işə!

Niyazi özü də işə çox gec getdi o gün. Mətbəxdə arvadı üçün xörək bişirməyə başladı. Yeməyi çarpayının yanına gətirdi. Sonra, nəyə görəsə, pərt halda tələsik geyinib işə getdi.

Gülafət xanım həmin gün, bir də günortadan sonra ayağa

qalxanda gördü ki. Niyazi qızmış tavanı mətbəxdəki ağ rəngli stolun üstünə qoymaqla onu yandırıb. Stolun üstü aypara şəklində qaralıb, korlanmışdı. Bu stol onun cehiz gətirdiyi avadanlıqdan idi. Buna görəmi, ya xəstəliklə əlaqədar, əsəblərinin zəifləməsinə görəmi, işdən qayıdanda Niyazini əməlli-başlı danladı. Onda Niyazi lap uşaq kimi xəcalət çəkirdi. Pərt halda çiynini çəkib:

- Daha neyləmək olar?! - dedi. - Ondan da yaxşısını alarıq...

Hə, bax, həmin bu əhvalat yadına düşəndə əməlli-başlı ağladı Gülafət xanım! O ki var, göz yaşı tökdü onda...

... Gördüyü qəribə yuxu yadına düşdü. Yenə güclə duyulan bir qorxu bürüdü canını. Yenə yoza bilmədi yuxunun mənasını. Başından çıxartmaq istədi bütün bu fikirləri. Yoxsa yaman incidirdi, üzürdü onu bu fikirlər. Başqa şey düşünmək istədi. Birdən-birə Ruslan yadına düşdü. Gəlməyinə az qalırdı onun...

Daxilindəki ehtiras yenə də baş qaldırıb bütün bədəninə yayıldı. Üstündəki nazik yorğanı kənara atdı. Ruslana təslim olduğu i!k günü xatırladı. Bədəninə ehtiras dalğaları yayıldıqca, gördüyü yuxunun qorxusu da, başqa dərdi-səri də canından asta-asta çıxmağa başladı.



downloaded from KitabYurdu.az

Gülafət xanım, artıq, bilirdi ki, heç olmazsa, iki nəfərin gözündə öz əlçatmazlığını, öz yüksəkliyini itirmişdi. İki adam daha əvvəlki gözlə

baxa bilməzdilər ona. İki nəfərmi? Yox üç nəfər! Üçüncü adam Gülafət xanım özü idi ki, özü də daha özünə əvvəlki kimi baxmırdı.

Özünə tamaşa etməklə, yerində qıvrılmaqla yanğısını söndürə bilməyəcəyini başa düşüb, ayağa qalxdı. Vanna otağına keçib, duş qəbul etdi. Ev xalatını geyinib saçlarını daradı. Güzgünün qarşısında durub Ruslan gələndə özünü necə aparacağı barədə düşündü. O, əri öləndən sonra bu adamla təklikdə görüşməmişdi. Ancaq yas mərasimi ilə əlaqədar söhbətləri olmuşdu. Həmin söhbətlərdə də əlavə adamlar iştirak etmişdi. Bir-iki dəfə də telefonda danışmışdılar.

İndi, budur, Ruslan onu Pirquluya gəzintiyə dəvət edirdi.

Görəsən, getsinmi? O bu canavar xasiyyətli adamla daimi əlaqə saxlamaq fikrində deyildi. İki dəfə, ehtirasının ağlına üstün gəldiyi vaxtlarında onunla yataqda olmuşdu. Ancaq bu işi beləcə davam etdirmək lazım deyildi. Sirrin açılmasından, tanış-biliş, qohum-əqrəba qarşısında rüsvay olmaqdan qorxurdu. Lakin Ruslana qarşı çıxmaq da Gülafət xanım üçün asan iş deyildi. Bu vəhşi baxışlı erkəyi görəndə onun bədənindən, elə bil, cərəyan keçirdi.

Ruslanla keçirdiyi həmin iki günün əzaba qarışmış xoş saatlarını gözləri önünə gətirdi. Bədəni yavaş-yavaş od tutub yanmağa başladı. Əslində həmin anlarda bu it oğlundan narazı qalmamışdı. Ancaq

ehtiras sərxoşluğundan ayılandan sonra mənliyinin əzildiyini, təhqir olunduğunu hiss etmişdi. Axı onların arasında məhəbbətə oxşayan heç bir şey yox idi?! Heç istək, hörmət, səmimiyyət də yox idi onların arasında. Onların o günkü hərəkətləri daha çox qızmış heyvanların hərəkətlərini xatırladırdı.



downloaded from KitabYurdu.az

Asəf başqa!.. Asəfin, hiss olunur ki, ona çox böyük hörməti var. Onu insan hesab edir. Şəxsiyyətinə, mənliyinə toxunmağı ağlına da gətirmir. Asəflə görüşdüyü dəqiqələr xoş, beyni dumanlandıran, bədə¬nə ilıq hərarət gətirən anlar kimi qalmışdı yadında...

Ancaq Ruslanın gözündə Gülafət xanım gözəl idi, yeməli idi, parçalanmalı bir varlıq idi, vəssalam! Ruslana mənliyinin zəiflədiyi bir vaxtda təslim olmuşdu. Elə bir vaxtda ki, onda ehtirasını sön¬dürməkdən başqa heç nə düşünə bilmirdi.

Elə indi də hiss edirdi ki, həmin mənlik deyilən şey yavaş-yavaş əriyib, bədənindən yoxa çıxır. Yenə dəli ehtiras qəlbinə hakim olmağa başlayırdı. Yenə nəvaziş görmək istəyirdi. Sıxılmaq, əzilmək, tapdanmaq istəyirdi. «Yox, gedəcəm!» deyə düşündü. Bu dəfə də onun istədiyini edəcəm, ancaq axırıncı dəfə! Sonra bu görüşlərə bir dəfəlik son vermək lazımdır!

... Zəng çalınan kimi gedib qapını açdı. Əynində yüngül gəzinti

paltarı olan Ruslan qapıda dayanmışdı. Yaxası açıq xalatda, sanki işıq saçan ev sahibəsini özünəməxsus alıcı baxışları ilə süzüb soruşdu:

- Hazırsan?

- Keçin içəri... - Gülafət xanım nazla çevrilib otağa girdi.

- Hazırlaş, çıxaq, vaxt azdır! - onun arxasınca otağa daxil olan Ruslan saatına baxdı.

- Nə var ki orada? Mən getmək istəmirəm! - Gülafət xanım özü də bilmirdi ki, bunu naz eləmək xatirinə deyir, yoxsa son bir cəhd göstərib, özünü mənəvi uçuruma yuvarlanmaqdan xilas etmək istəyir.

- Necə yəni, nə var? - Ruslan, sanki təəccübləndi. - Pirquluda olmamısan? Bu saat oranın ən yaxşı vaxtlarıdır. Axşama kimi yaxşı istirahət edərik. Hələ istəsən, səhərə kimi!



downloaded from KitabYurdu.az

- Birdən bizi bir yerdə gördülər?.. - Gülafət xanım onun üzünə baxmadan, yavaşca soruşdu.

- Görməzlər! - Ruslan tam əminliklə dilləndi. - Burada maşına minib, bir də meşənin içində düşəcəyik. Orada tanış adamın restoranı var. Sən olmamısan o restoranda. Dərədə yaşıl talalar var. Maşını düz həmin talalara sürürsən, nə səni görən olur, nə də narahat edən!

Yaxşı da qulluq edirlər.

- Görsələr, biabır olaram!... - Gülafət xanım artıq yola gəlmiş

adamlar kimi dilləndi.

- Mən səndən çox düşünürəm o barədə. - Ruslan əlini qadının çiyninə qoydu. - İki gündən sonra deputatlığa namizədliyimi verəcəm. Qətiyyən istəmərəm ki, məni səninlə görən olsun. Özü də seçki kompaniyasının başlandığı belə bir ərəfədə! Ona görə də elə edəcəyəm ki, bizi heç kəs görməyəcək. Yüz faiz arxayın ola bilərsən!

Gülafət xanım sakitcə dayanıb qulaq asırdı. Bu hiyləgər qurdun dedikləri başına batırdı. Bəlkə də onun dediyi kimi, xoş saatlar keçirə bilərdi bu gün. Ruslan onu bir əli ilə qucaqlayıb üzündən öpdü:

- Keç, paltarını dəyiş! Elə-belə, yüngül şalvardan-zaddan geyin. Hər halda meşəyə gedirik.

Ev sahibəsi dinməzcə yataq otağına keçib xalatını soyundu. Əynində yalnız kiçik alt paltarı qaldı. Bu anda, gözlənilmədən otağa daxil olan Ruslan qadını bu vəziyyətdə gördü. «Yox, bu doğrudan da möcüzədir. İnsan deyil elə bil, ətirli güldür başdan-ayağa...» Ehtirası qalxdı. Bədənindəki qanın hamısı bir tərəfə yığıldı elə bil... Yaxınlaşıb, aşağıya əyilmiş qadını arxadan qucaqladı. Gülafət xanımın bədəni uçunmağa başladı:

- Çəkil... İmkan ver, geyinim...



downloaded from KitabYurdu.az

Sonra, birdən nə hiss etdisə, az qaldı ki, huşunu itirsin:

-Yaxşı... Qurtar...

Əslində, möhkəm adam olan Ruslan özünü birtəhər məcbur edib, qadını sərbəst buraxdı:

- Di yaxşı! Tez geyin, gedək!

Gülafət xanım balağı dizdən olan yüngül yay şalvarını və ağ qolsuz köynəyini əyninə keçirib, çantasını götürdü. Qayıdıb bir də güzgüdə özünə baxdı və həyəcanlı halda dilləndi:

- Gedək!..

Ruslan Gülafət xanımdan qabaq çıxdı ki, onları bir yerdə görməsinlər. Gözaltı ətrafı süzüb, şübhəli heç bir şey görmədi və arxayınlıqla sükanın arxasına keçdi.

Bayaq yataq otağına keçərkən, Gülafət xanımın həmin andakı duruşunu gözlərinin qarşısına gətirdi. Dodaqlarını var qüvvəsi ilə dişləyib qanatdı. Əlini zərblə maşının sükanına çırpıb:

- Bu dəfə parçalayacam onu! O mənimdir, ancaq mənim! - dedi.

Blok sakitlik idi. Gülafət xanım asta-asta pillələri düşüb, blokdan

çıxdı. Oğrun-oğrun ətrafa boylanıb, heç kəsin onu görmədiyinə əmin oldu və arxa qapıdan maşına mindi. Ruslan maşını işə saldı. Boz «Nissan» yavaş-yavaş hərəkətə gəlib, binanı arxada qoydu.

Bu zaman onlar arxaya baxsaydılar, qara rəngli bir «Mersedes»in

onların arxasınca düşdüyünü, yəqin ki, görərdilər...

* * *



downloaded from KitabYurdu.az

Ruslan bunu yalnız 3-cü mikrorayonun dairəsində başa düşdü. Orada maşınlar bir-birinə sıxlaşmışdılar və qara rəngli «Mersedes» burnunu, az qala «Nissan»ın belinə dirəmişdi.

Ruslan:

- Bu «Mersedes», deyəsən, bizi izləyir... - dedi və gözlərini güz¬güdən çəkmədi.

- Kimdir o? - Gülafət xanım çevrilib, narahatlıqla arxaya boylandı.

-Aha!... - Ruslan gözləri maşının güzgüsündə olduğu vəziyyətdə dilləndi. - Deyəsən, bu, o əclafın maşınıdır!

- Hansı əclafın?

-Ancaq özü yaxşı görünmür... Deyəsən, arxada oturub...

- Kimi deyirsiniz, axı? - Gülafət xanım həyəcanla soruşdu.

- O gecə sizin bağınıza gələn... Qara xəfiyyə!...

Gülafətin o saat yadına düşdü. O gecəki yad qonaq da qara

rəngli «Mersedes»də gəlmişdi. Onun iti və kəskin baxışları, sanki indi də bədəninə batıb, deşməyə başladı. Bu baxışlar indiyə kimi onun yadından çıxmamışdı. Sonra onun poliklinikaya gəlməsini xatırladı.

- Nə oldu bunun adı?

- Qanbay Qasımlı! Özü kimi hiyləgər və həyasız adam yer üzünə gəlməyib! Xəstəxanada - ölüm yatağında idi bu! Nə vaxt çıxıb oradan, bilməmişəm.

Ruslan yaranmış tıxacdan istifadə edib, onu dabanbasma izləyən maşından aralandı. Bu vaxt onların arasına bir furqonlu «Moskviç»in burnu girdi. «Mersedes» daha pis tıxaca düşdü. Boz «Nissan» isə özünə yol tapıb dairədən çıxdı və «20 Yanvar» metrostansiyası tərəfə şütüdü.



downloaded from KitabYurdu.az

- Axı o, bizdən nə istəyir? - Gülafət xanım yaman dilxor olmuşdu.

- O, başını hər yerə soxan adamdır. - Ruslan istehza ilə cavab verdi. - İndi də əcəl onu girləyib salıb dalımızca. Ancaq yaxşı nömrə gəldik ona! Daha itirdi bizi! Bir də ki, sən qorxma. Səni görə bilməzdilər onlar. Maşının içi görünmür.

- Təki, elə olsun! - Gülafət xanım bir az rahatlandı.

Ancaq heç də, elə deyildi. Qara «Mersedes»in sükanı arxasında olan Mahir də, arxa oturacaqda oturmuş Qanbay Qasımlı da Gülafət xanımı hələ blokdan çıxıb maşına minərkən görmüşdülər...

Bir də ki, onların bu gün Pirquluya gedəcəyini, daha doğrusu

Ruslanın bu barədə təklifini polkovnik hələ dünən axşamdan bilirdi. Ruslanın Gülafət xanıma zəng etdiyi vaxtdan. Ancaq Gülafət xanım telefonda Ruslana etiraz etmişdi və Qasımlı üçün onun bu gəzintiyə gedib-getməyəcəyi qaranlıq qalmışdı.

Məsələ burasında idi ki, Qasımlı xəstəxanadan çıxdığı gün, Asəfin bağında apardığı təhqiqatdan sonra müstəntiq Səyavuş Nəzərliyə «Hərəkətə başlaya bilərsiniz!» deyə siqnal vermişdi. Nəzərli də elə səhəri gün doktor Atayevlə Elnur Qafarlını həbs etdirmişdi.

Qasımlı isə həmin qara eynəkli kişidən xahiş etmişdi ki, aparılan işin və şəxsən onun xatirinə Ruslan Dadaşovun telefon danışıqları dinlənilsin və vaxtaşırı, bu barədə ona məlumat verilsin.

Bu gün səhərdən isə Mahirlə birlikdə Ruslan Dadaşovu izləmişdilər. Gülafət xanımın blokdan çıxıb Ruslanın maşınına mindiyini görəndə Qasımlı, hisslərini üzə vurmasa da, çox pis olmuşdu. Başa düşmüşdü ki, maqnitofondan eşitdiyi o ani səs heç də təsadüfü deyilmiş...

İndi o, inzibati orqanlara məlumat vermək əvəzinə, Ruslan Dadaşovun arxasınca düşməyinin səbəbini özü də tam anlamırdı. Bircə onu bilirdi ki,



downloaded from KitabYurdu.az

deputatlığa namizədliyini verməyə hazırlaşan Ruslan üçün Gülafət xanımla birlikdə ifşa olunmaqdan biabırçı heç nə

ola bilməz!

Yəni Qanbay Qasımlı Gülafət xanımın da biabırçılıqla ifşa olunmasını istəyirdimi? Bu çox maraqlı sual olsa da, kinli xəfiyyənin buna nə cavab verəcəyini demək çətin idi...

... Boz rəngli «Nissan-Maxima» Müşfiqabad qəsəbəsinin yanındakı Yol Polisi postunu keçdi. Ruslan əlini uzadıb maqnitofonu işə saldı. Barış Mançonun yanıqlı səsi maşının salonuna yayıldı.

Gülafət xanımın yadına mərhum əri düşdü. Niyazi də çox sevirdi Barış Mançonun ifasını. Həmin bu kasetdən Asəfin də maşınında var idi. Niyazi qəmli vaxtlarında maşına minəndə bu kaseti oxutdururdu.

Gülafət xanımı birdən-birə qəribə bir narahatlıq bürüdü. Qəlbinin dərinliyindən peşmançılıq hissi baş qaldırmağa başladı. «Mən bu adama qoşulub haraya gedirəm axı? - deyə ürəyində özünü danladı. - Bu mənim kimimdir? Ərimin dostu? Dosta bax!»

Geriyə qayıtmağı elə arzulayırdı ki... Ancaq bunu dilə gətirməyə cəsarəti yox idi. Həm də, bilirdi ki, mənasızdır daha! Bakı-Şamaxı yolundakı hərbi şəhərciyə çatmaqlarına lap az qalmışdı.

- Nə olub sənə? - Güzgüdən ona göz qoyan Ruslan soruşdu. - Kefin yoxdu, deyəsən?!

- Nəsə, narahatam...

- Darıxma, Pirquluya çataq, hər şey yadından çıxacaq!

- Nahaq bu gün yola çıxdıq biz... - Gülafət xanım fikirli halda başını yırğaladı.



downloaded from KitabYurdu.az

- Nəhs danışma, görək! - Ruslan acıqlandı və birdən əsəbi halda əlini sükana çırpdı. - Vay sənin atana lənət! Həyasızlığa bir bax!

Onun arxanı izlədiyini görən Gülafət xanım da geriyə boylandı. Arxadan böyük sürətlə gələn qara rəngli «Mersedes» onlara çatmaq üzrə idi. Ruslan sürəti artırdı.

Bu vaxt «Mersedes»in sükanı arxasında oturmuş Mahir Talıbov arxaya çevrilib, dodaqlarını bir-birinə sıxaraq, bütün diqqətini qarşıdakı maşına vermiş Qanbay Qasımlıya dedi:

-Yəqin ki, bizi görüb, sürəti artırdı. Başa düşə bilmirəm, biz onları daha niyə izləyirik? Onlar lap yəqin Şamaxıya gedirlər. Pirqulu tərəfə, istirahətə.

- Gedə bilməyəcəklər istirahətə! - nazik sərt qaşları bumunun üstündə birləşmiş Qasımlı dilləndi. - Onlar bu gün ifşa olunmalıdırlar! Sürəti artır! Gözümüzdən itsələr, yoldan burulub, bizi azdıra bilərlər.

- Nə deyirəm?! - Mahir çiynini çəkdi və maşının sürətini artırdı. «Mersedes» asfaltda yüksək sürət götürərək, artıq uzaqlaşmaqda olan «Nissan»ı yenidən haqlamağa başladı.

Gözünü bir an da, olsun, qarşıdakı maşından çəkməyən polkovnik bu gün özünü heç cür anlaya bilmirdi. Yəni doğrudanmı, Ruslan Dadaşovu Gülafət xanımla birlikdə tutub ifşa etmək lazım idi? Axı buna elə bir ciddi ehtiyac yox idi?! Axı Qasımlı onların şəxsi işinə nə üçün qarışırdı? O öz boynuna götürdüyü işi yerinə yetirməli idi və bütün aləm tökülüb gəlsə də, başladığı işi başa çatdırmamış geri çəkilməyəcəkdi. Bəs şəxsi münasibətlərə niyə qarışırdı o? Ruslanın Gülafətlə gizlin görüşməsinin Qasımlının apardığı işə, ya Qasımlıya, ya kimsə başqa bir adama dəxli var idimi? Ruslan öz dostu Məlikxanlıya xəyanət etmişdi! Nə olsun? Bunun ki, polkovnik Qasımlıya dəxli yox idi?!



downloaded from KitabYurdu.az

Ancaq Qasımlıya daha çox təsir edən Ruslanın Niyazi Məlikxanlıya xəyanəti deyildi. Onun qəlbini ağrıdan neçə gündən bəri qəlbində baş qaldırmış duyğuların təhqir olunması idi. Heç vaxt, heç kimə aldanmayan təcrübəli xəfiyyə özünü uşaq kimi aldanmış hiss edirdi. Bu idi onu qəzəbləndirən! Bu idi ona dərindən düşünüb qərar verməyə mane olan!

Yoxsa Ruslan Dadaşovu tutmaq lazım idisə, elə bu saat cib telefonu ilə müstəntiq Səyavuş Nəzərliyə zəng vurardı. Və beləliklə, uzağı Mərəzə postunda «Nissan»ın qabağını kəsib Ruslanı tutardılar.

Ancaq Qasımlı bu barədə düşünmürdü. Daha doğrusu, heç nə barədə düşünmürdü. Ruslan Dadaşov heç! Artıq onun barəsində hər şey Qasımlıya məlum idi. O, nə qədər bilikli, nə qədər hiyləgər və təcrübəli olsa da polkovnik Qasımlını aldada bilmədi. Ancaq adi bir qadını tanıya bilməmişdi polkovnik Qasımlı!..

Qəribədir! Yəni doğrudanmı, bir az da keçsəydi, Qasımlı bu qadını sevəcəkdi?.. Kim bilir?.. Bəlkə də... Nə qədər sərt və qaraqabaq olsa da, o da insan idi... Ancaq deyəsən indi onu qəzəbləndirən, onda nifrət oyadan təkcə Gülafət xanımın hərəkətləri də deyildi.

Hələlik dilinə gətirmək istəməsə də o, neçə gündən bəri apardığı bu təhqiqatda özünü qismən uduzmuş və aldanmış hesab edirdi. Məlikxanlını düşdüyü tələdən xilas edə bilməmişdi. Elə bunun üçün də, deyəsən, intiqam almaq istəyirdi kinli xəfiyyə! İntiqam!

Böyük sürətlə gedən «Nissan» yenə gözdən itdi. Qasımlı özün¬dən asılı olmayaraq, səsini qaldırdı:

- Mahir, sürəti artır! Sən sürünürsən!

Ancaq o, düz demirdi. Özü də görürdü ki, sürətölçənin əqrəbi 150 rəqəminin üstündə titrəyir.

Bütün diqqətini ancaq yola verən Mahir, bir söz deməyib sürəti



downloaded from KitabYurdu.az

artırdı. «Mersedes» indi daha, getmirdi. Belə demək mümkünsə ... uçurdu!

Lakin «Nissan» heç cür məğlub olmaq istəmirdi. Arxadan gələn maşının ona çatmaq üzrə olduğunu görüb, daha böyük sürət götürdü.

Sükandan bərk-bərk yapışmış Ruslan, sanki öz-özü ilə danışırdı:

- İmkan verməyəcəm mənə çatasınız!

O düşünürdü ki, təki onu Gülafət xanımla görüb, seçkiqabağı rüsvay etməsinlər. Onun fikrincə, bəzi şeylərdə ondan şübhələnmişdilərsə də, heç nəyi sübut edə bilməyəcəkdilər...

Nahamar asfaltda böyük sürətlə gedən maşın, hava boşluğuna düşmüş təyyarə kimi atılıb düşdükcə və külək qorxunc bir səslə vıyıldadıqca, Gülafət xanımın canını təsvirəgəlməz bir qorxu bürüyürdü.

O, ömründə belə bir sürətlə gedən maşında oturmamışdı. Qarşıdan gələn maşınları görəndə, özündən asılı olmayaraq, gözlərini yumur, lakin bu zaman daha böyük qorxuya düşürdü.

Barış Manço isə yeni mahnıya başlamışdı. Bu, Veneranın çox sevdiyi və axır günlər tez-tez oxutduğu, həmin mahnı idi:

- Kara haber tez duyulur...

Gülafət xanım yenə axşamkı yuxunu xatırlamışdı. Ona birdən elə

gəldi ki, həmin qorxunc yuxunun yozmasını tam kəskinliyi ilə başa düşdü. Hə! Lap yəqin, belə idi! Niyazi də, hətta Qaplan da onu bu maşına minməməyə çağırırdılar. Niyazinin gözlərindəki dəhşətli qorxu, itin səsindəki vahiməli fəryad buna işarə verirmiş. Onlar öz ruhları vasitəsilə Gülafət xanımın yuxusuna girib ona xəbərdarlıq etmək istəyirlərmiş. Gülafət xanım bu gün bu maşına minməməliydi!



downloaded from KitabYurdu.az

Təkcə bu günmü? Yox, heç vaxt minməməliydi! Deməli, Niyazi də, onun sevimli iti Qaplan da nəsə bilirlərmiş! Bəli, bilirlərmiş! Ancaq Gülafət xanım heç nə bilmədi, heç nə başa düşmədi. Onu sevən ruhların yuxusuna girib onu xəbərdar etməsinə də məhəl qoymadı.

Barış Manço öz qəmli səsi ilə oxuyurdu:

- Unutma ki, dünya fani,

Verən Allah alır canı...

Yenə Niyazi yadına düşdü. Sanki Allah tərəfindən göndərilmiş bir fikir onun beyninə girib, bütün beynini, bütün qəlbini silkələdi: «Niyazi günahkar deyildi! Niyaziyə tələ qurmuşdular!»

Bax, bu Ruslanı niyə təqib edirlər? Nəsə bilirlər, deməli! Onları inadla izləyən «Mersedes»də oturmuş həmin adam poliklinikada necə demişdi? «Siz nahaq yerə öz ərinizə inanmırsınız!»

Yox! Niyazi günahkar deyilmiş! Həmin bu alçaqla yatdığı gecə

onun zəng vurmağı yadına düşdü. Yox! Niyazi ona xəyanət etməyib! Günahsız imiş Niyazi! «Ancaq mən ona xəyanət etdim! - deyə acı-acı düşündü. - Mən dözmədim. Mən xain çıxdım! Dar günündə tək qoydum Niyazini!»

Ruslan qarşısına çıxan maşınları ani külək kimi keçirdi. Qarşıdan gələn maşınlar qeyri-adi sürətlə yaxınlaşan bu maşını görüb kənara çəkilir, bəzən isə yoldan çıxıb dayanırdılar. Ruslan onları təqib edənlərin gözündən yayınmaq, Mərəzəyə çatan kimi yoldan çıxıb gizlənmək istəyirdi. Odur ki, cəsarətini toplayıb sürəti son həddə çatdırdı. «Nissan» artıq bundan yüksək sürəti götürə bilmirdi. Buna baxmayaraq arxadan gələn «Mersedes» tərsliyə salıb, geri qalmaq istəmirdi.

Barış Manço oxuyurdu:



downloaded from KitabYurdu.az

- Unutma ki, dünya fani,

Verən Allah alır canı...

Gülafət xanım əlləri ilə üzünü tutub ağlamağa başladı:

- Nahaq gəldim mən, nahaq! Kül mənim başıma!

- Qaraçılıq eləmə görək! - Ruslan diqqətini yoldan ayırmadan ona acıqlandı.

- Mən nə qələt elədim, ay Allah! Mən niyə belə ağılsızlıq elədim?

- Səsini kəs, dedim sənə!

Boz «Nissan» asfaltda ildırım sürəti ilə şığıyırdı. Qara rəngli «Mersedes» ona çatmağa can atırdı. Vəziyyət qorxulu idi... Çox qorxulu idi...

- Saxla maşını, mən qorxuram! - Gülafət xanım yalvardı.

- Danışma, mane olursan!

- Saxla dedim!

- Danışma!!!

- Sən alçaq adamsan, Ruslan! - Gülafət xanım səsi gəldikcə çığırdı.

- Kəs səsini, qancıq!!! - Ruslan qəzəblə arxaya baxdı.

Bircə anlığa diqqəti yoldan yayındı. Bircə an maşını nəzarətsiz qoydu. «Nissan» yoldan çıxıb uçaraq sağ tərəfdəki dərəni keçdi və dəmir-beton dayaqlar üzərində duran böyük elektrik dirəyinə çırpıldı. Sanki ağır bir bomba partladı...

Mahir sürəti azaldıb geriyə döndü və qəzanın baş verdiyi yerə qayıtdı. Çatıb maşını saxladı. Hər ikisi maşından düşdü. Heç belə dəhşətli qəza görməmişdilər. Dirəyə çırpılan maşın parça-parça olmuşdu. Parçaları şum yerində iyirmi-otuz metr kənarlara səpələnmişdi. Ruslanın parçalanmış meyiti elektrik dirəyinin yanına



downloaded from KitabYurdu.az

düşmüşdü. Qadının meyiti isə görünmürdü. Onu görmək üçün gərək, asfaltdan dərəyə düşüb, o biri tərəfə adlayaydın. Ancaq heç biri oraya yaxınlaşmaq istəmədi. Mahir eləcə asfaltın kənarında dayanıb baxırdı. Qasımlı isə maşına söykənib dayanmışdı. Sifətində anlaşılmaz bir ifadə var idi.

Maşınlar yol kənarına yığışırdılar. Maşınlardan düşənlər qəzanın nəticəsindən dəhşətə gəlirdilər. Qasımlı «Mersedes»ə oturub qapını örtdü. Mahir də axırıncı dəfə, uzaqdan Ruslanın meyidinə baxdı və başını bulayıb sükanın arxasına keçdi. «Mersedes» əvvəlcə yavaş- yavaş, sonra isə birdən sürətini artıraraq Bakıya doğru yol aldı.

Prokurorluqda

Qanbay Qasımlı ilə Mahir müstəntiq Səyavuş Nəzərlinin kabinetinə gələndə, o, Elnur Qafarlını dindirirdi. Ayağa qalxıb, gələnlərlə çox mehriban görüşdü və əyləşmək üçün stul göstərdi. Onun göstərdiyi stullarda əyləşdilər.

- Boynuna almır hələ? - Qasımlı başı ilə Elnura işarə edib soruşdu.

- Yox! - Nəzərli başını buladı. - Siz haradan gəlirsiniz?

- Şamaxıya getmək istəyirdik. - Qasımlı cavab verdi. - Ancaq yarı yoldan qayıtmalı olduq. Çünki yolda çox dəhşətli bir yol qəzasına rast gəldik.

- Nə qəza?

- Sürətlə gedən «Nissan» yoldan çıxaraq, elektrik dirəyinə dəyib. Maşında olan iki nəfər, həmin anda keçinib. Yeri gəlmişkən, həmin adamları siz də tanıyırsınız.

- Kimdir onlar? - müstəntiq təəccüblə soruşdu.

- Ruslan Dadaşov və bir də Məlikxanlının arvadı Gülafət xanım!



downloaded from KitabYurdu.az

Qasımlı bunu deyəndə gözucu Elnur Qafarlıya baxdı. Onsuz da

qorxudan rəngi ağarmış Elnur diksinib yerindən qalxdı və yenə ağır- ağır stula çökdü.

- Nə danışırsınız? - Nəzərli heyrətləndi. - Demək...

- Bəli!... - Qasımlı onun deyəcəyi fikri təsdiq etdi. - Mən hələ tam sağalmamışam. Üstəlik də yorğunam. Gəlin, əsas məsələyə keçək! Mən sizə kömək edəcəyimə söz vermişdim. Ancaq əvvəlcə, xahiş edirəm, siz özünüzün son qənaətinizi bizimlə bölüşün! Mümkünsə, Elnur özü də söhbətimizdə iştirak etsin.

- Son qənaətimiz belədir ki... - müstəntiq sözə başladı. - Kiməsə rəhmətlik Məlikxanlının ləkələnib ifşa olunması və beləliklə, vəzifədən çıxarılması lazım imiş. Həmin adam, hansı ki hələ də bizə naməlumdur, bunun üçün iyrənc bir plan hazırlayıb. Guya Məlikxanlı Veneranın namusunu ləkələyib və bu təhqirə dözməyən qız intihar edib. O adam, əslində, məqsədinə artıqlaması ilə çatdı. Yəni ki, Məlikxanlı təkcə ifşa olunub vəzifədən getmədi, üstəlik bu böhtana tab gətirməyib intihar etdi. Plan o qədər ustalıqla qurulub ki, hətta mən də Məlikxanlının o qızı təhqir etməsinə və qızın intiharına inanardım. Daha doğrusu, inanırdım da! Bu hadisəyə məndə şübhə yaradan siz oldunuz, - müstəntiq bir anlıq susub Qasımlının ona diqqətlə qulaq asdığını gördü və söhbətə davam etdi: - Sizin təklifinizlə biz həmin

qayçını ekspertizaya verdik. Onda həqiqətən də, Elnur Qafarlının sol əlinin izi var idi. Sonra dediyiniz şahidləri dindirdik. Elnuru həmin gün Muradzadənin yaşadığı bloka girən görüblər. Sağ əli də sarıqlı olub. Niyə sarıqlı olub, onu belə izah edir ki, əli bərk ağrıyırmış. Ancaq çarəsiz qaldığı üçün, həmin mənzildə olduğunu boynuna aldı. Deyir kl, biz Venera ilə dostluq edirdik. Həmin gün onun yanında olub, sadəcə, bir az söhbət edərək, çıxıbmış. Guya bu qızın ölümündən bir saat əvvəl



downloaded from KitabYurdu.az

mənzildən çıxıbmış. Biz doktor Ələsgər Atayevi də, laboratoriyanın həkimi Cəlilovu da danışdırdıq. Atayev boynuna heç nə almır. Cəlilov isə bildirdi ki, Məlikxanlıdan alınmış sperma nümunəsi ona verilməyib. Ancaq mən hiss edirəm ki, Atayev də, Elnur da kimdənsə qorxduqları üçün etdiklərini boyunlarına almırlar.

- Daha qorxmağa ehtiyac yoxdur. - Qasımılı dilləndi. - Onların qorxduqları adam öldü!

- Öldü? - Nəzərli heyrətləndi.

- İndicə dedim ki?! - Qasımlı sakitcə cavab verdi. - Ruslan Dadaşov qəzaya düşüb öldü.

- Siz demək istəyirsiniz ki, - müstəntiq Qasımılıya doğru əyildi: - bu işin başında Ruslan Dadaşov dururmuş? Axı Məlikxanlının ləkələnməsi, işdən çıxması onun nəyinə lazım idi?

- Qulaq asın, Səyavuş müəllim, - üz-gözünü turşudan Qasımlı cibindən bir həb çıxarıb ağzına atdı və sözünə davam etdi: - Elə məni də çaşdıran və düşünməyə məcbur edən bu olmuşdu. Məsələ burasındadır ki, sizin dediyiniz iyrənc plan Məlikxanlının biabırcasına işdən çıxarılması üçün yox, öldürülməsi üçün qurulmuşdu və axıra qədər dəqiqliklə yerinə yetirildi.

- Siz fikrinizi izah edə bilərsiniz? - Nəzərli soruşdu. Mahir təəccüblə, Elnur isə qorxu qarışıq heyrətlə Qasımlıya baxırdılar.

- Bəli, izah edə bilərəm! Venera Muradzadənin ölümü günü axşam, daha doğrusu, gecə, Məlikxanlı məni bağına dəvət etdi. Xahiş edirdi ki, onu, başına gələn bu bəladan xilas edib, adını ləkədən təmizləyim. Mən ona inanıb işi boynuma götürdüm və səhəri gün təhqiqata başladım. Vəkil Fazil Məmmədlinin köməyilə, həmin məktubun əvvəlcə ksero surətinə, sonra isə əslinə baxdım. Məni ilk şübhələndirən bu oldu ki, məktub çox səliqəli və arxayın yazılmışdı. Veneranın dəftərlərinə baxmışdım. Onun



downloaded from KitabYurdu.az

ən arxayın və səliqə ilə yazdığı yazıları ilə bu yazının heç bir fərqi yox idi. Axı bir neçə dəqiqə sonra özünü öldürməyi nəzərdə tutmuş adam belə soyuqqanlılıqla yaza bilməzdi?!

- Bəli!... - müstəntiq Nəzərli onun fikrini təsdiq etdi.

Qasımlı bircə anlıq fasilə verib, yenə danışmağa başladı:

- Daha sonra gördüm ki, şagird dəftərindən cırılmış bu vərəqin yuxarı hissəsindən iki sətir kəsilib atılıb. Özü də qayçı ilə və soldan- sağa... Yəni qayçı sol əl ilə tutulmuşdu. Mən sonra eşidəndə ki, bloka girən adamın sağ əli sarıqlı olub, bəzi şeyləri bir daha dəqiqləşdirə bildim. Vərəqin üzərində, yazılar arasında çox cüzi nəzərə çarpan izləri seçmək və oxumaq üçün çox böyük diqqət və qüvvə sərf etməli oldum. Məsələ burasındadır ki, məktub şagird dəftərinin ikinci vərəqində yazılmışdı. Birinci vərəqin üzündə, yəni ilk səhifəsində yazılmış yazıların izi isə çox zəif və ilk baxışdan gözə çarpmayan olsa da, ikinci vərəqə düşmüşdü. Həmin izləri çox çətinliklə oxuyub qeydlər etdim və evdə bu qeydlər üzərində baş sındıraraq sözləri cümlələrə çevirdim.

- Maraqlıdır!... - müstəntiq başını bulayıb, diqqətini topladı. Elnurun başı az qalırdı ki, stola dəysin.

Qasımlı cibindən bir vərəq çıxarıb ucadan oxumağa başladı:

- Qulaq asın, görün birinci vərəqin ilk səhifəsində nə yazılıbmış: «Venera Niyazi Məlikxanlının direktor olduğu idarədə katibə işləyirdi. Əlbəttə, atası Əhməd kişi ürəyinin dərinliyində buna razı deyildi.

Ancaq öz kiçik fəhlə qazancı ilə ailəni ürəyi istədiyi kimi dolandıra

bilmədiyi üçün, çarəsiz razılıq vermişdi. Həm də qızına inanırdı. Bilirdi ki, Venera kimi ağıllı, tərbiyəli qız nə cür adamın yanında işləyirsə işləsin, özünün, ailəsinin adına xələl gətirən iş tutmaz. Venera, doğrudan da, çox tərbiyəli qız idi. Ata-anasının nəsihətini heç vaxt unutmaz, təmiz adını hər



downloaded from KitabYurdu.az

şeydən uca tutardı. O, Nüsrət adlı bir oğlanla nişanlanmışdı və onlar bir-birlərini dərin məhəbbətlə sevirdilər...»

Polkovnik başını qaldırıb müstəntiqə, daha sonra isə Mahirə baxdı:

- Və sair başqa cəfəngiyat! Bir şey başa düşdünüz?

- Yox! - müstəntiq ilə Mahir birağızdan dilləndilər. Elnur isə elə bil gözüaçıq yatmışdı.

- Bu, sadəcə, hekayədir. - Qasımlı izah etdi. - Həvəskar yazıçı və başabəla jurnalist Elnur Qafarlının, nəzərdə tutulmuş cinayəti həyata keçirmək üçün quraşdırdığı hekayə! Əlbəttə, Ruslan Dada¬şovun məsləhəti və göstərişi ilə! Buradakı Venera və guya hansısa idarənin direktoru işləyən Niyazi Məlikxanlı özü, Əhməd kişi kimi, Nüsrət kimi bədii surətlərdir. Elnur həmin gün, qəsdən, sağ əlini sarıyıb, Veneragilin mənzilinə gedib. Qıza deyib ki, yazdığı hekayənin qaralamasını səliqə ilə köçürüb, təcili çapa vermək lazımdır və guya

ki, sağ əlinə nə olubsa, bunu özü edə bilmir. Sadəlövh qız da buna inanıb. Daha düşünməyib ki, qəzetdə işləyən Elnur hekayəni orada diktə edərək, birbaşa kompüterə yazdıra bilər.

Axır ki, Venera boş dəftəri qarşısına qoyub və başlayıb Elnurun diktə etdiyi hekayəni yazmağa. Öz adını eşidəndə, yəqin Elnur izah edib ki, sevimli qəhrəmanıma sənin adını vermək istəmişəm. Elnur hekayəni elə qurub ki, birinci vərəqin ikinci üzü təxminən belə sözlərlə qurtarsın: «Gəlib gördülər ki, Venera belə bir məktub yazıb...» yaxud «məktubu götürüb oxudular...» və yaxud da nəsə başqa şey! Axır ki, ikinci vərəq həmin məktubla, yəni «Əziz ata və ana» sözlərilə başlamalı idi. Ancaq Elnurun hesablaması çox dəqiq olmur və Venera məktuba qədərki axırıncı cümləni ikinci vərəqə keçməli olur. Yəqin ki, məktub yazılıb, axırda «Venera» imzası qoyulan kimi, Elnur yazını hansı bəhanə iləsə dayandırıb və qızı Atayevdən aldığı çox güclü zəhərlə zəhərləyib. Mənim fikrimcə,



downloaded from KitabYurdu.az

o, yazını dayandıraraq, çay istəyib. Çünki zəhər, çaya qatılmışdı. Əslində bu özü də məni şübhələndirmişdi. Axı niyə özünü zəhərləyən adam zəhəri çayın içinə tökür? Bunu, sadəcə, suya qatmaq olmazdımı?

Nə isə... Elnur qızı zəhərləyib öldürür. Sonra özünün çay içdiyi stəkanı boşaldıb mətbəxə qoyur. Məktub yazılmış vərəqi dəftərdən

qoparıb götürür. Qayçı ilə vərəqin ilk iki sətrini kəsir. Həmin kəsik zolağını və dəftəri özü ilə götürüb məhv edir. Mən onun çay içdiyi stəkanı və Veneraya vermiş olduğu pulu Ruslan Dadaşovun dostu və universitetdə qrup yoldaşı olmuş müstəntiq Əlibəyliyə göndərəndə, hər ehtimala qarşı, qayçını saxladım. Sonradan şübhələrim özünü doğrultdu və Ramin Əlibəyli verdiyim əşyaları yoxa çıxartdı.

- Deməli, belə... - Səyavuş Nəzərli çənəsini qaşıyıb Elnura baxdı. Yaranmış kiçik pauzanı yenə Qasımlı pozdu.

- Bu, Məlikxanlının öldürülməsi üçün qurulmuş planın birinci hissəsi idi. Və eyni zamanda, yəqin ki, Elnur da Veneradan birdəfəlik qurtarmağa bəhanə axtarırmış. Axı Elnur özü də onunla əlaqədə olub?! Axırıncı dəfə cinsi əlaqədə olanda Atayevin verdiyi qoruyucudan istifadə edib. Mən hələ Məlikxanlının özü ilə söhbət edərkən, o bu günlərdə sonsuzluqla əlaqədar həkimə müraciət etdiyini və analiz verdiyini demişdi. Mənim sonradan əlimə düşmüş faktlar olmasaydı da, mən həmin həkimi axtarıb tapacaq və onun Ələsgər Atayev olduğunu müəyyənləşdirəcəkdim...

- Siz onun Muradzadə ilə dost olduğunu bilirdiniz? - müstəntiq Qasımlının sözünü kəsdi.

- Yox! - Qasımlı cavab verib Mahirə baxdı. - Bunu sonradan

Mahir öyrənmişdi.



downloaded from KitabYurdu.az

- Bəli! - Nəzərli başını yellədi. - Muradzadə onun xəstə qızını müalicə edirdi. Dünən vəziyyəti lap pisləşibmiş qızın. Muradzadə bu gün onu xəstəxanaya, öz yanına aparıb. Deyilənə görə uşağın halı indi yaxşıdır.

Qasımlı bir qədər susub, nəsə fikirləşdi. Sonra başını yelləyib yarımçıq qalmış söhbəti davam etdirdi:

- Elnur evlidir və Veneranı aldadırmış ki, onunla evlənəcək. Venera son vaxtlar ondan əl çəkmirmiş ki, gəl nişanlanaq. Elnur da, nəhayət, anlayıb ki, sirr açılsa, onun üçün yaxşı olmayacaq. Üstəlik, bunun qayınatası da mötəbər bir adamdır. Ona görə də Ruslan Dadaşovun qurduğu bu plan Elnurun özünə də sərf edib.

Mən doktor Muradzadədən qızın rəfiqələri barədə soruşdum. Öyrəndim ki, Venera Gülşən adlı qızla daha yaxın olub. Baxın, bu oğlan, - Qasımlı Mahir Talıbovu göstərdi. - Gülşənlə tanış oldu və Veneranın Elnurla çoxdan sevişdiyini öyrəndi. Sonra isə biz, Gülşənin vasitəsilə, Elnura içində səs yazan mikroqurğu yerləşdirilmiş alışqan verdik. Həmin gün özümüz də Elnuru izləyirdik. O, Gülşəndən ayrılıb, birbaş Mürsəlin restoranına getdi və orada Ruslan Dadaşovla görüşdü. Səhər biz alışqanı yenə də Gülşənin vasitəsilə almaq

istəyəndə məlum oldu ki, alışqan Elnurun özündə deyil. Başa düşdüm ki, qızıl həvəskarı olan Ruslan alışqanı Elnurda görərək bəyənib və Elnur da onu Dadaşova bağışlayıb. Mən bundan bir qədər narahat oldum və alışqanı Ruslandan necə almaq barədə düşündüm...

Polkovnik birdən söhbətini kəsib cibindən bir audio kaset çıxartdı və müstəntiqdən maqnitofon istədi. Səyavuş Nəzərli yanaşı otağa keçib maqnitofonla qayıtdı və onu Qasımlının qarşısına qoydu. Qasımlı kaseti maqnitofona daxil edib, müvafiq düyməni basdı. Maqnitofondan səslər gəlməyə başlayanda Elnur bir daha səksənib yerində qurcuxdu.

Maqnitofondan gələn səslər çox aydın idi:



downloaded from KitabYurdu.az

- Deməli belə... yazıq Venera!

- Götür, qoy məndən yadigar qalsın.

- Yox! Yox!

Qasımlı başqa bir düyməni basıb lenti irəli fırlatdı.

- Bəs Ələsgər? O deməz ki?

- Nəyi? - Bu Ruslan Dadaşovun səsi idi.

- Zəhəri verməyini... Bir də o birini...

- Başın xarabdır? Deyəsən qorxudan birtəhər olmusan.

Qasımlı yaman səbirsiz olmuşdu. Yenə də lenti irəli fırladıb

gözucu Elnura baxdı. Elnur doğrudan da birtəhər olmuşdu.

- Polkovnikin məsələsi necə olacaq? - Ruslanın səsi maqnitofondan gəldi.

- Hər şey sizin dediyiniz kimi olacaq. Sizin qurduğunuz plan, doğrudan da dahiyanədir. - Bu isə Mürsəlin səsi idi.

Lentin sonunda yenə də Ruslanın səsi gəldi.

- Salam, evdə kimsə var?

Onun ardınca Gülafət xanımın üççə kəlmə sözü eşidildi:

-Yox... keçin içəri...

Və bununla da lent qurtarmışdı.

Polkovnik maqnitofonu söndürdü. Elnur yenə də başını aşağı dikmişdi. Müstəntiqlə Mahir onu nifrətlə süzürdülər.

- Mən qərara gəldim ki, - Qasımlı sözə başladı. - Məlikxanlının özündən xahiş edim, alışqanı Ruslandan alsın. Mən ona zəng vurub bunu



downloaded from KitabYurdu.az

xahiş edəndə, rəhmətlik çox heyrətləndi və Ruslandan niyə şübhələndiyimi soruşdu. Mən cavab verib dedim ki, şübhələnməmişəm, ancaq işin xeyri üçün, şübhə doğurmadan, alışqanı ondan almaq lazımdır. Səhəri gün Ruslan özü onun yanına - Asəfin bağına gedir. Kabab çəkmək istəyir və stolun yanında tonqal yandırırlar.

Mən və Mahir həmin gün Məlikxanlıya baş çəkməyə gedirdik. Onun intihar etməsini maşında eşitdim. Asəf zəng vurmuşdu. Qulaqlarıma inanmaq istəmirdim. Axı Məlikxanlı niyə intihar etməli idi? Axı mən ona söz vermişdim ki, həqiqəti üzə çıxaracam. O ki hələ mənə olan inamını itirməmişdi?!

Bağa çatıb, Məlikxanlının meyitinə baxdım. Hər şey intihar faktını təsdiq edirdi. Mən əlimi onun cibinə salıb, nəzərdə tutduğum əşyanı, yəni alışqanı orada tapdım. Bu məni bir daha ciddi düşünməyə vadar etdi. Məlikxanlı mənim xahişimi yerinə yetirərək, alışqanı Ruslandan almışdı. Bu o deməkdir ki, o mənə inanırdı və özü də hələ mübarizədən əl çəkməmişdi. Bəs onda, niyə intihar edirdi? Mən başa düşdüm ki, burada nəsə sirr var. Məlikxanlının sevimli itinin ağaca bağlanması da mənə şübhəli görünürdü. İt bağlanmağı ilə qətiyyən razılaşmır, dartınaraq kəndiri qırmaq istəyirdi. Düzdür, Asəfdə Ruslanın dediklərini deyirdi, üstəlik Asəfin arvadı da bu hadisənin şahidi olmuşdu, ancaq yenə də mən intihar faktı ilə razılaşa bilmirdim...

Xəstəxanada keçirdiyim axırıncı gün, yəni srağagün, siz yanımdan gedəndən sonra mən xeyli düşünməli oldum. Çətinliklə də olsa, xatırlaya bildim ki, həmin gün kabab üçün hazırlanmış və yanıb

qurtarmış tonqalın külü, bir istiqamətdə, daha doğrusu, iki əks istiqamətdə çox cüzi də olsa, dağılıb torpağa səpələnmişdi. Mən yaddaşımın məni aldatmadığını yoxlamaq üçün təcili bağa getmək istədim və Mahirin köməyi ilə buna nail oldum. Bağa çataraq tonqalın yerinə baxdım. Hadisənin səhəri günü azacıq yağış yağdığı üçün kül bərkiyib torpağa



downloaded from KitabYurdu.az

yapışmışdı və beləliklə, külək onu dağıtmamışdı. Mən yaddaşımın məni aldatmadığına əmin oldum. Kül, doğrudan da, güclə nəzərə çarpacaq dərəcədə, iki istiqamətdə torpağa yayılmışdı. Mən lazım olan istiqamətdə axtarış aparıb, hasarın dibində əzilib yastılaşmış tapança gülləsini tapdım. Daha sonra, gilizi də gözlədiyim yerdən tapıb götürdüm. - Qasımlı cibindən kağıza bükülmüş nəyisə müstəntiqin stolunun üstünə qoydu. - Sonra Asəfin arvadını danışdırdım və kiçik bir eksperiment apardıq. Beləliklə də hər şey mənə aydın oldu...

- Axı bütün bunlar nə deməkdir? - müstəntiq səbirsizliklə soruşdu.

- Bu saat deyəcəm! - Qasımlı bir siqaret çıxartdı. Ancaq yandırmadı. Əlində oynadıb müstəntiqə baxdı. - Ruslan Dadaşov bu planı lap əvvəldən Məlikxanlını öldürmək üçün qurmuşdu. Özü də etiraf edim ki, çox ustalıqla qurulmuş plandı bu. Həm ustalıqla, həm

də alçaqcasına! Deməli, həmin məktub yazılır, Venera öldürülür. Beləliklə, Məlikxanlı ləkələnir. Üstəlik, ekspertizanın sperma barəsindəki nəticəsi. Daha sonra, Məlikxanlının öldürülməsi gəlir. Bu öldürülmə başqa cür də ola bilərdi. Zəhərlə, damarını kəsməklə və sair, nəyləsə... Yəqin ki, Dadaşovun bu barədə müxtəlif variantları olub. Təki, bu ölüm intihar adlandırılsın! Hamı inanacaq ki, Məlikxanlı işinin açılmasına dözməyərək, özünə qəsd edib. Bununla iş bağlanacaq və heç kim heç nədən şübhələnməyəcək...

Müstəntiq yenə də səbirsizlik göstərdi və Qasımlının sözünü kəsdi:

- Cənab polkovnik, xahiş edirəm ki, siz bizə ölüm hadisəsinin təfərrüatından danışın! Niyazi Məlikxanlı necə öldürülüb?

## XXXIX Fəsil

## Xəyanət



downloaded from KitabYurdu.az

Bəlkə də İlk dəfə İdi ki, bacarıqlı xəfiyyə başladığı işi sona yetirəndən, cinayət törətmiş şəxsləri ifşa edəndən sonra, hadisə barədə düşüncələri və gördüyü işlər barədə ürəklə danışmırdı. Elə bil ki, işinin nəticəsindən narazı idi polkovnik. Danışığı da təkcə öz işindən yox, ümumiyyətlə, hər şeydən narazı olan adamların danışığı kimi idi. Elə bil məcbur danışdırırdılar onu... Hər halda qarşısındakılar böyük maraqla onun danışmağını gözləyirdilər və bayaqdan əlində tutub, yandırmadığı siqaretə baxıb danışmağa başladı:

- Ruslan Dadaşov həmin gün bağa hazır gəlibmiş. Üstündən əl izləri silinib təmizlənmiş tapança və əlcəklə... Daraqdan bir gülləni çıxarıb, qalın kağıza bükərək cibinə qoyubmuş. İşi elə təşkil edib ki, tonqal düz stolun yanında qalansın və Asəflə arvadı şişləri evdə hazırlasınlar. Vaxt yetişəndə, Ruslan ərik ağacına yaxınlaşıb, ağacın kölgəsində uzanmış iti ağaca bağlayıb. Ola bilsin, it bundan təəccüblənsə də, müqavimət göstərməyib. Məlikxanlı isə çox fikirli olduğu üçün, bunu heç hiss etməyib. Ruslan iti bağlayan kimi Asəfgilin yanına gedib. Onların işi nə vaxt qurtaracaqlarını öyrənmək

üçün. Görüb ki, iş onun düşündüyündən də az qalıb. Asəfgilə əlavə olaraq şişlərdəki əti azaltmaq göstərişi verib, cəld geriyə qayıdıb. Stolun yanına çatan kimi əlcəyi əlinə geyinərək tapançasını çıxarıb və Məlikxanlıya yaxınlaşaraq lap yaxından onun gicgahına atəş açıb. Yaxından deyəndə ki, tapançanı onun gicgahına dirəyib. Yoxsa səs daha bərk çıxa bilərdi.

- Bəs səsboğan? - ona heyrətlə qulaq asan Mahir soruşdu.

- Mənə elə gəlir, o, səsboğandan istifadə etməyib. - Qasımlı cavab verdi. - Bunu sonradan güclü ekspertiza aşkar edə bilərdi və bu intihara oxşamazdı.

- Buyurun, davam edin! - müstəntiq xahiş etdi.

Qasımlı bir qədər xəyala gedib, sonra dilləndi:



downloaded from KitabYurdu.az

- Bu zaman, ağaca bağlanmış it onun bu hərəkətini görüb və birbaş üstünə şığımaq istəyib. Amma bağlı olduğu üçün, bu mümkün olmayıb. Ona görə də, qəzəblə hürməyə və ulamağa başlayıb. Ruslan cəld tapançasını yerə yıxılmış Məlikxanlının əlinə verib. Sonra əlcəyini çıxarıb və özü ilə gətirdiyi, kağıza bükülmüş patronu, artıq közə çevrilmiş tonqalın üstünə ataraq evin qapısına yüyürüb. Mən sonradan orada təhqiqat apararkən tonqalın külü içində yanıb qaralmış və parçalanmış çox xırda kağız qırıntılarına da rast gəldim.

Ona görə də bu kağıza bükülmək məsələsini belə qətiyyətlə deyirəm.

Bəli... Ruslan tələsik evin qapısına gedib və Asəfgili səsləyib. Ər- arvad qapıya çıxanda Ruslan Asəfdən şişləri alıb, guya kömək etmək istəyib. Ancaq məqsədi Asəfə kömək etmək yox, sadəcə, bu yolla vaxtı uzatmaq olub. Çünki patron közün üzərində qızıb partlamalı idi. Nəhayət, patron partlayıb və güllə səsi eşidərək, hər üçü hadisə yerinə qaçıb. Orada onlar hamınıza məlum olan faciəli mənzərə ilə rastlaşıblar.

Beləliklə, baş vermiş bu cinayətin yeganə şahidi Məlikxanlının iti olub ki, o da sahibinin qisasını almaq üçün hey Ruslana tərəf can atırmış. Ruslan öz maşınına minib həyətdən çıxanda, qəzəblənmiş it, nəhayət, kəndiri qırıb onun arxasınca düşüb. Yalnız maşına çata bilməyəcəyini başa düşəndən sonra geriyə qayıdıb.

Baxın, Səyavuş müəllim, hadisə belə olub. Bütün təfərrüat artıq sizə məlumdur. Mən elə düşünürəm ki, hadisənin əsas iştirakçılarından biri olan həmin bu oğlan, - Elnuru göstərdi, - sizi boş yerə incitməməli və bütün bildiklərini danışmalıdır.

- Sizin fikrinizcə, Ruslan öz dostunu niyə öldürmək istəyirdi? - müstəntiq onu çox maraqlandıran sualla xəfiyyəyə müraciət etdi.

- Bu işdə məni də çaşdıran yeganə şey o idi ki, mən də



downloaded from KitabYurdu.az

Məlikxanlının yalnız ləkələnib işdən çıxarılması üçün plan qurulduğunu düşünmüşdüm. Elə Məlikxanlı özü də onun əleyhinə qurulmuş bədxah planın yalnız onun nüfuzdan salınması və vəzifədən uzaqlaşdırılmasına yönəldiyini düşünürdü. Buna görə də heç kəs Ruslandan şübhələnmirdi. Axı onun işdən çıxarılmağının Ruslana nə xeyri ola bilərdi? Əlbəttə, heç nə! Ancaq Məlikxanlının ölümünün Ruslana xeyri çox imiş. Özü də lap çox! Bu ölüm, əslində, artıq Ruslan Dadaşovu həqiqi milyonerə çevirmişdi.

Məsələ burasındadır ki, mən bəzi səlahiyyətli adamlar vasitəsilə çox maraqlı bir şey öyrəndim. Bu, inanın ki, həm maraqlı, həm də qəribədir. Məlikxanlının həddən artıq çox obyekti var imiş, hamısı da başqa-başqa adamların adına. O bu barədə hansı qanunları pozub, öz vəzifəsindən necə sui-istifadə edib, bu barədə danışmayacam. Heç buna qəribə bir şey kimi də baxmıram. Qəribə olan başqa şeydir. Sən demə, bu obyektlərin heç birində Məlikxanlını müəssisənin sahibi kimi, istər formal, istərsə də qeyri-formal, tanımırlarmış. Hamı bu müəssisələri Ruslan Dadaşovun bilirmiş. Məlikxanlının nə arvadının, nə oğlunun bu müəssisələrdən xəbəri yox imiş. Bütün müəssisələrə Ruslan özü nəzarət edirmiş. Məlikxanlı yalnız təmiz gəliri Ruslandan alırmış. Həmin gəlirlər yenidən təzə müəssisə açılmasına sərf

olunubsa, bunu yenə Ruslan edibmiş. Əgər kiminsə adına banka qoyulubsa, bunu da Ruslan edibmiş. Beləliklə, Məlikxanlının başdan-ayağa bütün var-dövləti Ruslandan asılı vəziyyətə düşüb. Məlikxanlı o dərəcədə, həddindən artıq ehtiyatlılıq göstərib ki, axırda bu ehtiyatlılıq dəhşətli ehtiyatsızlığa çevrilib.

- Maraqlıdır, - Mahir söhbətə qarışdı. - Ola bilməzdi ki, Ruslan Məlikxanlını öldürmək üçün belə bir plan qurmayaydı, sadəcə, onu tanımadığını elan edib bütün müəssisələrə özü sahiblik edəydi. Belə



downloaded from KitabYurdu.az

olsaydı, Məlikxanlı qətiyyən sübut edə bilməzdi ki, həmin obyektlər onundur.

Qanbay Qasımlı başını buladı:

- Sən elə düşünürsən ki, bu boyda vəzifəsi, nüfuzu, nəhayət, öz əlində azdan-çoxdan pulu olan Məlikxanlı o boyda xəyanətdən sonra Ruslan Dadaşovdan intiqam ala bilməyəcəkdi? Əlbəttə, biləcəkdi! Hər şeyini onsuz da itirməsinə baxmayaraq, Ruslanı aradan götüzdürərdi.

-Aydındır... - Mahir razılaşdı. - Bəs indi kimə qalacaq bu obyektlər?

Qasımlı istehza ilə gülümsədi:

- Obyektlər kimin adına yazılıbsa, elə onların özünə qaldı. Çünki həmin adamlar obyektin əsas sahibi Ruslan Dadaşovu hesab

edirdilər. İndi isə, özləri məcbur olub, mallarına sahib duracaqlar. Çünki Ruslanın varisi yoxdur və onun heç bir qohumu həmin obyektlərdən xəbərdar deyil.

Qasımlı öz sözünü deyib qurtarmışdı. Bunu başa düşən müstəntiq üzünü Elnura çevirdi:

- Hə, indi nə deyirsən, vətəndaş Qafarlı?

- İnanın mənə... - Elnurun səsi lap yavaş çıxdı. - Məni Ruslan yoldan çıxartdı. Mən ondan çox qorxurdum. Nə eləmişəmsə, onun göstərişi ilə eləmişəm.

- Danış görüm, necə oldu ki, Veneranı öldürdün? - Nəzərli soruşdu.

- Bu adam hər şeyi danışdı, - başı ilə polkovnik Qasımlını gös¬tərdi. - Elə bil lap yanımızda olub.

Sən Venera ilə cinsi əlaqədə olmusanmı? Neçə dəfə?



downloaded from KitabYurdu.az

- Bəli, bir neçə dəfə olmuşam. Axırıncı dəfə, ölümündən bir gün qabaq bizim bağımızda olduq. Əlaqə zamanı istifadə etdiyim qoruyucunu Ruslan Dadaşovun tapşırığı ilə gedib poliklinikada Ata- yevdən almışdım.

- Onda bilirdin bu nəyə görədir?

- Bəli. Ruslan artıq bütün planı tərtib etmişdi. Belə bir hekayəni

yazmağı da o mənə tapşırmışdı. Ancaq Məlikxanlını öldürəcəyini mənə deməmişdi.

- Qıza məktubu necə yazdırdın?

- Onların mənzilinə gedəndə sağ əlimi sarımışdım. Venera soruşdu ki, əlinə nə olub? Dedim ki, qapının arasında qalıb, əzilib. Sonra dedim ki, bir hekayə yazmışam qəzetə verməliyəm. Ancaq çox səliqəsiz yazılıb, heç kəs oxuya bilməyəcək. Dedim ki, mən oxuyum, sən bir dəftərə yaz bunu! O da həvəslə razılaşdı. Adının hekayəyə salınmasına, əvvəlcə, sevindi. Ancaq məktub hissəsini yazanda, bir az narazı qaldı. Dedim ki, bu müsbət bir surətdir və hekayənin axırı yaxşı qurtaracaq. Məktubu yazıb qurtaran kimi işi dayandırdım və dedim ki, gəl çay içək, sonra yazarıq. Venera qalxıb, çay dəmlədi. İki stəkan çayı gətirib stolun üstünə qoydu. Mən ondan qayçı istədim. Dedim ki, qoluma sarıdığım kətanın çıxıntısını kəsəcəm. Qalxıb qayçını gətirəndə, tabletka şəklində zəhəri onun stəkanına saldım.

Həmin vaxt qapının zəngi çalındı. Venera gedib qapını açdı. Mən bərk qorxdum. Fikirləşdim ki, ata-anasından biri gəlmiş olar. İstədim zəhər atdığım stəkanı cəld götürüb mətbəxə aparım və orada boşaldaraq yuyum. Ancaq gələn qonşunun uşağı imiş. Nəyə görəsə, iki min manat pul istəyirdi. Venera məni səsləyib soruşdu ki, üstündə

iki min manat var? Mən tez bir on min manatlıq pul çıxarıb Veneraya verdim. Venera oğlanı yola salıb, otağa girdi və pulun artığını mənə qaytardı.



downloaded from KitabYurdu.az

Mən öz çayımı içməyə başladım. Çox həyəcanlı idim. Venera isə hələ stəkana əl vurmurdu. Son vaxtlar tez-tez etdiyi kimi, yenə nişanlanmaqdan söhbət saldı:

- Elnur, bəs nə vaxt gəlir sənin elçilərin? - deyə soruşdu.

- Tezliklə göndərəcəm, darıxma! - dedim.

O da öz çayını içməyə başladı. İki qurtum içdi. Həyəcandan bütün bədənimi tər basdı. Həmin vaxt keçirdiyim hissləri təsvir edə bilmirəm. Mənə elə gəlirdi ki, özüm bu saat öləcəm. Ancaq ona heç nə olmadı.

- Nə vaxt? - deyə sual verdi.

-Lap tez!-dedim.

Çayının çoxunu içib qurtarmışdı. Dəhşətlə bu işin axırını gözləyirdim.

- Bu bazar göndərə bilərsən?

Bu onun sonuncu cümləsi oldu. Birdən sifəti dəyişməyə başladı. Sanki gözləri böyüdü. Əlini boğazına apardı.

- Nə oldu? - deyə soruşdum.

Cavab verə bilmədi. Tappıltı ilə döşəməyə yıxıldı. Mən, əslində, bunu gözləsəm də, dəhşətə gəldim. Qorxudan titrəyirdim. Elə bil birdən-birə ayılıb, nə etdiyimi dərk etmişdim. Hər saniyə qapının açılacağını, kiminsə mənzilə girəcəyini gözləyirdim. Qalxıb dəftərdən məktub yazılmış ikinci səhifəni cırdım. Qayçı ilə səhifənin ilk iki sətrini kəsib götürdüm. Orada yazılmışdı: «Əhməd kişi məktubu arvadının əlindən alıb ucadan oxumağa başladı...* Özümün çay içdiyim stəkanı aparıb mətbəxə, qayçını isə kitab şkafına qoyub mənzildən çıxdım.

- Bu işə görə Ruslan sənə pul vermişdi? - müstəntiq sual verdi.

- Xeyr! Ancaq mənim adıma yazdırdığı mağazanı mənə bağışlayacağına söz vermişdi.



downloaded from KitabYurdu.az

- Veneranı öldürmək sənə də sərf edirdi axı?! Düzdür?

- Mən evliyəm. - Elnur peşmançılıqla dilləndi. - İstəməzdim ki, ailəm onunla əlaqəmi bilsin. Ancaq mən onu heç vaxt öldürmək istəməzdim. Çünki o məni sevirdi... - Elnur birdən uşaq kimi ağlamağa başladı. - Ruslan məni yoldan çıxartdı.

- Bəli, Ruslan səni yoldan çıxartdı, - söhbətdən yorulmuş Qasımlı ayağa qalxdı. - Ancaq özü də yoldan çıxdı. Çıxdı və qəzaya uğradı. Yoldan çıxmaq çox pis şeydir.

- Niyə qalxdınız? - müstəntiq Qasımlıdan soruşdu.

- Halım yaxşı deyil. Yaman yorğunam. Evə gedib dincəlmək istəyirəm, - polkovnik bayaqdan əlində oynatdığı siqareti əsəbi halda damağına qoyub yandırdı. - Yəqin ki, sizə hər şey aydın oldu.

Bundan sonra nə edəcəyinizi özünüz yaxşı bilirsiniz. Bəs Əlikramın ölümündən nə öyrəndiniz?

- Siz düz fikirləşmisiniz! - müstəntiq qətiyyətlə dilləndi. Artıq şübhəmiz yoxdur ki, onu Əlibəyli ilə Binyətovun göstərişi ilə aradan götürüblər. İndi isə əmin oldum ki, o da Dadaşovun güdazına gedib. Çünki Əlikram Ruslan Dadaşovu üzdən tanıyırmış və onu sata bilərdi. Sizə edilən sui-qəsd planını da Ruslan hazırlayıbmış. Onu da deyim ki, o da çox ustalıqla hazırlanmış plan olub. Siz də, həmin qadın da öldürüləndən sonra heç bir kənar şəxsdən şübhələnmədən işə xitam veriləcəkdi.

Ruslan Dadaşov çox hiyləgər adam imiş. Bircə şeydə bəxti gətirməyib ki, bu işdə qarşısına siz çıxmısınız. Əgər Məlikxanlının ağlına sizi dəvət etmək gəlməsəydi, bu işin üstü açılmayacaqdı.

Niyazi Məlikxanlı da bu biabırçı ləkədən yaxa qurtarmayacaqdı.



downloaded from KitabYurdu.az

-	Bəli... - Qasımlı kədərli halda başını yırğaladı. O, təriflənməyi qətiyyən sevmirdi. - Ancaq mən bu işdə özümü qalib saymıram.

-	Niyə ki? - Nəzərli təəccübləndi. - Siz güclü rəqiblərinizi yerlə-yeksan etdiniz!

-	Yox! - xəfiyyə etiraz etdi. - Məlikxanlı mənə inanıb köməyə çağırmışdı. Mən isə ustalıq və xəyanətlə qurulmuş bu planı əvvəlcədən düzgün aşkar edə bilmədim. Mən bilsəydim ki, planda Məlikxanlının ölümü nəzərdə tutulub, onu xilas edə bilərdim. Ancaq gecikdim. Özü də bilirsiniz niyə?

-	Niyə? - müstəntiq maraqla soruşdu.

-	Çünki Məlikxanlı ən dar günündə iki nəfəri yanına çağırıb onlara bel bağlamışdı. Onun biri mən idimsə, biri də ən yaxın dost hesab etdiyi Ruslan Dadaşov idi. Mən bu işin bünövrəsində bu boyda xəyanətin durduğunu o saat ağlıma gətirə bilmədim. Düzdür, mənim Ruslandan ilk baxışdan xoşum gəlməmişdi. Ancaq yalnız onun Məlikxanlının obyektlərinə tam sahiblik etdiyini biləndən sonra və ən əsası isə Məlikxanlı öləndən sonra ondan şübhələndim. Baxın, onda artıq gec idi.

-Ancaq siz verdiyiniz sözün üstündə durub, Məlikxanlının adını təmizə çıxartdınız!

Qasımlı yenə başını yellədi:

-	Bir tərəfdən təmizə çıxartdımsa da, bir tərəfdən onun başqa işləri ortaya çıxdı. Ümumiyyətlə, bu iş məni həm iyrəndirdi, həm də

çox yordu. Heç sinəmə dəyən gülləni nəzərə almıram. Bu işdə hara baxırdımsa, xəyanət görürdüm.

-	Düzdür, Ruslanın dostuna qarşı bu hərəkəti dəhşətli xəyanətdir. Di gəl, bundan sonra kiməsə inan, - müstəntiq də ayağa qalxdı.



downloaded from KitabYurdu.az

- Bu işdə təkcə Ruslan deyil xəyanətkar. Elə Məlikxanlının özünü götürək. Ona o boyda iş tapşırmışdılar. İmkan yaratmışdılar ki, xalqına, dövlətinə xeyir versin. Ancaq o, iş görmək əvəzinə görün nə qədər obyektlər açdırıb özü üçün. Bu, dövlətə, xalqa xəyanət deyilmi? Arvadı və oğlu da ona xəyanət etdilər. Elnur həm arvadına, həm Veneraya, Əlikram arvadına, uşaqlarına, Əlibəyli, Binyətov yenə də dövlətə, xalqa, Atayev həkimlik adına xəyanət ediblər. Bu işə başlayandan xəyanətlər içində qalmışam mən!

Qasımlı sağollaşmadan kabinetdən çıxdı. Dəhlizdə hirslə yerə tüpürdü. Mahir onun qoluna girmək istədi:

- Siz hələ tam sağalmamısınız, özünüzü qoruyun!

- Cəhənnəmə olsun hamısı! - Qasımlı əlini yellədi. - Gedək, məni evə apar! Dincəlmək istəyirəm.

Prokurorluqdan çıxıb maşına mindilər. Qasımlı kürəyini arxaya söykəyib gözlərini yumdu:

- Bir yaxşı musiqi qoy! - dedi. - Musiqidən başqa təmiz bir şey

qalmayıb bu dünyada.

Az keçmiş, ürək sərinlədən, həzin bir nəğmənin sədaları maşının kiçik fəzasını doldurdu.

- Ruhdan düşmək sizə heç yaraşmır, Qanbay müəllim! - Mahir onun könlünü almaq istədi. - Siz doğrudan da yorulmusunuz. Vaxt tapıb yenə Nemətlə rayona gedək. Yaxşıca dincəlin.

- Qorxuram oraya gedək, yenə kimisə öldürsünlər, - Qasımlı birdən gülümsədi. - Bircə dəfə getdik, ikisi birdən öldü.

Doğrudan da, bir az əwəl Qasımlı ilə Mahir Nemətin dəvəti ilə ona qoşulub Fədayənin atasıgilə istirahətə getmişdilər. Səhəri gün kənddə



downloaded from KitabYurdu.az

qanlı cinayət hadisəsi baş vermiş, Qasımlı da bu işin açılmasında iştirak etməli olmuşdu.

- Bəs onda nə etmək istəyirsiniz?

- Sakitlik istəyirəm, Mahir! - Qasımlı kədərlə dilləndi.

Mahir dostunu, öz aləmində, guya başa düşürdü. Xəstəxanadan təzə çıxmağı bir yana dursun, yorğunluq, əsəb, peşmançılıq... İnsan ürəyinin düşməni olan bu şeylər hamısı birdən Qasımlını bürümüşdü. Nə qədər daxili iradən, nə qədər gücün olsa da dözmək çətin idi bunlara...

Ancaq Mahir bir əsas şeyi bilmirdi... Bilmirdi ki, bu gün Qasımlı

ürəyinə lap təzəcə düşmüş bir müqəddəs duyğunu, ürəyindən çıxarıb tullamışdı. Yerindəki boşluq idi onu göynədən! Bilmirdi ki, müstəntiqin otağında xəyanətlərdən danışan Qasımlını daha çox içindəki xəyanət yandırırdı. Qasımlıya elə gəlirdi ki, ona da xəyanət ediblər. Özünə yox, hisslərinə, duyğularına!

Qasımlı qəflətən gözlərini açıb Mahirin gözləmədiyi bir sual verdi:

- Sən Məlikxanlının gözlərinə diqqətlə baxdın?

- Öləndən sonra? - Mahir təəccüblə soruşdu.

-Hə!

- Baxdım... Nədi ki?

- Orada yazılmış sözü oxuya bildin? Bu onun axırıncı dediyi söz idi.

- Yox! - Mahir başını buladı. - Onu oxumaq olmaz ki!

- Mən oxudum!.. - Qasımlı inamla dilləndi.

- Nə yazılmışdı?

-Xəyanət! Ruslan tapançasını onun gicgahına dirəyəndə, bu onun dediyi son söz olub. Baxışından oxudum!



downloaded from KitabYurdu.az

Mahirdən səs çıxmadı. O, uşaqlıqdan bu yaşına kimi heç kimdən, heç nədən qorxmamışdı. Onda ki ola bircə sözdən! Ancaq indi, Qasımlının ağzından çıxan bu bir kəlmə sözdən bədəninə üşütmə

gəlmişdi. Sanki qorxunun nə olduğunu ilk dəfə duymuşdu cəsarətli polis kapitanı!

XL Fəsil

Və sonuncu

Maşın düz blokun qapısı qarşısında dayandı. Qanbay Qasımlı ona etmiş olduğu əvəzsiz köməyə görə Mahirə təşəkkürünü bildirib, onunla sağollaşdı. Maşından düşüb yorğun addımlarla bloka girdi. Pillələri də tələsmədən qalxıb, mənzilin zəngini çaldı. Nuranə evdə olmalı idi...

Qapı açıldı. Astadan salam verib içəri girdi. Pencəyini çıxarıb paltar dolabından asdı. Vanna otağına keçib, əl-üzünü sərin su ilə yudu. Qayıdıb öz otağında, öz sevimli kreslosunda oturdu. O anda da Nuranə otağa daxil oldu.

- Yenə nahar etməmisiniz... Yemək gətirim?

Qasımlıya elə gəldi ki, keçən bir sutkaya yaxın vaxt ərzində bu səs üçün darıxıb. Ancaq bu hiss çox ötəri oldu və ev sahibi qadının ürkək duruşuna ılıq bir nəzər yetirib:

- Gətirin! - dedi.

Nuranə razılıqla çevrilib otaqdan çıxdı. O bu gün, elə bil ki, bir az da gözəlləşmişdi. Gözləri ilə eyni rəngdə olan açıq mixəyi rəngli saçları səliqə ilə kürəyinə tökülmüşdü. Köynəyi də elə həmin rəngdə idi və bu uyğunlaşma ona çox yaraşırdı. Hələ yubkası da... Ancaq o, tünd mixəyi rəngdə idi. Utandığından, xəstəxanaya geydiyi təzə şalvarı çıxartmışdı. Ancaq yubka da onun bədən gözəlliyini gizlədə bilmirdi. Yeriyəndə, yenə də alt paltarının kənar xətləri yubkanın üstündən bilinirdi. Lap az



downloaded from KitabYurdu.az

bilinirdi... Ancaq nə qədər az bilinsə də, təbiətin kişilərə bəxş etdiyi xoş və ləzzətli duyğular içində özünəməxsus yüksək yeri olan şirin duyğular dünyasından xəbər verirdi.

Qasımlı ilk dəfə idi ki, Nuranəyə belə diqqətlə göz yetirirdi və nədənsə bu diqqətə görə heç özünü qınamadı da! Son günlər onda bu səmimi və təmiz qadına qarşı səmimi bir doğmalıq hissi yaranmışdı və qəribə görünsə də, indi keçirdiyi ani hisslər həmin hissi qətiyyən korlamırdı. Əksinə, şirinləşdirirdi... Birdə, Qasımlı indi nə hiss keçirtdi ki, Nuranəyə baxanda?.. Sadəcə, qadınlığını duydu onun və xoşuna gəldi bir qadın kimi. Onsuz da insanlar iki cinsə ayrılıblar: kişi və qadın. Ancaq əlbəttə, hər ikisi insandır. Bəzən kişi uzun müddət münasibətdə olduğu, söhbət etdiyi qadının qadınlığını duymur, bəzən də qadın kişinin kişiliyini... Eləcə insan kimi baxırlar bir-birlərinə. Bəlkə çox vaxt belə lazımdır. Ancaq...

Gülafət xanım haqqında fikirləşdi. O da qadın idi. Özü də gözəl qadın... Mahirə elə gəlmişdi ki, Ruslanla Gülafət xanımın faciəli ölümü polkovnikə bir qarışqa ölümü qədər təsir etmişdi. Ancaq belə deyildi.

Bu hadisə Qasımlının ucbatından, özü də demək olar ki, düşünülmüş şəkildə ucbatından olmuşdusa da, ona pis təsir etmişdi. Bəli... Ancaq daha çox, Gülafət xanımın xəyanətindən sarsılmışdı.

Heç olmazsa, ərinin qırxı çıxmamış onun yad kişiylə gizlin gəzintiyə çıxması normal qəbul edilən hal deyildi. Qasımlı bunu qəbul edə bilmirdi. Axı onlar ayrılmamışdılar. Son günə qədər ər-arvad hesab olunmuşdular. Doğrudanmı, bu gün dünyada özünə hamıdan əziz, hamıdan doğma bildiyin, bir yastığa baş qoyduğun adam, sən öləndən on gün sonra səni unuda bilər?!

Polkovnik Qasımlı həyatda az şey görməmişdi. Hər cür hadisə ilə olduğu kimi, xəyanətlə də qarşılaşmışdı. Ancaq yenə də, bu iyrənc, bu mənfur,



downloaded from KitabYurdu.az

bu dəhşətli hərəkətə, bu qorxunc sözə öyrəşə bilmirdi. Axı bu insanlar niyə bir-birlərinə xəyanət edirlər? Təkcə insanlarmı? Bəli, insanlar! Qaplan yadına düşdü. Məlikxanlının iti... Sədaqətə bir bax! Sahibinin ayrılığına dözə bilmədi yazıq heyvan...

Nuranə yemək gətirib stolun üstünə düzdü. Sanki sözlü adama oxşayırdı. Ev sahibi onun üzünə baxmadan:

- Xahiş edirəm, şkafdan konyakı gətirin! - dedi.

Nuranə:

- Bu saat! - deyib yarımçıq konyak şüşəsini və bir kiçik stəkan gətirdi. Süzüb stəkanı doldurdu. Konyak şüşəsini əlində saxlayıb:

- Yerinə qoyum? - deyə soruşdu.

Yəqin ev sahibinin xəstəliyini nəzərə alıb, çox içməyini istəmirdi. Amma Qasımlı, onsuz da, çox içən deyildi. Gülümsəyib:

- Yaxşı, qoyun yerinə, - dedi.

- Siz harada idiniz? - onun qaşqabağının açılmasından cəsarətlənən Nuranə soruşdu. - Mən çox narahat oldum... Axı hələ tam sağalmamısınız?!

- Yox, sağalmışam. Ancaq özümü yorğun hiss edirəm. - Qasımlı stəkandakı konyakı başına çəkdi.

- Yeməyinizi yeyin! - Nuranə otaqdan çıxdı.

Qasımlı yeməyini yeyə-yeyə Nuranə haqqında düşünürdü. Yaxşı insandır, qayğıkeşdir... Əsl dost ola bilər bundan. İradəlidir. Adətən, beləl追ri xəyanət etmirlər. Gör bir, Qasımlı üçün nə qədər əziyyət çəkdi bu günlərdə!.. Çox sağ olsun!

Qasımlı, ürəyinin dərinliyində, özünü ona borclu hesab edirdi. Ancaq minnətdarlığını da ürəkdən çatdıra bilmirdi. Neyləsin? Bəlkə çağırıb



downloaded from KitabYurdu.az

təşəkkür etsin? Yox, açılışmaq istəmirdi onunla... Səbəbini heç özü də tam bilmirdi. Ancaq başa düşürdü ki, Nuranə ona xidmət etmək üçün evinə gəlib-gedəcəksə, onunla çox mehribanlaşmaq, doğmalaşmaq olmaz.

Ancaq axı, deyəsən, bir az doğmalaşmışdı ona bu qadın?.. Ya, öyrəşmişdi Nuranəyə? Elə Gülafət xanım da doğmalaşmışdı ona bir az... Yox! O qadına qarşı münasibəti bir başqa cür idi. İdeal, əlçatmaz bir varlıq kimi baxmışdı ona. Səhvən... Nuranə isə, sanki onun özününkü idi. Yaxın dostu, qohumu, uşaqlıq yoldaşı kimi... Bunu özü də indi hiss edirdi və indiyədək Nuranəyə belə münasibət göstərməmişdi.

Bu qadının, lap olsun bir qadın kimi, nəyi pis idi Gülafət xanımdan? İnsafla desək, heç nəyi! Bir daha Nuranəni qadın kimi təsəvvür etdi və bədənindən xoş bir giziltinin keçdiyini duydu. Bu fikri tələsik başından uzaqlaşdırmaq istədi və tez də buna nail oldu.

Yadına Ruslan Dadaşov düşdü. O, necə hiyləgər, necə qəddar adam imiş, həm də ki, olduqca ehtiyatlı. Sən bir onun qurduğu plana bax! Səbirlə, ehtiyatla. İstər Məlikxanlını, istərsə də Qasımlını öldürmək üçün qurduğu planlarda məqsəd elə qoyulmuşdu ki, cinayət işi ya heç açılmamalı, ya da açılandan bir gün sonra xitam verilməli idi. Ancaq birinci plan baş tutdusa da, Qasımlının məntiqi ağlı

sayəsində üstü açıldı. İkinci plan isə yenə də Qasımlının zirəkliyi sayəsində baş tutmadı. Bəli, Ruslan Dadaşov ağıllı və hiyləgər cinayətkar idi. Ancaq bəxti onda gətirmədi ki, özündən ağıllı və özündən hiyləgər rəqibə - qaranlıq məsələləri işıqlandırmaq üçün hətta başqa dövlətlərdən də dəvət alan bir xəfiyyəyə rast gəldi.

Onun ölümünə də həmin xəfiyyə səbəb oldu. Bunu Qasımlı özü də yaxşı bilirdi. Lakin heç peşman da deyildi. Bu birinci dəfə deyildi ki, polkovnik Qasımlının işə qarışdığı, çox qaranlıq məsələlərin açılması ölümlərlə, fəlakətlərlə başa çatırdı. Düzdür, o bu işə qarışmasaydı, nə Ruslan, nə



downloaded from KitabYurdu.az

Gülafət, nə də Mürsəllə Əlikram öləcəkdilər. Ancaq Qasımlı nə eləməliydi ki? Onun peşəsi xəfiyyəlik idi və peşəsinin xüsusiyyəti onu tez-tez beləcə adamlarla üz-üzə qoyurdu. Üz-üzə dayandınmı, ya gərək qalib gələsən, ya da məğlub olasan. Ya gərək öldürəsən, ya da öləsən! İşdən imtina edə bilərdi? Niyə də etməli idi? Birincisi, iş çox qaranlıq görünürdü. Deməli, əsl Qanbay Qasımlı kimi peşəsini sevən adama yaraşan iş idi. İkincisi, Məlikxanlı hər kim idisə, insan idi və ondan kömək istəyirdi. Üçüncüsü isə yaxşı pul verirdi. Qasımlı özündə heç bir günah görmürdü. Qoy ölənlər də, qalanlar da özlərindən küssünlər! Polkovnik Qasımlı növbəti bir cinayətin üstünü açmışdı, vəssalam!

Nuranə gəlib süfrəni yığışdırdı:

- Qəhvə içəcəksiniz?
- Hə, Nuranə, xəstəxanada da darıxmışdım qəhvə üçün.

Ya bilərəkdən belə müraciət etdi, ya bilmədən, ancaq Nuranə ev sahibinin ona ilk dəfə «Nuranə xanım» yox, sadəcə, «Nuranə» dediyinin fərqinə vardı. O, başa düşdü ki, bu saat dünyada, ona bu adamdan doğma, bu adamdan əziz ikinci şəxs yoxdur. Hətta bir az kövrəldi də...

Birdən anladı ki, qəhvə gətirmək üçün getməkdənsə, dayanıb durub. Cəld otaqdan çıxdı.

Mətbəxdə də bir müddət nə edəcəyini unutdu. Sonra fikirli halda qəhvə hazırlamağa başladı. Birdən yaxınlaşıb güzgüdə özünə baxdı. Hər şey qaydasında idi. Gözəl, sadə, canlı... Ancaq yubkasının əyninə sıx oturması ona xoş duyğular verməklə bərabər, həm də utandırırdı. Alt paltarının bütün cizgilərinin üstdən bilindiyini də anlayırdı. Belə geyinməyinə peşman olmuşdu. Gərək, həmişəki kimi geyinəydi... qapalı və sadə... Dünyalar qədər sevdiyi bu ağıllı, mərd, səmimi və bir qədər də ciddi olan adamın gözündə yüngül görünmək istəmirdi. Yüngüllük-filan öz



downloaded from KitabYurdu.az

yerində... Ancaq Nuranə qəlbinin lap dərinliklərində duyurdu ki, sevdiyi və əsl kişi hesab etdiyi bu adama qadın kimi görünmək istəyir...

Qəhvə hazır olan kimi, fincana süzüb çəkinə-çəkinə otağa keçdi. Fincanı Qasımlının qarşısına qoyub:

- Daha nəyə ehtiyacınız var? - deyə soruşdu.

- Gedirsən? - Qasımlı birdən başını qaldırıb onun üzünə baxdı.

Nuranə açıq aşkar-özünü itirdi:

- Əgər nəsə lazımsa... Müalicə üçün... Dərman almaq...

- Yox! Yox! - Qasımlı başını buladı. - Heç nəyə ehtiyacım yoxdur... Daha doğrusu, bu iş məni elə yorub, elə ruhdan salıb ki, bu saat...

Qasımlı sözünün dalını demədi. Demək istəyirdi ki, bu saat daha çox səmimi söhbətə ehtiyacım var. Ancaq demədi. Birinci dəfə deyildi ki? Çoxdandı üzərinə götürdüyü işi bitirib, baş vermiş cinayətin sirrini açandan sonra onunla bu işdə yoldaşlıq etmiş adama, ya müstəntiqə cinayətin təfərrüatı barədə qısa faktları bildirirdi. Həmin cinayətin qəlbində yaratdığı ağrılı hissləri isə heç kimlə bölüşməyib, ürəyində saxlayırdı. Elə indi də o cür olacaqdı...

Ancaq Nuranə onu başa düşdü və özünü itirib nə deyəcəyini bilmədi. Sevdiyi bu adam, məşhur xəfiyyə Qanbay Qasımlı onunla dərdləşmək, qəlbini ağrıdan duyğuları onunla bölüşmək istəyirdi. O,

Qasımlının həyatı haqqında, az da olsa, məlumatlı idi. Ailəsinin başına gələn faciəni Fədayə danışmışdı ona. Qasımlının dərdini, düşdüyü vəziyyəti anlayırdı. Onun dərdini azaltmaq, bölüşmək üçün əlindən gələni etməyə hazır idi. İlk addımı da özü atmağa çalışdı. Ancaq nədən başlamağı qət edə bilmirdi. Nəhayət:

- O işi qurtardınız? - deyə soruşdu.



downloaded from KitabYurdu.az

- Hə... - Qasımlı təmkinlə cavab verdi. - Mən öz vəzifəmi bitirdim. Ancaq onu da deyim ki, heç də asan olmadı bu iş. Elə bu gün işin əsas təşkilatçısını maşınla izləyəndə, daha doğrusu, qovanda, qəzaya uğradılar. O da onunla maşında olan Məlikxanlının arvadı da həlak oldular. Hamısını saysaq, altı nəfərin ölümü ilə bitdi bu iş!

- Bir də, sizin yaralanmağınız... - Nuranə qayğıkeşliklə dilləndi.

- Boş şeydir! - Qasımlı zorla gülümsədi. - Mən ölmədim. Ancaq bu altı nəfərin ölümü, mənim üçün nə qədər adiləşmiş olsa da, insan ölümüdür. Düzünə qalsa, heç mənim üçün də adiləşməyib insan ölümü. Çoxları elə düşünürlər ki, mən soyuqqanlı və qəddar adamam. Ancaq inan ki, əslində belə deyil. Düzdür, əməliyyat-axtarış işi ilə məşğul olarkən, rəqiblərimə rəhmim gəlmir. Baş vermiş cinayət hadisələri də məni sarsıtmır. Çünki sarsılaramsa, ayıq və soyuq başla düşünüb, cinayətin sirrini aça bilmərəm. Ancaq hər şey bitəndən sonra hadisələri bir daha analiz edirəm və çalışıram ki, hamını başa düşüm. Hamını anlayım... Bilirsən, Nuranə, hamı insandır. Cinayətin qurbanı olan da, cinayətkar özü də! Gərək başa düşməyə çalışasan, necə oldu ki, bu adam gəlib cinayətkar oldu. Axı heç vaxt doğum evindən cinayətkar çıxarmırlar?!

Qasımlı bir qədər susub, kədərlə başını buladı:

- İnsanların cinayətkara necə çevrilmələrini düşünüb tapa bilirəm. Tapıram və ürəyimin dərinliyində anlayıram onları. Əlbəttə, həmişə də cəzalarına çatırlar onlar! Ancaq insanların bir-birinə xəyanət etməsini indiyədək anlaya bilmirəm. Sən necə düşünürsən, Nuranə? İnsanlar niyə xəyanət edirlər?

Nuranə bu qəfil sualdan diksindi:

- Bilmirəm... Doğrusu...

- Bilməzsən! - Qasımlı başı ilə təsdiq etdi. - Sən bilməzsən, çünki özün heç kəsə xəyanət etməmisən. İndiyə qədər...



downloaded from KitabYurdu.az

- Heç vaxt da etmərəm... - Nuranə astadan dilləndi.

- İnanıram! - Qasımlı qətiyyətlə dilləndi. - Xəyanətin nə olduğunu, necə yarandığını indiyə qədər dəqiqləşdirə bilməsəm də, bir şeyi dəqiq bilirəm: elə adamlar var ki, onlar xəyanət etməyi, sadəcə, olaraq bacarmırlar!

Nuranə ayaq üstə dayanıb, əllərini qoynuna qoymuşdu. Evə qayıtmaq vaxtı idi. Beləcə dayanmaq ona xoş gəlsə də, özündə nəsə narahatlıq hiss edirdi. Bilmirdi çıxıb getməlidir, yoxsa beləcə dayanmalıdır. Yaxşı ki, söhbəti Qasımlı özü davam etdirirdi. Onun söhbətini kəsib getməyəcəkdi ki?! Qasımlı birdən başa düşdü ki, Nuranə ilə duyğularını, düşüncələrini bölüşür. Bu onun xarakterinə yad olan bir şey idi. Axı necə oldu ki, Nuranə ona bu qədər doğmalaşdı?..

Polkovnik bir şeyi qəti anlayırdı ki, Nuranənin bu saat çıxıb getməyini istəmir. Son günlər keçirdiyi ağır düşüncələr onun beynini yormuşdu və o bu saat, doğrudan da, qayğıya çox ehtiyac hiss edirdi. Daha doğrusu o, anlamağa başlamışdı ki, bu dünyada məhəbbətsiz insan kimi yaşamaq və mübarizə aparmaq mümkün deyil. Sevdiyin peşə ilə məşğul olmaq hələ xoşbəxtlik demək deyilmiş. Gərək ağır günlərdə, kədərli anlarda ürəyindəkiləri bölüşməyə bir yaxın adamın olsun. Qanbay Qasımlı qapalı adam idi və heç kəsə də qəlbini tamamilə açmaq fikrində deyildi. Ancaq kiminləsə səmimi münasibət qurmadan, söhbət etmədən yaşamaq da olmazdı axı?!

Ev sahibi fikirdən ayılıb, Nuranəni bayaqdan ayaq üstdə saxladığını başa düşdü və ona divanda əyləşməyi təklif etdi:

- Əyləş, Nuranə, ayaq üstə durma!

- Mən gedim... - Nuranə düşündü ki, belə deməlidir.

- Əyləş, gedərsən. Sənə sözüm var!



downloaded from KitabYurdu.az

Nuranə etiraz etməyib, divanda əyləşdi. Qasımlının bu gün ona adı ilə və «sən» deyə müraciət etməsi onu hey kövrəldirdi. Bu insana qarşı onda o qədər təmiz, ülvi, saf duyğular var idi ki, onlar tükənib qurtara bilməzdi.

Qasımlı Nuranəni öz səmimi və kədərli baxışları ilə süzüb danışmağa başladı:

- Nuranə, sən artıq neçə aylardır ki, məni tanıyırsan. Ancaq nə dərəcədə tanıyırsan, bilmirəm. Mənim həyatım çox çətin keçib. Uşaqlıqdan ağır günlər görmüşəm. Sonra da, seçdiyim peşə elə oldu ki, bu peşədə istər-istəməz adamın ürəyi daşa dönür. Ölüm özü belə sənin üçün adiləşir. Hamıdan şübhələnirsən, heç kəsə inanmırsan. Xüsusilə, mən heç kəsə tam inam bəsləməmişəm. Bunu işimin xarakteri tələb edib məndən... Ancaq xəstəxanada yatdığım bu günlərdə Nemətin, Mahirin, sənin özümə qarşı səmimi, təmənnasız qayğınızı gördüm. Şəxsən sənin özünə bu vaxta qədər sərt və quru münasibət göstərməyimə peşman oldum. Mən gördüm ki, siz həqiqi dostlarsınız və heç vaxt xəyanət edə bilməzsiniz. Mən eyni zamanda,

öz xarakterimin nə qədər pis olduğunu başa düşdüm. Sənin qarşında özümü günahkar hiss edirəm və sənə necə minnətdar olduğumu dillə ifadə edə bilmirəm...

Birdən gördü ki, Nuranə üzünü əlləri ilə tutub ağlayır. Onun ağladığını yalnız çiyinlərinin yüngül hərəkətindən bilmək olardı. Ürəyi çox da yumşaq olmayan polkovnikin birdən-birə Nuranəyə qanı qaynadı. Başa düşdü ki, bu qadına inanmaqda səhv etmir. Yox! Qətiyyən səhv etmirdi. Nuranə tamamilə səmimi idi. Onun da, bir qadın kimi, kimisə sevməyə haqqı var idi!.. Ev sahibi qəti qərara gəlib ayağa qalxdı və gəlib, Nuranənin lap yanında oturdu. Əlini qadının saçına çəkdi.

- Niyə ağlayırsan? Ağlamağa heç bir səbəb yoxdur.



downloaded from KitabYurdu.az

Nuranə əlini üzündən çəkib, göz yaşlarını sildi. Sevdiyi adamın əlinin təmasından bütün bədəni titrəyirdi.

Bu titrəyiş Qasımlıya da öz təsirini göstərirdi. O özünü ələ alıb, təmkinlə danışdı:

- Nuranə, mənim şəxsi həyatımdan xəbərin var?

Nuranə başı ilə təsdiq etdi:

- Fədayə danışıb...

- Mən söz vermişəm ki, bir daha heç vaxt ailə həyatı qurmayım.

Və bu sözümün üstündə duracağam. Çünki mənim işim elədir ki, inanmıram ailəmə xoşbəxt və qayğısız həyat qura biləm... Ancaq... Son vaxtlar içimdə, məni dərindən başa düşən, mənə inanan bir qadına ehtiyac hiss edirəm...

Nuranə onu diqqətlə dinləyir, arada onu yaxşı başa düşdüyünü bildirirmiş kimi başını tərpədirdi.

Qasımlı birdən susdu və daha danışmadı. Bir müddət, beləcə sakit oturdular. Hər ikisi fikrə getmişdi. Nuranə dizlərinin üstünə qoyduğu əllərinə, Qasımlı isə harasa, otağın məchul bir nöqtəsinə ba¬xırdı.

Ev sahibi yaranmış bu uzun sükutu pozub:

- Sən məni başa düşürsən? - deyə qəflətən soruşdu.

- Hə... - Nuranə başını tərpətdi. - Başa düşürəm...

- Mənə inanırsan?

Sualların mənasını birdən başa düşən Nuranənin ürəyi titrədi. Bədəninə qəribə bir istilik gəldi. Qasımlının üzünə baxa bilmirdi. Bu saat çox istəyirdi ki, yanında oturmuş kişi, onun üzünü görməsin.



downloaded from KitabYurdu.az

Hətta üzünü azacıq yana çevirdi. Ancaq Qasımlıya cavab verməli idi. Odur ki, qurumuş dodaqlarını dili ilə isladıb:

- İnanıram!.. Lap çox!.. - dedi və bütün vücudu, bütün qəlbi ilə

ona sığındı...

* * *

Nuranə o axşam mənzilinə çox gec qayıtdı. Uşaqlar artıq onu gözləməyib yatmışdılar.

Yaxınlaşıb güzgüdə özünə baxdı. Qəribə hisslər keçirirdi. Bilmirdi ağlasın, yoxsa gülsün. Çoxdandı ki, qadınlığını bu qədər dərindən hiss etmirdi... Çoxdandı ki, kişi nəvazişindən məhrum idi...

Çoxdanmı? Nə çoxdan? Məgər Nuranə bunları görüb, duymuşdumu? Yox! Birinci dəfə idi. Bu gün başa düşmüşdü hər şeyi! Bu gün anlamışdı məhəbbətin nə olduğunu. Elə yaşamağın mənasını da bu gün anlamışdı. İnanmağı gəlmirdi son 3-4 saatın varlığına. Yuxu hesab edirdi bunu, yuxu! Ancaq həqiqət də olsa, yuxu da olsa xoşbəxt idi! Onun üçün də xoşbəxt gün saxlayıbmış Allah! O da xoşbəxt olarmış. Bundan sonra ölsəydi də, dərdi olmazdı. Ancaq niyə ölürdü ki?.. O bu gün yeni, tamam yeni, xoşbəxt bir həyata qədəm qoymuşdu! Çox gözəl görünürdü bu həyat ona! Məhəbbətlə dolu bir həyat idi bu!

Yaxınlaşıb uşaqların üzündən öpdü. Üstünü açmış Nurayın yorğanını üstünə çəkdi. Ona birdən-birə elə gəldi ki, uşaqlarını əvvəlkindən də çox sevir. Bir də əyilib öpdü onları...

Tural da, Nuray da dünyadan xəbərsiz, mışıl-mışıl yatırdılar. Nə analarının bu gün başlanmış xoşbəxtliyindən xəbərləri var idi, nə də atalarının ölümündən. Nə də ki, son iki həftədə ətraflarında baş vermiş cinayətlə, qanla, xəyanətlə dolu hadisələrdən.



downloaded from KitabYurdu.az

Onlar beləcə böyüyəcəkdilər... Ola bilsin nə vaxtsa, kimsə onlara xəyanət edəcəkdi. Ya, kim bilir, bəlkə də onlar özləri kiməsə xəyanət edəcəkdilər... İndi isə sakitcə yatırdılar. Hər şeydən xəbərsiz. Bəlkə də onlar heç bilmirdilər ki, dünyada xəyanət adlı bir şey var. Ancaq biləcəkdilər... Mütləq biləcəkdilər!..

SON

May 2005, Bakı

Avqust 2005, Şamaxı



downloaded from KitabYurdu.az